# PEDAQOJİ UNİVERSİTETİN
# XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Series of humanitarian, social, pedagogical and psychological sciences***

**2021, C. 69, № 4**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

**PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2021, C.69, №4**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini)***, f.e.d., prof. V.H.Əliyev, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. Z.A.Xəlilov, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova
F.ü.f.d. N.Q.Aslanova (məsul katib)

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, prof. Dr. V.Q.Aliyev, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova
Phd N.G.Aslanova (executive secretary)

***©ADPU, 2021***
***©ASPU, 2021***

# MÜNDƏRİCAT

## Humanitar elmlər

*Xankişiyeva Z.Ə.*
UŞAQ ƏDƏBİYYATININ KANONU VƏ SPESİFİKASI …….......................... 6
*Məmmədov X.B.*
HİDRONİMLƏRLƏ BAĞLI PAREMİOLOJİ VAHİDLƏRİN AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ MÜQAYİSƏLİ TİPOLOGİYASI ……….............................. 13

## İctimai elmlər

*Əhmədova Y.M.*
XIX ƏSRİN 60-70-ci İLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA KEÇİRİLMİŞ BURJUA İSLAHATLARININ BƏZİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA ............ 21
*Əliyeva S.A.*
ADNAN MENDERES HÖKUMƏTİ DÖVRÜNDƏ TÜRKİYƏNİN KİPR SİYASƏTİ 29
*Qarayeva N.A.*
DƏFN VƏ YAS MƏRASİMLƏRİ AZƏRBAYCAN FİLMLƏRİNDƏ ................. 43
*Mehdiyeva A.A.*
AVROPA TARİXŞÜNASLIĞINDA I VƏ II XAÇ YÜRÜŞLƏRİNƏ DAİR MƏLUMATLAR …................................................................................... 51
*Məcnunov R.M.*
AZƏRBAYCAN İNCƏSƏNƏTİNİN FORMALAŞMASINDA VƏ İNKİŞAFINDA TİFLİS ŞƏHƏRİNİN ROLU …………………................................................... 61
*Məmmədov İ.B.*
AVROPA ÖLKƏLƏRİNDƏ MİQRASİYA PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİ YOLLARI ……………………...................................................................… 74
*Məmmədov R.G.*
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ VƏ XXI ƏSRİN İKİNCİ ONİLLİYİNİN YENİ QLOBAL REALLIQLARI ……….......…………………… 84
*Rəhimova E.F.*
XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞUŞA ŞƏHƏRİNDƏ MAARİF İŞİNİN TƏŞKİLİ TARİXİNDƏN ........................................................................... 91

## Pedaqoji-psixoloji elmlər

*Abasova S.A.*
SEREBRAL İFLİCLİ UŞAQLARDA SENSOR-PERSEPTİV SFERANIN DİAQNOSTİKASI ......................................................................................... 100
*Axundova S.H.*
KOLLECLƏRDƏ İNNOVATİV TƏLİMİN PEDAQOJİ VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ ........................................................................................ 109
*İbrahimova S.P., İbadova P.H.*
İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏLİM-TƏDRİS PROSESİNƏ İNTEQRASİYASININ TƏDQİQİ ÜÇÜN ÇƏRÇİVƏ: FƏALİYYƏT NƏZƏRİYYƏSİ ....................................................................... 122

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Ханкишиева З.А.***
КАНОН И СПЕЦИФИКА ДЕТСКОЙ ЛИТЕРАТУРЫ .................................... 6
***Мамедов Х.Б.***
СРАВНИТЕЛЬНАЯ ТИПОЛОГИЯ ПАРЕМИОЛОГИЧЕСКИХ ЕДИНИЦ, СВЯЗАННЫХ С ГИДРОНИМАМИ В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ .................................... 13

## *Общественные науки*

***Ахмедова Е.М.***
О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ БУРЖУАЗНЫХ РЕФОРМ, ПРОВЕДЁННЫХ В 60-70-х ГОДАХ XIX ВЕКА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ .................... 21
***Алиева С.А.***
КИПРСКАЯ ПОЛИТИКА ТУРЦИИ В ПЕРИОД ПРАВИТЕЛЬСТВА АДНАНА МЕНДЕРЕСА .................................... 29
***Караева Н.А.***
ПОХОРОННЫЕ И ПОМИНАЛЬНЫЕ ОБРЯДЫ В АЗЕРБАЙДЖАНСКИХ ФИЛЬМАХ .................................... 43
***Мехтиева А.А.***
ДАННЫЕ О I И II КРЕСТОВЫХ ПОХОДАХ В ЕВРОПЕЙСКОЙ ИСТОРИОГРАФИИ .................................... 51
***Меджнунов Р.М.***
РОЛЬ ТБИЛИСИ В СТАНОВЛЕНИИ И РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ИСКУССТВА .................................... 61
***Мамедов И.Б.***
СПОСОБЫ РЕГУЛИРОВАНИЯ МИГРАЦИОННЫХ ПРОЦЕССОВ В СТРАНАХ ЕВРОПЫ .................................... 74
***Мамедов Р.Г.***
РЕШЕНИЕ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА И НОВЫЕ ГЛОБАЛЬНЫЕ РЕАЛИИ ВТОРОГО ДЕСЯТИЛЕТИЯ XXI ВЕКА ................. 84
***Рагимова Э.Ф.***
ИЗ ИСТОРИИ ОРГАНИЗАЦИИ ПРОСВЕТИТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ШУШЕ В XIX-НАЧ. XX ВВ. .................................... 91

## *Педагогико-психологические науки*

***Абасова С.А.***
ДИАГНОСТИКА СЕНСОРНО-ПЕРЦЕПТИВНОЙ СФЕРЫ У ДЕТЕЙ С ЦЕРЕБРАЛЬНЫМ ПАРАЛИЧОМ .................................... 100
***Ахундова С.Г.***
ПЕДАГОГИЧЕСКИЕ И ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ИННОВАЦИОННОГО ОБРАЗОВАНИЯ В КОЛЛЕДЖАХ ............................... 109
***Ибрагимова С.П., Ибадова П.Г.***
ОСНОВА ИЗУЧЕНИЯ ИНТЕГРАЦИИ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В УЧЕБНО-ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ: ТЕОРИЯ ДЕЯТЕЛЬНОСТИ .................................... 122

# TABLE OF CONTENTS

## Humanitarian sciences

***Khankishiyeva Z.A.***
CANON AND SPECIFICATION OF CHILDREN'S LITERATURE ................... 6
***Mammadov Kh.B.***
COMPARATIVE TYPOLOGY OF PAREMIOLOGICAL UNITS RELATED TO HYDRONYMS IN AZERBAIJANI AND RUSSIAN LANGUAGES ................... 13

## Social sciences

***Akhmedova E.M.***
ON SOME FEATURES OF THE BOURGEOIS REFORMS CONDUCTED IN THE 60-70s OF THE XIX CENTURY IN NORTH AZERBAIJAN .............................. 21
***Alıyeva S.A.***
THE CYPRUS POLICY OF TURKEY DURING THE GOVERNMENT OF ADNAN MENDERES........................................................................................ 29
***Garayeva N.A.***
FUNERALS AND MOURNING RITES IN AZERBAIJAN FILMS...................... 43
***Mehdiyeva A.A.***
INFORMATION OF I AND II CRUSADES IN EUROPEAN HISTORIOGRAPHY 51
***Mejnunov R.M.***
THE ROLE OF TBILISI IN THE FORMATION AND DEVELOPMENT OF AZERBAIJANI ART ........................................................................................ 61
***Mammadov I.B.***
WAYS OF MIGRATION PROCESSES REGULATION IN EUROPEAN COUNTRIES ………………………………………………………………….. 74
***Mammadov R.G.***
SOLUTION OF THE NAGORNO-KARABAKH CONFLICT AND NEW GLOBAL REALITIES OF THE SECOND DECADE OF THE XXI CENTURY ………… 84
***Rahimova E.F.***
FROM THE HISTORY OF THE ORGANIZATION OF EDUCATIONAL WORK IN SHUSHA IN THE EARLY 19-20TH CENTURIES ........................................ 91

## Pedagogical-psychological sciences

***Abasova S.A.***
DIAGNOSTICS OF THE SENSOR-PERCEPTIVE SPHERE IN CHILDREN WITH CEREBRAL PARALYSIS ........................................................................... 100
***Akhundova S.H.***
PEDAGOGICAL AND PSYCHOLOGICAL FEATURES OF INNOVATIVE EDUCATION IN COLLEGES .................................................................... 109
***Ibrahimova S.P., Ibadova P.H.***
THE BASIS FOR STUDYING THE INTEGRATION OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN THE EDUCATIONAL PROCESS: THEORY OF ACTIVITY ........................................................................... 122

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №4, s. 6-12
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №4, pp. 6-12

# Humanitar elmlər

*UOT 821.111*

***Z.Ə.Xankişiyeva***
*Azərbaycan Dillər Universiteti*
*zara-zara-1986@mail.ru*

## UŞAQ ƏDƏBİYYATININ KANONU VƏ SPESİFİKASI

***Açar sözlər***: *uşaq ədəbiyyatı, kanon, uşaqlıq konsepti, zaman, oxucu*

Araşdırma ümumi ədəbiyyatın bir sahəsi olan uşaq ədəbiyyatının kanonunun təşəkkülü və onun spesifik xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuşdur. Uşaq ədəbiyyatı uşaqlar üçün yazılan ədəbi-bədii və elmi-kütləvi əsərləri özündə ehtiva edən ədəbiyyat kimi tanınsa da, onun özünəməxsus inkişaf dinamikası və qanun-qaydaları vardır. Bunula belə, böyüklər üçün yazılan bir qisim ədəbiyyat nümunələri eyni zamanda uşaqların sevə-sevə mütaliə etdiyi ədəbiyyat kimi də tanınır. C.K.Roulinqin "Harri Potter" silsilə romanları isə həm də böyüklərin sevimli sənət abidələrindəndir. Bu əsərlər uşaqların mənəvi-əxlaqi və estetik tərbiyəsində, onların şəxsiyyət kimi formalaşmasında, eləcə də onların dünyagörüşlərinin genişlənməsində mühüm rol oynayır. Uşaq ədəbiyyatının öyrənilməsi insanın şəxsi zövqünü və gözəlliyini bir araya gətirir. Uşaqların dünya vətəndaşı kimi formalaşmasında, şəxsiyyət kimi yetişməsində uşaq ədəbiyyatının mühüm rolu vardır. Uşaq ədəbiyyatı eləcə də böyüklər üçün yaranan söz sənətinin ilkin mərhələsidir, desək, yanılmarıq. Araşdırmada uşaq ədəbiyyatının kanonu və səciyyəvi xüsusiyyətləri, Qərb, o cümlədən ingilis ədəbi tənqidində fikir və mühakimələrin polemik təhlili və şərhi, müəllif konsepsiyası irəli sürülmüşdür.

***З.А.Ханкишиева***

## КАНОН И СПЕЦИФИКА ДЕТСКОЙ ЛИТЕРАТУРЫ

***Ключевые слова:*** *детская литература, канон, концепт детства, время, читатель*

Статья исследует проблему канона детской литературы, являющейся частью общей литературы, а также её специфику. Хотя, детской литературой называют литературу, литературные, художественные и научные произведения, написанные сугубо для детей, но как показывает исследование она имеет свою динамику развития и свои закономерности. Однако, некоторые примеры литературы, написанные для взрослых, также известны как литература, которую дети любят читать. Серия романов Р.К.Роулинга «Гарри Поттер» также можно причислить к ряду любимых произведений взрослых читателей. Эти произведения играют важную роль в нравственном и эстетическом воспитании детей, в формировании их личности, а также в расширении их мировоззрения.

Изучение детской литературы способствует формированию у подростков эстетического вкуса и развитию их как личности. Детская литература и есть, так сказать, начальный этап искусства слова, созданное для взрослых. В исследовании представлены канон и особенности детской литературы, полемический анализ и интерпретация идей и суждений западного, в том числе английского литературоведения, выдвинута авторская концепция.

***Z.A.Khankishiyeva***

## CANON AND SPECIFICATION OF CHILDREN'S LITERATURE

***Keywords:*** *children's literature, canon, concept of childood, time, reader*

The article explores the problem of the canon of children's literature, which is c considered to be a significant part of general literature, as well as its specifics. Although children's literature is called the one (literary, artistic and scientific works) written merely for children, but as the study shows, it has its own developmental dynamics and its own patterns. However, some examples of literature written for adults are also known as literature that children passionate about reading. So a series of novels by R.K. Rowling's "Harry Potter" can also be counted among the favorite works of adult readers. These works play an important role in the moral and aesthetic education of children, in the formation of their personality, as well as in expanding their vision. The study of canons children's literature contributes to the formation of aesthetic values of adolescents and their development as a person. The research presents the features of the canon of children's literature, along with the author's concept of a polemical text and the interpretation of ideas and judgments on this subject in Western, including English literary criticism.

Uşaqlıq konseptinin inkişafı ilə əlaqədar olaraq uşaq ədəbiyyatı ümumi ədəbiyyatın bir sahəsi kimi öz kanonunu yaratmışdır. Qeyd etmək lazımdır ki, həm XIX əsrin ikinci yarısında, həm də XX əsrin ikinci əlli illiyində uşaqlığın öz konsepti olmuşdur. Bu mövzuya bir sıra alimlər müraciət etmiş, o cümlədən ailə və uşaq problemi üzrə mütəxəssis alim, fransız tarixçisi Filippe Aries 1962-ci ildə nəşr etdiyi "Uşaqlığın əsrləri" adlı kitabında qeyd edir ki, keçmişdə uşaqların böyüklərdən nə qədər fərqli olduğunu və Müqəddəs Bede və Eynşamlı Əlfrikə istinad edərək bu fikri İngiltərədə onlar tərəfindən didaktik mətnlərində yazıldığını göstərmişdir. Araşdırıcı onu da yazır ki, XVIII əsrdən əvvəlki dövrlərdə uşaqlar üçün dahiyanə əsərlər yazılmamışdır [9].

Uşaq ədəbiyyatının spesifikası və dəyərləri haqqında söhbət açanda onu qeyd edək ki, bu ədəbiyyatın zamansız ənənəsi vardır, yəni hansı əsrdə yazıya alınmasından asılı olmayaraq ədəbiyyat şedevrləri bir dövrdən digər bir dövrə ötürülür. İkinci bir tərəfdən isə oxucunun daha çox uşaqlıq dövründə oxuduğu, öyrəndiyi kitablar həm onların uşaqlıq dövrünün ədəbiyyatı olur, həm də

onların gələcəkdə oxuyacağı ümumi ədəbiyyatın öyrənilməsi yolunda bir növ baza, yaxud körpü rolunu oynayır.

Tədqiqatçı Marta Krippen "Uşaq ədəbiyyatının dəyəri" adlı araşdırmasında uşaqlara ədəbiyyatın ayrı-ayrı janrlarda yazılmış əsərləri ilə tanış olmasına imkan yaradılmasını ön plana çəkir. O, belə bir tanışlıqla onların gələcəkdə daha böyük uğur qazana biləcəyini göstərərək yazırdı: Şekspirin əsərlərinin şəkilli kitablarda verilən əksər versiyaları, o cümlədən "Romeo və Culiyetta", "Fırtına" pyesləri adaptasiyada və şəkilli kitab formatlarında çap olunmuşdur. Axı, insanlar uşaqlığı bir dəfə yaşayırlar və biz onlar üçün zamansız kitabların əsas ədəbi mirasına çıxış yolunu tapmalıyıq. Keyfiyyətli uşaq ədəbiyyatının çox-çox nəsillərin dinləyici, yaxud tamaşaçısını özünə ram etmək üçün böyük gücü, qüdrəti vardır [2].

Ortaya belə bir sual çıxır: Nə üçün uşaq ədəbiyyatını öyrənib tədqiq edirik?

Əlbəttə, bunu müxtəlif şəkildə cavablandırmaq olar. 1970-ci ildən ABŞ-da uşaq ədəbiyyatı məsələlərini öyrənib tədqiq edən alim, tənqidçi, professor və tələbələrin, kitabxanaçı və müəllimlər heyətinin orqanı olan Uşaq Ədəbiyyatı Assosiasiyası sualın cavablandırılmasında gəldikləri nəticəni bu şəkildə təqdim etmişdir: "Birinci və ən başlıcası, uşaq ədəbiyyatının öyrənilməsi insanın şəxsi zövqünü və gözəlliyini bir araya gətirir"[4].

Unutmaq olmaz ki, oxucu zövqü və gözəlliyini bir araya gətirən uşaq ədəbiyyatı hər şeydən əvvəl bu və ya digər yaş mərhələlərində uşağın şəxsiyyət kimi formalaşmasına və onun tərbiyəsinə mühüm təsir göstərən üçüncü valideyn missiyasını yerinə yetirir.

Uşaq Ədəbiyyatı Assosiasiyası fəaliyyətə başladığı ilk dövrdən uşaq ədəbiyyatı kanonunun müəyyənləşdirilməsinə cəhd göstərərək "Touchstones" ("Məhək daşları") adlı esselər seriyasını çap etdirmişdir. Bu, hər şeydən əvvəl uşaq ədəbiyyatının statusunun daha da möhkəmləndirilməsi naminə aparılmışdır. Uşaq ədəbiyyatının nə qədər vacib və əhəmiyyətli olduğunu gündəmə gətirən Assosiasiya, heç şübhəsiz ki, gələcəyin uşaqların əlində olacağını düşünərək erkən yaşlarından onlar üçün ədəbiyyatın yaradılmasını dövrün ali məqsədlərindən biri kimi dəyərləndirmişdir.

1980-ci ildə Assosiasiyanın uşaq ədəbiyyatı kanonunun yazılı ifadəsi üçün münsiflər heyəti yaradılmışdır. Aparılan elmi araşdırmalar içərisində Ann H.Lundinin Londonda nəşr olunmuş "Uşaq ədəbiyyatının" kanonunun yaradılması: Kitabxana divarlarından və fil dişli qalalardan kənarda" adlı kitabın nəşri bu baxımdan atılan uğurlu addımlardan biri olmuşdur [6].

Qeyd edək ki, Ann H.Lundinin "Ədəbi tənqid" seriyası ilə nəşr olunmuş kitabı ilk tarixi araşdırmadır. Müəllif araşdırmasında sübut etməyə çalışmışdır ki, məktəblər, kitabxanalar, kitab işinə aidiyyəti olan təşkilatlar və kütləvi informasiya vasitələri daima uşaq ədəbiyyatının kanonunu dəyişdirirlər.

Bununla belə, Ann H.Lundin uşaq ədəbiyyatı kanonunun yarandığı ilkin şəraiti nəzərdən keçirir və uşaq ədəbiyyatı məhsuluna onun göstərdiyi təsirin araşdırılmasının əhəmiyyətli olduğunu ön plana çəkir.

Kitabın dörd hissədən ibarət olan dördüncü hissəsində ədəbiyyatın kanonu məsələsinin ümumiləşdirilmiş nəticəsinə və müddəalarına xüsusi yer ayrılmışdır. Bununla belə, adını qeyd etdiyimiz kitabın Amerikan uşaq ədəbiyyatı-tarix və tənqid, nəzəriyyə; ingilis uşaq ədəbiyyatı-tarix və tənqid, nəzəriyyə; uşaqlar, kitablar və mütaliə adlı fəsillərində uşaq ədəbiyyatı kanonuna dair maraqlı debat və şərhlərə də diqqət yetirilmişdir.

Kitabın I fəslinin proloqunda həm böyüklər, həm də uşaqlar üçün yazdığı şeir və hekayələri ilə daha çox yaddaş tarixində şair kimi qalan Uolter de La Marenin "Zənglər və çəmən" kitabından alıntı kimi verilən bir mühakiməsi təqdim olunmuşdur: "Nəyinsə ən yaxşısının yalnız nadir olanı uşaq üçün yetərincə yaxşı ola bilər" [6, s.9].

Eyni zamanda Uolter de la Marenin hesab etdiyi kimi, həqiqətən də "Ən yaxşı kitablar: Kitabxanaçı" adlı təhlil materialları uşaq ədəbiyyatı kanonunun müəyyənləşdirilməsində mühüm mənbə kimi diqqəti çəkir. Elə burada qeyd etməyi vacib hesab edirik ki, xüsusilə XX əsrin 20-ci illərindən başlayaraq uşaq ədəbiyyatının seçimində və uşaq oxucuları arasında yayılmasında kitabxanaçıların əvəzsiz rolu vardır. Tədqiqatçı fəslin əvvəlində qeyd edir ki, uşaq kitabxanalarının landşaftının göylərində böyük ulduza çevrilən Ann Keroll Morun həm də milli nəşr səhnəsində uşaq ədəbiyyatı imperiyasının cəfakeş adamı olmuşdur. 1924-cü ildə Nyu Yorkun ictimai kitabxanaçısı Ann Kerolla uşaq kitabını yazmaq təklifi veriləndə o, kitabına "Üç bayquş" adını seçmişdir. Bu təsadüfi olmamışdır. O, rəmz kimi bərabər gücə malik olan müəllif, rəssam və tənqidçini üç bayquşun rəmzi ilə ifadə etmişdir.

Əlbəttə, "Üç bayquş" kitabının geniş təhlilinə ehtiyac duymuruq. Lakin Böyük Britaniyada, eləcə də ingilisdilli ölkələrdə uşaqların hələ kiçik yaşlarında badahətən öyrəndiyi "Bayquş" şeirini xatırlatmaq istərdik. Şeirdə oxuyuruq :

A wise old owl sat in an oak,
The more he heard, the less he spoke
The less he spoke, the more he heard,
Why aren't we all like that wise old bird? [1, p.183].

Həmin şeirin ingilis dilindən tərcüməsi aşağıdakı kimidir:

Qondu bayquş bir palıda,
Çox eşidib az danışdı,
Az danışıb çox eşitdi.
Müdrik qoca bu quş kimi
Bəs biz niyə olmamışıq?

İngilis dilindən tərcümə edəni: Şahin Xəlilli [1, s.183].

Bayquşun Qərb mentalitetində müdriklik rəmzi kimi qəbul edilməsi səbəbsiz deyildir. Şərqdə, o cümlədən Azərbaycanda bu quş bədbəxtlik rəmzi sayılır. Hər bir ölkədə rəmzlərin müxtəlif yozumları ola bilər. Qərb, eləcə də ingilis və ingilisdilli xalqların mədəniyyətində bu simvol heç şübhəsiz ki, qədim ənənə ilə bağlıdır. Bu baxımdan ingilis və ingilisdilli uşaq ədəbiyyatında üç bayquşun müdriklik rəmzi kimi verilməsi XX əsrin 20-40-cı illərində ədəbi kanonun göstəricilərindən biri olduğunu diktə edir.

Uşaq ədəbiyyatı kanonu, yaxud ümumiyyətlə ədəbi kanon əsasən ədəbiyyatın təsnifatına daxildir. Bütövlükdə isə ədəbi kanon ayrı-ayrı dövrlərdə və məkanlarda yazılan ədəbi nümunələrə şamil edilir. Əgər bədii sənət əsəri kanona daxil olursa, yaxud kanonlaşdırılırsa, demək o, ədəbiyyata daxilolma statusunu qazanmış olur. Populyarlıq qazanmış əsərlər bir qayda olaraq nüfuzlu ədəbi tənqidçilərin, eləcə də gənc araşdırıcıların subyektiv fikrində tənqid hədəfinə çevrilir.

Tədqiqatçı D.Tomas Hanks (D.Thomas Hanks) "Uşaq ədəbiyyatının kanonu" adlı annotasiyasında yazır ki, əgər uşaq ədəbiyyatı varsa, bəs onun kanonu necə, varmı? Lakin araşdırıcı ingilis-amerikan şairi, Uistan Hyu Odenin yazıçı və alim C.S.Lyuisin uşaqlar üçün ədəbiyyatın olmadığı mühakiməsindən çıxış edərək Luis Kerollun "Alisa möcüzələr ölkəsində" əsərinə istinadən aşağıdakı mühakiməsini diqqətə çatdırmışdır: "Yalnız böyüklər üçün yaxşı kitablar vardır... lakin yalnız uşaqlar üçün yazılan bir dənə də olsun yaxşı kitab yoxdur" [8].

Fikrimizcə, uşaq kitablarının bir qismi, o cümlədən Luis Kerollun "Alisa möcüzələr ölkəsində", C.K.Roulinqin "Harri Potter", K.S.Lüisin "Narniya xronikaları", Roald Dalın "Çarli və Şokolad fabriki", C.M.Barrinin "Piter və Uendi", Con Tolkinin "Üzüklərin hökmdarı" əsərləri ən çox oxunan onluqlar sırasında çəkilir.

Lakin ədəbi kanonun yalnız böyük ədəbiyyatına şamil edilib onun uşaq ədəbiyyatı üçün mənasız bir termin olduğunu söyləmək [8], fikrimizcə, məqbul hesab edilə bilməz.

Müasir ingilis uşaq ədəbiyyatında yeni bir mərhələnin sahibi olan, "Harri Potter" uşaq romanları silsiləsi ilə milyonlarla oxucunun ürəyinə hakim kəsilən Coan Ketlin Roulinqin adını çəkdiyimiz əsərinin klassik sənət əsəri səviyyəsində yazılması onun həm uşaq, həm də böyük ədəbiyyatının nümunəsi olduğundan xəbər verir. Heç də təsadüfi deyildir ki, ədibin yeddi cilddən ibarət olan bu "böyük kitabı" psixoloji realizmin ənənələri: sehr, qotik, məktəb hekayəsi, satira, fentezi, tərbiyə romanı və digər məxsusi hibridliyi özündə cəmləşdirmişdir.

Uşaq ədəbiyyatının araşdırıcılarından Culya L.Mikenberq və Linne Vallone, Coan Ketlin Roulinqin "Harri Potter" kitablar silsiləsi yenicə çapdan çıxdığı vaxtda onun oxucuların böyük maraqla qarşıladığının şahidi olduğunu

diqqətə çatdırmışdır. Araşdırıcılar qeyd edirlər ki, onlardan biri təyyarə ilə səfərə çıxarkən salonda tənha səyahətə çıxan bir uşaqla yanbayan əyləşməli olur. O, çalışır ki, yanındakı uşaqla dialoq qursun, özünün təsəvvüründə götür-qoy etdiyi kimi, bu söhbətlə uşağın daha rahat hiss etməsi üçün şərait yaratmağa cəhd göstərir. Lakin müsahibi söhbətə başlayanda uşaq bir neçə dəfə gözlərini əlinin altındakı kitabdan ayırıb suallara cavab vermək istəsə də, nəhayət, sözünü deyir: "Bu nəşrdən yenicə çıxmış Harri Potter haqqında təzə kitabdır, xeyli vaxt idi ki, bu kitabın çapını gözləyirdim. Sözün həqiqi mənasında indi mən bu kitabı oxumaq üçün diqqətimi cəmləşdirmək istəyirəm. Ümid edirəm ki, siz buna mane olmayacaqsınız" [2, p.4].

Belə bir nəticəyə gəlmək olar ki, insan düşüncəsinin məhsulu olar bədii əsərlər təbii ki, ədəbi əsərlərin ayrı-ayrı inkişaf mərhələlərində ya öz dövrünü yaşamış, ya da sonrakı mərhələlərdə yenidən "yaşamaq" hüququnu qazanmışdır. Elə isə uşaq yaxud böyük ədəbiyyatında yazıçı, şairlərin də öz kanonu vardır? Məsələn Uilyam Şekspir, yaxud Con Tolkin, C.K.Roulinq kanonunun olduğunu söyləmək nə dərəcədə dogrudur? Əslində, neçə zamandır ki, ədəbiyyatın təsnifatında da ələlxüsus spesifik müəlliflərin yaradıcılığının toplusu zəminində onların, məsələn, Uilyam Şekspirin kanonu olduğu söylənilir. Kanon əslində dünya ədəbiyyatının, yaxud onun tanınmış nümayəndələrindən birinin ən yüksək, təsiredici, nüfuzlu əsərinin olduğunu özündə ehtiva edir. Çağdaş ingilis uşaq ədəbiyyatının Con Tolkin, C.K.Roulinq kimi nümayəndələri də uşaq ədəbiyyatının kanonu olduğunu təsbit etmişdir.

**ƏDƏBİYYAT**


1. *Xəlilli Ş., Əliyeva S.* Britaniya uşaq ədəbiyyatı. Bakı, 2018, 462 s.
2. *Crippen Martha.* The Value of Children's Literature / https:// www.edu/oneota-reading-journal/archive/2012/the-value-of-childrens-litm/
3. *Joseph Michael.* Why Study Childrens Literature?children's litarature association 2015//https://chla.memberclicks.net/why-study-children-s-literature
4. Julia L.Mickenberg and Lynee Vallone. Introduction. The Oxford Handbook of Children's Literature. Edited by Julia L.Mickenberg and Lynee Vallone. Oxford University Press Inc., 2011, pp.3-21
5. *Lundin H,Anne.* Constructing the Canon of Children's literature Beyond Library Walls and Ivory Towers. Copyrighted Material. London: Routledge, 2004, 200 p.
6. *D.Thomas Hanks Jr.* Children's Literature Association Quarterly Johns Hopkins University Press Volume 3, Number 1-2, Spring/Summer 1978 / https://muse.jhu.edu/article/248049
7. *Gracia Jorge J.E.* The Quests of Sam and Gollum for the Happy Life -The Lord of the Rings and Philosophy. One Book To Rule Them All. Edited by Gregory

Bassham and Eric Bronson. Printed in the United States of America: Open Court Publishing Company, 2004, pp.61-71

8. *Rosen Michael.* Children's literature-The Oxford Companion to English Literature. Seventh Edition. Edited by Dinah Brich. Printed in the United States: Oxford University Press Inc., New York, 2009, pp.23-31
9. www.representing.childhood.pitt.edu.pdf/archies.pdf.

Redaksiyaya daxil olub 15.11.2021

*UOT 81*

***X.B.Məmmədov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*kankishimamedov_53@mail.ru*

# HİDRONİMLƏRLƏ BAĞLI PAREMİOLOJİ VAHİDLƏRİN AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ MÜQAYİSƏLİ TİPOLOGİYASI

***Açar sözlər:*** *folklor, hidronim, paremioloji vahidlər, Kür, Araz, Volqa, Don*

Məqalədə hidronimlərlə bağlı paremioloji vahidlərin müqayisəlilik fonunda tədqiqindən söhbət açılır. Qeyd edilir ki, Azərbaycan dilində hidronimlərlə bağlı paremioloji vahidlərə aid nümunələr o qədər də çox deyil. Belə ki, respublikada çayların irili-xırdalı sayı on minə qədər olsa da, ən çox Kür və Araz çayının adı ilə bağlı atalar sözlərinə rast gəlinir. Böyüklüyünə görə Kür və Araz çaylarından sonra qərarlaşan doqquz çayın adı ilə bağlı nümunələrdə yox dərəcəsindədir. Göllər haqqında da eyni mənzərənin şahidi oluruq. O da qeyd olunur ki, Azərbaycan adlı bir məmləkətdə hidronimlərlə bağlı paremioloji vahidlərin belə az sayda olması onunla bağlıdır ki, görünür, bu vahidlər sadəcə olaraq toplanıb sistemləşdirilməmiş və təbii ki, öz tədqiqatçısını gözləyir. Yeri gəlmişkən, Şumer atalar sözlərində də hidronimlərlə bağlı nümunələrə rast gəlinmir. Bu da sözsüz ki, müasir zamanda elmi, nəzəri, təcrübi, həm də pedaqoji cəhətdən hər iki dilin daşıyıcısı olan xalqların dilini, həm də tarixi mədəniyyətini dərindən öyrənmək baxımından problemin aktuallığından xəbər verir. Məqalədə hidronimlərlə bağlı bəzi paremioloji vahidlərin Azərbaycan və rus dillərində müqayisəsi verilmişdir. Beləliklə, hidronimlərlə bağlı folklorumuzda rast gəldiyimiz paremioloji vahidlərin cəmiyyətimizin coğrafi koordinatlarının müəyyənləşdirilməsində nə qədər böyük əhəmiyyətə malik olduğunun şahidi oluruq.

***Х.Б.Мамедов***

# СРАВНИТЕЛЬНАЯ ТИПОЛОГИЯ ПАРЕМИОЛОГИЧЕСКИХ ЕДИНИЦ, СВЯЗАННЫХ С ГИДРОНИМАМИ В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ

***Ключевые слова:*** *фольклор, гидроним, паремиологические единицы, Кура, Араз, Волга, Дон*

В статье рассматривается сравнительное исследование паремиологических единиц, относящихся к гидронимам. Отмечается, что примеров паремиологических единиц, связанных с гидронимами, в Азербайджанском языке немного. Хотя количество больших и малых рек в стране составляет около десяти тысяч, наиболее распространенные пословицы связаны с названием рек Кура и Араз. Примеров по девяти рекам, следующих по своей величине после Куры и Араза, почти что нет. Наблюдаем ту же картину и с озерами. Также отмечается, что небольшое количество паремиологических

единиц, относящихся к гидронимам страны под названием Азербайджан, связано с тем, что эти единицы видимо просто не систематизированы и, конечно же, ждут своего исследователя. Кстати, и в шумерских пословицах нет примеров гидронимов. Безусловно, в современное время все это указывает на актуальность проблемы с точки зрения углубленного изучения языка и исторической культуры народов, говорящих на обоих языках, как с научной, теоретической, практической и педагогической точек зрения. В статье сравниваются отдельные единицы двух языков, относящиеся к рекам, в частности Кура и ее правый приток Араз, а также гидронимы в русском фольклоре. Таким образом, мы становимся свидетелями того, насколько важны паремиологические единицы, с которыми мы сталкиваемся в нашем фольклоре по отношению к гидронимам, в определении географических координат нашего общества.

***Kh.B.Mammadov***

## COMPARATIVE TYPOLOGY OF PAREMIOLOGICAL UNITS RELATED TO HYDRONYMS IN AZERBAIJANI AND RUSSIAN LANGUAGES

***Keywords****: folklore, hydronyms, paroemiologic units, Kur, Araz, Volga, Don*

Information about research of paroemiologic units regarding hydronyms in the background of comparison is stated in the article. It is stated that the examples of paroemiologic units regarding hydronyms are not so vast in Azerbaijani. Although there are up to ten thousand little and big scale rivers in the republic, frequently, we found proverbs referring to Kur and Araz rivers. The examples of the names of nine rivers after Kur and Araz rivers according to the scale, are in the level of zero. We are witnessed the same scene about lakes too. It is also stated that the quantity of paroemiologic units regarding with hydronyms in Azerbaijan is scanty and it regards that these units are merely not systemized and naturally, they wait for their researcher. Besides, there are examples regarding hydronyms in Sumerian proverbs. Undoubtedly, this regards with the actuality of problem in view of deep study of the historical culture, language of the nations, bearing both languages from scientific, theoretic, practical and pedagogic point of view in modern time. Bilingual comparison of some units of the hydronyms in rivers, especially, Kur and Araz, which is the right branch, as well as, Russian folklore are presented in the article. Thus, we are witness about big significance of paroemiologic units, found in folklore regarding hydronyms, in the determination of geographic coordinates of our society.

Məlum olduğu kimi, hidronimlər su obyektlərinin müxtəlifliyinə görə aşağıdakı növlərə ayrılır: 1) Okeanonim – okean, körfəz, şəlalə və s.; 2) Pelaqonim – dəniz adları; 3) Limonim – göl, axmaz sular; 4) Potamonim – çay adları və 5) Helonim – bataqlıq adları. Azərbaycan dilində hidronimlər əksini tapmış toponimlərlə bağlı paremioloji vahidlər o qədər də çox deyil. Belə ki, respublikada çayların sayı irili-xırdalı on minə qədər olsa da, atalar sözləri

və məsəllərə ən çox adları çox zaman qoşa çəkilən Kür və Araz çayının adı ilə bağlı nümunələrdə rast gəlinir. Böyüklüyünə görə Kür və Araz çaylarından sonra qərarlaşan digər doqquz çay – Qanıx (Alazan), Qabırrı, Xram, Ağstafa, Kürək, Həkəri, Samur, Pirsaat, Bolqarçay, Bazarçay, Oxçu və digər çayların adı ilə bağlı tək-tək nümunələrə rast gəlinir. Bərguşad adı ilə bağlı bir nümunəyə rast gəldik: Dəvəni toya cağırdılar. O da ağladı ki, məni ya Naxçıvana duza göndərirlər, ya da Gilana/Bərgüşada düyüyə/suya. Əslində burada Bərgüşad oykonim kimi işlənmişdir. Yeri gəlmişkən, Şərur, Dərələyəz, Zəngəzur dağ silsiləsindən başlanğıcını götürən Bərgüşad çayının adı çayın boyu istiqamətində bir neçə dəfə dəyişir: Əyri çay, Ulu çay, Üç çay, İlizim çay, Gorus çay, Bazar çay. Bərgüşad çay Həkəri çayı ilə Qaralar kəndi yaxınlığındakı "Hindiverd" burnunda birləşir və Həkəri adı ilə Araz çayına tökülür.

Göllərin sayı təxminən dörd yüz əllidən çox olsa da, hətta respublikanın ən böyük gölü hesab edilən Sarısu gölü haqqında da atalar sözü və məsəllərə rast gəlmirik. Azərbaycanda yeganə dəniz olan və yüzə qədər adı məlum olan Xəzər dənizi də əslində göldür, sadəcə olaraq dibində okean tipli yer qatı yerləşdiyinə və dəniz ölçülərinə malik olduğuna görə dəniz adlanır. Bəzi qədim mənbələrdə Xəzər dənizinin qeyd etdiyimiz yüzə qədər adından (1) Kaspi, Vorukşa – geniş hövzə (Avestada), Prud solnse (Homerin əsərlərində), İrkaniya dənizi (Ptolomey), Qərb dənizi (çinlilər belə adlandırmışlar), Şərq dənizi (assurilər belə adlandırmışlar), Qleveşelan dənizi (Marko-Polonun əşərlərində), eləcə də yaxın keçmişə aid olan Bakı dənizi, Abşeron dənizi, Muğan dənizi, Şirvan dənizi, Salyan dənizi, Gilan dənizi, Avar dənizi, İran dənizi, Türkmən dənizi, Qəzvin dənizi, Xarəzm dənizi, Pəhləvi dənizi, Dərbənd dənizi və s. adlarını nümunə göstərmək olar. Təbii ki, Xəzər dənizinə verilmiş bu çoxdilli adlar silsiləsi tarixən bu ərazidə yaşamış türkdilli tayfa və qəbilə adları ilə əlaqədardır. Dəniz haqqında da atalar sözü və məsəllərə rast gəlinmir. Yeri gəlmişkən, Şumer atalar sözlərində də hidronimlərlə bağlı nümunələrə rast gəlinmir.

Məqalədə hidronimlərlə bağlı paremioloji vahidlərin müqayisəlilik fonunda tədqiqindən söhbət açılır ki, bu da müasir zamanda elmi, nəzəri, təcrübi, həm də pedaqoji cəhətdən Azərbaycan və rus dillərinin daşıyıcısı olan xalqların dilini və tarixi mədəniyyətini daha dərindən öyrənmək baxımından aktualdır. Bundan başqa paremilərin müqayisəli öyrənilməsinin bir əhəmiyyəti də bu sahədə biliklərin toplanması, sistemləşdirilməsi və deməli, milli elmin və mədəniyyətin öyrənilməsi və inkişafı üçün vacib olmağındadır (4).

Azərbaycan çaylarından ən böyüyü hesab edilən Kür və Araz çayının hər birinin bu ölkənin mədəniyyətində və iqtisadiyyatında xüsusi yeri vardır. Məsələn, əsrlər boyu Kür çayı bu ərazilərdə yaşayan insanların həm əkin sahələrinin suvarılması, həm su yolu, həm də çətin zamanlarda onların

yaşamasına kömək edən qida mənbəyi kimi əvəzsiz rol oynamışdır. Volqa çayı rusların, Xuanxe çayı isə çinlilərin qəlbində necə yer alıbsa, Kür çayı da Azərbaycanlıların ürəyində o cür məskən salıb. Elə bu səbəbdən də Kür çayına "Ana Kür" deyirlər. Bu çayın bir adı da var: "Dəli Kür". Bu ad çayın çox da sakit olmamağına, "ərköyün" və "aşıb daşan" olmasına işarədir. Bəzən analarımız "Uşaq yaman kürdür" deyirlər. Əhəmənilər İmperiyasının imperatoru olmuş II Kirin adı ilə bağlı olan Kür hidroniminin tarixi XVIII əsrə təsadüf etsə də, bu adın tarixi kökləri XIII əsrə gedib çıxır. Türk əsilli "kür" sözünün mənası "bol sulu", "qüvvətli", "sürətli", "sarsılmaz", "məğrur", "dağları yarıb keçən çay" mənasını verir. Mahmud Kaşğarinin "Divanü-lüğat-it-türk" əsərində "kür" leksemi belə izah edilir: igid, sarsılmaz, cəsur, qoçu. Bu atalar sözündə də işlənmişdir: "Kim kür bolsa, kövəz bolur, yəni kim kür olsa, məğrur olar" (1, s.339). 906 km-i Azərbaycan Respublikası ərazisindən keçən Kür çayınn hövzəsinə bir çox kiçik çaylar tökülür. Bunlar Qanıx, Qabırrı, Türyan, Ağstafa, Şəmkir, Tərtər, Xaçın və digər çaylardır. Türk mənşəli Kür çayının bu qolları haqqında da atalar sözləri və məsəllərə nədənsə rast gəlinmir. Əslində Kür çayının özü haqqında da nümunələr çox az saydadır:

- Ağıllı fikir edincə, dəli Kürdən keçər;
- Araz duru, Kür sarı;
- Kür aşağı axıt, Kür yuxarı axtar (bu məsəli Araz çayı haqqında da deyirlər). Bu atalar sözünün belə forması da var: Çay aşağı axıt, çay yuxarı axtar;
- Küsən Kür aşağı getsin;
- Məni aparan suya Kür də deyərəm, Araz da;
- Milçək mindim, Kür keçdim, yaba ilə dovğa içdim, heç belə yalan görməmişdim;
- Nə olsa olsun, Kür keçmək içində olsun;
- Araz aşığınnandı, Kür topuğunnan//Araz aşığımdan, Kür topuğumdan (3, s.43) – heç bir dərdi, fikri, qayğısı olmayan, heç nəyi vecinə almayan adam haqqında deyilir. Sonuncu atalar sözünün rus dilində ekvivalenti belədir: Араз по щиколотку, Кура по лодыжку//Море по колено//Всё до лампочки//До глубокой фени//Всё равно//Всё нипочём//Пьяному море по колено, а лужа – по уши (5, s.48)//Пьяному и море по колено (5, s.48)// Лишь бы пилось да елось, а дело на ум не шло (6, с.799)//Чуть за ухо попало, так и черт ему не брать (6, с.800).

Kürün sağ qolu olub, suyu şirin, ləzzətli və çox yüngül olan Araz çayı da öz mənbəyini Türkiyənin Ərzurum dağlarından götürür. Araz çayının tarixi çox qədim olsa da, adı ilk dəfə "tarixi nəzmlə yazan" qədim yunan tarixçisi və coğrafiyaşünası Miletli Hekatey tərəfindən və "Tarixin atası" adlandırılan Herodot tərəfindən işlənmişdir. Araz adının ilkin adları müxtəlif mənbələrdə

Araksos, Araks, Arras, Eraxs olduğu göstərilsə də, zənnimizcə, Aras adı daha doğrudur. Mənbələrdə bu adın ilkin formasının "aras" şəklində olması, sonralar isə "araz" kimi işlənməyə başlandığı göstərilir. Eramızdan əvvəl VIII əsrə aid Urartu dilinə aid mənbələrdə Araz çayı "Muna" kimi göstərilir. Qeyd edək ki, Muna adının mənası hələ tam açılmasa da, tədqiqatçılar "Muna" deyəndə, indiki "Araz" çayını nəzərdə tuturlar. Mənbələrdə sadəcə olaraq bu leksemin Altay dil ailəsinə mənsub tunqus-mancur dillərində mənası su olan "mu" sözündən götürüldüyü qeyd edilir. Rus və sovet şərqşünası, qafqazşünası Nikolay Yalovleviç Marr isə qeyd edirdi ki, Araz hidronimi fars dilində "ariləri qoruyan" deməkdir. Bir çox tədqiqatçılar da Araz adının Hind-Avropa, eləcə də türk dillərində mənalarını verməyə çalışıblar. Məsələn, bu sözün türk dillərində ərəz, uras/uraz, oraz sözlərindən götürüldüyü qeyd olunur ki, bunun da mənası "sakit", "dinc", "xeyirxah", "xeyirli" deməkdir. Sonuncu ən doğru variant hesab edilə bilər. Doğrudan da, Kür çayı ilə müqayisədə Araz çayı çox sakit, mülayim, sanballı və özünü şah kimi, xan kimi ağır aparan çayların sırasındadır. Bu səbəbdən də bu çaya bəzən **Xan Araz** deyirlər. Qeyd edək ki, Heredotun yazdığına görə, vaxtı ilə Orta Asiyada yerləşən Sır dərya çayı da Araz adı ilə adlanırdı. Əlbəttə, iki müxtəlif məkanda iki çayın adının eyni adla Araz adlandırılması, fikrimizcə, bu adların türk əsilli olmasından irəli gəlir. Yeri gəlmişkən, məşhur Azərbaycan ritmik muğamı "Arazbarı"nın adı da "Araz" hidroniminin adı ilə bağlıdır. "Araz" hidroniminin etimologiyası ilə tədqiqatlardan belə bir nəticəyə gəlmək olur ki, Şumerlərin tikinti tanrısının adı Araz olub və "Araz" hidroniminin adı da buradan götürülüb. Hidronimlərin mənşəyinə dair müəyyən araşdırmalar aparılmışdır. Xüsusən professor Ə.M.Dəmirçizadənin "Kaspi", "Xəzər", Q.İbrahimovun "Samur", S.Vəliyevin "Araz", Q.Qeybullayevin bir sıra Azərbaycan hidronimlərinin mənşəyinə dair müxtəlif fikirləri maraqlıdır. Kür çayı ilə müqayisədə Araz çayı ilə bağlı paremioloji vahidlər bir qədər çoxdur:

- Araz axır, gözün baxır, mən aldadıram, sən aldanma (3, s.43);
- Araz aşağı axıt, Araz yuxarı axtar;
- Araz aşığınnandı, Kür topuğunnan (3, s.43);
- Araz duru, Kür sarı;
- Araz! Altını da bilirəm, üstünü də (3, s.43) – hər şeydən məlumatlı adam haqqında deyilir;
- Arazla Arazbar arası qonağı gəlmək;
- Bir su ki, səni aparır, deynən Arazdı;
- Dəvəyə dedilər səni çağırıllar, dedi ki, məni ya Araza/Həkəriyə su gətirməyə, ya da Naxçıvana/Bərgüşada duz/düyü daşımağa çağırırlar.
- Əssin Arazbarı, artsın xırmanın varı;
- Filankəsin Arazla Arazbari Arazbarı arası qonağı gəldi;

- Hər axan suya Araz deməzlər;
- Xata olub, Araz çayı bir zaman bir salım duz aparıbdır;
- Keçib gəlib Arazı, bəyənməyir Gülnazı;
- Kül başına, ay Araz, üstündən təzək/tərək atdanır (3, s.264);
- Məni aparan suya Kür də deyərəm, Araz da.

"Arazbar" toponimi ilə əlaqədar qeyd edək ki, Arazbar Səfəvilər dövründə Araz çayının hər iki sahili boyunda yerləşən tarixi bölgə olub, Xudafərin bölgəsindən Beyləqan rayonuna qədər olan ərazini təşkil edib. "Arazbar" Arazkənarı yurd deməkdir. "Arazbar" komponentinin adı ilə əlaqədar bir çox kitablarda geniş məlumatlara rast gəlmək olur. Bu haqda Azərbaycan şairi Mirzə Ələkbər Dehxudanın fars dilində olan 16 cildlik lüğətində geniş məlumat vardır. “Arazbarı” "Şur" muğam ailəsinə daxil olan zərbi muğamdır. Böyük xanəndəmiz Seyid Şuşinski onun mahir ifaçılarındandır.

"Dəvəyə dedilər səni çağırıllar, dedi ki, məni ya Araza su gətirməyə, ya da Naxçıvana duz daşımağa çağırırlar" atalar sözünün belə bir variantı da var: "Dəvəyə dedilər səni çağırıllar, dedi ki, məni ya Həkəriyə su gətirməyə, ya da Bərgüşada düyü daşımağa çağırırlar". Bu məsəldəki Həkəri və Bərgüşad Azərbaycan ərazisində olan çaylardandır. Arazın sol qolu olan Həkəri bəzən Əkərə, ərəb mənbələrinə istinadən isə IX-XII əsrlərdə Arrançay adlandırılan bu çayın adı Həkəri tayfasının adı ilə bağlıdır. Məşhur Sarı aşığın qəbri Həkəri çayının sağ sahilində, onun sevgilisi Yaxşının qəbri isə sol sahilindədir. Bərgüşad çayı isə Qubadlı rayonunun Qaralar kəndi yaxınlığında Həkəri çayı ilə birləşib Araza tökülür. Bərgüşad hidroniminin mənası "sinəsi geniş/açıqürəkli” deməkdir.

Sarı aşığın Həkəri adına yazdığı bir bayatı da maraqlıdır:

Mən aşiqəm ha Kərim,
Yetiş dada ha Kərim.
Gen dünya sənin olsun,
Mənə bəsdir Həkərim.

Müqayisə edəndə, rus folklorunda hidronimlər haqqında paremilər daha çoxdur. "Çayların şahzadəsi/kraliçası" olan Avropanın ən uzun çayı və Rusiyanın ürək simvolu sayılan Volqa çayı haqqında bəzi nümunələrə diqqət edək (nümunələr müəllif tərəfindən tərcümə edilmişdir):

- На словах Волгу переплывëт, а на деле – ни через лужу – *Sözdə Volqanı üzüb keçir, həqiqətdə gölməçədən də keçə bilmir* (bu atalar sözü döşünə döyüb özünü tərif edən, əslində isə əlindən heç bir iş gəlməyən, iş bacarmayan adamlara aiddir)**;**
- Много на Волге воды, много и беды – *Volqanın suyu da çoxdur, dərdi də;*

- Просит осетр дождя, в Волге лежа – *Volqada yatan Nərə balığı yağış istəyir;*
- Волга – кормилица не даст умереть с голоду – *Ana Volqa aclıqdan ölməyə imkan verməz;*
- Волга – добрая лошадка, все свезет – *Volqa mehriban atdır, hamını aparar* (bu atalar sözü fağır, aciz adamlara aid edilir. Bu mövzuya aid bir atalar sözümüz də var: Aciz eşşəyi iki nəfər minər; Yavaş eşşəyi cüt-cüt minəllər;
- Волга всем рекам мать – *Volqa bütün çayların anasıdır* (bu atalar sözünün bu variantı da var: *Всем рекам река Ерат* (Ефрат). *Всем горам гора Авор* (Фавор). Всем древам древо кипарис. Лев всем зверям царь. Всем птицам птица орел);
- Не проплывешь Волгу – Родину не увидишь - *Volqanı üzüb keçməsən, Vətəni görə bilməzsən;*
- Волгу переплывет тот, кто опирается на народ – *Xalqa güvənən adam Volqanı üzüb keçər;*
- Волга – плыть долго – *Volqanı üzmək çox vaxt aparar;*
- Матушка-Волга спину гнет, зато денежки дает – *Ana Volqa adamın belin əyər, amma əvəzində pul verər;*
- Волга-Матушка широка и долга – *Ana Volqa həm uzundu, həm enli.*

Rus folklorunda digər çaylar və göllər haqqında da atalar sözləri kifayət qədərdir:

- Волга – плыть долго, а Дунай – широко – *Volqanı üzmək çox vaxt tələb edir, Dunay isə enlidir;*
- Жил на дому, а очутился на Дону – *Evdə yatdı, Donda ayıldı;*
- Урал – золотое дно, серебряна покрышка – *Uralın dibi qızıl, suyu gümüşdür.*
- Кто Байкала не видал, тот в Сибири не бывал – *Kim Baykalı görməyibsə, deməli, Sibirdə olmayıb;*
- Байкал настолько чистое озеро, что даже рыбы бегают из него посрать на берег – *Baykal o qədər təmiz göldür ki, hətta balıqlar da bayıra çıxmaq üçün sahilə çıxırlar.*

Rus atalar sözlərində dəniz adları haqında da nümunələr çox az saydadı. Bir nümunə göstərək: Белое/Черное море белоручек не терпит. Göründüyü kimi, hidronimlərlə bağlı Azərbaycan və rus folklorunda rast gəldiyimiz nümunələr demək olar ki, eynilik təşkil edir. Adına neçə-neçə bayatı və mahnılar qoşulmuş bir çayımız da var: başlanğıcını Basarkeçər dağ silsiləsindən götürən və Araz çayının sol qolu hesab edilən – Arpaçay. Əski çağlarda "Arpa göl"ümüz də olub. Adına atalar sözü də var: "Dərdi Arpa gölünə düşüb".

Gümrü yanı sərt qaya,
Boylandım Arpaçaya.
Ev tikdim, yuva qurdum,
Əməyim getdi zaya.

Beləliklə, hidronimlərlə bağlı folklorumuzda rast gəldiyimiz nümunələrin cəmiyyətimizin coğrafi koordinatlarının müəyyənləşdirilməsində nə qədər böyük əhəmiyyətə malik olduğunun şahidi oluruq. Bu vahidlərdə tariximizin bir çox qədim izləri qabarıq şəkildə özünü göstərir. O da məlum olur ki, Azərbaycan və rus dillərində məzmunca eyni olan nümunələr kifayət qədərdir. "Ana Kür" və "Волга-мать" ifadələrini deyilənlərə misal göstərmək olar.

## ƏDƏBİYYAT


1. *Mahmud Kaşğari.* Divanü-lüğat-it-türk: 4 clddə, I c., Bakı: Ozan, 2006, 512 s.
2. *Qurbanov A.* Azərbaycan onomalogiyasının əsasları. Bakı, 2019, 280 s.
3. Atalar sözləri / Tərtib edəni və ön sözün müəllifi Mətanət Yaqubqızı. Bakı: Nurlan, 2013, 476 s.
4. *Məmmədov X.* Folklorun elmi rişələri. Bakı: Elm və təhsil, 2019, 368 s.
5. *Həmidov İ., Axundov B., L.Həmidova.* Azərbaycanca-rusca, rusca-azərbaycan-ca atalar sözləri və zərbi məsəllər lüğəti. B., 2009, 560 s.
6. *Даль В.* Пословицы русского народа. М.: Гос. Изд-во художественной литературы, 1957, 991 с.


Redaksiyaya daxil olub 20.10.2021

# İctimai elmlər

*UOT 94(479.24)*

***Y.M.Əhmədova***
*Gəncə Dövlət Universiteti*
*yeganegdu@mail.ru*

## XIX ƏSRİN 60-70-ci İLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA KEÇİRİLMİŞ BURJUA İSLAHATLARININ BƏZİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA

***Açar sözlər:*** *islahat, komissiya, kəndlilər, məhkəmə islahatı*

Məqalədə Şimali Azərbaycanda kapitalist münasibətlərinin yaranması dövründə çar hökumətinin apardığı burjua islahatlarının mahiyyətindən və ictimai təbəqələrin vəziyyətinə təsirindən bəhs edilir.

Məqalənin ümumi məzmunundan göründüyü kimi, bu islahatlar Şimali Azərbaycanda yoxsulların iş və məişət şəraitinin yaxşılaşdırılmasında əsaslı dəyişiklik yaratmadı, kəndlilər əvvəlki kimi, öz torpaq mülkiyyətçilərindən güclü asılılığını davam etdirdilər. Lakin eyni zamanda sənayenin müxtəlif sahələrində kapitalistlər və fəhlələr arasında iki antaqonist təbəqə yarandı.

***Е.М.Ахмедова***

## О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ БУРЖУАЗНЫХ РЕФОРМ, ПРОВЕДЁННЫХ В 60-70-х ГОДАХ XIX ВЕКА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *реформа, комиссия, крестьяне, судебная реформа*

В статье говорится о сути и влиянии буржуазных реформ, проведённых царским правительством во время возникновении капиталистических отношений в Северном Азербайджане, на состоянии социальных прослоек.

Как видно из общего содержания этой статьи, эти реформы не произвели коренному изменению в области улучшении трудовых и бытовых условий бедных слоёв населении Северного Азербайджана, крестьяне, как и прежде, продолжали оставаться в сильной зависимости от своих землевладельцев. Но вместе с тем, в различных отраслях промышленности между капиталистами и рабочими возникли два антагонистических слоя.

**E.M.Akhmedova**

# ON SOME FEATURES OF THE BOURGEOIS REFORMS CONDUCTED IN THE 60-70s OF THE XIX CENTURY IN NORTH AZERBAIJAN

**Keywords:** *reform, commission, peasants, judicial reform*

This article talks about the essence and influence of the bourgeois reforms carried out by the tsarist government during the emergence of capitalist relations in Northern Azerbaijan, on the state of social strata.

As can be seen from the general content of this article, these reforms did not make a radical change in the field of improving the working and living conditions of the poor strata of the population of North Azerbaijan, the peasants, as before, continued to remain strongly dependent on their landowners. But at the same time, two antagonistic classes emerged between capitalists and workers in various branches of industry.

Məlumdur ki, XIX əsrin 60-cı illərinin sonlarında Şimali Azərbaycanın iqtisadi inkişaf prosesi əmtəə təsərrüfatının inkişafı və feodal münasibətlərinin dağılması ilə müşayiət olunurdu. Buna müvafiq olaraq o zamankı sosial-iqtisadi durum feodal münasibətlərinin ləğvini tələb edirdi. Müstəmləkəçi çar hökuməti isə Şimali Azərbaycanda guya ki, iqtisadi şəraitin kifayət qədər yetişməməsini bəhanə gətirərək burada islahatların keçirilməsini bir neçə il ləngitmişdi [1, s.178].

Lakin Şimali Azərbaycanda inkişaf etməkdə olan sənaye üçün sərbəst işçi qüvvəsinə tələbatın yaranması və Mərkəzi Rusiyanın xammala olan ehtiyacı islahatın keçirilməsini tələb edirdi. Feodalizm qalıqları ölkənin iqtisadi inkişafına əngəl törədir, ticarət əkinçiliyinin inkişafını, əmtəə-pul dövriyyəsinin tətbiqini, sənaye və kənd təsərrüfatı sahələrində kapitalist sahibkarlığının yaranması prosesini yubadırdı [1, s.178].

Çar hökumətinin 1861-ci il iyunun 29-da "Cənubi Qafqaz diyarının mərzləşdirilməsi haqqında Əsasnamə"ni təsdiq etməsinə müvafiq olaraq 1862-ci il yanvarın 1-dən etibarən fəaliyyətə başlayan Cənubi Qafqaz Mərz Palatası yaradıldı. Bu palata hər bir kənd icmasının sərhədlərini müəyyənləşdirməli, eləcə də bütün mülk və malikanələrin sərhədlərini dəqiqləşdirməli idi. Lakin mərzləşdirmə üzrə iş uzun müddət aparılmamışdı [1, s.180].

1865-ci ildən başlayaraq çar hökuməti Cənubi Qafqazda tədricən ağaları kəndlilər üzərindəki polis nəzarəti və məhkəmə hakimiyyəti hüququndan məhrum etdi. Tezliklə Şimali Azərbaycanın bütün feodallarına qarşı da belə bir tədbirin həyata keçirilməsi lazım bilindi [1, s.180].

1861-ci ilin dekabrında "Cənubi Qafqazda yerli (zemski) gözətçi dəstələri haqqında Əsasnamə" təsdiq edildi. Bu dəstələr yollar üzərindəki gözətçi xidmətinin və qarovul məntəqələrinin saxlanılması işini həyata

keçirməli idi. Elə həmin il Cənubi Qafqazda müntəzəm məlumatların toplanılması işində mühüm rol oynayan quberniya statistika komitələri işə başladı. 1865-ci il yanvarın 28-də "seçkili" əsaslar üzərində qurulan "Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında Əsasnamə"nin nəşr edilməsi bəylərin məhkəmə və polis hakimiyyəti hüququndan məhrum edilməsini nəzərdə tuturdu. Bu "Əsasnamə"nin nəşr edilməsindən sonra bəylərin kənd hakimiyyət orqanlarına müəyyən dərəcədə təsir göstərmələrinə baxmayaraq, onların kəndlilər üzərində əvvəlki hakimiyyəti artıq yox idi [1, s.181].

1864-cü ildə Zəylik zəy zavoduna təhkim edilmiş Zəylik kənd sakinlərinin, Bakı quberniyasındakı neft quyularına təhkim edilmiş Balaxanı kənd sakinlərinin, 1868-ci ildə isə Naxçıvan duz mədənlərində işləyən Şıxmahmud kənd sakinlərinin məcburi əməyinin ləğv edilməsi ilə Şimali Azərbaycanda kəndli islahatının keçirilməsinin bütövlükdə əsası qoyuldu. Həmin vaxt Tiflisdə yaradılmış Mərkəzi Cənubi Qafqaz Komitəsinin tərkibinə Azərbaycan bəylərindən bir nəfər də olsun nümayəndə daxil edilməmişdi. Bəylər formal olaraq "ali silk" təbəqəsinə mənsub olsalar da, rus və gürcü zadəganları ilə eyni hüquqlara malik deyildilər. Çar hökuməti bəylərin vasitəsilə kəndlilər üzərində öz hakimiyyətini möhkəmləndirsə də, onların fəaliyyətini məhdud bir çərçivədə saxlamağa çalışırdı [1, s.181].

Ağalar və kəndlilərin qarşılıqlı münasibətləri haqqında 1847-ci il "Əsasnamə"lərinə yenidən baxılması işi ilə bağlı olaraq baş canişin idarəsi şurasının qəbul etdiyi qərara görə, Tiflis, Bakı, İrəvan və Şuşa şəhərlərində "bəy komissiyaları" adı altında müvəqqəti komissiyaların təsis edilməsinin zəruriliyi etiraf edilmiş və "ali müsəlman silkinin şəxsi heyətini müəyyənləşdirmək" bu komissiyalara həvalə olunmuşdu. Bu komissiyalar hökumət məmurlarının sədrliyi altında bəylərdən təşkil olunurdu [1, s.181-182]. 1865-ci il oktyabrın 25-də Tiflisdə Qazax, Şəmşəddil, Sarıtala sahələrində və Ahalsıx, Yelizavetpol qəzalarında, İrəvanda isə İrəvan quberniyasında bəy komissiyaları fəaliyyətlinə başladı və 1867-ci ildə öz işlərini başa vurdu. Tiflis bəy komissiyası 340 nəslin hüquqlarını nəzərdən keçirərək onlardan 184 nəsli "ali silkə mənsub" hesab etdi. Yerdə qalan 156 nəslə öz hüquqlarını ümumi qaydada dövlət qanunları və məhkəmə vasitəsilə sübut etmək məsləhəti verildi.

İrəvan komissiyası tərəfindən isə 586 nəsildən 282-si "ali silkə mənsub" hesab edilsə də, digər 304 nəslin hüquqları təsdiqlənmədi. 1869-cu il fevralın 20-də canişinin baş idarə şurası tərəfindən bəy komissiyalarının işinə baxıldıqdan sonra, aparılmış işlərin nəticələri ümumən məqbul hesab olunmuş və bəzi nəsillər üzrə əlavə sənədlərin toplanılmasının vacibliyi açıqlanmışdı. 1869-cu ildə Şuşa komissiyası, 1870-ci ildə isə Bakı bəy komissiyası öz işlərinə başlamışdı [6, s.3-4].

Bakı quberniyasında isə işə başlamış bəy komissiyası öz fəaliyyət

dairəsini Şamaxı, Lənkəran, Göyçay, Cavad, Bakı və Quba qəzalarında qurmalı idi. Bakı bəy komissiyası Bakı quberniyasında 198 nəslin bəy "şərəfini" etiraf etdi. Şuşa bəy komissiyası Şuşa, Zəngəzur, Nuxa qəzalarında və Yelizavetpol quberniyasının Ərəş pristavlığında ali silkin şəxsi hüquqlarını müəyyənləşdirib başa çatdırmalı idi. Xüsusi tərtib olunmuş qaydalara əsasən Şuşa bəy komissiyasının tərkibinə Şuşa və Zəngəzur qəzalarından 24 nəfər və Ərəş pristavlığı ilə ayrıca Nuxa qəzasından elə bir o qədər də nümayəndə seçmək nəzərdə tutulurdu. Seçkilər hər bir qəzada ayrı-ayrılıqda ali silk tərəfindən səsvermə yolu ilə keçirilirdi [4, s.230].

Nəhayət, Mərkəzi Cənubi Qafqaz Komitəsi bəy komissiyalarının işini bəyəndikdən sonra 1870-ci il mayın 14-də "Cənubi Qafqaz quberniyaları – Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyası ali müsəlman silkindən olan şəxslərin və habelə xəmsə məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında əsasnamə" adlı qanun layihəsi imperator tərəfindən təsdiq olundu və Qafqaz canişininin qərarına müvafiq olaraq 1870-ci il noyabrın 8-də qüvvəyə minirdi [1, s.182]. Buna müvafiq olaraq tezliklə kəndli işləri üzrə quberniya idarələri açılmış, münsif vəzifələri təsis edilmiş, qəzalarda başda münsiflər olmaqla barışıq şöbələri yaradılmışdı. Canişinin sərəncamı ilə kəndli işləri üzrə ibtidai sərəncamlar vermək məqsədi ilə təsis edilən müvəqqəti komissiyaların işləri quberniya divanxanalarının sərəncamına keçirilmişdi [3, s.182].

1870-ci il 14 may "Əsasnamə"si kəndlilərə "özünün bütün pay torpaqlarından istifadə etməkdən" imtina etməklə bəy torpaqlarını icazəsiz olaraq tərk etmək, öz kənd icmasında qalmaq və ya başqasına keçmək hüququnu verirdi. Kəndli torpaqsız keçinə bilmədiyinə görə faktiki olaraq kəndlilər həmin torpaqlarda qalmağa məcbur idilər. Lakin artıq onlar öz torpaq sahibindən qeyri-iqtisadi və icbari feodal tədbirlərinin təsiri altında deyil, iqtisadi cəhətdən asılı idilər [1, s.183]. Bu islahatla formal olaraq feodal asılılığının çox mühüm spesifik xüsusiyyəti olan kəndlinin torpağa təhkim edilməsi qaydası ləğv edilmişdi. Məsələ burasındadır ki, Şimali Azərbaycanda bu xristian aləmi üçün xarakterik olan eybəcər təhkimçilik hüququ heç vaxt olmamışdır [1, s.183].

Kəndlilər pay torpaqlarının əvəzində torpaq sahiblərinin xeyrinə müəyyən mükəlləfiyyətlər daşımalı idilər. Çar hökuməti kəndli islahatının Şimali Azərbaycanda torpaq sahiblərinin təsərrüfatlarına mümkün qədər az zərər vurmasına çalışırdı ki, bunda da məqsəd həmin torpaq sahiblərinin mülklərindəki torpaqlardan əldə olunan gəlirin miqdarının azalmasının qarşısını almaq idi [1, s.184]. Beləliklə, pay torpaqları satın alınana qədər daimi istifadə üçün kəndlilərin ixtiyarına verilirdi və bu torpaqlar mülkədar bəylərin mülkiyyətində qalırdı. Kəndlilər yalnız "vıkup" pulunu ödədikləri təqdirdə torpağın mülkiyyətçisinə çevrilə bilərdilər [1, s.184].

Kəndlilərin öz pay torpaqlarını satın alması məcburi olmasa da, onlara torpaq əldə etmək hüququnun verilməsi burjua xarakteri daşıyırdı. Bu, onunla bağlı idi ki, feodalizm şəraitində mülkədar-bəylər öz torpaqlarını yalnız öz silklərinə mənsub olanlara satmaq hüququna malik idilər. Nəticədə kəndlilərə torpağı satın almaq hüququnun verilməsi, feodalların torpaq üzərindəki silki inhisar hüquqlarına zərbə vururdu. Kəndlilərin vəsaitin olmaması səbəbindən öz pay torpaqlarını almaq imkanları olmasa da, torpaq əmtəəyə çevrilirdi [1, s.184].

"Əsasnamə" 1873-cü ildə kəndlilərlə torpaq sahibləri arasındakı münasibətlərdə yerli xüsusiyyətləri nəzərə alaraq müəyyən cüzi dəyişiklərdən sonra Quba qəzasında da tətbiq olundu. Quba qəzasında rəncbərlərin əkinçiliklə məşğul olmalarından və torpaqlarının olub-olmamasından asılı olaraq onlar ya torpaq payı alaraq torpaq sahiblərindən asılı vəziyyətə düşür, ya da torpaqsız vəziyyətdə azad edilirdilər [1, s.186].

"Əsasnamə" 1877-ci il sentyabrın 3-nə qədər, ali silkə mənsub olmayan və bu kateqoriyaya sonralar şamil edilən bəylərin torpaqlarında yaşayan kəndlilərə də aid edildi. Bu islahat Zaqatala dairəsinə toxunmamış və burada kəndlilərin asılı münasibətləri 1913-cü ilə qədər qalmışdı. İslahat Azərbaycan kənd istehsalçılarının say etibarilə əksəriyyətini təşkil edən xəzinə kəndlilərinə şamil edilməmişdi [1, s.186-187].

1870-ci ilin 14 may islahatı Azərbaycanın mülkədar kəndində asılı münasibətləri ləğv etməmiş, kəndlilərin gələcəkdə də bəylər tərəfindən istismar olunmasına şərait yaratmışdı. Buna baxmayaraq, bu islahat öz məzmununa görə burjua xarakteri daşımış və kənddə mövcud olan obyektiv şəraitin tədricən kapitalist inkişafının tələbatına uyğunlaşmasına səbəb olmuşdur [1, s.187].

XIX əsrin 50-ci illərinin sonu – 60-cı illərinin əvvəllərində mövcud olmuş şəraitinin təsiri altında çar hökuməti burjua xarakterli məhkəmə islahatını tətbiq etməyə məcbur oldu. 1864-cü il noyabrın 20-də II Aleksandr tərəfindən hakim senata imzalanan fərmana əlavə edilən "1864-cü il 20 noyabr məhkəmə nizamnamələri" adlı nizamnamə birləşdirilmiş məhkəmə təsisatları, cinayət məcəlləsi, mülki məcəllə və andlı hakimlər tərəfindən qoyulan cəzaları müəyyənləşdirirdi [1, s.187]. 1864-cü il məhkəmə islahatı silki məhkəmələrin bütün silklər üçün ümumi olan məhkəmələrlə əvəz olunması və buna müvafiq olaraq məhkəmə instansiyalarının sayının azalması baxımından müsbət əhəmiyyətə malik olsa da, hakim təbəqə tərəfindən və mütləqiyyət quruluşu şəraitində keçirilmiş bu islahat da yarımçıq xarakterə malik idi [1, s.187-188].

Burjua məhkəmə quruculuğu və məhkəmə icrasının əsaslarını özündə birləşdirən 1864-cü il məhkəmə islahatı kəndlilər üçün volost məhkəməsini, ruhanilər üçün xüsusi məhkəməni, çar məmurlarının vəzifə cinayətlərinə baxılmasının xüsusi qaydasını, vəzifəli şəxslərin məhkəməyə verilməsinin güzəştli qaydalarını və s. qalıqları qoruyub saxlamışdı [1, s.188].

Şimali Azərbaycanda mövcud olan kənd idarəsi kəndlilərin rəsmi hakimiyyət orqanlarına tabeçiliyini daha da möhkəmləndirməli, onu polis-mütləqiyyət dövlətindən tamamilə asılı vəziyyətə salmalı idi. Bu işin həyata keçirilməsi üçün 1865-ci il avqustun 11-də canişin tərəfindən "Tiflis və Kutaisi quberniyalarında kənd cəmiyyətləri haqqında Əsasnamə" [8, əlavə, s.29] və 1866-cı il avqustun 23-də "Bakı quberniyasında kənd cəmiyyətləri, onların ictimai idarəçiliyi, dövlət və ictimai mükəlləfiyyətləri haqqında Əsasnamə" təsdiq olundu [7, sən. 43678]. 1870-ci il Yelizavetpol quberniyası üçün də belə bir Əsasnamə təsdiq edilmişdi. Bakı quberniyasında 423, Yelizavetpol quberniyasında isə 325 kənd icması yaradılmışdı [1, s.199].

Bu əsasnamələr kəndlilərin bəylərin məhkəmə və polis özbaşınalığından azad edilməsi, kənddə vəzifəli şəxslərin seçkili olmasını təmin etməsi baxımından müəyyən dərəcədə mütərəqqi əhəmiyyətə malik olsa da, bəylər yenə də əvvəlki kənd hakimiyyəti orqanlarına təsir göstərə bilərdilər. Təbii ki, onlar kəndlilər üzərində əvvəlki imtiyazlarını itirmişdilər [1, s.200].

XIX əsrin II yarısında şəhərlərin artdığı, şəhər təsərrüfatının mürəkkəbləşdiyi, Rusiyada ictimai hərəkatın yüksəldiyi bir şəraitdə çarizm şəhər idarəçiliyinin köhnə sistemini saxlamaqda artıq çətinlik çəkirdi. İctimai fəaliyyətin bütün sahələrini iflic edən inzibati qəyyumluğun və özbaşınalığın aradan qaldırılması, eləcə də şəhər özünüidarəsində bütün silklərə aid olan orqanların yaradılması tələbləri hər yerdə irəli sürülürdü [5, s.205-206].

1864-cü ildə Avropa Rusiyasında həyata keçirilmiş Şəhər əsasnaməsinin ilkin layihəsi burjuaziyanın tələblərini müəyyən dərəcədə nəzərə alsa da, çar dövlət aparatının müxtəlif bürokratik instansiyalarında dəfələrlə müzakirə olunması nəticəsində mühüm dəyişikliklərə məruz qalmışdır. Bunların nəticəsində şəhər islahatı ilkin layihəyə nisbətən xeyli məhdud olmuşdu [1, s.190].

Cənubi Qafqaz üçün şəhər əsasnaməsi 1870-ci il iyunun 16-da təsdiq olundu. Çar hökuməti bu islahatın Cənubi Qafqazda həyata keçirilməsini hər vasitə ilə ləngidərək belə bir bəhanə irəli sürürdü ki, guya qeyri-millətlərin şəhər özünüidarəsinin təşkil olunmasında təcrübələri yoxdur və bu islahat şəhər əhalisi üçün artıq xərclərə səbəb olacaq [5, s.206-207].

Şimali Azərbaycanda bir çox şəhərlərin xeyli böyüməsinə, əhalisinin sayının artmasına baxmayaraq, onlar polis idarələrinin sərəncamında qalmaqda davam edirdi. Bakı qubernatoru Kolyubyakin yerli əhalinin guya kifayət qədər inkişaf etmədiyini bəhanə gətirərək şəhərlərin idarə olunması işini polisin əlində saxlamağı, şəhər dumalarını isə polisin yanında məşvərətçi orqan kimi yaratmağı təklif edirdi. O, 1870-ci il şəhər əsasnaməsinin sınaq kimi yalnız Bakı şəhərində tətbiq edilməsini mümkün hesab edirdi. Yelizavetpol qubernatoru da eyni mövqedən çıxış edərək şəhər təsərrüfatına aid olan işlərin polis idarələri vasitəsilə və Nuxa ilə Şuşadakı qaydalar əsasında idarə olunmasını təkid edirdi [1, s.190-191].

Qubernatorların mövqeyi canişin tərəfindən bəyənilmiş və 1874-cü il 28 oktyabr tarixli fərmana əsasən canişinin təklifləri nəzərə alınaraq diyarın müxtəlif şəhərlərində özünüidarə orqanlarının tətbiq edilməsi ardıcıllığını təyin etmək vəzifəsi Qafqaz hakimiyyət orqanlarının öz səlahiyyətlərinə verilmişdi [1, s.191].

Şəhər əsasnaməsinin təsdiq olunmasından yalnız 8 il sonra – 1878-ci ildə bu islahat Şimali Azərbaycanda ilk dəfə olaraq Bakı şəhərində tətbiq olundu. Şəhər özünüidarə orqanlarının səlahiyyətləri yerli təsərrüfat məsələləri ilə – şəhər rüsumları və vergilərinin tətbiq olunması, küçələrin, meydanların və körpülərin təmiz saxlanılması, bazarların təşkil olunması, yanğına qarşı təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi və s. ilə məhdudlaşırdı [5, s.208-209].

1870-ci il şəhər islahatına müvafiq olaraq seçkilərdə iştirak etmək hüququ yalnız müəyyən əmlak senzinə malik olanlara və şəhər vergilərini ödəyənlərə, başqa sözlə desək, ev sahiblərinə, tacirlərə, fabrik və zavod sahiblərinə verilirdi. Xüsusi şəxslər istisna olmaqla vergiləri ödəyən idarələr, müəssisələr, cəmiyyətlər, şirkətlər, monastırlar və kilsələr də seçki hüququndan istifadə edə bilərdilər [1, s.191].

Şəhərin xeyrinə yığılan və vergilər qoyulan binalara malik olmayan fəhlələrə, xırda qulluqçulara və sənətkarlara seçki hüququ verilmirdi. Qadınlar və 25 yaşına çatmamış bütün gənclər seçici korpusundan tamamilə kənarlaşdırılmışdılar. Nəticədə qlasnıların seçilməsi prosesinə şəhər əhalisinin yalnız 2-3%-i buraxılırdı. Məlum olur ki, bu islahat fəhlələri seçki hüququndan məhrum edirdi [1, s.191-192].

Şəhər əsasnaməsinin nöqsan və çatışmazlıqlarına baxmayaraq, həmin əsasnamə hər halda mütərəqqi addım sayılır, başqa sözlə desək, Rusiya şəhərlərinin kapitalistcəsinə inkişafı tələbatına uyğun gəlirdi. Bu əsasnamə şəhər özünüidarəçiliyinin xüsusi orqanlarının təşkil olunmasını nəzərdə tuturdu ki, bu da Şəhər əsasnaməsinin tətbiq olunmasına qədər şəhər təsərrüfatı, abadlıq işləri və digər sahələrlə heç kimin məşğul olmadığı Bakı kimi şəhərlər üçün xüsusi vacib əhəmiyyət kəsb edirdi [5, s.214].

Beləliklə, XIX əsrin 60-70-ci illərinin islahatları özlərinin obyektiv və sosial-iqtisadi məzmununa görə burjua islahatları idi. Çar hökuməti bir sıra güzəştlər yolu ilə bütöv dövlət sisteminin mütləqiyyət-zadəgan xarakterini qoruyub saxlaya bilmişdi [1, s.195]. Burjua islahatlarının tətbiq edilməsi Şimali Azərbaycanda kapitalist münasibətlərinin meydana gəlməsi və iqtisadiyyatın kapitalist inkişafı yoluna qədəm qoymasına şərait yaratsa da, fəhlə və kəndli təbəqələrinin əmək və məişət şəraitinə müsbət təsir göstərməmişdir. Kəndlilər iqtisadi baxımdan öz sahibkarlarından yenə də asılı vəziyyətdə qalmaqda davam edirdilər. Sənaye sahələrində çalışan fəhlələrin hüquqları çar hökuməti orqanları tərəfindən pozulur, onların aldıqları məvacib sərf etdikləri əməyin dəyərinə görə ödənilmirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 clddə, IV c. (XIX əsr), Bakı: Elm, 2000, 504 s.
2. *Məmmədov Ə.F.* Şimali-qərbi Azərbaycan. Zaqatala dairəsi. Bakı: Adiloğlu, 2001, 119 s.
3. *Авалиани С.Л.* Крестьянский вопрос в Закавказье: в 4-х ч. Ч. 3, Одесса: Типография техник, 1914, 180 с.
4. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Ч. 2. М-Л.: Издательство АН СССР, 1937, 478 с.
5. *Мильман А.Ш.* Политический строй Азербайджана в XIX – начале XX вв. Баку: Азербайджанское Государственное Издательство, 1966, 317 с.
6. *Николай А.П.* Отчет по Главному управлению наместника Кавказского за первое 10-летие управления Кавказским и Закавказским краем князем Михаилом Николаевичем 6 декабря 1862 г., 6 декабря 1872 г. Тифлис: Типография главного управления наместника Кавказского, 1873, 477 с.
7. Полное собрание законов Российской империи (ПСЗРИ). Собрание второе. Т. 12, Отделение второе, 1837. С-П.: Типография II отделения Собственной Е.И.В. Канцелярии, 1838, 1067 с.
8. *Эсадзе С.С.* Историческая записка об управлении Кавказом: в 2-х т. Т. 1, Тифлис: Типография Гуттенбергъ, 1907, 636 с.


Redaksiyaya daxil olub 11.11.2021

*UOT 327*

***S.A.Əliyeva***
*Bakı Slavyan Universiteti*
*aliyevasabina23@ymail.com*

# ADNAN MENDERES HÖKUMƏTİ DÖVRÜNDƏ TÜRKİYƏNİN KİPR SİYASƏTİ

***Açar sözlər:*** *Kipr problemi, A.Menderes hökuməti, Türkiyə, Yunanıstan*

Kipr problemi –1950-ci illərdən etibarən Türkiyənin xarici siyasətinin ən vacib məsələlərindən biridir. 1950-60-cı illərdə iqtidarda olan Adnan Menderes hökuməti Kipr problemi ilə bağlı fərqli siyasi mövqelər nümayiş etdirmişdir. Bu dövrdə Kipr məsələsi ilə bağlı Türkiyənin ilkin mövqeyi adada icmalararası toqquşmaların qarşısının alınması, İngiltərənin idarəçiliyi altında mövcud status-kvonun davam etdirilməsi ilə bağlı idi. Lakin yunan tərəfinin Enozis siyasətini gerçəkləşdirmək cəhdlərinin və türk icmasına qarşı təzyiqlərinin artması Türkiyənin məsələ ilə bağlı rəsmi mövqeyində dəyişiklik etməsini labüd etdi. Bu baxımdan məqalədə Türkiyənin baş naziri Adnan Menderesin hakimiyyət illərində Türkiyənin Kipr siyasəti təhlil edilmiş, problemin həlli istiqamətində həyata keçirilmiş danışıqlar prosesi, Türkiyənin mövqeyi, səyləri və diplomatik uğurları tədqiq edilmişdir.

***С.А.Алиева***

# КИПРСКАЯ ПОЛИТИКА ТУРЦИИ В ПЕРИОД ПРАВИТЕЛЬСТВА АДНАНА МЕНДЕРЕСА

***Ключевые слова:*** *Кипрская проблема, правительство А.Мендереса, Турция, Греция*

Кипрская проблема – является одним из важных внешнеполитических вопросов для Турции с 1950-х гг. Правительство Аднана Мендереса, находившееся у власти в 1950-60-х годах, демонстрировало различные политические позиции по кипрской проблеме. Первоначальная позиция Турции по вопросу Кипра в этот период была связана с предотвращением межобщинных конфликтов на острове, поддержанием существующего статус-кво под управлением Великобритании. Но растущие попытки греческой стороны реализовать политику Энозиса и давление на турецкую общину заставили Турцию изменить свою официальную позицию по этому вопросу. С этой точки зрения в статье анализируется политика Турции на Кипре в годы правления премьер-министра Турции Аднана Мендереса, изучается переговорный процесс по решению проблемы, позиция Турции, ее усилия и дипломатические успехи.

***S.A.Alıyeva***

## THE CYPRUS POLICY OF TURKEY DURING THE GOVERNMENT OF ADNAN MENDERES

***Keywords:*** *The Cyprus problem, A.Menderes government, Turkey, Greece*
The Cyprus problem has been one of the most important foreign policy issues for Turkey since the 1950s. The government of Adnan Menderes, which was in power in the 1950- 60s, demonstrated various political positions on the Cyprus problem. Turkey's initial position on Cyprus during this period was to prevent inter-communal conflicts on the island, maintaining the existing status quo under British rule. But the growing attempts of the Greek side to implement the Enosis policy and pressure on the Turkish community forced Turkey to change its official position on this issue. From this point of view, the article analyzes Turkey's policy in Cyprus during the reign of Turkish Prime Minister Adnan Menderes, examines the negotiation process to resolve the problem, Turkey's position, its efforts and diplomatic successes.

14 may 1950-ci ildə keçirilən seçkilərdə qələbə qazanan və 27 may 1960-cı ildə hərbi çevrilişlə iqtidardan uzaqlaşdırılan Adnan Menderesin rəhbərlik etdiyi Demokrat Partiya iqtidarı hakimiyyətdə olduğu 10 il ərzində Kipr məsələsi ilə bağlı müxtəlif siyasi mövqe nümayiş etdirərək 3 fərqli siyasət həyata keçirmişdir. Hakimiyyətinin ilk illərində Demokrat Partiya iqtidarı bu istiqamətdə sələfi CHP-nin siyasətini davam etdirmişdir. Belə ki, A.Menderesin ifadəsi ilə «Anadolunun davamından ibarət və onun təhlükəsizliyinin əsas nöqtələrindən biri» olan Kiprdə ən ideal həll o dövr Türkiyə hökumətinin fikrincə, adanın İngiltərənin idarəçiliyində qalmaqda davam etməsi idi. Bu səbəbdən Türkiyə Kipr məsələsinin yalnız İngiltərəni maraqlandıran məsələ olduğunu hesab edərək adadakı problemlərlə bağlı hər hansı siyasi kurs açıqlamaqdan çəkinmiş, Lozanna sülh müqaviləsi ilə formalaşdırılmış status-kvonun davam etdirilməsini müdafiə edərək İngiltərənin daxili işinə qarışmamaq siyasətini həyata keçirmişdir. Lakin İngiltərə Kiprdən imtina etdiyi təqdirdə ada Türkiyəyə verilməli idi. Beləliklə, 1950-ci illərin I yarısında Menderes hökumətinin Kiprlə bağlı xarici siyasətinin təməlini tanınmış siyasətçi Şükrü Gürelin ifadəsi ilə "İngiltərənin siyasətindən fərqli siyasət həyata keçirməmək, adanın statusunda hər hansı dəyişiklik edilməməsinin zəruriliyini müdafiə etmək, əgər statusda dəyişiklikdən söhbət gedərsə, bunda Türkiyənin də mütləq söz sahibi olması" [20, s. 87] müddəası təşkil etmişdir.

1950-ci ilin yanvarında Kiprdə yunan kilsələrində başlayan fəallaşma 8 oktyabrda Kitium yepiskopu Makariosun (Mixail Xristodolu Muskos) Kiprli yunan pravoslavların baş yepiskopu seçilməsi ilə daha da təşkilatlanmış hal aldı. Belə ki, Makarios baş yepiskop seçildiyi andan Enosisi gerçəkləşdirmək

məqsədilə Yunanıstan, İngiltərə və Amerikaya tez-tez səfərlər edərək pravoslav kilsələri və rəsmi dairələrlə əlaqələr yaratmış, onların yardımlarını təmin etmiş və bu yolla Enosis istiqamətində geniş təbliğat kampaniyasını gerçəkləşdirmişdir [6, s.88]. 1951-ci ilin ortalarından etibarən Makariosun səylərini Yunanıstan hakim dairələri açıq şəkildə dəstəkləməyə başlayır. Yunanıstan baş naziri Sofoklis Veneziolos 16 fevral 1951-ci ildə parlamentdəki çıxışında Kipr məsələsi ilə bağlı dövlətin rəsmi mövqeyini belə ifadə etmişdir: "Biz Kipr adasının ilhaqını bu gün deyil, 1915-ci ildən bəri dəfələrlə xahiş etdik. O zamandan bu günə qədər iş başına gələn bütün Yunanıstan hökumətləri də bu tələbi təkrarladılar. Biz yeni bir müraciət etmədiksə, bundan bu məsələdən imtina etdiyimiz nəticəsi çıxarılmamalıdır. Sükutumuz siyasi təfəkkürümüzün zəruri təzahüründən ibarətdir. Həqiqətdə Kipri istəməkdən heç bir zaman imtina etməyəcəyik" [18].

Yunanıstanın və kiprli yunanların Enosisi gerçəkləşdirmə cəhdləri qarşısında türk ictimaiyyəti səssiz qalmamış, İstanbul və Ankarada tələbələr də Enosisə qarşı mitinqlər təşkil etmişdir. Lakin hakim Demokrat Partiya Kipr məsələsində öz mövqeyini dəyişməyərək İngiltərədən başqa hər hansı bir dövlətin ada üzərində haqq tələb etməsini qəbul etməmişdir. Bununla yanaşı, Menderes hökuməti 1951-ci ilin sonlarına qədər NATO-ya üzv qəbul edilməyi xarici siyasətin başlıca məqsədi hesab edirdi və bu səbəbdən Kipr məsələsinin NATO-ya qoşulmaq prosesinə mane ola biləcəyini düşünərək mitinqlərin keçirilməsinə belə qarşı çıxırdı. Hətta 18 fevral 1952-ci ildə Türkiyə NATO-ya daxil olduqdan sonra belə iqtidarın Kipr məsələsində mövqeyi dəyişmədi və hətta NATO üzrə müttəfiqləri olan İngiltərə və Yunanıstanla münasibətlərinin Kipr məsələsinə görə pisləşməsindən belə ehtiyatlanırdı [10, s.263-264].

Türkiyə hökumətinin bu mövqeyinin əksinə olaraq Makariosun təşəbbüskarlığı və təzyiqi ilə Yunanıstan 1954-cü ilin mart ayından etibarən İngiltərədən Kiprin Yunanıstana ilhaq edilməsini tələb etməyə başlamışdır. Bu zaman Türkiyə İngiltərə ilə birlikdə hərəkət edərək adadakı türk əhalinin varlığı və adanın Yunanıstandan daha çox Türkiyə ilə olan coğrafi yaxınlığı kimi əsaslarla adanın Yunanıstana birləşməsinə – Enosisə qarşı olduğunu açıqlamışdır. 3 may 1954-cü ildə Yunanıstan baş naziri Papaqos Kipr problemini BMT Baş Assambleyasının müzakirəsinə çıxaracağını bəyan etmişdir. Hələ 1949-cu ildə Kiprdəki bütün türk qurum və birliklərini birləşdirmək məqsədilə təsis edilmiş və Enosisə qarşı mübarizədə fəaliyyəti koordinasiya edən "Kipr Türk Qurumları Federasiyası" baş verənlərdən narahat olaraq [11, s.391] Türkiyədən yardım tələb etmişdir. Nəticədə Türkiyə Afinadakı səfirliyi vasitəsilə Yunanıstan hökumətinə çatdırdığı notada Türkiyənin adadakı status-kvonun qorunmasından yana olduğunu, əgər adanın gələcəyi ilə bağlı hər hansı bir cəhd göstərəcəklərsə, bu məsələdə Türkiyənin də bir tərəf kimi görülməsinin mütləq olduğu və problemin BMT-yə çıxarılmasının türk-yunan münasibətlərinə mənfi təsir edəcəyini bəyan

etməklə kifayətlənmişdir [19, s.12]. Bu notaya əhəmiyyət verməyən Yunanıstan 16 avqust 1954-cü ildə Kipr probleminin öz müqəddəratını təyinetmə haqqı çərçivəsində həll edilməsi üçün BMT-yə müraciət etdi və bununla da Kipr problemi beynəlxalq arenaya çıxarıldı. 1954-cü ilin 23 sentyabrında Yunanıstanın "BMT-nin himayəsi altında olan xalqların bərabər hüquqları və öz müqəddəratını təyin etmək prinsipi"nin Kipr adasında yaşayan əhaliyə tətbiq edilməsi ilə bağlı müraciəti səsverməyə çıxarıldı və nəticədə 19 əleyhinə, 12 bitərəf və 30 lehinə səslə məsələnin gündəmə gətirilməsi qərara alındı [14, s.286]. BMT Baş Assambleyasının 1954-cü il 17 dekabr tarixli IX sessiyasının 514-cü plenar iclasında Yunanıstanın müraciəti müzakirə olundu. Lakin BMT Baş Assambleyası o dövr üçün Kipr problemi ilə bağlı qərar qəbul etməyi münasib hesab etmədiyini və məsələyə daha sonra da baxılmayacağını bəyan edərək qətnamə layihəsini səsə qoymadı və Yunanıstanın müraciətini rədd etdi [22].

Lakin qərardan razı olmayan Makariosun rəhbərlik etdiyi kilsə Yunanıstanın da dəstəyi ilə adada ingilislərə qarşı mübarizə aparmaq qərarına gəldi və məsələni silah gücü ilə həll etməyi qərarlaşdırdı. Kipr yunanları ümumi tətil təşkil etdilər və 18 dekabr 1954-cü ildə Britaniya qoşunları ilə qarşı-qarşıya gəldilər və nəticədə 37 nəfər yaralandı. Yunan polkovniki Georgios Qrivas 1954-cü il 10 noyabrda Britaniya müstəmləkə hökumətinə qarşı kiprli yunanların üsyan hərəkatının rəhbəri kimi Kiprə gəldi. Georgios Grivasın komandanlığı altında rəsmi olaraq 13 yanvar 1955-ci ildə Kipr Döyüşçülərinin Milli Təşkilatı – EOKA (Ethniki Organosis Kyprion Agoniston) (British Cyprus (1914-1960) // https://uca.edu/politicalscience), OXEN (Gənclərin Xristian Pravoslav İttifaqı) və PEON (Kipr Enosisçi Gənclik Təşkilatı) kimi təşkilatlar yaradılmışdır. Bu təşkilatlar 1 aprel 1955-ci ildə ingilisləri adadan çıxartmaq, türkləri isə məhv etmək məqsədilə faəliyyətə başlamışdırlar. 1 apreldən başlayan hadisələr nəticəsində aralarında kiprli türklərin, Britaniya əsgərləri və mülki şəxslərin, eləcə də kiprli yunanların olduğu 600-ə yaxın insan qətlə yetirilmişdir [23].

EOKA-nın həyata keçirdiyi bu və digər terror hadisələrində türklərin də hədəfə alınması Demokrat Partiyanın Kipr siyasətinin dəyişməsində təsirli olmuşdur. Türkiyənin dövlət başçısı Cəlal Bayar 2 iyul 1955-ci il tarixində "Daily Telegraph" qəzetində yayımlanan müsahibəsində Lozanna Sülh Müqaviləsi ilə "Meqali İdea"nın artıq tarixə qovuşduğunu, lakin yunanların bu idealı yenidən canlandırmağa çalışdığını, Türkiyənin isə qətiyyən Kiprin Yunanıstana verilməsinə icazə verməyəcəyini bəyan etmişdir [6, s.90].

Prezident Cəlal Bayar 24 avqust 1955-ci ildə İstanbuldakı nitqində Kiprin iki icma arasında bölüşdürülməsinə qarşı çıxaraq adanın Türkiyəyə qaytarılmasını istəmiş, Türkiyənin Kipr siyasətində artıq qətiyyətli mövqeyini nümayiş etdirmişdir [2, s.170-173]. Adadakı gərginliklərin şiddətli xarakter alması nəticəsində İngiltərə Yunanıstan və Türkiyəni Londona məsələ ilə bağlı danışıqlar aparmağa dəvət etdi. 29 avqust-7 sentyabr tarixlərində keçirilən London konfransda Türkiyə Xarici işlər

naziri Fatin Rüştü Zorlunun çıxışı, nümayiş etdirdiyi mövqeyi Menderes hökumətinin Kipr siyasətində yeni bir mərhələyə keçdiyini söyləməyə imkan verir. Məhz London konfransında Türkiyə ilk dəfə öz siyasətini formulə edə bilmişdir. Belə ki, konfransda Türkiyənin baş nazirinin müavini F.R.Zorlu öz çıxışında bəyan etmişdir: "…Şərqi Aralıq dənizinin şimal məntəqəsindəki asayiş birbaşa London konfransında bir araya gəlmiş bu üç dövlətin səmimi və sıx əməkdaşlığından asılıdır. Çünki bu dövlətlərin bu məntəqədə olan əraziləri bir-birilərinə elə qarışmışdır ki, aralarında hər hansı birliyin mövcud olub-olmamasından asılı olaraq müdafiələri ya zəifləyər, ya da güclənər. Bu səbəblə bu dövlətlər arasında tam bir etimad və qarşılıqlı təhlükəsizlik hissi hökm sürməlidir…" [2, s.170-173].

Konfransda Türkiyə tərəfi adadakı status-kvo qorunmadığı təqdirdə adanın Türkiyəyə geri verilməsini tələb etmiş, perspektivdə isə problemin həlli yolu olaraq İngiltərənin təklif etdiyi "self-government" prinsipini, yəni özünüidarəetmə prinsipini təklif etmişdir [21, s.58]. Yunanıstan tərəfinin "self-determination", yəni öz müqəddəratını təyinetmə prinsipini müdafiə etməsinə isə F.R.Zorlu bu prinsipin BMT nizamnaməsində kifayət qədər açıqlanmadığını, beynəlxalq münasibətlər tarixində bir çox dəfə coğrafi və hərbi amillərin bu prinsipə üstün gəldiyini açıqlamışdır. Türkiyə tərəfi həmçinin təhdidlərin dayandırıldığı, din adamlarının siyasətə müdaxiləsinin qarşısının alındığı, kiprli türklərə və yunanlara bərabər siyasi təmsilçilik hüququnun verildiyi və adanın müqəddəratının kiprli yunan çoxluğunun qərarı ilə təyin edilməsi tələbinin təmin edilmədiyi təqdirdə Kiprdə muxtariyyət idarəçilik formasının qəbul ediləcəyini bəyan etmişdir. Lakin Zorlunun idarəçilik baxımından iki xalqın bərabərliyi prinsipini müdafiə etməsinə Yunanıstanın qarşı çıxması və ümumiyyətlə konfransda hər 3 tərəfin fərqli mövqe nümayiş etdirməsi, eyni zamanda konfransın gedişi zamanı baş verən 6-7 sentyabr hadisələri konfransın müsbət nəticə əldə etmədən yekunlaşması ilə nəticələnmişdir. Belə ki, qeyd edilən hadisə 5 sentyabrda İstanbul Ekspress Qəzetinin Selanikdə "Atatürkün evinə bomba atıldı" başlıqlı yalan xəbərlə başlamış, nəticədə 6-7 sentyabrda İstanbul, İzmir və Ankarada yunanların daşınan və daşınmaz mülkiyyətləri talan edilmişdir. Yunanıstan baş naziri Maraşel Papaqos bu hadisələrin ingilislər tərəfindən qızışdırıldığı [6, s.91], London konfransının isə Türkiyə-Yunanıstan münasibətlərinin pozulması məqsədilə təşkil edilmiş oyun olduğu bəyanatları ilə çıxış etdi. Lakin baş verənlər adada mövcud vəziyyətin gərginləşməsinə, icmalararası toqquşmaların artmasına səbəb oldu. London konfransının Türkiyə üçün yeganə müsbət tərəfi Kipr məsələsində söz sahibi kimi özünü təsdiqləməsi və məsələdə artıq qətiyyətli mövqeyini nümayiş etdirməsi oldu.

Adadakı toqquşmaların şiddətlənməsi həmçinin Makariosun fəaliyyəti ilə də bağlı idi. 22 sentyabr 1955-ci ildə Makarios Kipr məsələsi ilə bağlı "passiv siyasət" izləyəcəyi, yəni bundan belə şiddət siyasətinə son verəcəyini açıqlamışdır. Onun elan etdiyi boykot planına görə, vergilər ödənilməyəcək və bu vəziyyətdə ingilis hökuməti mallarını satışa çıxaracaq, lakin heç kim bu malları satın

almayacaqdır. Bir müddət sonra müəllimlər də məktəblərə getməyəcək, şagirdlər özəl dərslər alacaqdırlar. Yüksək vəzifəli məmurlar istefa verəcək, kiçik vəzifəli məmurlar isə ümumi tətil keçirəcək, polislər də vəzifələrindən istefa verəcəklər. Plana müvafiq olaraq 22 sentyabr 1955-ci ildə Kipr İcra Şurasının yunan üzvləri ingilis hökumətinin hökmranlıq tələbini Kipr xalqının heç bir zaman qəbul etməyəcəyini əsas gətirərək istefa ərizələrini Kipr qubernatoru Ser Robert Armitaja verdilər [6, s.92].

Kiprli yunanların boykotu qarşısında ingilislər xüsusilə polis kadrlarını türklərdən seçməyə başladılar. Bu da onları kiprli yunan təşkilatlarının hədəfinə çevirirdi. Kiprli yunan milliyyətçilərinin lideri Georgias Qrivasın rəhbərliyi ilə silahlı təşkilatlar ingilislərə və adadakı polislərə qarşı hücumlarını artırdılar. Buna cavab olaraq adadakı türklər də öz silahlı təşkilatını – Türk Müqavimət Təşkilatını yaratdılar.

Digər tərəfdən Makarios bəyan etdiyi "passiv siyasət" planına uyğun olmayaraq bir müddət sonra terror fəaliyyətlərini açıq şəkildə dəstəkləməyə başladı. Belə ki, Makariosun qəzetə verdiyi müsahibədə "EOKA-nı nədən qınamadığı" sualına "EOKA xalq tərəfindən saxlanılır. Xalqın arzusunun əksinə olaraq EOKA-nı mənim qınamağım heç də düzgün deyildir" [17, s.20] cavabı bunun əyani təsdiqidir.

London konfransından sonra kompromissə nail olmaq üçün ingilis hökuməti Makariosla 1955-56-cı illərdə danışıqlar aparsa da, heç bir müsbət nəticə əldə edilməmişdir. Nəticədə 1956-cı ilin martında Makarios 3 dostu ilə birlikdə Hind okeanındakı Seyşel adalarına sürgün edilmişdir [17, s.20]. Lakin bu, adadakı toqquşmaların daha da şiddətlənməsinə səbəb olmuşdur. Belə ki, Makariosun sürgünündən sonra ilk 20 gün ərzində Kiprdə baş verən hadisələrdə 22 nəfər öldürülmüş (2 türk, 8 ingilis və 12 EOKA-çı) və 39 nəfər də yaralanmışdır. Hadisələrdə təqsirləndirilmiş 2 kiprli yunana ölüm cəzasının verilməsindən sonra 9 may 1956-cı ildə Afinada baş vermiş hadisələrdə 7 nəfər ölmüş, 200 nəfər də yaralanmışdır. 26 iyun 1956-cı ildə EOKA hərbçiləri onları izləyən ingilis əsgərlərinin olduğu meşəni yandırmaları nəticəsində 19 ingilis əsgər ölmüş, 18-i də yaralanmışdr. Kipr qubernatoru Hardinqin baş verən hadisələr haqqında İngiltərə XİN-ə məlumat verərkən EOKA-çılar haqqında "dangerous maniacs", yəni "təhlükəli manyaklar" ifadəsini işlətməsi adada baş verənlərin şiddətini nümayiş etdirirdi [6, s.92].

Adadakı qarşıdurmanın güclənməsi İngiltərənin Kiprdəki mövqeyini xeyli dərəcədə zəiflətmişdir. Eyni zamanda bu vəziyyət Türkiyənin adadakı mövcud status-kvonun saxlanılması istiqamətindəki siyasətinin böhrana uğramasına səbəb oldu. Beləliklə, icmalar arasında baş verən qarşıdurmalar adada ingilis istilası altında iki xalqın birgə yaşaya biləcəyi dövlət modelini süquta uğratdı.

1956-cı ilin dekabr ayından etibarən A.Menderes hökumətinin Kipr siyasətində ciddi dəyişiklik özünü göstərmişdir. Artıq hökumət bu dövrədək

müdafiə etdiyi mövcud status-kvonun qorunub saxlanılması və adanın Türkiyəyə qaytarılması tələbini yox, öz müqəddəratını təyin etmək və "taksim" fikrini irəli sürməyə başlamışdır [16, s.23]. Türkiyə hökuməti artıq 1956-cı ilin 20 dekabrından adanın Türkiyə və Yunanıstan arasında coğrafi "taksim" edilməsi [4, s.32] fikrini müdafiə etməyə başladı. Yunanıstanın mərhələli şəkildə Enosisi həyata keçirmək cəhdlərinin qarşısını almaq üçün türk hökuməti taksim siyasətini preventiv addım olaraq irəli sürmüşdür. Belə ki, A.Menderes hökuməti 28 dekabr 1956-cı ildə Kiprin iki icma arasında faktiki olaraq bölünmüş olması qarşısında adanın Yunanıstan və Türkiyə arasında bölüşdürülməsi fikrini ehtiva edən «taksim ideyası»nı dəstəklədiyini açıqlamışdır [3, s.126-127]. Lakin taksim ideyası adada hələ də böyük gücə malik olan İngiltərə tərəfindən müsbət qarşılanmadı. İngilis hökumətinin əsas məqsədi adadakı bazalarını zəmanət altına almaq idi və bu səbəbdən Kipr problemini özünün də söz haqqına sahib olacağı müstəqil Kipr dövlətinin qurulması yolu ilə həll etməyə çalışırdı.

Eyni zamanda 1956-cı ilin yanvarından etibarən İngiltərənin Kipr siyasətinin mülayimləşməsi də özünü göstərirdi. Belə ki, İngiltərə adada baş verən proseslərin davam etməsinin Kipr üzərindəki nəzarətinin tamam itirilməsi ilə nəticələnəcəyindən ehtiyatlanaraq liberal konstitusyon nizamın qurulması iqtiqamətində səylərini artırmışdır. Bu istiqamətdə atılan ilk addım məşhur britaniyalı hüquqşünas Lord Radkliff tərəfindən Kiprin Konstitusiyasının layihəsinin hazırlaması oldu. Bu layihədə İngiltərənin adadakı mütləq hökmranlığının davam edəcəyi təməl kimi götürülmüşdür. Belə ki, layihəyə əsasən, Kiprin Konstitusiyası ada ingilislərin hakimiyyəti altında olduğu müddətdə hazırlanacaq, Kipr bir baza olaraq ingilis hökumətinin beynəlxalq öhdəliyində olacaq və İngiltərənin digər müttəfiq dövlətlərlə münasibətlərində İngiltərə tərəfindən istifadə ediləcəkdir. Konstitusiya layihəsinə görə, siyasi təmsilçilik sistemində Kiprin türk və yunan xalqları arasında bərabərliyin təsbit edilməsi başlıca prinsip kimi qəbul edilsə də, türklərin adada azlıq olduğu və əhalinin cəmi 20%-ni təşkil etdiyi faktı əsas götürülərək xalqlararası bərabərlik təmin edilməmişdir. Belə ki, 36 üzvlük Kipr Məclisində kiprli türklər 6, kiprli yunanlar isə 24 üzv ilə təmsil olunacaqdır, qalan 6 üzv isə Kipr Qubernatoru tərəfindən müəyyənləşdiriləcəkdir. Yəni adada bütün idarəçilik qərarlarının qəbul edilməsi ingilis qubernatorunun səlahiyyətinə verildi. Bundan başqa Konstitusiya layihəsinə görə, parlamentin yunan qrupuna öz icmasını maraqlandıran qanunları dəyişdirmə səlahiyyəti verilmiş, lakin türk deputatlarının belə haqqı qanunun yalnız parlament çoxluğu tərəfindən qəbul edilməsindən və ümumi qubernatorun təsdiqinə verilməsindən sonra təmin edilmiş olacaqdır. Kabinetdə də Kiprin türk icmasına 1 nazirliyin ayrılması nəzərdə tutulmuşdur [25].

Lord Radkliffin hazırladığı konstitusiya layihəsini Makarios sürgündə olduğundan nəzərdən keçirməkdən imtina etdi. Türkiyəyə və Yunanıstana birbaşa İngiltərə müstəmləkələr naziri Lennoks-Boyd tərəfindən şəxsən təqdim edilmiş bu

konstitusiya layihəsi Yunanıstan tərəfindən də qətiyyətlə rədd edildi, kiprli türklər tərəfindən mənfi qarşılandı. Bu çərçivədə baş nazir A.Menderes ilə Lennoks-Boyd arasında 16 dekabr 1956-cı ildə görüş keçirildi. Görüş zamanı İngiltərənin ada xalqına öz müqəddəratını təyinetmə haqqını vermək niyyətini duyan Menderes bildirmişdir ki, konstitusiya mətnində sadəcə "öz müqəddəratını təyinetmə haqqı"nın verildiyi qeyd edilərsə, bu, türk ictimaiyyəti tərəfindən Enosisə doğru bir addım kimi qiymətləndiriləcəkdir və bu səbəbdən də konstitusiya mətninə öz müqəddəratını təyinetmə haqqı ilə yanaşı, türklərə "taksimi istəmə haqqı"nın da verilməsinin qeyd edilməsini istəmişdir. Nəticədə Lennoks-Boyd layihə mətnində Menderesin fikirlərinə uyğun dəyişiklik etmişdir. Belə ki, konstitusiya layihəsində Menderesin istəyi nəzərə alınaraq dəyişdirilən ifadə belədir: "Bu o deməkdir ki, öz müqəddəratını təyinetmə tətbiq edilərsə, bu halda adanın beynəlxalq statusunun dəyişdirilməsi məqsədilə seçki keçiriləcək, kiprli türklər taksimi seçmək hüququna malik olacaqlar" [7, s.80].

19 dekabr 1956-cı ildə Lennoks-Boyd İngiltərə parlamentində verdiyi bəyanatda Menderesin istəyi ilə etdiyi dəyişiklik haqqında belə demişdir: "…Lord Redkliffin hazırladığı Konstitusiya ingilis hakimiyyəti altında muxtar Kipr dövlətini formalaşdırmaqdadır. Adanın mümkün statusuna gəlincə, Zati-alilərinin Hökuməti öz müqəddəratını təyinetmə prinsipini tanıdığını təsdiq edir. Millətlərarası və strateji durum imkan verdikdə, muxtar idarəçiliyin də qənaətbəxş işləməsi şərtilə Zati-alilərinin Hökuməti öz müqəddəratını təyin etmə prinsipinin tətbiqi məsələsini yenidən nəzərdən keçirməyə hazır olacaqdır. Bu zaman gəldiyində, yeni şərtlər nəzərə alındıqda öz müqəddəratını təyinetmə prinsipinin tətbiqinin Kiprin xüsusi vəziyyətində türk icmasına Kiprin yunan icmasından daha az olmayacaq şəkildə, öz gələcək statusunu təyinetmə azadlığını verəcək tərzdə icrasını təmin etmək Zati-alilərinin Hökumətinin məqsədi olacaqdır…" [7, s.82].

Bu hadisədən sonra Türkiyənin Kipr siyasətinin dəyişdiyi və Kiprin Konstitusiya layihəsinin məqbul hesab edildiyi baş nazir A.Menderesin 28 dekabr 1956-cı il tarixli bəyanatında açıq şəkildə görünməkdədir. Belə ki, TBMM-də çıxış edən Adnan Menderes Türkiyənin Kipr siyasətində etdiyi dəyişikliyi belə ifadə etmişdir: "Türk hökuməti taksim məsələsini bir iltifat təklifi kimi qəbul edir… Adanın taksimi oradakı həmvətənlərimizin türk bayrağı altında yaşamalarını təmin edəcək və Kipr Türkiyə üçün hər hansı bir təhdid meydanı olmaqdan tamamilə çıxacaqdır… Lakin dünyanın bu qarışıq zamanında Türk dövlətinin problemləri Kipr adasından ibarət deyildir. Türkiyə bütün maddi, mənəvi potensialı ilə bu Kipr məsələsinə özünü bağlayacaq bir dövlət deyildir. Bunu saxlayaq, belə bir hərəkət millətlərin ictimai həyatları təhlükədə olduğu zamanda həm özümüzə daha böyük qayğılar, həm də dünyanın başına daha böyük müşkül məsələlər açmaqdan başqa bir şey ifadə etməyəcəkdir" [5, s.357]. Bu tarixdən sonra baş nazirlə yanaşı, digər hökumət nümayəndələri də adanın Yunanıstan və Türkiyə arasında bölünməsinin tərəfdarı olduğunu dəfələrlə bəyan etmişlər. Digər tərəfdən 1956-cı ilin payızında

Yunanıstanın səlahiyyətli nümayəndələrinin də Türkiyəni problemin həllinə razı salmaq baxımından taksim formuluna meyilli olduğu nəzərə çarpırdı. Nihat Erimin 24 dekabr 1956-cı il tarixli hesabatında taksim fikrinin Türkiyə, İngiltərə, Yunanıstan, ABŞ hökumətləri arasında gizli və rəsmi bir sıra görüşlərdə müzakirə olunduğu və hətta Belçika Xarici işlər naziri M.Speakın vasitəçilik təklif etdiyi açıqca qeyd edilmişdir. Bu siyasətin həyata keçirilməsi ilə bağlı əsas çətinlik isə adada icmaların birgə yaşadığı bölgələrin çox olması səbəbindən taksim variantının nəzərdə tutduğu məcburi mübadilənin mənfi təsirlərinin böyük olacağı idi [15, s.141].

Lakin Radkliffin Konstitusiya layihəsinin kiprli yunanlar və Yunanıstan tərəfindən rədd edilməsi nəticəsində ingilis hökuməti sürgün etdiyi Makariosu azadlığa buraxaraq onunla yenidən danışıqlara başladı. Kipr məsələsində BMT-nin qərarına görə, adanın gələcəyi haqqında danışıqların 3 dövlət arasında keçirilməsi əvəzinə, Makariosla ingilis hökuməti arasında keçirilməsi Türkiyə ictimaiyyətində ciddi reaksiya doğurdu. Menderes hökuməti ingilis hökumətinin Yunanıstan və Makariosla görüşməsindən narahat olaraq taksim fikrini təkidlə müdafiə etməyə başladı. Bu dövrdə ingilislərin EOKA-çılara qarşı nəzarəti yüngülləşdirmələri EOKA-nın türklərə qarşı fəaliyyətlərini gücləndirməsinə imkan verdi. Kiprdə bir müddət əvvəl başlamış icmalararası toqquşmaların getdikcə daha da şiddətli hal alması nəticədə Yunanıstan-Türkiyə münasibətlərinə də ciddi təsir göstərdi. Hələ 1956-cı ilin sentyabrından etibarən Amerika mətbuatında Makariosun və kiprli yunanların xeyrinə məlumatlar dərc edilməyə başlamışdır [12]. Amerika hökumətinin də 1957-ci ildə Kipr məsələsində Yunanıstanın mövqeyindən çıxış etməsi xarici siyasətini NATO və Amerika ilə olan mənfəət birliyi üzərində qurmuş Türkiyə hökumətində çaşqınlığa səbəb oldu və taksim fikri Türkiyə iqtidarı tərəfindən daha təkidlə səsləndirilməyə başlandı. Qeyd edilənlərin nəticəsi olaraq 1958-ci ilin əvvəllərində Türkiyə Kipr məsələsində daha fəal siyasət həyata keçirməyə və taksim fikrinin qəbul edilməsi üçün böyük təbliğat kampaniyasına başladı. Bu dövrdə İngiltərə tərəfindən öz gələcəyini müəyyən etmək istiqamətində problemin həllini nəzərdə tutan Fut Planı (Foot) irəli sürülmüşdür. Lakin iki icmanın bir yerdə yaşamasına əsaslanan Plan taksimi inkar etdiyi üçün Türkiyə tərəfindən rədd edildi [9, s.39]. Bu addımı ilə Türkiyə taksim fikrində qətiyyətli mövqeyini bir daha nümayiş etdirmişdir. İngiltərə də öz siyasətində Yunanıstanla yaxınlaşma istiqamətində manevr dəyişikliyi etdi. Nəticədə Türkiyə-İngiltərə münasibətləri də gərginləşdi. 27 yanvarda Kiprdə nəşr olunan Bozqurd Qəzetində 26 yanvarda İngiltərə xarici işlər naziri Selvin Lloydun Ankaraya səfər edərək İngiltərə hökumətinin taksim fikrini qəbul etdiyini ehtiva edən yalan xəbər yayınlanmışdır. Nəticədə kiprli türklər bu münasibətlə meydanlara çıxmış, ingilis əsgərləri isə mitinqləri yatırtmaq üçün əhalinin üzərinə yürümüşdür. Girnə qapısından Atatürk Meydanına tərəf ingilis əsgərlərinin hücumları nəticəsində bir neçə türkün qətlə yetirilməsi Türkiyəni ayağa qaldırdı.

İyun ayında İstanbulda 300 min nəfərlik mitinq keçirilərək “Ya taksim, ya ölüm” şüarları ilə Türkiyənin qətiyyətli mövqeyi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldı.

Baş verən hadisələr Türkiyə ictimaiyyətində İngiltərə əleyhdarlığının son həddə çatdığının təcəssümü idi. İngiltərənin mövqeyinin dəyişməsi Demokrat Partiya iqtidarının da İngiltərənin əleyhinə siyasət izləməyə başlamasına səbəb oldu. Belə ki, Türkiyə hökuməti Kipr məsələsində İngiltərəyə qarşı Bağdad Paktını istifadə etmişdir. Məlum olduğu kimi, 1955-1958-ci illərdə qüvvədə olmuş bu Pakt Türkiyə, İran, İraq, Pakistan və Böyük Britaniya arasında Sovet İttifaqının Orta Şərqdə güclənməsinin qarşısını almaq məqsədilə bağlanmış təhlükəsizlik və müdafiə haqqında müqavilə idi. Bu Pakt həmçinin İngiltərənin Orta Şərqdəki gücünü SSRİ-yə qarşı qoruyan sədd rolunu oynayırdı. Türkiyənin Bağdad Paktını İngiltərəyə qarşı təhdid kimi istifadə etməsi A.Menderesin 22 may 1958-ci ildə nitqində də açıq şəkildə özünü göstərmişdir: “…İngiltərəyə qarşı bizim silahımız qənaətimcə, Bağdad Paktı olmalıdır. Əslində bu Pakt görünüşdə kifayət qədər mühüm bir paktdır. Yəni Rusiyaya qarşı, slavyan qüvvələrinə qarşı bizim, NATO-nun çəmbərinin bir halqasından ibarətdir. Lakin bu elə bir halqadır ki, bu halqa təəssüf ki, bütün gücü ilə türk millətinin boynundan asılmışdır...” [13, s.265].

Artıq İngiltərə yalnız bir icmanın tələblərini diqqətə alaraq Kiprdə hakimiyyətini davam etdirə bilməyəcəyini anlayırdı və buna görə də İngiltərə baş naziri Harold Makmillan tərəfindən hazırlanmış yeni Plan irəli sürdü. 19 iyun 1958-ci ildə parlament qarşısında bəyanatla çıxış edən Harold Makmillan Kiprlə bağlı Tərəfdaşlıq planı adlandırdığı planını belə təqdim etdi: “Kipr nəinki Birləşmiş Krallıqla, eyni zamanda Britaniya Birliyi ilə, həmçinin Yunanıstan və Türkiyə ilə assosiasiyanın üstünlüklərindən istifadə etməlidir… Adada nümayəndəli idarəçilik sistemi təsis ediləcək, bu sistemdə hər bir icma öz kommunal işlərində muxtariyyətə malik olacaqdır… Kiprli yunan və türkləri məmnun etmək üçün Ülyahəzrətlərinin hökuməti Türkiyə və Yunanıstan tərəfindən tanınmaq üçün Yunanıstan və Türkiyə vətəndaşlığının verilməsini salamlayır, eyni zamanda Britaniya vətəndaşlığını da saxlamaq imkanı verir… Yeni konstitusiyanın ən vacib elementləri aşağıdakılar olacaq:

a) iki icmanin hər biri üçün ayrıca nümayəndələr palatası yaradılacaq və bu palatalar icma işlərində yekun qanunvericilik hüququna malik olacaqdır.

b) Ümumi işlər və daxili təhlükəsizlik məsələləri ilə yanaşı, daxili idarəetmə səlahiyyətləri qubernatorun rəhbərlik etdiyi Şuraya həvalə ediləcək. Şuraya Yunanıstan və Türkiyə hökumətlərinin nümayəndələri, həmçinin dördü kiprli yunan və ikisi kiprli türk olmaqla Nümayəndələr Palatasından seçilmiş altı nazir daxil olacaqdır.

c) Yunanıstan və Türkiyə hökumətlərinin nümayəndələri ilə məsləhətləşmələrdən sonra Qubernator hər iki icmanın maraqlarının müdafiəsini təmin etmək üçün ehtiyat səlahiyyətlərinə malik olacaq.

d) Yunanıstan və Türkiyə hökumətlərinin nümayəndələri ilə məsləhətləşmələrdən sonra xarici əlaqələr, müdafiə və xarici təhlükəsizlik müstəsna olaraq Qubernatorun səlahiyyətində qalacaq.

e) Yunanıstan və Türkiyə hökumətlərinin nümayəndələri ayrı-seçkilik hesab etdikləri istənilən qanunvericilik aktını qərəzsiz məhkəmə tərəfindən baxılmasını tələb etmək hüququna malik olacaqlar" [28].

Makmillan parlament qarşısındakı bəyanatında həmçinin qeyd etmişdir ki, planın üstünlüklərini tam şəkildə həyata keçirmək üçün açıq-aydın görünür ki, zorakılıq dayandırılmalıdır və bunu nəzərə alaraq əlahəzrət hökuməti fövqəladə vəziyyətin yumşaldılması istiqamətində ardıcıl addımlar atmaq və son nəticədə fövqəladə vəziyyətə son qoymaq niyyətindədir. Makmillan planına görə, bu proses təhlükəsizlik məqsədilə adadan çıxarılmış kiprlilərin adaya qaytarılmasını da ehtiva edirdi.

Enosisin gerçəkləşməsini inkar edən bu tərəfdaşlıq planı Türkiyə tərəfindən qəbul edilmişdir. Türkiyə problemin yekun həlli üçün Yunanıstan və İngiltərənin də iştirakı ilə konfrans çağırılmasını istəmiş, əgər Yunanıstan konfransda iştirak etməkdən imtina edərsə, məsələnin İngiltərə ilə Türkiyə arasında həll edilməsi istiqamətində tələbini İngiltərənin Ankaradakı səfiri vasitəsilə İngiltərə XİN-ə çatdırmışdır. Lakin İngiltərə Yunanıstan və EOKA-nın məsələdən kənarda qoyulmasının Kiprdəki vəziyyəti daha da ağırlaşdıracağını düşünərək, Ankara və Afinada həyata keçirdiyi bir sıra görüşlərdən sonra Yunanıstan tərəfinin lehinə bəzi dəyişikliklər edərək Makmillan Planını yenidən tərəflərə təqdim etdi. Təklif Yunanıstan tərəfindən yenə rədd edildi, Türkiyə isə 25 avqust 1958-ci ildə planı qəbul etdi. 1 oktyabr 1958-ci ildə Türkiyənin təmsilçisi Burhan İşın Kiprdə vəzifəsinin icrasına başladı [1, s.943].

Beləliklə, Türkiyənin Kiprdə baş verənlərə birbaşa müdaxilə etmək imkanı əldə etməsi və bununla da taksimin gerçəkləşməsi ehtimalının artması kiprli yunanları bərk narahat etməyə başladı. Bu səbəbdən kiprli yunanlar Makmillan Planının həyata keçməsinin qarşısını almağa çalışırdı. Yunanıstan planın gerçəkləşməsinə mane olmaq üçün 15 sentyabr 1958-ci ildə, daha sonra 25 noyabr 1958-ci ildə BMT-yə müraciət etsə də, müraciəti rədd edildi. Və nəhayət, 5 dekabrda BMT-nin Türkiyənin razılığı olmadan Kiprin gələcəyi ilə bağlı qərar alınmayacağı haqqında qətnaməsi Yunanıstanın məğlubiyyəti demək idi [8, s.280-296]. BMT-yə müraciətlərinin heç bir nəticə vermədiyini görən Yunanıstan danışıqlara qoşulmağı qəbul etdi. Türkiyə də problemin yekun həllinin zəmini olaraq iki icmalı quruluşu qəbul etmişdir. Çünki bu formul ən azından türk icmasını hər hansı azlıq statusundan azad edir, yeni nizamın yaradıcılarından birinə çevirirdi. Eyni zamanda Türkiyə bu yolla Enosisin qarşısını alacaq təsirli zəmanət sistemi yaratmaq istəyirdi.

Beləliklə, ABŞ-ın da məsələyə müdaxilə etməsindən sonra 1958-ci ilin dekabrında Yunanıstan və Türkiyə «Enosis» və «Taksim»dən imtina etdiklərini

açıqladılar və tərəflər Kiprin gələcəyini müəyyənləşdirmək üçün İngiltərənin dəvəti ilə yenidən Sürix və Londonda görüşdülər. 20 yanvar 1959-cu ildə İsveçrənin Sürix şəhərində Türkiyə xarici işlər naziri Fatin Rüştü Zorlu ilə Yunanıstan xarici işlər naziri Evangelos Averoff, 5 fevralda isə Türkiyə ilə Yunanıstan baş nazirləri A.Menderes və K.Karamanlis arasında danışıqlar baş tutdu. 1959-cu il 11 fevral tarixində Sürix Sazişi, 19 fevral tarixində isə İngiltərə baş naziri H.Makmillan, Türkiyə baş naziri A.Menderes və Yunanıstan baş naziri K.Karamanlis tərəfindən London Sazişi imzalandı. 1959-cu ildə Sürix və London konfranslarının nəticəsində müstəqil Kipr Respublikasının qurulması qərarına gəlindi. Danışıqların nəticəsində qəbul edilən müstəqillik və konstitusiya layihə mətnləri Kipr Quruluş Sazişi, Əməkdaşlıq Sazişi və Zəmanət Sazişinin təməlini qoydu. Belə ki, Sürix-London Sazişlərində müəyyən olunmuş əsaslara müvafiq olaraq 19 fevral 1959-cu ildə Kipr Respublikasının Konstitusiyası təsdiq edildi, Zəmanət və İttifaq haqqında Sazişlər 3 ölkə təmsilçiləri tərəfindən imzalandı [6, s.85-101]. Zəmanət haqqında Sazişə görə, yaradılacaq dövlətin suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu İngiltərə, Yunanıstan və Türkiyənin zəmanəti altına alındı. Həmçinin sazişə görə, zəmanətçi dövlətlər ortaq hərəkət etmək məsələsində razılığa gələ bilmədikdə dövlətlər birtərəfli hərəkət etmək haqqına sahib oldular [26]. Məhz bu son maddə Türkiyənin Kiprə 1974-cü ildə müdaxiləsinin hüquqi əsaslarından biri olmuşdur.

1959-cu ilin 6 iyulunda Türkiyə prezidenti Cəlal Bayar Yunanıstanın Ankaradakı səfiri M.George Pesmazoğlunu qəbul etdi. Görüşdə Yunanıstanın əldə edilmiş razılaşmadan məmnun olduğunu Türkiyə prezidentinə çatdıran səfir Kipr Konstitusiyasının qəbulundan və Kiprdə ilk seçkilər keçirildikdən sonra iki dövlət başçısının Kiprə birlikdə səfərinin Sürix-London danışıqlarının nəticələrinin iki dost millət tərəfindən də qəbul edilmiş bir anlaşma olduğunu bir daha sübut edəcəyinə inamını ifadə etmişdir. C.Bayar da bu təklifi müsbət qarşılamış, Yunanıstanla daim dostluq münasibətlərini davam etdirməkdən məmnun olacağını ifadə etmişdir [24].

Türkiyə-Yunanıstan münasibətlərində müsbət dəyişikliklərin baş verməsinə baxmayaraq, Kiprdə vəziyyət dəyişməz olaraq qalırdı. Bu baxımdan Kiprdə icmalararası gərginliyin hər an şiddətlənə bilmə ehtimalının Türkiyə-Yunanıstan münasibətlərində yaranmış dostluq ab-havasının zədələnməsinə, ən əsası isə Kipr məsələsində varılmış nəticənin keçərsiz olmasına səbəbiyyət verəcəyindən ehtiyatlanan Türkiyə hökuməti Rauf Denktaşı və Kipr Milli Gənclik Təşkilatının lideri Cəlal Hordeni bu məsələnin müzakirəsi üçün Türkiyəyə dəvət etdi. Müzakirələr zamanı Kiprdə yunanların türklərə qarşı təzyiqlərinin qarşısını almaq məqsədilə yaradılmış müqavimət hərəkatı olan Milli Gənclik Təşkilatının o dövrdəki həssas günlərdə öz fəaliyyətinə diqqət yetirməsi xahiş edilmişdir [27]. Göründüyü kimi, Türkiyə hökuməti uzlaşdırıcı mövqe nümayiş etdirmiş, əldə edilmiş sazişlərin gerçəkləşməsinə mane ola biləcək hər hansı gərginliyin

yaranmaması üçün səy göstərmişdir.

Beləliklə, 1960-cı ilin 15-16 avqust tarixlərində adada iki icmalı dövlət quruluşuna sahib Kipr Respublikası yaradıldı, Sürix və London Sazişləri ilə Kipr türk xalqı yeni konstitusion quruluşun yaradıcı ortaqlarından biri kimi dövlət idarəçilik strukturlarında təmsilçilik haqqı əldə etdi. Həmçinin Lozanna Müqaviləsi ilə Kipr üzərində bütün hüquqlarını itirmiş Türkiyə də zəmanətçi dövlət kimi yenidən Kiprdə söz haqqı qazandı. Belə ki, NATO üzvü olan Türkiyə və Yunanıstan adada hərbi birliklər saxlamaq, İngiltərə ilə yanaşı, Zəmanət Sazişi çərçivəsində adaya çoxtərəfli və ya birtərəfli müdaxilə etmək haqqına sahib oldu. Məhz bu zəmanət haqqı 20 iyul 1974-cü ildə Türk Silahlı Qüvvələri tərəfindən Kipr Sülh Hərəkatının gerçəkləşdirilməsinə qanuni əsas verdi. Bu mənada Adnan Menderes iqtidarının Kipr siyasəti istiqamətində əhəmiyyətli dəyişiklik edərək tarixi diplomatik uğur əldə etdiyini demək mümkündür.

## ƏDƏBİYYAT


1. *Ahmet Gazioğlu*. Osmanlı'dan Cumhuriyet'e Kıbrıs, Türkler, Ankara, Yeni Türkiye Yayınları, 2002
2. Ayın Tarihi dergisi, Sayı: 261, Ağustos 1955
3. *Balcı Ali*. Türkiye dış politikası: ilkeler, aktörler ve uygulamalar, İstanbul, Alfa Basım, 2017
4. *Emrah Balıkçıoğlu.* Kıbrıs Müzakerelerinde "Taksim" Tartışmaları (1956-1959), VAKANÜVİS-Uluslararası Tarih Araştırmaları Dergisi / International Journal of Historical Researches, v. 1, Sayı 2, 2016
5. *Ergenekon Savrun, Melih Tinal.* Soğuk Savaş Döneminde İngiltere Ve Türkiye'nin Kibris Politikalari (1955-1964) // Çağdaş Türkiye Tarihi Araştırmaları Dergisi Journal Of Modern Turkish History Studies XVII/34, Bahar/Spring, 2017
6. *Esra Değerli.* Demokrat Parti Döneminde Türkiye'nin Kıbrıs Politikası (1950-1960) // Gazi Akademik Bakış Dergisi, 6 (11), 2012
7. European Yearbook of Minority Issues, Hague, Eurac Research, v. 1, 2001
8. *Evangelos Averoff.* The Lost Opportunities: The Cyprus Question(1950-1963), Aristide D Caratzas Publication, 1986
9. *Fahir Armaoğlu.* The Uneasy Birth of Cyprus Republic: 1954-1958, Dış Politika, v. 4, No: 2-3, 1974
10. *Faruk Sönmezoğlu.* Türkiye Cumhuriyeti Devleti'nin Kıbrıs Politikası (1945'den Günümüze) // Türk Dış Politikası Cumhuriyet Dönemi, Gökkubbe Yayınları, İstanbul, 2008
11. *İsmail Bozkurt.* KKTC'de Siyasi Partiler: Siyasal Örgütlenme və Kıbrıs Sorunu ile AB'ye bakış açıları // AB ve Kıbrıs: bugünü ve geleceği, Gündoğan Yayınları, İstanbul, 2002
12. *John Phillip.* The Tragicomedy of Cyprus, Harper's Magazine, June 1956

13.*Mustafa Albayrak*. Türkiyenin Kıbrıs Politikaları (1950-1960) // Atatürk Araşdırma Merkezi Dergisi, Cilt 46, Sayı, XVI, mart, 2000
14.*Mustafa Ekincikli*. İnönü-Bayar Dönemleri Türk Dış Siyaseti, 2. Baskı, Ankara, Berikan Yayınları, 2010
15.*Nancy Crawshaw*. Cyprus: Conflict and Reconciliation // The World Today, v.15, No: 4, April 1959
16.*Nihat Erim*. Bildiğim ve Gördüğüm Ölçüler İçinde Kıbrıs, Ajans Türk Matbaacılık, Ankara, 1975
17.*Sabahattin İsmail*. Kıbrıs Cumhuriyeti'nin Doğuşu-Çöküşü ve Unutulan Yıllar (1964-1974), KKTC Milli Eğitim ve Kültür Bakanlığı Yayınları, Lefkoşa, 1992
18.*Sedat Simavi*. Yine Türk. Kıbrıs // Hürriyet, 25 Şubat 1951
19.*Stephen G*. Xydi Toward Toil and Moil in Cyprus, The Middle East Journal, v.20, No1, Winter, 1966
20.*Şükrü Gürel*. Kıbrıs Tarihi (1878-1960), Kolonyalizm, Ulusçuluk ve Uluslararası Politika, C.2, Kaynak Yayınları, İstanbul, 1985
21.Turkey and Cyprus: A Survey of the Cyprus Question with Official Statements of the Turkish viewpoint, Press Attache's Office, Turkish Embassy, London, 1956
22.Application, under the auspices of the United Nations, of the principle of equal righs and self-determination of peoples in the case of the population of the Island of Cyprus // http://www.worldlii.org/int/other/UNGA/1954/92.pdf
23.British Cyprus (1914-1960) // University of Central Arkansas, Political Sciense // https://uca.edu/politicalscience
24.Cumhurbaşkanımızın Yunan Büyükelçisi ile Kıbrıs türk-yunan ilişkileri konularındakı mülakat proseverbali, belge tarihi 07.07.1959 // https://katalog.devletarsivleri.gov.tr
25.Cypru Lord Radcliffe's Proposals // https://api.parliament.uk/historic-hansard/commons/1956/dec/19/cyprus-lord-radcliffes-proposals
26.Garanti Antlaşması, Zürich,11 Şubat 1959 // http://www.mfa.gov.tr
27.İçişleri Bakanı Namık Gedik'in Kıbrıs hakkında Nihat Erim'e sunduğu bilgi, belge tarihi 27.08.1959 // https://katalog.devletarsivleri.gov.tr
28.Statement of the Prime Minister Mr. Harold MacMillan in parliament, 19 June 1958 // https://www.parliament.uk/

Redaksiyaya daxil olub 16.07.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №4, s. 43-50
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №4, pp. 43-50

*UOT 39*

***N.A.Qarayeva***
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*
*qarayeva.nurngiz@bk.ru*

# DƏFN VƏ YAS MƏRASİMLƏRİ AZƏRBAYCAN FİLMLƏRİNDƏ

***Açar sözlər:*** *Azərbaycan, film, adət, mərhum, yas, dəfn*

Milli-mənəvi dəyərlərimizin, ailə məişətinin ən məsuliyyətli və ciddi məsələlərindən biri dəfn və yas ilə bağlı mərasimlər, adət-ənənələr hesab edilir. İnsanın öz bioloji həyatını bitirməsi qədim zamanlardan bəri müxtəlif adət və mərasimlərlə müşayiət olunmuş, bütün xalqların mədəni-mənəvi irsində, onların folklorunda özünə mühüm yer tutmuşdur.

Ailə məişətinin digər adət və ənənələrindən fərqli olaraq dəfn adətləri din ilə bağlı olduğuna görə bəzi dəyişikliklərə uğramaqla zəmanəmizədək qorunub saxlanılmışdır. Azərbaycan xalqının ölüm və ölüm sonrası yas və dəfn mərasimləri, adət ənənələri xalqımızın tarixində, onun bugünkü ictimai-mədəni həyatında önəmli yer tutur.

Dəfn və yas mərasimlərinin Azərbaycan filmlərində yer alması təqdirəlayiqdir. Çünki filmlər geniş auditoriyaya malikdirlər. Məqalədə Azərbaycan filmlərində işıqlandırılan yas və dəfn mərasimləri haqqında məlumat verilmişdir.

***Н.А.Караева***

# ПОХОРОННЫЕ И ПОМИНАЛЬНЫЕ ОБРЯДЫ В АЗЕРБАЙДЖАНСКИХ ФИЛЬМАХ

***Ключевые слова:*** *Азербайджан, фильм, обычай, покойный, траур, похороны*

Одной из самых ответственных и серьезных вопросов национально-нравственных ценностей, семейного быта являются ритуалы, обычаи и традиции, связанные с похоронно-поминальными обрядами. Конец биологической жизни человека с древних времен сопровождался различными обычаями и обрядами и занимал важное место в культурном и духовном наследии всех народов и их фольклоре.

В отличие от других обычаев и традиций семейного быта, похоронные обычаи, будучи связаны с религией, с некоторыми изменениями сохранились до наших дней. Траурные обряды, традиции и обычаи азербайджанского народа, связанные с похоронами и последующим поминовением покойного, занимают важное место в истории и современной социокультурной жизни нашего народа.

Отражение похоронно-поминальных обрядов в азербайджанских фильмах достойно одобрения, поскольку они имеют большую аудиторию. В статье даются сведения о похоронно-поминальных церемониях, освещаемых в азербайджанском кино.

**N.A.Garayeva**

## FUNERALS AND MOURNING RITES IN AZERBAIJAN FILMS

**Keywords:** *Azerbaijan, film, habit, late, mourning, funeral*

One of the most responsible and seriouz issues of national moral values, family life iz rituals, traditions associated with the funeral ceremony. The completion of the biological life of man, from ancient times was accompanied by various traditions and ceremonies, took an important place in the cultural and spiritual heritage of all peoples and their folklore.

Unlike other customs and traditions of family life, funeral customs were associated with religion and have been preserved to this day. Funeral and mourning ceremonies, traditions and customs of the Azerbaijani people after death occupy an important place in the history of our people and their modern sociocultural life.

Funeral and mourning ceremonies occupy an important place in Azerbaijani films, because they have a large audience. The article tells about funeral ceremonies covered in Azerbaijani films.

Xalqımızın ailə məişətində əsas yer tutan adət-ənənələrdən biri yas və dəfn mərasimidir. Orta əsrlərdən başlayaraq dəfn və yas mərasimi eyni olmuş və bu günümüzə qədər gəlib çatmışdır. Din ilə bağlı olduğuna görə dəfn və yas mərasiminə digər adətlərdən fərqli olaraq daha ciddi yanaşılmışdır [15, s.341]. Demək olar ki, müsəlman xalqlarının əksəriyyətində dəfn qaydaları və yas mərasimləri oxşardır. Odur ki, digər etnoqrafik mənbələrdə olduğu kimi, Azərbaycan filmlərində də diqqət edilən ailə-məişət mövzuları arasında yas və dəfn mərasimləri də xüsusi yer tutur.

Azərbaycanda dəfnlə bağlı ən qədim adətlər haqqında arxeoloji tədqiqatlar müəyyən təsəvvür yaradır. E.A.Resler Balçılıda (Daşkəsən rayonu) apardığı tədqiqatlardan belə nəticəyə gəlir ki, kurqanların ən aşağı hissəsində əsas qəbirdə ölən adam öz atı, silahı, qəbir avadanlığı ilə, ondan üst qatda isə vəhşi və ev heyvanları, öz sahibkarına qulluq edən qullar dəfn edilmişdir. Müəyyən olunmuşdur ki, yuxarı qatda tonqal yandırılmış, oraya daş tökülmüş və kurqan düzəldilmişdir. Daşkəsən nekropolunun daş qutu tipli qəbirləri bəzi xüsusiyyətləri ilə fərqlənir. Bu sahədə uzadılmış vəziyyətdə dəfn adətinə, kəllənin altına kasa qoyulmasına, kollektiv dəfn və kəllәsiz dəfn etməyə qədər müxtəlif dəfnlərə, həmçinin küllə doldurulmuş qablara – urnalara da rast gəlinmişdir. Dəfn edilmiş skeletlərin bəzisi qeyri-adi böyüklükdə (uzunluğu 2,13 m) və uzunbaşlı şəkildə (uzunluğu 2,13 m) aşkarlanmışdır [4, s.204].

Maraqlı dəfnetmə adətlərindən biri küp qəbirlərlə bağlıdır. V minillikdə Ön Asiya ərazisində meydana gəlmiş bu dəfn adəti e.ə. V-IV yüzilliklərdən Qafqaz Albaniyası ərazisinə yayılmış və e.ə. II – b.e. III əsrlərindən burada yaşayan əhalinin əsas dəfn adətlərindən biri olmuşdur [7, s.321]. Cənubi Qafqazda, əsasən

də Azərbaycanda e.ə. IV minilliyə aid qədim yaşayış məskənlərində küp qəbirlərə təsadüf edilməsinə baxmayaraq, bu dəfn adəti ümumi deyil, lokal xarakter daşımışdır. Yəni bu qəbirlər Ön Asiyadan miqrasiya olunmuş gəlmə tayfaların məskunlaşdıqları ərazilərdə mövcud olmuşdur. Müqayisə üçün deyək ki, küp qəbirlərin ən böyük kolleksiyası Azərbaycandadır.

Küp qəbirlər mədəniyyətinin izlərinə hələ XIX əsrdə təsadüf olunmuşdur. Bir qayda olaraq, ölülər dizdən çox bükülü, əlləri üzünə doğru qaldırmış halda sol və ya sağ böyrü üstə dəfn edilmişlər. Ölü küpün içərisinə onun ağız və oturacaq hissəsi sındırılmaqla yerləşdirilmişdir. Küplərdə dəfn adətinin bir sıra xarakterik cəhətləri müşahidə edilmişdir. Bəzi küplərin ağzında od, yanğın izi nəzərə çarpır. S.M.Qazıyevin fikrincə, mərhumu dünyanın “şər qüvvələrindən qorumaq üçün” dəfn zamanı məşəl də yandırılmışdır. Qəbir avadanlıqları içərisində totemizm əlaməti sayılan çoxlu zoomorf əşyalara da təsadüf edilmişdir [6, s.93].

Məlum olduğu kimi, İslamaqədərki dövrün qəbir abidələrində vahid adət-ənənəyə təsadüf olunmur. Erkən orta əsrlərdə dörd qrup qəbir tipi mövcud idi: küp qəbirlər, katakombalar, daş qutular, müxtəlif tip xristian qəbirlər. Erkən orta əsr katakombalarında kollektiv dəfn adətinə daha çox təsadüf olunur. Bəzən bir katakombada 15 skelet müşahidə edilir. Bu katakombalar qəbir avadanlığının azlığı ilə seçilirlər [6, s.122]. Ümumiyyətlə, qəbir avadanlıqları maraqlı maddi mədəniyyət nümunələri və mənəvi ənənələrlə zəngin xüsusiyyətlərə malik olmuşdur. Bu zəngin xüsusiyyətlər dəfn adətləri ilə birbaşa bağlı olmuşdur.

Tunc dövründə ölünün daşdan düzəldilmiş tabutlarda dəfn etmək adəti geniş yayılmışdır. Bundan əlavə bir çox qəbirlərdə ölünün gözü qarşısında hər hansı alətin, yaxud sadəcə bir daş qoyulması halları da müşahidə edilmişdi. Bütün bunlar qədim azərbaycanlıların daşa olan inamları ilə bağlı olmuşdur [6, s.98]. Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı at qalıqlarının, əsləhlərinin tapılması heç də təsadüfi deyil. Bu cür dəfnetmə qaydası İslam dininin qəbulundan sonra ləğv edilməsinə baxmayaraq, at rəsmlərinə hələ də baş daşları üzərində rast gəlinir.

Bildiyimiz kimi, at türk tayfalarının həyatlarında yüksək mövqəyə malik olmuşdur. Artıq II minillikdən başlayaraq sahibinə axirət dünyasında da xidmət etmək məqsədilə at və ya onun quyruğunun kəsilib dəfn edilməsi adəti türk tayfaları arasında mövcud olmuşdur. Bu dəfn ənənəsi 3-4 min il sonra da davam edərək türklərin yayıldığı geniş arealda öz izlərini qoymuşdur [2, s.675]. İgidin ölümü ilə bağlı atın quyruğunun kəsilməsi adəti oğuzlarda da geniş yayılmışdır. Belə ki, qəhrəmanın şəhidliyi ilə bağlı mütləq atının quyruğu kəsilməli idi [9, s.115]. Dədə Qorqud dastanının XII boyunda ölümcül yaralanan Bamsı Beyrək igidlərinə deyir: “İgidlərim yerinizdən, qalxın durun! Boz atımın quyruğunu, tutun kəsin...”. Onu da qeyd edək ki, türk tayfaları

arasında döyüş atlarının quyruqları kəsilirdi ki, döyüş zamanı mane olmasın. Arxeoloji qazıntılardan tapılmış quyruqsuz at modelləri buna əyani sübutdur. Sonralar at Azərbaycan xalqının həyatının ayrılmaz bir hissəsinə çevrilir. Atı öz namusları kimi qoruyurlar və atın quyruğunun kəsilməsini namusa sataşmaq kimi qəbul edirlər. Belə ki, "Dəli Kür" romanında Cahandar ağa atının quyruğunun kəsilməsini namusuna sataşmaq kimi qəbul edir və atdan üzr istəyərək onu öldürmək məcburiyyətində qalır. Təəssüf ki, romanda olan bu hissəni rejissorlar hansısa səbəbdən filmdə işıqlandırmamışlar. "Bizim Cəbiş müəllim" filmində də uşaqların fizika dərsinə görə atın quyruğunu kəsmələri sahibi tərəfindən hiddətlə qarşılanır. Bu da bir daha atın xalqın həyatında önəmli yer tutduğunu göstərir.

Yas mərasimi də toy kimi ritual xarakter daşıyırdı. Bu, daha çox qədim zamanla əlaqəlidir və indiki yas mərasimlərində əks olunmamışdır. Belə ki, belə yas mərasimlərində ozan qopuz çalıb ağı deyir. Cənazə ətrafında rəqs edirlər.

Yas mərasiminin ən ilkini şivən ayinidir. Ölüm yatağında olan şəxsin son nəfəsi çıxan kimi başlanan ağlaşma el arasında "şivən" adlanırdı. Şivən, əsasən, ölüm baş verdiyi andan ölünün dəfn üçün evdən çıxarıldığı vaxtacan davam edir. Ölən üçün təsiredici, yanıqlı sözlər, oxşamalarla hönkür-hönkür ağlamaq, üz cırmaq və saç yolmaq kimi hallar şivənin əsas əlamətlərindəndir [1, s.142]. Ana şivəni daha çox diqqəti çəkir və burada oxşama, layla və ağı nümunələri vardır. Vaxtsız ölən uşağı üçün ana:

Evimin yaraşığı,
Gözlərimin işığı,
Ocağımın odu,
Dilimin dadı,
Bağçamın gülü,
Oxuyan bülbülü,
Toysuz-düyünsüz gedən,
Gəlin otağı görməyən
Balam vay, ey, balam vay.

– deyə, şivən qoparır və onun ölümünü bir növ körpənin yatmasına bənzədərək "yatan balam lay-lay da deyir" [1, s.143-144].

Yas mərasimi zamanı ağı deyilir. Qədim ağılar üç dörd hecalı şeir parçalarıdır. Ağıların əsas xüsusiyyəti budur ki, kədər əsas məzmunu təşkil edir. Yas mərasimlərində ağıları, əsasən, ağıçılar deyir, onun avazını məclis iştirakçıları xorla təkrar edirlər [5, s.63-64]. Ağı nəğməsinə fikir versək, onun bayatı üslubunda qoşulduğunun şahidi olarıq. Məsələn,

Quşum qaçdı tüləkdən,
Qolum düşdü biləkdən.
Gör başıma nə gəldi,
Çərxi dönmüş fələkdən [5, 64-65].

"Torpaq, dəniz, od, səma" filmində yas mərasimi və əsas dəfn adətləri səhnələrinə rast gəlmək olar; kənd qadınları qadın qonşusunun keçinmə xəbərini eşidib tez mərhumun evinə toplaşırlar. Ağlaşma başlayır. Sonra mərhumu qara örtüklü xərəkdə kişilərin müşayiəti və mollanın duası ilə qəbiristanlığa son mənzilə yola salırlar. Adıkeçən filmdə ağlaşma kadrlarını izləmək mümkündür. Mərhum canını tapşırandan sonra dərhal yaxınlar, qohum-qonşular oraya toplaşır, "ağlaşma" qururlar. Xüsusi ağı deyən qadınlar isə, adətən, xalq arasında yayılmış poeziya nümunələrindən, şikəstə və bayatılardan istifadə edirlər:

Mən aşıq yüz il yanar,
Yüz həftə, yüz il yanar,
Sənin də oğlun ölsə,
Ciyərin yüz il yanar.
Anası yanar ağlar,
Tərifə qalar ağlar,
Ana deyər göyərçin,
Tabuta qonar ağlar [11, s.19].

Yas mərasimlərində anaların ölən övladlarına ağı deyib ağlaması, bayatı deməsi indi də müşahidə edilir. "Kitabi-Dədə Qorqud" abidəsinin qəhrəmanları olan müsəlman oğuzlar əcəl vaxtına, behişt və axirət dünyasına sidq ürəklə inanırlar. Dədə Qorqud boy boyladıqdan sonra deyir:

Hanı dediyin bəy ərənlər,
Dünya mənimdir deyənər?
Əcəl aldı yer gizlədi,
Fani dünya kimə qaldı? [9, s.160].

Demək olar ki, bütün türk xalqlarında yas əlaməti olaraq qara paltar geyinilir. Yas mərasimi ilə bağlı bu adət Səlcuq dövründəki türkmənlər arasında, teymurilər, qaraqoyunlular, ağqoyunlular, Anadolu bəylikləri, həmçinin osmanlılarda mövcud olmuşdur [9, s.161].

Vurğulanmalıdır ki, filmlərdə ("Dədə Qorqud", "Mən ki, gözəl deyiləm", "Torpaq, dəniz, od, səma" və s.) göstərilən yas mərasimlərində qadınlar adətə uyğun olaraq yas paltarında – qara libasdadırlar. Mərasimdə bəzək-düzəkli, kosmetikalı və al-əlvan libaslı qadınlar gözə dəymir. Milli filmlərimizdə yer alan yas və dəfn mərasimlərindən də göründüyü kimi, keçmişdə kişilər və qadınlar ayrı-ayrı yerlərdə yas məclisinə yığışardılar. Hal-hazırda da yas mərasimlərində kişi və qadın məclisləri ayrı-ayrı məkanlarda təşkil edilir.

Adətə görə, molla rəhmətə gedənin ölümünü salavat (əssalat) oxumaqla qonşulara, bütün kəndə bildirərdi. "Salat" səsini eşidən qonşular, qohumlar ölü yerinə toplaşar, "Allah rəhmət eləsin" – deyib, mərhumun ailə üzvlərinə başsağlığı verər və daha sonra dəfn üçün hazırlıq işlərinə köməklik

göstərərdilər. İlk növbədə qəbir qazmaq üçün qəbiristanlığa adamlar göndərilərdi. Daha sonra müəyyən üsulla meyitin yuyulması prosesinə başlanardı. Bu prosesə "qüsl" deyilirdi. Kənd yerlərində ölünü mərhumun öz evində "qüslxana" deyilən yerdə, şəhərlərdə isə məscidin yanındakı "qüslxana"larda "mürdəşir" yuyurdu [10, s.343]. Qüsl zamanı ciddi riayət olunan üsullar və qaydalar var idi və üç mərhələdə icra olunurdu. Birinci mərhələdə mərhumun boğazından yuxarı üzü, alnı, sifəti, burnu və qulaqları sidr tozu qatılmış su ilə yuyulurdu. İkinci mərhələdə mərhumun bədən hissəsi kafur qatılmış su ilə yuyulurdu. Üçüncü mərhələdə meyit təmiz su ilə yuyulurdu. Bu zaman meyitin üstünə başdan ayağadək üç dəfə su tökməklə mərhuma qüsl verilirdi [10, s.343].

Yas mərasimində ehsan vermək, yemək bişirmək geniş yayılmış ənənələrimizdəndir. Yeddi veriləndə mütləq bir və ya bir neçə heyvan, qoyun, iri heyvan kəsilir, müəyyən xörəklər hazırlanır. Yemək yeyilib qurtarandan sonra molla ölən adamın ruhu üçün dua oxuyur. Lakin bəzən mal və yaxud qoyun kəsilmir, əvəzində halva qovrulur. Ehsanda çalınmış halva hüzrə gələn adamlara paylanır. Yeyəndə mütləq "Allah qəbul eləsin" deyilməlidir. Yeddisindən sonra mərhumun qırx məclisi keçirilir. Qırxında həm heyvan kəsilir, həm də halva qovrulur. Müxtəlif yeməklər, əsasən də, aş (plov) bişirilirdi. Azərbaycanda yas mərasimlərində və Qara bayramda "ölülərin gözünü yığmaq" üçün aş bişirmək ənənəsi çoxdan mövcud olub. Bütün türk xalqlarında yas mərasimi ilə bağlı geniş yayılmış "aş töreni" deyilən adət keçmiş zamanlardan günümüzə qədər gəlib çıxmışdır. Dəfndən sonra ölünün atları kəsilərək yeyilirdi ki, bu da bütün türklərdə görünən yuğ aşı və ya ölü aşı adəti hesab edilirdi [12, s.58].

M.Kaşğariyə görə, "yuğ basan" deyimi ölü aşı anlamında işlənir. O, "yuğ" sözünü "ölü basdırıldıqdan sonra üç, yaxud yeddi gün ərzində verilən ehsan" kimi izah etmişdir [13, s.349]. Azəri türkləri "onun aşını verdim" deyəndə, məhz ehsan anlamında işlənən ölü aşını nəzərdə tuturlar. Bu cür yanaşma filmlərdə də öz əksini tapmışdır. Məlumdur ki, keçmişdə insanlar dəfn edilən yaxınları üçün "ölü aşı" bişirərdilər. Altay türklərində qadınlar uşaq (eləcə də heyvanları) xəstələnərkən və ya ona bir ziyan toxunarkən aş bişirər, dəfn etdiyi ölüsünün məzarına aparardılar. Məzarın üstünə aş və su qoyar, "bizə toxunma" deyərdilər. Bu, bir növ, ölünün gözünün "yığılması" üçün ənənə halını alan mərasimin icrası idi [14, s.189]. 1969-cu ildə görkəmli kinorejissor H.Seyidbəylinin M.İbrahimbəyovun "Müharibənin 1001-ci gecəsi" ssenarisi əsasında ekranlaşdırdığı "Bizim Cəbiş müəllim" filmində məhəllə uşaqları tərəfindən səsləndirilən meyxanada "Bişirərik Hitlerin də aşını" Hitlerin məğlub edilməsi, darmadağın edilməsi və axırına çıxması anlamına gəlir. II Dünya müharibəsi haqqında çəkilən bu filmdə yeniyetmələrin göstərilən ifadəni işlətməsi Hitlerin tezliklə məhv edilib dəfn olunması, onun üçün ölü aşı

bişiriləcəyinə bir işarədir:

Qəm eləmə, tut yuxarı başını,
At Bakıda qəribliyin daşını.
Bişirərik Hitlerin də aşını,
Cağırsa Ellər gedərəm davaya,
Ola mənə dilbər gedərəm davaya.

Azərbaycanda yas mərasimi zamanı aş adətən ölünün üçündə, yeddisində və qırxında bişirilir. Lakin bu aş "ölünün gözünün yığılması" üçün deyil, ehsan niyyəti ilə bişirilərdi.

Qırxı verilən günə kimi həmin evdə 40 gün gecə-gündüz işıq yanmalı idi. Deyilənə görə, ölənin ruhu hər gecə gəlib evini, ailəsini yad edir [8, s.264-265]. "Qızıl uçurum" filmində yas mərasimi kadrı rejissor tərəfindən dövrünün ab-havasına uyğun olaraq işıqlandırılmışdır. 1980-ci ildə ekranlaşdırılan bu filmdə də mərhumun yas mərasiminin təsviri verilmişdir. Kişilərin toplandığı yas mərasimində molla oxuyur. Ehsan üçün ocağın üstündə, iri mis qazanlarda yemək bişirirlər.

Hazırda Balakəndə dəfnin 3-cü günü təxminən yüz nəfərə yaxın kişinin toplaşdığı zikr mərasimi keçirilir. Zikr məclisində şorba, dolma kimi yeməklər verilir. Azərbaycanın Gəncə, Lənkəran, Tovuz və digər bölgələrində adətən qadın və kişi məclisləri ayrı olur. Bəzən eyni yerdə kişi məclisindən sonra qadınların məclisi başlayır [3, s.1]. "Bir cənub şəhərində", "Səhər" və "Axırıncı aşırım" adlı bədii filmlərdə yas və dəfn adətləri mentalitetimizə uyğun detallarla göstərilmişdir.

Beləliklə, milli filmlərimizdə yer alan dəfn-yas mərasimlərində xalqımızın mənəvi mədəniyyətinin tərkib hissəsi kimi dini dəyərlər, İslam ənənələrinin rolu aydın şəkildə görünür. Azərbaycan kino sənətində yas mərasimi və dəfn adətləri o qədər də geniş zaman çərçivəsində təqdim edilməmişdir. Fikrimizcə, bu kimi mövzularda adət-ənənələr geniş şəkildə milli filmlərimizə daxil edilərsə, daha məqsədəuyğun olar.

**ƏDƏBİYYAT**

1. *Abdulla B.* Azərbaycan mərasim folkloru. Bakı: Qismət, 2005, 208 s.
2. *Abdulova G.* Türk mədəniyyətində atın rolu /Almanax. Qazaxstan, 2016, 760 s.
3. Azərbaycan bölgələrinin fərqli yas mərasimləri / Modern.az. 10 noyabr 2017
4. *Baxşəliyev V.* Azərbaycan arxeologiyası: 6 cilddə, I c., Bakı: Elm, 2007, 239 s.
5. *Əliyev R.* Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər). Bakı, 2014, 350 s.
6. *Göyüşov R.* Azərbaycan arxeologiyası. Bakı: İşıq, 1986,186 s.
7. *Qarayeva N.* Mingəçevirin küp qəbirlərindən tapılmış muncuqlar haqqında / Milli Azərbaycan Tarixi Muzeyi. Bakı: Elm və təhsil, 2014, 406 s.

8. *Quliyeva N.* Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı: Elm, 2005, 346 s.
9. *Quluzadə T.* Qəhrəmanlıq dastanlarında Azərbaycan etnoqrafiyasının əksi: Elm və təhsil, 2018, 236 s.
10. *Rəcəbli Q.* Dəfn // Azərbaycan etnoqrafiyası: 3 cilddə, II c., Bakı: Şərq-Qərb, 2007, 381 s.
11. *Seyidova S.A.* Azərbaycan xalqının matəm mahnıları. Seçilmiş məqalələr. Bakı, 2016, 24 s.
12. *Faruq Sümər*. Oğuzlar. Tarixləri, boy təşkilat dastanları. Bakı: Yazıçı, 1992, 386 s.
13. *Firudin Ağasıoğlu.* İslam öncəsi türk tarixi: 9 Bitikirudin Ağasıoğlu. Azərbaycan türklərinin İslamaqədər tarixi. (Doqquz Bitik). IV Bitik: Tarixi etnoqrafiya. Bakı, 2002, 465 s.
14. *İnan A.* Tarihte ve bu gün şamanizm. Materyaller ve araştırmalar. Ankara, Diyanat Vakfı Matbaası, 2013, 229 s.
15. *Токарев С.А.* Религия в истории народов мира. Москва: Политиздат, 1964, 778 с.

## MƏNBƏLƏR

1. Mən ki gözəl deyildim" (1968)
2. "Dəli Kür" (1969)
3. "Bizim Cəbiş müəllim" (1969)
4. "Bir cənub şəhərində" (1969)
5. "Dədə Qorqud" (1975)
6. "Qızıl uçurum" (1980)

Redaksiyaya daxil olub 29.10.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №4, s. 51-60
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №4, pp. 51-60

*UOT 94*

***A.Ə.Mehdiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*ayten-69@mail.ru*

# AVROPA TARİXŞÜNASLIĞINDA I VƏ II XAÇ YÜRÜŞLƏRİNƏ DAİR MƏLUMATLAR

***Açar sözlər:*** *Xaç yürüşləri, dini-cəngavər ordenləri, normanlar, kilsə, A.Lyub-linskaya, M.Zaxarov, P.Viymar*

Orta əsrlər tarixi uzun illər ərzində araşdırılsa da, hər dəfə bu dövrlə bağlı yeni materialların meydana çıxması diqqəti cəlb edir. Yeni nəşr olunan ədəbiyyatla tanışlıq müxtəlif tarixi hadisələrə fərqli mövqedən yanaşmaq, doqmalardan uzaqlaşmaq, gizli, yanlış şərh olunan və düzgün təqdim edilməyən məsələləri daha geniş prizmadan anlamağa şərait yaradır. Orta əsrlər tarixinə aid müxtəlif problemlər arasında Xaç yürüşləri mühüm yer tutur. Xaç yürüşləri arasında fərqlənən I Xaç yürüşü xristianlar üçün tarixi əhəmiyyət daşımış, bu yürüş zamanı kilsə tərəfindən qoyulan əsas məsələlər həll edilmiş, Yaxın Şərqin bir hissəsində xristian faktoru reallığa çevrilmişdir. II Xaç yürüşündə isə xristianlar arasında gedən intriqalar, bəsit təfəkkür, şəxsi maraqların üstün tutulması, Edessanın itirilməsi və s. faktiki olaraq bu yürüşlərin süqutunun əsasının qoyulmasına səbəb oldu. Qeyd olunan problemlərin öyrənilməsinə həsr olunan bu məqalə, əsasən, yeni ədəbiyyat əsasında yazılmış, qeyd olunan hadisələrlə bağlı müxtəlif tarixçilərin əsərləri və elmi fikirlərinə istinad edilmişdir. Nəhayət, müasir dövrdə də "davam edən" Xaç yürüşləri ilə bağlı problemlərin tədqiqinə həsr olunmuş müxtəlif fikirlər verilmişdir.

***А.А.Мехтиева***

# ДАННЫЕ О I И II КРЕСТОВЫХ ПОХОДАХ В ЕВРОПЕЙСКОЙ ИСТОРИОГРАФИИ

***Ключевые слова:*** *крестовые походы, духовно-рыцарские ордены, норманны, церковь, А.Люблинская, М.Захаров, П.Виймар*

Несмотря на то, что история Средневековья изучается в течение долгих лет, каждый раз появляются новые материалы, связанные с этим периодом, что привлекает внимание. Знакомство с новой литературой создает возможность примкнуть к различным историческим событиям с разных точек зрения, уйти от догм, глубоко осознать и анализировать тайные, ошибочно истолкованные и сознательно искаженные вопросы с более широкого ракурса. Среди различных проблем истории Средневековья крестовые походы занимают важное место. Первый крестовый поход, который отличается от других крестовых походов, имеет историческое значение для христиан. В ходе этого крестового похода были решены основные проблемы, поднятые церковью, в результате чего

христианский фактор стал реальностью в определенной части Ближнего Востока. Во втором крестовом походе бесконечные интриги, царящие между христианами, примитивное мышление, преобладание собственных интересов, потеря Эдессы и т.д. фактически положили начало краха этих походов. Данная статья, посвященная изучению вышеуказанных проблем, была написана в основном на основе современной литературы, опирается на труды и научные взгляды разных историков по этому поводу. В конце статьи были высказаны различные мнения об изучении проблем, связанных с крестовыми походами, которые «продолжаются» по сей день.

***A.A.Mehdiyeva***

**INFORMATION OF I AND II CRUSADES IN EUROPEAN HISTORIOGRAPHY**

***Keywords:*** *Crusades, religious-chivalrous orders, normann, church, A.Lyublinskaya, M.Zakharov, P.Wiimar*

Though the history of the Middle Ages has been investigated during long years, each time appeared new materials connected with this period, that attracts the attention. The acquaintance with new materials gives the opportunity to be close to the different historical events from various points of view, go away from the dogmas, deeply understand and analyzed the secret, mistaken explained and consciously misrepresented problems from more wide spectrum. Among the different problems of the history of the Middle Ages the crusades take the important place. I Crusade differed from other crusades, had the historical importance for Christians. During this crusade the main problems have been decided, raised by the church and as a result of which the Christian factor become the reality in definite part of Near East. During II Crusade the endless intrigues occurred among the Christians, primitive thinking, predominance of personal interests, loss of Edessa and etc. actually put the beginning of crises of these crusades. This article, devoted to the investigation of the indicated problems, has been written on the base of modern literature, the works and scientific views of different historians in this sphere. At the end of the article the various opinions have been said about the investigation of problems connected with the crusades, which “continue” in modern period too.

Müasir dövrdə Orta əsr Avropa xalqlarının tarixində xristian kilsəsinin rolu İtaliya humanistləri tərəfindən müəyyən edilən və XIX əsrin müxtəlif konsepsiyalarında inkişaf etdirilən dəyərlərlə qiymətləndirilir. Orta əsr kilsə tarixi ilə bağlı olan Xaç yürüşlərinə həsr olunan əsərlərdə bu dövr “insan şüurunun yenicə oyanmağa başladığı”, “insan ruhunun kilsənin əsirliyində olduğu” dövr kimi xarakterizə olunmuşdur [12, s.3]. Orta əsrlərdə din mədəniyyətin müqəddəs başlanğıcı kimi inkişaf edən sivilizasiyanın “baza” ideyaları ilə bağlı olmuşdur [22, s.36-59]. Dinin köməyi ilə cəmiyyət hərbi və siyasi hadisələrin düzgünlüyünü müəyyən edirdi. Bu isə Yaxın Şərq ölkələrinə

təşkil edilən hərbi yürüşlərin məqsəd və vəzifələrini dini baxımdan izah edirdi. XX əsrin sonlarında Xaç yürüşlərinin Qərb imperialistlərinin gücünün ilk dəfə təcrübədən keçirilməsi kimi dəyərləndirilməsi hadisəsinə rast gəlmək mümkündür [17, s.27]. I və II Xaç yürüşlərinin öyrənilməsi zamanı bəzi məsələlər – yürüşlərdə iştirak edən dini-cəngavər ordenlərinin fəaliyyəti, normanların xaç yürüşlərində rolu, müsəlmanlara münasibət və s. diqqəti cəlb edir. Xristianlığın yayılması, onun dövlət dini səviyyəsində qəbul olunması, Fələstin torpaqlarına zəvvarların gəlişi və onlar üçün bələdçilərin hazırlanmasına başlanmışdır. Bu barədə Bordo və Yeqeri itinerarilərindən məlumat əldə etmək olar [13, s.16]. İtinerarilər Fələstinin coğrafiyası, topoqrafiyası və arxeologiyası barədə də məlumat verir.

Orta əsrlərdə Avropada feodal pərakəndəliyi gücləndikcə xristian olmayan macar, norman, kuman və b. xalqların hücumlarının sayı artdığı üçün Roma kilsəsi XI əsrin sonu – XII əsrin əvvəllərində müharibəyə münasibətini dəyişmişdir. Bu, yeni Orta əsr düşüncəsinin formalaşmasına səbəb oldu. Alman alimi K.Erdman onu "xaçlı düşüncəsi" adlandırmış və Xaç yürüşləri tarixinə dair "Die Entstehung der Kreuzzugsgedankens" adlı əsərində bu barədə məlumat vermişdir [13, s.16]. Digər alman alimi X.Bokmanın fikrincə, bu hadisə dini-cəngavər ordenlərinin yaranmasını şərtləndirmişdir [1, s.20]. Rusiyalı alim L.P.Karsavin Orta əsrlər Avropasında xristian cəngavər idealının yaranması ilə bağlı məsələyə münasibət bildirərkən yazırdı ki, əsas "məqsədi"ni zəvvarların qoruyucusu kimi "görən" dini-cəngavər ordenləri kafir və bidətçilərə qarşı xristianların müdafiəçiləri idilər. Onun fikrincə, yaranan yeni tip cəngavərlər – Tanrının ordusu (Militia Dei) dünyəvilikdən imtina etmiş, bütün oyunlara nifrət bəsləmiş və ov etməkdən çəkinmişdilər. Bu cəngavərlər bütün günü dua etdiklərinə görə onlarda gülüş Müqəddəs psalma oxunuşu ilə əvəzlənmişdir [14, s.114]. XI əsrdə papa VII Qriqori normanlara qarşı yürüş zamanı bütün yazışmalara "Hərbi qərargah"dan başlığı qoymuşdur.

Silahlı monaxlar kilsə daxilində həmişə mövcud olmuşdur. İlk dini-cəngavər ordeni – Məbədçilər ordeni Fələstində yaransa da, hərbi qardaşlıqların əsası imperator Konstantinin hakimiyyəti dövrünə təsadüf edirdi. Bu zaman xristianlığın rəsmi şəkildə tanınması ilə yanaşı, macar tarixçisi Y.Gerqeyin göstərdiyi kimi, xristian kilsəsi öz azadlığı və dünyəvi hakimiyyətlə ittifaqına görə "ödəniş" etməli olmuşdur [4, s.30]. Orta əsrlərdə kilsə siyasətinin "tərkib hissəsi" olan səyahətlərin dini xarakteri güclənmiş və "kütləvi dini fanatizm" dövründə "missioner" taktikası xristianlar tərəfindən tətbiq olunmuşdur.

XI–XIV əsrlərdə on beş dini-cəngavər ordeni meydana gəlmiş və onların bəzisi erkən Xaç yürüşlərində iştirak etmişdir. Hərbi əməliyyatlardan sonra dini-cəngavər ordenləri "cəbhə"də qalaraq fəaliyyətini davam etdirmişdir. Bu barədə rusiyalı tədqiqatçı Y.B.Yaşnevin «Духовно-рыцарские ордены» adlı məqaləsində məlumat verilmişdir [13, s.23]. Müəllifin fikrincə, dini-cənga-

vər ordenlərinin tarixinin öyrənilməsində çətinlik məlumatların fantastik xarakter daşıması ilə bağlı olmuşdur. Hələ 1603-cü ildə ingilis tədqiqatçısı Alan Fori öz əsərində bu barədə məlumat vermişdir. A.Favin və M.Markyuzun kitablarında rast gəlinən uydurma ordenlər haqqında məlumat 400 ildən artıq bir dövrdə müxtəlif əsərlərdə öz əksini tapmışdır. Dini-cəngavər ordenlərinin xüsusilə I və II Xaç yürüşləri zamanı fəaliyyətinin öyrənilməsi ilə bağlı fransız müəllifi J.J.Ruanın "История рыцарства" [26], isveçrəli tarixçi J.Florinin "Идеология меча" [29], rus alimləri B.Akunov və B.Zaxarovun "Краткая история военно-духовных рыцарских орденов" [15], V.Zaxarov və V.Çibisovun "Орден госпитальеров" [13], S.Dudarev və T.Lesinanın "С крестом и мечом: очерки истории крестоносного движения" [9] və s. əsərlər mövzunun tarixşünaslıq nöqteyi-nəzərindən işlənilməsində mühüm əhəmiyyətə malikdir.

Xaç yürüşlərinin tarixi ilə bağlı yeni ədəbiyyatda normanların rolu ilə əlaqədar tədqiqatlar diqqəti cəlb edir. "Общая история Нормандии" adlı əsərində fransız ensiklopedisti Q.Mulen Normandiya, İngiltərə, İtaliya və Şərq ölkələrində norman sülaləsindən olan hökmdarların tarixi və geneologiyası barədə məlumat vermişdir. Ensiklopedik əsərlərin müəllifi Ş.Dükanjın Xaç yürüşlərinə həsr etdiyi əsər diqqətəlayiqdir. İngilis tədqiqatçısı E.Gibbon "История упадка и разрушения Римской империи" adlı əsərində normanların milli xarakterini Cənubi İtaliya nümunəsində şərh etmişdir [6, s.319-386]. Alman tarixçisi İ.Gerder "Идея к философии истории человечества" adlı əsərində normanların Şimal xalqlarının bəzi xüsusiyyətlərini mənimsədiklərini vurğulayırdı. İ.Gerderə görə, Qərbi Avropanın cəngavərlik ruhu norman və Şərq ənənələrinin çulgalaşması nəticəsində meydana gəlmişdir. I və II Xaç yürüşlərində cəngavərlərin çoxu məhv edilmiş, qalan cəngavərlər "gerb kağızı" üzərində olanlara çevrilmişlər [5, s.593].

XIX əsrdə fransız tarixçisi V.Şastene, Fransanın Misirdə səfiri olmuş tarixçi Q.Ark və b. mövzu ilə bağlı məlumat vermişlər. Fransa imperatoru III Napoleonun tarixçisi baron Bazankur normanların Cənubi İtaliya və Siciliyada fəaliyyəti və I Xaç yürüşündə iştirakını nəzərdən keçirmişdir. Eyni mövqeni alman alimi qraf A.Şakk "История норманнов в Сицилии" adlı əsərində sərgiləmişdir. Alman alimi B.Kuqler tədqiqat işində normanların I Xaç yürüşündə iştirakı və Suriyada norman knyazlığının yaradılmasına diqqət yetirmişdir [16, s. 69-118].

XX əsrin I yarısında Xartiya məktəbinin nümayəndəsi Ş.Pti-Dütayk "Феодальная монархия во Франции и в Англии X-XIII веков" əsərində məlumat verirdi ki, Fransa krallığında Normandiyada olduğu qədər qəhrəman və cəsarətli orduya malik ikinci bir əyalət yoxdur. Normanlar getdikləri yerlərə özləri ilə idarəetmə təcrübəsi aparır və bir-birilə daim əlaqə saxlayırdılar. Onlar

döyüşməklə yanaşı, fəth etdikləri ərazilərdə, xüsusilə I Xaç yürüşü və sonrakı dövrdə yaranan dövlətlərdə hakim sinif kimi çıxış edirdilər [25, s.55].

Fransız tarixçisi R.Qrusse "Эпопея крестовых походов" adlı əsərində normanları müsəlmanlar və bidətçi yunanlara qarşı yürüşlərdə "Latın avanqardı" kimi dəyərləndirmişdir. Şərq və Qərb hərbçiləri – səlcuq türkləri və franklar I Xaç yürüşü dövründə baş verən Dorile döyüşündə (1097) öz qüvvələrini sınamışlar. Dorile döyüşünü Qranik və Arbella döyüşləri ilə müqayisə edən R.Qrusse bu döyüş nəticəsində səlcuqların Malazgird döyüşündə əldə etdikləri üstünlüyün daha 100 il müddətinə uzandığı və Yaxın Şərqdə "franklar" kimi tanınan yeni qüvvə – normanların meydana gəldiyini göstərmişdir [24, s.31-32]. Şərqşünas alim K.Kaen Şimali Suriyada Antioxiya knyazlığı tarixinə dair ilk monoqrafiyanın müəllifidir. Monoqrafiyada Klod Kaen əsas diqqəti norman işğalları və Suriyada yaradılan dövlət institutlarına yönəltmişdir [24, s.34].

Fransız tarixçisi P.Viymar "Крестовые походы" adlı monoqrafiyasında göstərir ki, normanlar xüsusilə I və II Xaç yürüşləri zamanı aparıcı qüvvə kimi çıxış edirdilər [3, s.168]. Onun fikrincə, türklərin Şərqi Anadoluda məskunlaşması ilə normanların Cənubi İtaliyaya yürüşlərinin başlanması eyni vaxta təsadüf edir. Türklər və normanların "feodal knyazlıqları" yaratmaları oxşar metodlarla həyata keçirilmişdir. I Xaç yürüşü zamanı Şərqdə yaradılan Latın dövlətlərinin əsas məqsədi Anadolu torpaqlarını tutmaq olmuşdur. Normanlar I Xaç yürüşündə ilk və son dəfə "Anadolu maneəsi"ni keçmişlər. Səlcuq türkləri tərəfindən xaçlı ordularının dəf olunması Latın dövlətlərinin süqutuna səbəb oldu [3, s.35-160].

Fransız tədqiqatçısı M.Balive "Норманны и тюрки" adlı əsərində XI-XII əsrlərdə baş verən Xaç yürüşlərində norman və türklərin bir-birinə "rəğbətlə yanaşmaları"nı göstərmişdir. Bu münasibətlərin əsasında "funksional simmetriya" mövcud olmuşdur: normanlar və türklərin müvafiq olaraq xristian və müsəlman cəmiyyətlərində tutduqları oxşar mövqe; muzdlu hərbçilər kimi tanınmaları; Aralıq dənizi hövzəsində fəthlərin xronologiyası; dini təşkilatlara sədaqətləri; "Müqəddəs müharibə" idealının əsas götürülməsi və hərbi əməliyyatlarda iştirak edilməsi; hərbi xarakterli möhtəşəm dövlətlərin yaradılması; işğal olunmuş torpaqlarda ciddi qaydaların qoyulması; mədəni eklektizmin (xalq özünü əlahiddə hesab edir) formalaşması; digər xalqlara münasibətdə hər iki xalqın mədəni baxımdan açıq olması və sinkretizm nümayiş etdirməsi; müasirləri tərəfindən hər iki xalqın spesifik və orijinal xüsusiyyətlərə malik olmasının qəbul edilməsi və s. [24, s.36]. Balive bu uyğunluğu I və II Xaç yürüşlərinin baş verdiyi dövrə şamil etmişdir. Bundan sonrakı dövrdə türkmənlərin Mərkəzi Asiyadan Kiçik Asiyaya gəlişi "Aralıq dənizi sahili Türküstanı"nın yaranmasına səbəb olmuşdur. Normanlar isə XIII əsrdə məmlüklərin hücumları nəticəsində Suriyada mövqelərini itirmişlər. Fransız

tarixçisi J.Florinin "Боэмунд Антиохийский. Рыцарь удачи" adlı əsərində I Xaç yürüşünün başçılarından biri Boemund "tarixi mif" kimi öz əksini tapmışdır [28, s. 9-28].

Britaniyalı tarixçi C.Reyli-Smit "Первый крестовый поход и идея Крестового похода" adlı monoqrafiyasında erkən xaç yürüşləri iştirakçılarının etnik mənsubiyyətinə diqqət yetirmişdir. Müəllif "Мотивы ранних крестоносцев и заселение Латинской Палестины 1095-1110 гг." adlı əsərində latın mənbələri əsasında I Xaç yürüşü ərəfəsi və gedişi zamanı normanların fəaliyyətini izləmiş, Cənubi İtaliya və Siciliyadan olan 10 norman başçısı nəzərdən keçirilmişdir [24, s.41]. Amerikalı alim P.Xaranis "Византия, Запад и происхождение Первого крестового похода" adlı məqaləsində göstərirdi ki, 1071-ci il hadisəsindən sonra Bizans normanların köməyi ilə səlcuq türklərini çıxartmaq və Kiçik Asiyada möhkəmlənməyə çalışırdı. "Культурное разнообразие и падение власти Византии в Малой Азии" adlı digər məqaləsində P.Xaranis bizanslıların məğlubiyyəti və regionda mövqeyini itirməsini Bizans ordusunun süqutu və muzdluların şübhəli fəaliyyəti ilə əlaqələndirmişdir [24, s.38].

I Xaç yürüşünə həsr olunmuş məqalələrdən biri Rusiya Təhsil Nazirliyinin maliyyə dəstəyi ilə reallaşan "Ali məktəblərdə elmi potensialın inkişafı" proqramı çərçivəsində 501 saylı layihə əsasında hazırlanmışdır. Məqalənin müəllifləri V.Portnıx və Q.Pikovdur. "Религиозное обоснование идеи крестового похода в хронике "Деяния франков (Gesta Francorum et aliorum hierosolyminatorum)" adlı bu məqalədə hadisələrə yeni dövrün tələbləri prizmasından yanaşılmışdır [23, s.2]. Bu xronika əsasında 1097-1099-cu illərdə Kiçik Asiya, Suriya və Fələstində baş verən döyüşlər, istifadə edilən taktika, xaçlıların rəqibləri ilə qarşıdurmada istifadə etdikləri manevrlər, möhkəmləndirilmiş məntəqələr və s. barədə ətraflı məlumat almaq mümkündür [18, s.28]. S.Luçiskayanın bu fikrinə cavab olaraq V.Portnıx və Q.Pikov bildirirlər ki, anonim müəllifin iştirak etdiyi bu yürüş I Xaç yürüşüdür. Bu səbəbdən dini motivlər və onların müasirləri arasında əsaslandırılması kimi vacib məsələyə diqqət yetirmək lazımdır [25, s.2]. Yürüşlərə hazırlıq mərhələsində kilsə bu hadisələri dini zəvvarlıq kimi qiymətləndirməyi irəli sürmüşdür. Şərq ölkələrində çətinliklərlə üzləşən zəvvarlar baş verənləri şişirtmək və onların təqib edilməsi barədə şayiələr yaymağa nail olmuşlar. Şərqə gedən hərbi dəstələrin birləşməsi, xüsusilə I Xaç yürüşündə bu prosesin sürətlənməsi səbəbindən kilsə Müqəddəs torpağa hərbi yürüşə çağırmağın çatışmayan tərəfini anlayırdı. Bu səbəbdən papa II Urban "hərbi zəvvarlıq" formulunun ortaya qoyulmasını doğru hesab etmişdir.

I Xaç yürüşü zamanı Yaxın Şərqdə son dərəcə gərgin vəziyyət yaranmışdır. Bu regiona türklər və İslam dininin "gəlişi" vəziyyəti dəyişmişdir. Erkən Xaç yürüşlərini xarakterizə edən B.Kuqler göstərirdi ki, xaç yürüşlərinin

təşkili yalnız Avropadaxili faktorlarla deyil, həm də "ərəblər"in türk fəthləri problemini həll etmək cəhdləri ilə bağlı olmuşdur [16, s.11].

"Историография истории средних веков" adlı əsərində sovet tədqiqatçısı A.Lyublinskaya göstərir ki, Xaç yürüşlərində Qərbi Avropa ölkələri və Aralıq dənizi hövzəsində yerləşən şəhərlər iştirak edirdi. Nəticədə Xaç yürüşləri haqqında müxtəlif dillərdə yazılan xronika və sənədli materiallar dövrümüzədək gəlib çatmışdır. Xaç yürüşlərində aparıcı rol fransız feodalları və "Dənizarxası krallıqlar"a (Royaume d`Outremer) məxsus olduğuna görə yürüşlərin salnaməçiləri, əsasən, fransızlar olmuşdur. A.Lyublinskaya anonim müəllif tərəfindən yazılmış "Деяния франков и других путников в Иерусалиме" adlı xronikanı dəyərli hesab etmişdir. Xronika sadə dildə yazılmış, Bibliyadan iqtibaslar gətirilməsinə maraq göstərilməmiş, sərvət üstündə döyüşən xristianlar mühakimə olunmuş, türklərin qəhrəmanlığı və hərbi şücaətinə hörmətlə yanaşılmışdır. A.Lyublinskaya I Xaç yürüşü zamanı Fələstindən Avropaya müxtəlif məktubların yola salınması, məktubların Avropada üzünün köçürülərək şəhər və qəsrlərə paylanması və bu yolla xaçlıların Şərqə göndərilməsi üçün təbliğatın aparılmasını bildirmişdir [19, s.116].

I Xaç yürüşündən sonra mühüm nəticələrdən biri Latın dövlətlərinin yaradılması olmuşdur. Alman alimi İ.Gerder həmin dövlətlərin daxilən qüvvətli olmadığını göstərmişdir. "Bədbəxtliklərin xaçlıların başına töküldüyü" dövrdə Yerusəlim krallığı çoxsaylı və güclü türk ordusu, Misir dövlətinin hücumlarına tab gətirməyə çalışırdı. Yerusəlimin qüvvəsi tükəndikcə xırda knyazlıqlar tədricən dağılır və ya Yerusəlimin "taleyini yaşayırdı". 1144-cü ildə Edessa qraflığının süqutu Xaçlı dövlətləri üçün uğursuzluq hesab edilmişdir. Bu səbəbdən avropalılar tərəfindən II Xaç yürüşü təşkil edilmiş və bu zaman Edessanı geri qaytarmaq əvəzinə strateji baxımdan vacib Dəməşqin tutulmasına cəhd edilmişdir [5, s.591].

A.Lyublinskaya II Xaç yürüşü ilə bağlı xüsusi xronikaların olmadığına diqqəti cəlb etmişdir. Fransa kralı VII Lüdoviqin katibi və kapellanı, Sen-Deni abbatı olmuş Deylli Ed kralı II Xaç yürüşündə müşayiət edərkən Fransada dövləti idarə edən Suqeriyə öz qeydlərini göndərmişdir. Müəllifin fikrincə, II Xaç yürüşünün öyrənilməsi zamanı fransız və alman xronikaları – "Большая французская хроника", Freyzingenli Ottonun "Деяния Фридриха" və XII əsrə aid tarixi əsərlərə müraciət etmək doğru olardı [19, s.119]. İngilisdilli müəllif C.Brandecin "Крестовые походы. Священные войны Средневековья" [2], fransız P.Viymarın "Крестовые походы. Миф и реальность «свяшенной войны»" [3], rusdilli müəllif A.N.Qranovskinin ikicildlik "Крестовые походы" [7], sovet müəllifi M.Zaborovun mövzu ilə bağlı bir neçə əsəri – "Папство и крестовые походы" [10], "История крестовых походов в документах и материалах" [11], "Крестоносцы на Востоке" [12], fransız tarixçisi Q.Mişonun "История крестовых походов" [20], A.Tarıkın

“Столкновение цивилизаций. Крестовые походы, джихад и современность” [27], K.Hillebrandın “Крестовые походы. Взгляд с Востока. Мусульманская перспектива” [30] və b. müəlliflərin əsərlərinə müraciət edərək II Xaç yürüşü zamanı baş verən hadisələri araşdırmaq və məsələlərə müxtəlif aspektlərdən yanaşmaq mümkündür.

Xaç yürüşləri tarixinin öyrənilməsi müasir dövrdə öz aktuallığı ilə diqqəti cəlb edir. Bu baxımdan Bizans imperiyasının tabe edilməsi, həmin xalqların Avropa üçün böyük təhlükəyə çevrilməsi və papanın daxili işlərinə qarışması ön plana çıxmışdır. Avropada bu zaman preventiv (qabaqlayıcı) xarakterli müharibənin aparılması üçün çağırışlar edilmişdir. Kilsə daxili siyasi mübarizədə Əhdi-Ətiq, xarici siyasətdə Əhdi-Cədiddən istifadə edirdi.

Orta əsrlərdə Xaç yürüşləri “Tanrının franklar vasitəsilə həyata keçirdiyi əməllər” kimi qəbul edilirdi [8, s.25]. Bibliya mətnlərindən istifadə edən II Urban Avropa sivilizasiyası çərçivəsindən kənara çıxan hərbi hücum əməliyyatlarının keçirilməsini “Tanrının istəyi” kimi dəyərləndirirdi. Müasir dövrdə də preventiv xarakterli müharibələr aparılarkən (İrak, Əfqanıstan və s.) bu metodlardan istifadə edilir.

Xaç yürüşləri zamanı İslam dininə münasibət birmənalı olmamışdır. Xaç yürüşləri ilə bağlı mənbələrdə islamın düzgün anlaşılmaması ilə bağlı materiala rast gəlmək mümkündür. Eyni zamanda türklərin qəhrəmanlığı təriflənir və onların xristian olmadıqları təəssüflə qeyd olunurdu [23, s.7]. Xristian müəlliflər xristianların spiritual üstünlüyünü xüsusi olaraq əsaslandırmış, müsəlman və xristian qarşıdurmasını materiya və ruh arasında mübarizə kimi dəyərləndirmişlər. Xristian mənbələrində daha bir məsələyə diqqət yetirilirdi: türklər və franklar bir-birinə yad deyillər. Onlar hər ikisi Troya mənşəlidir. Troya dağıldıqdan sonra türklər şərqə, franklar isə qərbə getmişlər [18, s.152-212]. Bu nəzəriyyə Avropa humanistlərinin Avropa xalqlarının mənşəyini tapmaq cəhdi ilə bağlı olmuşdur [21, s.89-92].

Hələ antik dövrdə asiyalılar üçün müəyyən edilən mənfi obraz, müsəlmanlıq qəbul edildikdən sonra kafir obrazı ilə əvəzlənmişdir. Mənbələrdə müsəlmanlar barbar tayfa (gens barbara), allahsız tayfa (gens nefaria), kilsədən qovulmuş xalq (excommunicata generatio) kimi təqdim edilir, xristianlar isə Tanrının seçdiyi xalq (populus Dei), Xaçın ordusu (Christi milites), xristian xalqı (Christianorum populus) və s. kimi qəbul olunurdu. Müsəlmanlar bidətçi adlandırılırdı [23, s.8]. Bu səbəbdən əsasını Xaç yürüşlərindən götürən və müasir dövrdə Fransa və digər Avropa ölkələrində davam edən islam dini ilə bağlı xoşagəlməz hadisələrə rast gəlmək mümkündür [23, s.6].

Avropa sivilizasiyası ənənəvi sərhədləri keçdikcə Əhdi-Ətiqi Əhdi-Cədid əvəz etmişdir. “Xristian dünyası”nın feodal quruluşunu rəsmiləşdirən bu müqəddəs yazının ideya və obrazları ön plana çəkilmiş və hətta tənqid olunmuşdur. Xaç yürüşləri dövründə məhz Əhdi-Cədid feodal ekspansiyasını

əsaslandırmaq üçün əsas mənbə rolunda çıxış etmişdir. Orta əsrlər tarixinin son mərhələsində Martin Lüter və Jan Kalvin reformasiyaları isə kapitalist ekspansiyasının formalaşmasına səbəb olmuş, sonuncular Əhdi-Cədid ideyalarına əsaslanmış və müqəddəs ənənə çərçivəsindən kənara çıxmışlar. XVII-XIX əsrlər tarixşünaslığında Xaç yürüşləri ilə bağlı romantik baxış üstünlük təşkil etmişdir.

Beləliklə, Xaç yürüşləri zamanı avropalı xaçlı qoşunları yalnız Şərq ölkələrinə qarşı deyil, eyni zamanda Avropanın daxilində həm xristianlar, həm də bidətçilərə qarşı hərbi əməliyyatlar aparmışlar. Xaç yürüşləri Qərb xalqlarının öz sərhədlərini genişləndirmək, yeni torpaqlar əldə etmək, həm Qərbi Avropa sərhədləri daxilində, həm də Avropadan kifayət qədər uzaq ərazilərdə geniş işğalçılıq müharibələri aparmaq siyasətinin tərkib hissəsi idi. Xaç yürüşləri Avropa müstəmləkəçiliyinin bir mərhələsi kimi qəbul olunur.

## ƏDƏBİYYAT


1. *Бокман Х.* Немецкий орден. Двенадцать глав из его истории. М.: ЛАДОМИР, 2004, 273 с.
2. *Брандедж Дж.* Крестовые походы. Священные войны Средневековья. М.: ЗВО Центрполиграф, 2011, 320 с.
3. *Виймар П.* Крестовые походы. Миф и реальность священной войны / Пер. с франц. Д.А.Журавлёвой. СПб.: Евразия, 2003, 384 с.
4. *Гергей Е.* История папства / Пер. с венгр. О.В.Громова. М.: Изд-во Республика, 1996, 463 с.
5. *Гердер И.Г.* Идеи к философии истории человечества. Пер. и перем. А.В.Михайлова. М.: Наука, 1977, 704 с.
6. *Гиббон Э.* История упадка и разрушения Римской империи. Т.6. / Пер. с англ. М.: Книжный клуб, 2008, 592 с.
7. *Грановский А.Н.* Крестовые походы. СПб.: Изд-во Дмитрий Буланин, 2013, 472 с.
8. *Доманин А.А.* Крестовые походы. Под сенью креста. М.: Центрполиграф, 2003, 431 с.
9. *Дударев С.Л., Лёсина Т.Н.* С крестом и мечом: очерки истории крестоносного движения. Армавир: АГПУ, 2002, 83 с.
10. *Заборов М.А.* Папство и крестовые походы. М.: Изд-во АН СССР, 1960, 264 с.
11. *Заборов М.А.* История крестовых походов в документах и материалах. М.: Высшая школа, 1977, 272 с.
12. *Заборов М.А.* Крестоносцы на Востоке. М.: Наука, 1980, 320 с.
13. *Захаров В.А., Чибисов В.Н.* Орден госпитальеров. СПб.: Алатейя, 2009, 464 с.
14. *Карсавин Л.П.* Монашство в средние века. М.:Высшая школа,1992, 190 с.

15. Краткая история военно-духовных рыцарских орденов. Тайны, скрытые забралом: М.: Современник, 2002, 416 с.
16. *Куглер Б.* История крестовых походов. Ростов-на-Дону: Феникс,1996, 512 с.
17. *Луис Б.* Ислам и Запад. М.: Библейско-богословский институт св.апостола Андрея, 2003, 320 с.
18. *Лучицкая С.И.* Образ Другого: мусульмане в хрониках крестовых походов. СПБ.: Алетейя, 2001, 412 с.
19. *Люблинская А.В.* Историография истории средних веков. Л.: Ленинградский Университет, 1955, 374 с.
20. *Мишо Г.* История крестовых походов / Пер. с фр. С.Л.Клячко. М.: Алетейя, 1999, 368 с.
21. *Пиков Г.Г.* О восприятии Нового света европейцами в XVI-XVII вв. / История мировой культуры и методы ее преподавания. Тезисы докладов международной конференции. Новосибирск, 1995, с.89-92
22. *Пиков Г.Г.* «Сакральное» и «секулярное» в «христианской» культуре // История и теория культуры в вузовском образовании. Межвузовский сборник научных трудов. Вып.2. Новосибирск, 2004, с.36-59
23. *Портных В.Л., Пиков Г.Г.* Религиозное обоснование идеи крестового похода в хронике “Деяния франков” (Gesta Francorum et aliorum hierosoly-minatorum). Pikov-gesta.pdf (Müraciət tarixi: 05.X.2021)
24. *Прудников В.В.* Норманны в Малой Азии в XI-XII вв. Дисс. на соиск…. канд.ист.наук. М.: 2016, 292 с.
25. *Пти-Дютайк Ш.* Феодальная монархия во Франции и в Англии X-XIII веков. СПб.: Группа Евразия, 2001, 448 с.
26. *Руа Ж.Ж.* История рыцарства. М.: Алатейя, 2001, 248 с.
27. *Тарик А.* Столкновение цивилизаций. Крестовые походы, джихад и современность. М.: ООО АСТ Астрель, 2006, 528 с.
28. *Флори Ж.* Боэмунд Антиохийский. Рыцарь удачи. СПб.: Евразия, 2013, 336 с.
29. *Флори Ж.* Идеология меча. Предыстория рыцарства / Пер. с франц. М.Ю.Некрасова. СПБ.: Евразия, 1999, 320 с.
30. *Хиллебранд К.* Крестовые походы. Взгляд с Востока. Мусульманская перспектива. М.: Диля, 2008, 672 с.

Redaksiyaya daxil olub 13.11.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №4, s. 61-73
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №4, pp. 61-73

***UOT 930.85;792***

***R.M.Məcnunov***
*Polis Akademiyası*
*rehim.mecnunov@mail.ru*

# AZƏRBAYCAN İNCƏSƏNƏTİNİN FORMALAŞMASINDA VƏ İNKİŞAFINDA TİFLİS ŞƏHƏRİNİN ROLU

***Açar sözlər:*** *Tiflis, teatr, incəsənət, şəhər, maarif, milli oyanış*

İctimai süurun formalarından biri olan incəsənət bəşəriyyətin mənəvi mədəniyyətinin tərkib hissəsi və praktik mənəvi qavramanın spesifik növü kimi anlaşılır. İncəsənətin əsas növləri kimi təsviri incəsənət, memarlıq, musiqi, ədəbiyyat bəşəriyyətin mənəvi inkişafına böyük təsir göstərmişdir. Lakin incəsənətin bir neçə növünün eyni zamanda sintezi kimi meydana çıxan teatr kütləyə güclü təsir göstərmək – onun düşüncəsinə, emosiyalarına, baxışlarına hakim kəsilə bilmək imkanına malik idi. Məhz bu qüdrətli vasitənin köməyilə xalqımızı maarifləndirməyi qarşılarına məqsəd qoyan milli ziyalılarımız hələ XIX əsrin I yarısından fəaliyyətə başlamışdılar.

Məqalədə Tiflis Azərbaycan mədəniyyətinin əsas tərkib hissələrindən biri olan teatr tarixi araşdırılaraq təhlilə cəlb edilir, onun əsas xüsusiyyətləri, xalqın milli şüurunun formalaşmasında rolu müəyyənləşdirilir.

***Р.М.Меджнунов***

# РОЛЬ ТБИЛИСИ В СТАНОВЛЕНИИ И РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ИСКУССТВА

***Ключевые слова:*** *Тбилиси, театр, искусство, город, образование, национальное пробуждение*

Искусство как одна из форм общественного сознания понимается как неотъемлемая часть духовной культуры человечества и особый тип практического духовного восприятия. Изобразительное искусство, архитектура, музыка, литература как основные виды искусства оказали большое влияние на духовное развитие человечества. Однако театр, возникший как одновременный синтез нескольких видов искусства, имел возможность оказывать сильное влияние на массы – управлять их мыслями, эмоциями и взглядами. Наша национальная интеллигенция, стремившаяся просвещать наш народ с помощью этого мощного инструмента, начала работать в первой половине XIX века.

В статье исследуется и анализируется история театра, являющегося одной из основных составляющих Тбилисской Азербайджанской культуры, определяются его основные черты и роль в формировании национального самосознания народа.

***R.M.Mejnunov***

## THE ROLE OF TBILISI IN THE FORMATION AND DEVELOPMENT OF AZERBAIJANI ART

***Keywords:*** *Tbilisi, theater, art, city, education, national awakening*

Art, one of the forms of social consciousness, is understood as an integral part of the spiritual culture of mankind and a specific type of practical spiritual perception. As the main types of art, fine arts, architecture, music, literature have had a great impact on the spiritual development of mankind. However, the theater, which emerged as a simultaneous synthesis of several types of art, had the opportunity to have a strong impact on the masses – to control their thoughts, emotions and views. Our national intellectuals, who aimed to enlighten our people with the help of this powerful tool, began to work in the first half of the XIX century.

The article examines and analyzes the history of the theater, which is one of the main components of Tbilisi Azerbaijani culture, and identifies its main features and role in the formation of the national consciousness of the people.

XIX əsrin II yarısında Rusiya imperiyasında bir sıra mühüm dəyişikliklər baş verdi. Bunlardan ən əsası təhkimçilik asılılığının aradan qalxması və yeni burjua münasibətlərinin meydana çıxması idi. XIX əsrin 60-70-ci illərində əvvəlcə Rusiyanın özündə, daha sonra isə müstəmləkə ucqarlarında həyata keçirilən islahatlar yeni istehsal münasibətlərinin inkişafı prosesini daha da sürətləndirdi. Təbii ki, siyasi və iqtisadi həyatda baş verən bu dəyişikliklər mədəniyyət sahəsində də özünü büruzə verməyə bilməzdi. Qeyd olunan dövrdə çarizmin müstəmləkə asılılığında olan Cənubi Qafqaz xalqları, xüsusilə müsəlman türklər arasında da müəyyən oyanış və inkişaf meyilləri özünü göstərirdi. Belə ki, XIX əsrin II yarısında kapitalist münasibətlərinin təsiri altında Azərbaycan millətinin yaranması prosesi güclənmiş, milli ziyalı və burjuaziya təbəqələrimiz formalaşmışdı. Azərbaycan ziyalıları XIX əsrin II yarısı – XX əsrin əvvəllərində xalqın maariflənməsi, milli oyanışı, onun xurafatdan və müstəmləkə boyunduruğundan azad olması üçün böyük fədakarlıq göstərir, durmadan çalışırdılar. Azərbaycan xalqının düşünən beyinləri öz missiyalarını həyata keçirmək üçün kütləvi maarifləndirmə vasitələri olan mətbuat və teatra müraciət edirlər. Onlar doğurdan da yanılmamışdılar, Qərblə ayaqlaşmaq, onun uğurlu nailiyyətlərini təkrarlamaq üçün insanların şüuruna təsir göstərə biləcək vasitə incəsənət, onun mühüm qolu olan milli teatr idi.

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində da Cənubi Qafqazın iki böyük iqtisadi və mədəni mərkəzi – Bakı və Tiflis Rusiya imperiyasının digər böyük şəhərləri ilə rəqabətə girmək iqtidarında olan şəhərlər idi. Çarın idarəçilik aparatı işçi və rəhbərlərin əksəriyyətinin cəmləşdiyi Tiflis şəhəri XIX

– XX əsrin əvvəllərində bütün Qafqaz xalqlarının siyasi və mədəni mərkəzi kimi təşəkkül tapmışdı. Elm və mədəniyyət mərkəzi olan Tiflis şəhəri və mühiti bir çox Azərbaycan ziyalısının və ictimai xadiminin də yetişməsində müstəsna rol oynamışdı. A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, F.Şeyda, İ.Qutqaşınlı, F.Köçərli, Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, M.Şahtaxtlı, C.Ünsizadə qardaşları, E.Sultanov, İ.İsfahanlı, H.Minasazov, N.Nərimanov və digər onlarla görkəmli azərbaycanlının formalaşmasında Tiflis mühitinin böyük təsiri olmuşdur.

XIX – XX əsrin əvvəllərində Azərbaycan türklərinin kompakt şəkildə məskunlaşdığı şəhərlərdən biri də Tiflis şəhəri və onun ətrafı idi. Tiflisdə yaşayan azərbaycanlıların böyük əksəriyyəti şəhərin yerli və əzəli sakinləri olub onun köhnə Tiflis adlanan hissəsində, Qala, Meydan, Şeytanbazar, Xarpux, Ortaçala kimi məhəllələrində məskunlaşmışdılar. Digərləri isə Tiflisdə işləməyə, təhsil almağa və ya mövsümi işlərlə bağlı bura gəlib yaşayanlar idi. Beləliklə, XIX əsrin II yarısında Tiflis sakinlərinin xeyli hissəsini azərbaycanlılar və digər türk-müsəlman xalqlarının nümayəndələri təşkil edirdi. Məhz bu amil Azərbaycan incəsənətinin mühüm sahələrindən olan milli teatrımızın bir qolunun Tiflisdə yaranıb fəaliyyət göstərməsində baza rolunu oynamışdı. Qeyd edək ki, Tiflis şəhərində Azərbaycan teatrı inkişaf edib püxtələşdikcə, onun tamaşaçı kontingenti milli baxımdan daha da zənginləşmiş, şəhərdə yaşayan digər xalqların nümayəndələrini də öz geniş auditoriyasına cəlb etməyi bacarmışdı.

Tiflis şəhərində Azərbaycan teatrının formalaşması prosesi böyük bir tarixi mərhələdən keçmişdir. Belə ki, hələ teatr yaranmazdan xeyli qabaq Tiflisin azərbaycanlılar yaşayan məhəllələrində göstərilən xalq oyunları, meydan mərasimləri, dini-şəbih tamaşaları çağdaş teatrın yaranması yolunda ilk addımlar olmuşdur. Qeyd olunan xalq yaradıcılığı nümunələri və milli-oyun tamaşalar əsasən köhnə tiflislilərin – qaraçuxalıların ən çox toplaşdıqları yerlərdə – Halatov və Poranbəyov karvansaralarında, Meydanda, Şeytanbazarda, Tiflis ətrafı ərazilərdə – Borçalıda xüsusilə daha tez-tez keçirilmişdir. Məhz bu oyun-tamaşalar Tiflis Azərbaycan teatrının yaranmasına xeyli dərəcədə təsir göstərmişdir. Xüsusilə tiflisli aktyor M.Mərdanovun atası Hacı Haşıma məxsus olan Poranbəyov karvansarası bu sahədə mühüm dayaq nöqtəsi olmuşdur. Burada qeyd olunan milli bayramlar, toy və el şənlikləri, göstərilən tamaşa-oyunlar, nağıl-dastan söyləmələri, ədəbi müzakirələr, məclislər, xanəndələrin və aşıqların çıxışları həmin dövrdə bu tədbirlərdə iştirak edən azərbaycanlıların dünyagörüşünə və yaradıcılıqlarına mühüm təsir göstərmişdir. Onların arasında Tiflisdə olmuş və yaşayıb-yaratmış məşhur həmyerlilərimizdən M.F.Axundzadə, Ü.Hacıbəyov, M.Şahtaxtlı, C.Məmmədquluzadə, E.Sultanov, H.Səbri, Ə.Haqverdiyev, H.Cavid, Sadıqcan, Əbülhəsənxan, Dərvişxan, H.Ərəblinski, Ə.Bülbülcan, S.Ruhulla, S.Şuşinski,

M.Qafar, S.Ünsizadə, C.Ünsizadə, H.Minasazov, Ü.Rəcəb, Ö.F.Nemanzadə, Ə.Nərimanov, Ə.Vəli, M.Abbasov, M.Mərdanov, İ.İsfahanlı, O.Yüzbaşov, M.Quliyev, M.Kirmanşahlı, H.Minasazov, M.Vəzirov, S.Nərimanov, H.Tahirov, Ə.Mərdanov, Y.Nərimanov və digərləri Azərbaycan teatrının bu şəhərdə formalaşmasında və inkişafında böyük xidmətlər göstərmişlər.

Ümumilikdə götürdükdə, Tiflisdə Azərbaycan teatrının yaranmasına təsir göstərən mühiti və amilləri əsasən 3 qrupa ayırmaq olar:

1) Xalq yaradıcılığının nümunələri olan milli oyun və meydan tamaşaları, «xalq teatrı»;
2) Xanəndə və aşıq yaradıcılığı;
3) Dini-şəbih tamaşaları.

Xalq yaradıcılığının nümunələri olan milli oyun və tamaşaları teatrın yaranmasından çox-çox əvvələ təsadüf edirdi. Tiflisin Şeytanbazar, Meydan kimi azərbaycanlıların sıx məskunlaşdıqları yerlərində el şənlikləri, bayramlar, toy mərasimləri zamanı «Artırma», «Kəndirbaz», «Zorxana», «Dirədöymə» «Kos-kosa», «Səməni», «Kilimarası», «Qaravəlli», «Hodu-hodu» və b. milli oyun və meydan tamaşaları nümayiş etdirilmişdir. Tiflisdən olan və ya Azərbaycanın müxtəlif bölgələrindən gələn bu cür tamaşa göstərən dəstələr adətən Tiflis – Borçalı bölgəsini oba-oba gəzərək müxtəlif mərasim – meydan tamaşaları ilə əhalinin marağına səbəb olmuşdular. Sonralar Azərbaycan teatrının görkəmli nümayəndələrinə çevrilən B.Mehralıbəyov, Ə.Yüzbaşov, H.Haşımov, M.Abbasov, S.Seyidov, M.Kirmanşahlı, İ.Zeynalov, İ.İsfahanlı, Ə.Salahlı, H.Tahirov, M.Mərdanov bu cür meydan tamaşalarında dəfələrlə çıxışlar etmişdilər.

Tiflis şəhərində keçirilən el şənliklərini, məclisləri, «Şərq konsertləri»ni xanəndələrsiz, aşıqlarsız təsəvvür etmək mümkün deyildi. Xalq musiqisinin bir qolu olan və öz qidasını klassik ədəbiyyatdan, qəzəllərdən alan xanəndəlik əsasən şəhərlərin inkişafı ilə bağlı meydana çıxmış və XX əsrin əvvəllərinə qədər demək olar ki, onun repertuarı farsca ifalardan ibarət olmuşdur. Xanəndələri şərti olaraq iki qrupa ayırmaq olardı:

1) Əsasən varlıların məclislərində ifa edən saray xanəndələri
2) «Gəzəyən» xanəndələr.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Tiflisin meydanlarında, müsəlmanlar yaşayan məhəllələrində, bazar və ticarət meydançalarında, şəhər sənətkarlarının və xırda tacirlərin məclislərində əsas gəlir mənbəyi «şabaş», «xələf» olan «gəzəyən» xanəndələrə çox tez-tez rast gəlmək olardı.

XIX əsrin II yarısında Cənubi Qafqazın siyasi və iqtisadi mərkəzinə çevrilən Tiflislə yanaşı, mədəniyyət beşiyi olan Şuşa və Şamaxı şəhərlərində də əhali işdən sonra axşam çayxanalarda, bəzzazxanalarda, karvansaralarda və meydançalarda yığışaraq «gəzəyən» xanəndələri böyük maraqla dinləyərdilər. Tiflis şəhərinə səfər edən xanəndələrin içərisində Qarabağdan, xüsusilə Şuşadan

gələn məşhur muğam ustaları üstünlük təşkil edirdilər: «ənudi Qafqaz musiqi xadimlərini çalğıçı və xanəndənin, şeir, musiqi və mahnıların füsunkar vətəni olan Şuşa verirdi. Bütün Cənubi Qafqaz üçün bir konservatoriya rolunu oynayan bu şəhərdən hər mövsümdə, hətta hər ay Cənubi Qafqaza yeni mahnılar, tədricən yeni motivlər gəlirdi» [13, s.28]. Qeyd olunan dövrdə Tiflis şəhəri Cənubi Qafqazda musiqinin və incəsənətin beşiyinə çevrilmişdi. Məşhur xanəndələrdən Hacı Hüsü, Mirzə Məhəmməd Həsən, Cabbar Qaryağdıoğlu, Segah İslam, Salahlı Məşədi Əkbər, Seyid Şuşinski, xüsusilə Bülbül muğamatı genişləndirmək üçün aşıq formalarını və xalq mahnılarını muğamata daxil etmişdilər [1, s.74]. Tiflis şəhərində yaşayıb-yaratmış məşhur azərbaycanlı xanəndələrdən Səttar, Əbdülbağı və Allahverdi də Azərbaycan musiqisinin inkişafına böyük töhfələr vermişdilər [8, s.295]. Həmçinin Tiflisdə və ətraf bölgəsində yaşayan azərbaycanlı və Azərbaycan dilində çalıb-oxuyan gürcü aşıqları da Tiflisin musiqili həyatında mühüm rol oynamışlar [12, s.7].

Tiflisdə Azərbaycan teatrının yaranmasına təsir edən ən mühüm səbəblərdən biri də dini şəbih tamaşaları olmuşdur. Bu cür tamaşalar estetik fikrin inkişafına güclü təsir göstərmiş və dünyəvi teatr yaratmaq ideyasını xeyli sürətləndirmişdir. Tiflisdə keçirilən şəbih tamaşaları barədə M.Mərdanov çox maraqlı fikir söyləmişdir: «Tiflisdə teatr tamaşalarından başqa hər il məhərrəm ayında keçirilən, ənənə şəkli almış şəbih mərasimləri də məni maraqlandırırdı. Boş vaxtlarımda şəbih mərasimlərinin məşqlərinə də gedirdim. Bu da bir növ teatr idi. Teatr sənətinə çox yaxın olan bu dini tamaşalar islam aləmində çox yayılmışdı" [11, s.7].

Bu fikirdən də aydın olduğu kimi, Tiflisdə şəbih tamaşaları peşəkar çağdaş teatrdan hələ çox əvvəl mövcud olmuş, həvəskar aktyor truppalarının bu fəaliyyəti Azərbaycan teatrının təşəkkülü və inkişafına mühüm təkan vermişdir.

Meydan tamaşalarının bir növü olan şəbih tamaşaları forma və mənaca dini səciyyəli olub, faciə tamaşası hesab edilirdi. "Şəbih" sözü ərəbcə "bənzər", "oxşar" deməkdir [20, s.23]. Şəbih tamaşaları özünəməxsus dramaturgiyası və teatr poetikası ilə seçilir. Tarixdə «Kərbəla müsibəti» kimi anılan faciə – matəm mərasimi çoxdan bəri hər il Azərbaycanın şiələr yaşayan bölgələrində, eləcə də əksəriyyəti şiə təriqətinə mənsub olan Azərbaycan türklərinin məskunlaşdığı Tiflis şəhərində qeyd olunurdu. Şəbih mərasimləri iki hissədən ibarət olurdu: Məhərrəm ayının ilk on günü əza – matəm günləri keçirilir, onuncu gün isə aşura (Ərəbcə 10 deməkdir; bu gün hicri təqvimi ilə Məhərrəm ayının 10-a təsadüf etdiyindən faciə bu adı almışdır – R.M.) – qətl günü, imam övladlarının kütləvi qətlə yetirildiyi gün kimi qeyd olunurdu. Şəbih tamaşaları obrazlarından imam övladlarının surətləri xüsusi əhəmiyyət daşıyırdı. Mərsiyəxanalar Məhərrəm ayında ardı-arası kəsilməyən mərasimlərdə mərsiyələr deyirdi.

Bakıda və Tiflisdə şəbihkardanlar, hər il şəbihlərdə rol aparan, onlara bədii tərtibat verən «aktyor»lar az olmamışdır. Şəbih tamaşasını ərsəyə gətirən

əsas aktyor, belə desək, rejissor, şəbihkardan idi. Bu tamaşada əsas rolu o, özü oynayır, digər rolları isə paylaşdırırdı. Adətən «imam babalarını susuz qoyan Yezidin qəddar sərkərdəsi Şümürün lal-dinməz obrazını» gürcü, erməni və ya digər millətin nümayəndəsi oynayırdı.

Tiflis şəhərində təxminən 10-dan artıq şəbih «truppa»sı fəaliyyət göstərmişdir. Tiflisdə və Borçalıda Tiflisdən olan şəbih «truppa»ları ilə yanaşı, daha çox Qarabağdan və Cənubi Azərbaycandan gələn truppalar tamaşalar nümayiş etdirmişlər. Tiflis və Borçalıda göstərilən şəbih tamaşalarında M.Mərdanov, M.Sənani, H.Minasazov, İ.İsfahanlı, Ə.Qurbanov, H.Səbri, O.Qabulov, C.Mursaqulov, H.Çıldırov, S.Qayıbov, Ə.Salahlı və b. gələcəyin məşhur simaları iştirak etmişdilər.

Şəbihlər Tiflisdə meydanlarda, Şah Abbas məscidinin ətrafında, Paronbəyov karvansarasında, Kür sahili boyu uzanan Ortaçalada, Seyid Mirnemətullanın ev-həyətində, ən çox Şeytanbazarda göstərilmişdir [11, s.5-6].

Azərbaycanda XIX əsrdə Molla Bihuddin, Baqir Ağamirzə Məhəmmədbağır Xalxali, Məhəmməd Dilsuz şəbih tamaşaları üçün faciəvi qəsidələr və mərsiyələr yazmışdılar. Tanınmış şəbihkardanlardan şuşalı Xarrat Qulu, bakılı Rüstəm Kazımov və digərləri məşhur idilər [25].

Özündə mürəkkəb, geniş, hərtərəfli bədii struktur və tərtibat əks etdirən şəbih tamaşalarında rolların bölgüsü aparılır, müəyyən süjet xətti olur, xanəndələr və ya qəzəlxanlar əruz vəznində mərsiyələr deyir, qəsidələr söyləyirdilər. Bir sözlə, şəbih tamaşaları real teatra çox bənzəyirdi. Şəbih tamaşaları sonradan Azərbaycan teatrının romantik faciə qolunun formalaşmasında mühüm rol oynamışdı.

Bütün yuxarıda qeyd etdiklərimiz göstərir ki, Tiflis şəhərində Azərbaycan çağdaş teatrının yaranması üçün münbit şərait mövcud idi. Tiflisin azərbaycanlı məhəllələrində, küçə və meydanlarında, xalqın toplaşdığı digər məkanlarda bayram günlərində, el və toy şənliklərində, mərasimlərdə, ilin müxtəlif vaxtlarında nümayiş etdirilən milli oyunlar, meydan mərasimləri, aşıq və xanəndələrin çıxışları, şəbih tamaşaları və s. Azərbaycan teatrının formalaşmasına şərait yaratmış, həmçinin gənc həvəskar aktyorlar nəslinin yetişməsinə güclü təsir göstərmişdir.

Hələ, dahi Azərbaycan dramaturqu M.F.Axundovun pyeslərinin Tiflis şəhərində səhnələşdirilməsinə qədər artıq bu şəhərdə Azərbaycan teatrının ilk ənənələri formalaşmışdı.

Tiflis Azərbaycan incəsənətinin əsas özəyi, onun zirvəsi olan milli teatrımızın yaranması və fəaliyyəti, onun məşhur səhnə xadimləri haqqında bir sıra tədqiqatçılarımız maraqlı araşdırmalar aparmış, əsərlər yazmışlar. Bu problemlə bağlı görkəmli tədqiqatçı A.Hacıyev [9], Ə.Nərimanov [19], A.Şərifov [23], Ə.Əliyeva [6], C.Cəfərov [5], Ş.Məmmədli [15], A.Binnətoğlu [3], İ.Rəhimli [22], A.Mişiyev [18], İ.Kərimov [14], T.Cəfərli, R.Şahvələd və

digərlərinin tədqiqatları xüsusilə maraq doğurur. Qeyd edək ki, Tiflis Azərbaycan teatrının tarixinin tədqiqində görkəmli Azərbaycan alimi A.Hacıyevin müstəsna xidmətləri olmuşdur. Onun əsərlərində teatrın yaranmasına qədərki proseslər, təşəkkülü, fəaliyyəti, əlaqələri, qastrol səfərləri, üzvləri və s. barədə dolğun və hərtərəfli məlumatlar öz əksini tapmışdır.

Tiflis Azərbaycan teatrının yaranma tarixi 1872-ci ildə dahi dramaturqumuz, «Qafqazın ilk tatar (azərbaycanlı – R.M.) müəllifi» [7] M.F.Axundovun «Şərgüzəşti-vəziri-xani Lənkəran» («Lənkəran xanının vəziri») adlı komediyasının oynanılması ilə başlanmışdır.

Tiflisdə gürcü teatrı 1845-ci ildə Q.Eristavinin rəhbərliyi ilə fəaliyyətə başlamışdı. Q.Eristavi «Благородное» («Nəcib») adlı dərnək təşkil etmiş və bu dərnəyin köməyilə Tiflis gimnaziyasının binasında özünün yazmış olduğu «Раздел» («Bölüşdürmə») və «Тяжба» («Dartışma») komediyalarını səhnələşdirmişdi [4, s.10].

Tiflisdə Azərbaycan teatrının yaranması ilə bağlı isə tədqiqatçı alimlərimiz arasında müəyyən fikir ayrılıqları olmuşdur. Belə ki, A.Hacıyev M.Mərdanova, M.Kirmanşahlıya, A.Tuqanova [24], İ.İsfahanlıya, Ə.Nərimanova və digərlərinin məqalə, qeyd və xatirələrinə istinad edərək «türk teatrları arasında mümtaz yerlərdən birini tutan Tiflis-Azərbaycan teatrı»nın ilk tamaşasını, M.F.Axundovun «Sərgüzəşti-vəziri-xani Sərab» komediyasının üçüncü pərdəsini 1872-ci ildə göstərməsilə yarandığını bildirmişdir. Bu tamaşada əsas rolları Abdulla Xəlilov, İbrahim Zeynalov və Məmmədcəfər Cəfərovun apardığını qeyd etmişdir.

Bu fikri təsdiqləyən T.Cəfərli bildirmişdir: «Tiflisdə ilk dəfə köhnə meydanda (Metex qalasının yaxınlığında) Paronbəyov karvansarasında 1872-ci ildə M.F.Axundovun «Sərgüzəşti-vəziri-xani-Sərab»ı tamaşaya qoyulmuşdur. Karvansaranın örtülü hissəsində səhnə quraşdırılmış, çoxsaylı tamaşaçılar ətrafda xalılar üstə əyləşmişlər. Dəstə əsərin üçüncü pərdəsini göstərirdi».

R.Şahvələd, İ.Kərimov [14] və digərləri də A.Hacıyevin bu fikrinə tərəfdar olmuşlar. Həmçinin Tiflis Azərbaycan teatrının ilk tamaşasının tarixinin dəqiq müəyyənləşməsində rəsmi sənədlərin mühüm rola malik olduğunu bildirən A.Hacıyev XX əsrin 30-cu illərindən teatrdan rəsmi sənəd – pasport tələb olunduğunu və belə bir rəsmi sənəddə – pasportda teatrın yaranma tarixinin 1872-ci il, yerinin Tiflis, binanın tamaşaçı tutumunun isə 360 nəfər olduğunun öz əksini tapdığını qeyd etmişdir [9, s.16].

XIX əsrin II yarısında Tiflisdə nəşr olunan mətbu orqanlarının səhifələrində də bu məsələ öz əksini tapmışdır. «Ziya», «Droeba» («Zaman»), «Xlovneba» («İncəsənət»), «İveriya» qəzetlərində Tiflis Azərbaycan teatrının ilk tamaşası haqqında müəyyən məlumatlar öz əksini tapmışdır.

Azərbaycan teatr tarixinin tanınmış tədqiqatçılarından olan İ.Rəhimli isə «Tiflisdə göstərilən teatr tamaşasının Bakıda 1873-cü il martın 10-da oynanılan

və milli peşəkar teatrımızın təşəkkülü kimi tarixləşən gündən bir neçə gün sonraya təsadüf etdiyini bildirir» [22, s.3] və daha sonra isə qeyd edirdi ki, «Bakı şəhərindən bu fədakarlıq təşəbbüsünün sorağı həm Azərbaycanın, həm də Qafqazın soydaşlarımız sıx yaşayan şəhərlərinə də çatdı. Oralarda yaşayan ziyalılarımzda da tamaşalar oynamağa maraq və həvəs oyandı. Bir-birinin ardınca Tiflisdə (əvvəlcə 1873-cü ildə, sonralar 1877-ci ildən başlayaraq), Şuşada (1874), Qubada (1875), Şəkidə (1879), İrəvanda (1882), Naxçıvanda (1883) teatr həvəskarları olan ziyalılar və məktəb şagirdləri tamaşalar oynamağa başladılar» [22, s.34].

Gördüyümüz kimi, Cənubi Qafqazın azərbaycanlılar yaşayan bölgələrində ilk teatrların yaranması XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Azərbaycanın aparıcı mədəniyyət mərkəzləri olan Tiflis və Bakı şəhərlərinin payına düşmüşdü.

Qeyd edək ki, Azərbaycan teatrının yaranmasına M.F.Axundovun yaradıcılığı əsaslı və həlledici təsir göstərmişdir. Ədibin komediyaları Tiflisin rus və gürcü zadəgan teatrlarında nümayiş etdirilmişdi. Zahirən əyləncə xarakteri daşıyan teatrdan ziyalılarımız xalqın maarifləndirilməsi üçün bir təbliğat mexanizmi kimi istifadə edirlər. Xüsusilə XIX əsrin 70-80-ci illərində Tiflisli teatr həvəskarları bir sıra yerli və əcnəbi müəlliflərin əsərlərini şəhərin müxtəlif teatr və mədəniyyət evlərində nümayiş etdirirlər. Əsasən tiflisli azərbaycanlılardan təşkil olunmuş həvəskar teatr truppaları getdikcə püxtələşir, inkişaf edir və peşəkar aktyor truppalarına çevrilirdilər.

Tiflisdə Azərbaycan teatrının formalaşdığı ilk vaxtlarda ziyalılarımız çox böyük çətinliklərlə qarşılaşırdılar. Müxtəlif rolları ifa edən ziyalılarımız, onlara yaxından kömək edən Tiflisin məktəblərində təhsil alan azərbaycanlı şagirdlər və seminaristlər böyük əziyyətlər bahasına olsa da, bu çətin və taleyüklü məsələnin öhdəsindən gəlirdilər. Böyük çətinlik törədən səbəblərdən biri teatr binasının və qadın rollarının ifaçılarının olmaması idi. Azərbaycanlı aktyorlar truppası müxtəlif illərdə Tiflisin Artistlər cəmiyyəti, Kazyonnı teatr (Xəzinə teatrı), Artsruni, Gürcü zadəgan teatrı, Zubalov adına Xalq evi kimi məşhur mədəniyyət ocaqlarında yerli və Avropa müəlliflərinin yazdıqları əsərləri canlandırmışdılar. Tiflis Azərbaycan teatrının aktyorları daha çox Zadəgan teatrı, Zadəgan evi və ya Əyanlar evi kimi adlanan Gürcü zadəgan teatrında 1914-cü ildən başlayaraq xeyli tamaşa nümayiş etdirmişdilər. Adlarını qeyd etdiyimiz yerlərdən əlavə Tiflisli ziyalılar və Azərbaycanın müxtəlif bölgələrindən bu şəhərə gəlib ictimai-mədəni fəaliyyətlə məşğul olan görkəmli həmyerlilərimiz Tiflisin Mir, Auditoriya, Paranbəyovun karvansarayı, Bank, Padşahlıq, Avlabarda yerləşən Araks, Avlabar – Palasın binalarında və Tiflis şəhərində azərbaycanlıların kompakt şəkildə yaşadığı Şeytanbazar, Xarpux, Havlabar, Ortaçala məhəllələrində sakinlərin şəxsi evlərində də tamaşalar hazırlayıb insanlara nümayiş etdirmişdilər. Tiflisin həvəskar aktyor truppaları

əksərən bu tamaşalardan əldə etdikləri qazancı xeyriyyə məqsədilə azərbaycanlı tələbələrin təhsili ilə bağlı problemlərin həllinə sərf edirdilər.

Ümumiyyətlə, XIX əsrin sonuna qədər Tiflisin azərbaycanlı teatr truppaları müəyyən səbəblərdən – maddi və texniki təminat, peşəkarlıq, səhnə və musiqi tərtibatının zəif olması, rolların düzgün bölüşdürülməməsi və s. baxımından xeyli əziyyət çəkirdilər. Qeyd etdiyimiz dövrdə Tiflisin teatr səhnələrində oynanılan əsərlərin əksəriyyəti yerli dramaturqlardan M.F.Axundov və N.Vəzirova, bir hissəsi isə rus və Avropa müəlliflərinə məxsus idi. Lakin XX əsrin əvvəllərində vəziyyət dəyişir, Tiflis Azərbaycan teatrının repertuarı daha da zənginləşir, yerli, rus və avropalı müəlliflərlə yanaşı, türk müəlliflərindən olan Namiq Kamalın, Şəmsəddin Saminin və digərlərinin əsərləri də səhnələşdirilməyə başlayır.

Qeyd edək ki, dahi dramaturqumuz M.F.Axundov Tiflisdə, ümumiyyətlə Azərbaycanda teatr sənətinin yaranmasında və inkişafında mayak rolunu oynamışdır. Belə ki, məşhur teatr tədqiqatçısı İ.Rəhimlinin qeyd etdiyi kimi, «Tiflisin teatral iqlimi, Rusiyanın müxtəlif səhnə ustalarının şəhərə qastrolları, Qərb ədəbiyyatına, onun dramaturgiya qoluna, xüsusən Jan Batist Molyer irsinə bələdlik və ilk növbədə milləti nadanlıqdan xilas etmək yollarını araması Mirzə Fətəlini pyes yazmağa vadar etmişdir. Özü də məhz məzhəkə (komediya) yazmağa. Çünki Axundzadə mənəviyyatları sıxıb məhvə çəkən buxovlardan xilas yolunun vacib cığırlarından birini teatrda, səhnə gülüşündə görürdü» [21, s.4].

M.F.Axundovun məşhur komediyalarının hələ XIX əsrin ortalarında rus səhnəsində oynanılması teatrımızın formalaşması üçün mühüm rol oynamışdı. 1852-ci ildə Tiflisdə rus teatrı ədibin «Hekayəti-xırs quldurbasan» pyesini səhnələşdirmişdi. Dramaturqun «Hekayəti-Müsyö Jordan həkimin – nəbatət və dərviş Məstəlişah caduküni məşhur» adlı komediyası Peterburqda ev tamaşalarından birində oynanılmışdır [2, s.128]. Xüsusilə ədibin "Hacı Qara" tamaşası onlarca quruluşda oynanılmış, qabil komediya ustadlarımız Hacı Qaranın ifasına səhnə gülüşünün meyarı kimi qiymət vermişlər. Komik aktyorlar Hacı Qaranı ustalıqla oynamağı sənət zirvəsi saymışlar. Ən rəngarəng səhnə təfsirləri, ən "partlayan" gülüş, ən şux tərtibat, ən məzəli oyun məhz "Hacı Qara" tamaşalarına məxsusdur. "Qaravəlli", "Kosa-kosa" xalq oyunlarından, meydan teatrı prinsiplərindən, dərviş rəqslərindən, meyxana məclisi elementlərindən... ilk dəfə məhz "Hacı Qara" komediyasının müxtəlif illərdəki quruluşlarında istifadə olunmuşdur [21, s.5].

Axundovla yanaşı, N.Vəzirov da teatrın inkişafına əvəzsiz töhfələr vermişdi. Nəcəf bəy Vəzirov yaradıcılığa komediya ilə başlamış və ilk Azərbaycan faciəsi olan "Müsibəti Fəxrəddin"i qələmə almışdır. Azərbaycan teatr sənətində realist aktyor məktəbinin inkişafında M.F.Axundovun xidmətləri

nə qədər böyük idisə, romantik aktyor məktəbinin formalaşmasında da N.Vəzirovun rolu danılmaz idi.

Bəli, məhz teatrı xalqın maariflənməsində başlıca istiqamətlərdən hesab edən ziyalılarımız bu sahənin inkişafına böyük qüvvə sərf etmişdilər. Görkəmli ziyalılarımız və maarifçilərimizdən C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Şahtaxtlı, E.Sultanov, F.Köçərli və digərləri bu yolda öz fədakar əməklərini əsirgəməmişdilər.

XIX əsrin son 20 ili ərzində Tiflisdə Azərbaycan teatrı böyük bir təşəkkül dövrünü uğurla keçmişdi. Qeyd etdiyimiz mərhələdə Tiflisdə Azərbaycan teatrının səhnəsində S.Nərimanov, Ə.Yüzbaşov, T.Axundov, H.Minasazov, H.Tahirov, Y.Nərimanov, H.Çıldırov, Ə.Əlizadə, Ə.M.Mərdanov, E.Sultanov, A.Axundzadə, S.Qayıbov, M.İbrahimov, M.Seyfəddin, M.Abdullazadə, M.Quliyev, P.Hüseynov, O.Qabulov, C.Mursaqulov, M.Kirmanşahlı, Q.Vahabov və digərləri gözəl səhnə əsərləri yaratmışdılar. Həmçinin qeyd etmək lazımdır ki, bu ziyalıların bəziləri öz həyatlarının sonrakı dövrünü də məhz teatrla bağlamış və peşəkar aktyor kimi fəaliyyət göstərmişdilər. Adlarını çəkdiyimiz aktyorlar və digər səhnə ustalarımız tərəfindən Tiflisin teatr salonlarında «Hacı Qara», «Müsyö Jordan və dərviş Məstəlişah», «Lənkəran xanının vəziri», «Ev tərbiyəsinin bir şəkli», «Hacı Qəmbər», «Sonrakı peşmançılıq fayda verməz», «Qırt-qırt», «Könülsüz nikah», «Fətəli şah», «İki qardaş», «Görməyən şal», «Koroğlu» və s. əsərlər uğurla oynanılmışdı. Gürcü dramaturqu Z.Antonovun Rəşid bəy İsmayılov tərəfindən tərcümə olunmuş «Koroğlu» dramı 1889-cu ildə Tiflisdə aktyorlarımız tərəfindən səhnələşdirilmiş və böyük müvəffəqiyyət qazanmışdır. Bu hadisə gürcü-Azərbaycan səhnə əməkdaşlığına və ədəbi əlaqələrinə bariz nümunə idi. Qeyd edək ki, XIX əsrin sonuna qədər səhnələşdirilən əsərlərin rejissorluğunu daha çox T.Axundov və S.Seyidov etmişdilər.

XX əsrin əvvəllərində Tiflis Azərbaycan teatrı öz inkişafının yeni bir mərhələsinə qədəm qoyur. Artıq öz fəaliyyətləri dövründə xeyli təcrübə qazanmış aktyorlarımız öz səhnə ustalıqlarını daha da təkmilləşdirmiş oldular. Peşəkar aktyorlar H.Ərəblinskinin və S.Ruhullanın Tiflisə gəlişləri və bu şəhərdə çıxışları Tiflis Azərbaycan teatrının inkişafına əsaslı təsir göstərdi. Hüseyn Ərəblinski 1910, 1914, 1919-cu illərdə Tiflis səhnəsində yaddaqalan obrazlarla çıxışlar etmişlər.

XX əsrin əvvəllərində Tiflis Azərbaycan teatrında əsərləri səhnələşdirilən yerli dramaturqlarımızın sayı getdikcə artırdı. Onların arasında N.Nərimanov («Dilin bəlası» (1903), «Şamdan bəy» (1908), Ə.Gorani («Qocalıqda yorğalıq» (1903), Ə.Haqverdiyev («Millət dostları» (1908), «Dağılan tifaq» (1908), S.Axundzadə («Zülmün nəticəsi» (1912) və digərlərinin əsərləri tiflislilər tərəfindən sevilərək izlənilmişdi.

Tiflisdə Azərbaycan teatrının inkişafında 1909-cu ilin 20 oktyabrında (1910-cu ildə təkrar olunmaqla) Zadəgan teatrında oynanılan «Otello» faciəsi mühüm rol oynamışdı. Burada Otellonu M.Abbasov, Yaqonu H.Köçərlinski, Dezdomonanı Tərlan xanım, Brabansionu M.Quliyev, Kassionu M.Kirmanşahlı, Emilyanı P.Tanailidi, Senatoru İ.Həqqi uğurla ifa etmişdilər. Bu böyük nailiyyət Azərbaycan teatrının peşəkarlaşmasına güclü təsir göstərmiş, 1910-cu ildə Azərbaycanlı aktyorlar Zubalov adına Xalq evində «Tatar teatr cəmiyyəti»ni (başqa cür «Müsəlman dram cəmiyyəti» də adlanırdı) yaratmışdılar. Cəmiyyət 1910-cu ildə rəsmi hökumət dairələrinə özünün 33 bənddən ibarət olan Nizamnaməsini də təqdim etmiş, bu sənəd 1910-cu il 22 dekabrda təsdiqlənəndən sonra rus və Azərbaycan dillərində nəşr olunmuşdu.

Tiflis şəhərində 1910-cu ildən Gürcü zadəgan teatrında fəaliyyət göstərmiş «Səadət» truppası da böyük nailiyyətlər qazanmışdı. Bu truppada M.Kirmanşahlı, M.Quliyev, H.Köçərli kimi görkəmli sənətkarlar çalışmışdılar. Qeyd edək ki, bu iki teatr truppası arasında daim əlaqələr olmuş, aktyor mübadiləsi sərbəst şəkildə həyata keçirilmişdi (lakin müəyyən vaxtlarda iki cəmiyyət arasında münasibətlər soyuq xarakter almışdı).

1911-ci ildə «Müsəlman dram cəmiyyəti» («Yerli müsəlman dram dərnəyi») tərəfindən yerli və əcnəbi müəlliflərin əsərlərindən «Nadir şah», «Otello», «Bəxtsiz cavan», «Ağa Məhəmməd şah Qacar», «On bir yaşlı arvad», «Qara bəla», «Molla İbrahimxəlil kimyagər», «Leyli və Məcnun», «Məşədi İbad», «Əlli yaşında cavan» əsərləri uğurla səhnələşdirilmişdi. Qeyd etmək vacibdir ki, Tiflis Azərbaycan teatrının aktyorları Ü.Hacıbəyovun yaradıcılığına geniş müraciət etmişdilər. Dahi sənətkarın musiqili kompozisiyaları və operettaları Tiflis səhnəsində böyük uğurlar qazanmışdı. 1911-ci ilin iyununda «Məşədi İbad» operettası hökumətin razılığı ilə Ü.Hacıbəyovun özünün rəhbərliyi altında Tiflisdə oynanılmışdı [22, s.29].

Azərbaycan Tiflis teatrının tarixində çox mühüm və yaddaqalan hadisələrdən biri 1912-ci il aprelin 1-də «Auditoriya»nın – «Təzə müsəlman teatrı»nın açılışı oldu. Həmin dövrdə Rusiyada təhsil alan H.Mirzəcamalov, R.Təhmasib, İ.Həqqi, M.Abbasov, M.Quliyev, E.Sultanovun bu işdə böyük əməyi oldu. Aprelin 7-də Z.Hacıbəyovun «Əlli yaşında cavan» operettası ilə «Auditoriya» öz açılışını etdi.

1912-ci ildə gürcü müəllifi V.Mçedaşvilinin «Qaçaq Kərəm» dramı «Auditoriya»da tamaşaçılar tərəfində rəğbətlə qarşılanmışdı. Daha sonra «Nadanlıq», «Şah Sultan Hüseyn», «Ev tərbiyəsinin bir şəkli», 1913-cü ildə «Dilin bəlası», «Qan ocağı», «Zavallı çocuq», «Hacı Mehdi», «Sarsaqlamış kişi və ya arvadın hiyləsi», «Pulsuzluq» və s., 1914-cü ildə «Əmir Əbül Üla», «Sultan Osman, Beytülmüqəddəs hökmdarı», «Dəmirçi Gavə», «Sultan Əbdüləziz, yaxud Osmanlı inqilabı», «Qəzavat», «Vay şələkküm, vələkküm», «Kərbəla Hacı», «Axşam səbri xeyir ola» kimi tamaşalar Tiflisdə

«Auditoriya»da, Kazyonnı teatrda, Gürcü teatrında və şəhərin digər binalarında uğurla nümayiş olunmuşdu.

Beləliklə, bütün qarşılaşdığı çətinliklərə və məhrumiyyətlərə baxmayaraq tiflislilərin və ziyalılarımızın, gənclərimizin dəstəyini alan azərbaycanlı aktyorlar Tiflisdə Azərbaycan incəsənətini, mədəniyyətini, teatrımızı yaşatmağa nail oldular. Tiflis Azərbaycan teatrının inkişafında Tiflisdə yaşayan və ya fəaliyyət göstərən, təhsil alan və s. azərbaycanlı aktyorlar M.Ələsgərov, Ə.Yüzbaşov, M.Zamanov, Ə.Haqverdiyev, İ.Əliyev, M.Abbasov, Y.Bədəlov, M.Kirmanşahlı, M.Ağayev, S.Şuşinski, M.Quliyev, M.Əliyev, İ.Zeynalov, İ.Həqqi, H.Haşımlı, Y.Hacıyev, Y.Nərimanov, müxtəlif illərdə Tiflisdə qastrollarda olan bakılı aktyorlardan H.Ərəblinski, S.Ruhulla, M.Əliyev, Ə.Vəli, H.Sarabski, qadın rollarının ifaçıları M.Antonina, Tərlan xanım, Göyərçin xanım, Şatanova, Panifiliya Tanailidi, Zəngəzurskaya, Rahilə xanım və digərlərinin böyük xidmətləri olmuşdur.

Birinci Dünya savaşının başlanması ilə əlaqədar Tiflisin mədəni həyatında da təlatümlər dövrü başlamış və Azərbaycan teatrı 1914-cü ilin aprelindən etibarən öz fəaliyyətini dayandıraraq təxminən bir illik fasilə vermişdir.

Tiflis şəhərində mövcud olmuş mədəni mühitin formalaşmasında Azərbaycan incəsənətinin, teatrının, yaradıcı insanlarının verdiyi töhfələr mühüm əhəmiyyət daşımış, nəinki burada yaşayan azərbaycanlıların, həmçinin gürcülərin, rusların və digər xalqların nümayəndələrinin mədəni, mənəvi və ictimai dünyagörüşlərinin zənginləşmələrində əvəzsiz rol oynamış, Azərbaycan mədəniyyət tarixinə qızıl hərflərlə yazılmışdır.

## ƏDƏBİYYAT

1. *Allahmanlı M.* Azərbaycanın qərb bölgəsinin mənəvi mədəniyyəti. Bakı: Nurlan, 2011, 176 s.
2. Azərbaycan tarixi: 7 clddə, IV c. (XIX əsr), Bakı: Elm, 2007, 504 s.
3. *Binnətoğlu A.* Teatr haqqında söhbətlər. Bakı: Elm və Təhsil, 2009, 226 s.
4. *Borçalı Z.* Tiflis Azərbaycan mətbuatı tarixindən (1830-1920). Bakı: Borçalı NPM, 2005,118 s.
5. *Cəfərov C.* Azərbaycan teatrı. Bakı, 1974, 26 s..
6. *Əliyeva Ə.* M.F.Axundov və teatr. Bakı 1966. 14 s.
7. GMTA. f.11, siy.1, iş.2757, vər.1
8. *Hacılar V.* Gürcüstanda türk xalq ədəbiyyatı ənənələri. Bakı: Səda, 2005, 303 s.
9. Hacıyev A. Tiflis Azərbaycan teatrı. Bakı: İşıq, 1984, 160 s.
10. *Hacıyev A.* Tiflis ədəbi mühiti. Bakı: Yazıçı,1980, 83 s.
11. *Hacıyev A.* Tiflis Azərbaycan və Adıgün türk teatrı. Bakı: Borçalı, 2006. 31 s.
12. *Hacıyev V.* Folklorumuzun üfüqləri. Bakı:Yazıçı, 1991,148 s.

13. *Корганов В.Д.* Кавказская музыка: сборник статей. Тифлис: Скоропечатня М. Мартиросянца, 1908, 84 с.
14. *Kərimov İ.* Azərbaycan və gürcü səhnə ustalarının dostluğu. Bakı: Azərnəşr, 1964, 63 s.
15. *Məmmədli Ş.* Tədqiqini gözləyən teatr / "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1984, 27 aprel
16. Mərdanov M. Xatirələrim. Bakı, 1964. 229 s.
17. *Mir Bağırzadə S.A.* İncəsənət tarixi / Dərslik. Bakı: MSA, 2012, 117 s.
18. *Misiyev A.* Azərbaycan yazıçıları və Tiflis ədəbi-ictimai mühiti (1820-1905). Tbilisi: Qanatleba", 1987, 320 s.
19. *Nərimanov Ə.* Tiflis türk teatrosunun müxtəsərcə tarixi. «Xlevnoba», 1926, №25, s.6.
20. *Rəhimli İ.* Azərbaycan teatr tarixi. Bakı: Çaşıoğlu, 2005, 864 s.
21. *Rəhimli İ.* Üç əsrin yüz otuz ili. (Akademik Milli Dram Teatrı bu gün). Bakı: "QAPP-POLİQRAf" Korporasiyasi, 2003, 264 s.
22. *Rəhimli İ.* Tiflis Azərbaycan teatrı. Bakı: Xəzər, 2006, 224 s.
23. *Şərifov A.K.* Azərbaycan türk teatrı materialları. Bakı, 1930, 43 s.
24. *Turqanov A.A.* Teatr xatirələri. Bakı: Yazıçı, 1980, 120 s.
25. http://azteatr.musigi-dunya.az/file?id=143&dt=1871

Redaksiyaya daxil olub 08.10.2021

***UOT 911.3***

***İ.B.Məmmədov***
*Bakı Dövlət Universiteti*
*ilqar.m76@mail.ru*

# AVROPA ÖLKƏLƏRİNDƏ MİQRASİYA PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİ YOLLARI

***Açar sözlər:*** *Avropa ölkələri, miqrasiyaların tənzimlənməsi, immiqrantlar, miqrasiya siyasəti*

Məqalədə Avropa ölkələrində gedən miqrasiya proseslərinin tənzimlənməsi vəziyyəti geniş şəhr edilmişdir. Burada əhalinin say artımını təmin etməklə yanaşı, onun cins və yaş tərkibindəki uyğunsuzluğun qarşısının alınması, milli-etnik tərkibin strateji cəhətdən ölkənin mənafeyinə uyğunluğu, təsərrüfat sahələrində əmək ehtiyatlarına olan tələbatın ödənilməsi nəzərə alınmalıdır. Bunlar nəzərə alınmaqla demoqrafik inkişaf və demoqrafik siyasət sahəsində ölkələrarası əməkdaşlıq vacibdir və bu istiqamətdə birgə tədbirlərin həyata keçirilməsi daha böyük səmərə verə bilər. Miqrasiyaların tənzimlənməsi istiqamətində Avropa İttifaqı (Aİ) ölkələrində həyata keçirilən demoqrafik siyasətdə ölkələr arasında görülən tədbirlərin fərqləri uzun illər ərzində tam aradan qaldırılmamışdır. Eyni zamanda bu istiqamətdə həyata keçirilən tədbirlərin vahid mərkəzdən idarə edilməsi onun səmərəliliyini artırmış olardı.

***И.Б.Мамедов***

# СПОСОБЫ РЕГУЛИРОВАНИЯ МИГРАЦИОННЫХ ПРОЦЕССОВ В СТРАНАХ ЕВРОПЫ

***Ключевые слова:*** *европейские страны, миграционное регулирование, иммигранты, миграционная политика*

В статье описывается ситуация с регулированием миграционных процессов в странах Европы. Помимо обеспечения прироста населения, необходимо учитывать предотвращение гендерного и возрастного неравенства, стратегическую совместимость национального и этнического состава с интересами страны, удовлетворение спроса на рабочую силу в экономике. С учетом этого важное значение имеет сотрудничество между странами в области демографического развития и демографической политики, и реализация совместных мер в этом направлении может быть более эффективной. Различия в мерах, принимаемых между странами в демографической политике Европейского Союза (ЕС) по регулированию миграции, уже много лет не устраняются полностью. В то же время управление мероприятиями в этом направлении из единого центра повысило бы ее эффективность.

***I.B.Mammadov***

## WAYS OF MIGRATION PROCESSES REGULATION IN EUROPEAN COUNTRIES

***Keywords:*** *European countries, migration regulation, immigrants, migration policy*

The article describes the situation with the regulation of migration processes in European countries. In addition to ensuring population growth, it is necessary to take into account the prevention of gender and age disparities, the strategic compatibility of the national and ethnic composition with the interests of the country, meeting the demand for labor in the economy. With this in mind, cooperation between countries in the field of demographic development and demographic policy is important, and the implementation of joint measures in this direction can be more effective. The differences in the measures taken between the countries in the demographic policy of the European Union (EU) to regulate migration have not been completely eliminated for many years. At the same time, the management of measures in this direction from a single center would increase its efficiency.

Avropa ölkələrində vahid miqrasiya siyasətinin formalaşması XX əsrin ortalarında inteqrasiya proseslərinin başlandığı dövrə təsadüf edir. Artıq bu dövrdə Avropa İttifaqı ölkələrində vahid miqrasiya siyasəti yaranmışdır. Avropa ölkələrinin miqrasiya siyasətinə əməl etməsi bu prosesin əsasını təşkil edir.

Aİ məkanında xarici miqrasiya sahəsində müəyyən məhdudiyyətlər vardır. Lakin daxili miqrasiyaların sərbəstliyi təmin edilir. Yarandığı ilk dövrlərdə Avropada inteqrasiya prosesləri 4 prinsipə görə tənzimlənir. Bu prinsiplərə məhsulların, xidmətlərin, kapitalın və əhalinin sərbəst yerdəyişməsi daxildir [5, s.223].

Bu amillər Avropada daxili miqrasiyaların intensiv xarakter almasına səbəb oldu. Ölkələr arasında inteqrasiya proseslərinin güclənməsi, miqrantların ölkələrdə müəyyən sosial-iqtisadi, etno-sosioloji və demoqrafik problemlərin yaranmasına səbəb olurdu. Əməkçi miqrantların ölkələrarası miqrasiyaları artdıqca əmək bazarında rəqabət də daha böyük vüsət alırdı. Avropa ölkələrinə ixtisaslı kadrların cəlb edilməsi müxtəlif sosial və iqtisadi problemlərin yaranmasına səbəb olurdu.

1957-ci ildə imzalanmış Roma müqaviləsinə əsasən Avropa məkanında əmək ehtiyatlarının miqrasiyası sərbəst ola bilər. Belə ki, müqaviləyə qoşulan ölkələrin əməkçi miqrantları – işçilər, qulluqçular, sahibkarlar maneələr olmadan bir ölkədən digərinə keçə bilər. XX əsrin 50-ci illərinə qədər xarici miqrasiyaların böyük vüsət alması təhlükəsi olmadığına görə hər bir ölkə daxili qanunlar əsasında xarici miqrasiyaları nizamlayırdı. Ona görə də digər

ölkələrdən immiqrantların axınlarının nizamlanması istiqamətində razılaşmalar olmamışdır. XX əsrin 60-cı illərinin sonunda gömrük razılaşmalarının formalaşması başa çatmış, AİB ölkələri daxilində vətəndaşların sərbəst hərəkət etmək hüququ təyin edilmişdir.

XX əsrin 70-ci illərinin ortalarından başlayaraq Birliyə üzv olmayan ölkələrdən immiqrasiya axınlarının nizamlanması ölkələrarası müzakirə mövzusuna çevrilmişdir. Aparılan təhlillər və həyata keçirilən tədbirlərin nəticəsi kimi 1985-ci ildə Avropa komissiyası AİB daxilində vahid miqrasiya siyasətinin formalaşması üçün sənədlər qəbul edildi. Bunların nəticəsi kimi "Ağ kitab" hazırlandı və nəşr edildi. Burada AİB daxilində ümumi bazarın inkişafı üçün təkliflər paketi nəzərdə tutulurdu. Qəbul edilmiş sənədlərə görə Birliyin sərhədləri daxilində miqrasiya nəzarətinin sadələşdirilməsi, viza siyasətinin koordinasiyası, digər ölkələrdən olan immiqrantların, ilk növbədə qaçqınların və sığınacaq axtaranların statusunun müəyyən edilməsi qaydaları yer alırdı [5, s.224].

Aİ-nin formalaşmasının ilk illərində, əsasən də 50-80-ci illərdə inteqrasiya prosesləri sürətlə getsə də, miqrasiya siyasəti çərçivəsində vahid razılaşmaya hələ də tam olaraq nail olunmamışdır. Ona görə miqrasiyaların nizamlanması sahəsində milli yanaşmalar üstünlük təşkil etmişdir. Bununla yanaşı, ümumilikdə miqrasiya mübadiləsi aparılması və digər ölkələrdən gələn miqrantların sayının azaldılması siyasəti ümumi istiqamət olaraq qəbul edilmişdir.

XX əsrin sonlarına yaxın AİB daxilində miqrasiyaların nizamlanması sahəsində bəzi problemlər aydın şəkildə özünü göstərmişdir. Bu dövrdə dünyada sosializm sisteminin dağılması, dünya ölkələri arasında qeyri-bərabər iqtisadi inkişafın güclənməsi miqrasiya axınlarının intensiv xarakter almasına gətirib çıxardı. Onların böyük əksəriyyətinin son dayanacaq yerlərindən biri də AİB ölkələri olurdu. Nəticədə miqrasiya axınları iqtisadi, siyasi, demoqrafik inkişafa, ölkələrarası münasibətlərə ciddi təsir göstərən amilə çevrilirdi. Bunları nəzərə alaraq immiqrasiya axınlarının nizamlanması üçün daha ciddi tədbirlər görülməsi zərurəti yaranırdı.

Dünyada baş verən ictimai-siyasi proseslər və demoqrafik inkişafın sosial-iqtisadi inkişafdan sürətlə getməsi, milli-etnik, sərhədyanı münaqişələr qeyri-leqal miqrantların və qaçqınların sayının artmasına səbəb olurdu. Onların dünya miqrasiya axınlarında iştirakının güclənməsi ölkələri ciddi tədbirlər görməyə məcbur edirdi.

AİB daxilində xarici miqrantların sayının artması onların cəmiyyətə uyğunlaşması və inteqrasiyası probleminin həllini də qarşıya qoyur. Bu sahədə ölkələrarası əməkdaşlıq mühüm rol oynayır.

Miqrantları qəbul edən ölkələrdə nizamlanma aparılmasının vacib amillərindən biri də demoqrafik proseslərdir. Həmçinin ölkələrin iqtisadi

inkişafına təzyiqin azaldılması üçün tədbirlər həyata keçirilməsi, onların strateji maraqlarına uyğun sayda əhali qəbul edilməsi, eyni zamanda insan hüquqlarının qorunması da vacib amillərdəndir.

Avropa məkanında əhalinin yerdəyişməsinin sərbəst olması yalnız bir ölkə daxilində həlli mümkün olmadığı üçün ümumavropa institutları və ümumi qurumlar yaradılması zərurəti yetişirdi. Bu səbəbdən 1991-ci ildə Avropa İttifaqı haqqında müqavilə hazırlandı, 7 fevral 1992-ci ildə Maastrixtdə (Niderland) imzalanaraq qəbul edildi. Müqavilə 1993-cü ildən qüvvəyə minmişdir [6, s.225].

Əldə edilmiş razılığa əsasən xarici sərhədlərə nəzarət, immiqrasiya siyasətində ümumi qərarlar müqavilədə öz əksini tapsa da, miqrasiya axınlarının nizamlanması ölkələrin daxili işi kimi qalırdı. Miqrasiyalara kvotalar tətbiq edilməsi, giriş vizalarının sayı, qeyri-leqal miqrasiyalarla mübarizə aparılması ölkələrin daxili vəzifələri kimi həll edilirdi. Ona görə hər bir ölkədə miqrasiya siyasətinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Daxili yerdəyişmələrdə maneələrin aradan qaldırılması, ümumi vətəndaşlığın tətbiq edilməsi ölkələrin miqrasiya siyasətində mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, Aİ-yə daxil olan ölkələrin qəbul etdiyi ən mühüm məsələlərdən biri də quruma daxil olmayan ölkələrdən gələn immiqrantların qəbuluna ciddi məhdudiyyətlərin qoyulmasıdır. Avropa İttifaqı ölkələri aşağıdakı məsələlərdə ümumi razılığa gəlmişlər: sığınacaqların verilməsi siyasəti, üzv ölkələrin xarici sərhədlərindən keçidin nizamlanması qaydaları, müvafiq nəzarətin həyata keçirilməsi, immiqrasiya siyasəti və digər ölkələrdən gələnlərə münasibət, Birlik ölkələrinə daxil olmaq və onların Aİ daxilində hərəkətinə nəzarət, digər ölkələrdən gələn vətəndaşların yaşaması şəraiti, iş yerləri ilə təminatı, ailə üzvlərinin gəlməsi və yerləşməsi, qeyri-leqal ilə mübarizə və onların qarşısının alınması istiqamətində tədbirlərin görülməsi və s. [3, s.226].

Avropa parlamenti və Avropa Məhkəməsinin qəbul etdiyi qərarlar üzv ölkələr üçün məcburi olmasa da, məsləhət xarakterli olması ilə səciyyələnir. Bu sahədə əməkdaşlıq miqrasiyaların nizamlanması və ölkələrin təhlükəsizliyinin təminatı üçün mühüm addım hesab edilir.

Aİ ölkələri arasında qaçqınların qəbul edilməsi və yerləşdirilməsi ümumi prinsiplər əsasında həyata keçirilir, hər il bu problemin həllinə 7,0 mlrd. dollar vəsait ayrıldı [3, s.227]. Bununla yanaşı, ölkələrə qaçqın axınlarının artması əmək bazarında vəziyyəti gərginləşdirir, sosial yardımların göstərilməsinə ciddi təsir edir, cinayətkarlığın artmasına, millətçilik ideyalarının yaranmasına səbəb olur. Onların hər biri ölkələrdə ciddi sosial-mədəni, etnik, demoqrafik problemlərin yaranmasına şərait yaradır.

Aİ ölkələrinə qaçqınların qəbul edilməsi və ya ölkələrdən çıxarılması zamanı qəbul edilmiş ümumi qaydalara əməl edilir. Onlara 1951-ci ildə

qaçqınların statusu haqqında Cenevrə Konvensiyası və 1967-ci ildə qəbul edilmiş Protokol aiddir.

Xarici ölkələrdən gələn qaçqınlara sığınacaqların verilməsi 1990-cı ildə qəbul edilmiş Şengen Konvensiyası və 15 iyun 1990-cı ildə imzalanmış Dublin Konvensiyası (1997-ci ildən qüvvəyə minmişdir) əsasında həyata keçirilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 14-cü maddəsinə görə, "Hər bir şəxs digər ölkələrdə təqibdən sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir". Birləşmiş Millətlər Təşkilatının 1951-ci il Qaçqınların statusu haqqında Konvensiyası və 1967-ci il Qaçqınların statusuna dair Protokol siyasi sığınacaqla bağlı milli qanunvericiliyi rəhbər tutur.

Adları çəkilən konvensiyaların qəbul edilməsindən sonrakı illərdə Aİ institutları bir çox məsələlərin, o cümlədən miqrasiya siyasəti haqqında qərarların Mərkəzi İdarəetmə orqanları tərəfindən verilməsini tələb edirdi. 1997-ci ildə Amsterdam razılaşması qəbul edildi və burada "azad, təhlükəsiz və qaydalara əməl edilən" Avroməkan prinsipi qəbul olundu. Razılaşmanın şərtlərinə görə, immiqrasiya, Aİ-nin xarici sərhədlərinin qorunması və sığınacaqların verilməsi Mərkəzi İdarəetmə orqanlarına verildi. Bu tədbirlər birgə qərarlar qəbul edilməsini asanlaşdırdı, Aİ institutlarının bu sahədə səmərəli fəaliyyətini yüksəltmiş oldu.

"Avropa məkanı" konsepsiyası Amsterdam razılaşmasının yerinə yetirilməsi üçün zəruri, konkret təkliflər və tövsiyələri özündə birləşdirən Vyana Fəaliyyət Planında öz əksini tapmışdır. Onlar 1999-cu ildə Tampere (Finlandiya) şəhərində keçirilən Aİ sammitində baxılmış və "Tampere Vaxiləri" adı ilə qəbul edilmişdir. Qəbul edilmiş tələblərə görə Aİ ölkələri ərazisində siyasi sığınacaqların verilməsində vahid sistem tətbiq edilməsi və qeyri-leqal miqrasiyalar, insan alveri ilə mübarizə aparılması öz əksini tapmışdır. Eyni zamanda immiqrantların hüquqlarının qorunması, leqal şəkildə yaşayan xaricilərin yerli seçkilərdə iştirak etməsinə icazə verilməsi qərarı qəbul edilmişdir [5, s.230].

Avropa ölkələrində xarici miqrasiyalar ilə mübarizə aparılması üçün üçüncü qrup ölkələrlə miqrasiyalar sahəsində əlaqələr qurulmasına başlanmışdır. Bu sahədə razılaşmalar 2001-ci ildə Nitse müqaviləsində öz əksini tapmışdır. Burada Aİ-nin beynəlxalq səviyyədə fəaliyyətinin nizamlanması və inteqrasiya proseslərinin genişləndirilməsi məsələləri müəyyən edilmişdir. 2003-cü ildə qeyri-qanuni miqrasiyalar ilə mübarizə aparmaq üçün digər ölkələrə maliyyə və texniki kömək göstərilməsi proqramı qəbul edilmişdir.

2001-ci ilin iyununda Aİ ölkələrinə işləmək üçün gələn immiqrantların daxil olması və yaşaması şərtləri haqqında direktiv qəbul edilmişdir. Bunun üçün işləməyə və yaşamağa icazə verən vahid sənəd razılaşdırılmış və qəbul

olunmuşdur. Eyni zamanda hər bir ölkə qəbul edilən immiqrantların sayı üzrə kvotaları müstəqil qəbul edir, onların işçi qüvvəsi çatışmayan təsərrüfat sahələrinə yönəldilməsinə qərar verir. Bu halda yerli əhalinin iş yerləri ilə təminatında problemlər yaranmır, onların hüquqları qorunur. Belə vəziyyətdə onların xarici miqrantların qəbul edilməsinə narazılığı əmələ gəlmir, millətçilik ideyaları zəifləyir [7, s.347].

Avropaya əhali miqrasiyalarının əsas istiqamətlərinə sığınacaq məqsədilə gələnlər və qeyri-leqal əhali axınları aiddir. BMT-nin məlumatlarına görə, Aİ ölkələrinə ildə orta hesabla 125 min nəfərdən 500 min nəfərə qədər qeyri-leqal immiqrant gəlir. Onlar ictimai təhlükəsizlik və cinayətkarlıq şəraitinə ciddi təhlükə mənbəyidir, davamlı olaraq mübarizə aparılması vacibdir. Bu məqsədlə 2001-ci ilin iyulunda Aİ Komissiyası "Ümumi immiqrasiya siyasəti və siyasi sığınacaq verilməsi koordinasiyasının yeni metodları haqqında" [8, s.348] və "Qeyri-leqal immiqrasiya ilə mübarizə haqqında" [8, s.349] Bəyannamələr qəbul edilmişdir.

Sonrakı dövrlərdə qeyri-leqal miqrasiyalar ilə mübarizə aparmaq üçün konkret tədbirlər görülməsi, onların öz ölkələrinə geri qaytarılması məsələləri ciddi şəkildə müzakirə edilmişdir. Müzakirələrin əsas məqsədi immiqrasiya məsələlərinin Aİ Mərkəzi İdarəetmə institutlarına verilməsi olmuşdur. 2004-cü ilin mayında bu sahədə məsələlərdə ümumi razılığa gəlinmişdir. Bunun əsasında üzv ölkələr Aİ Komissiyasına öz təkliflərini verə bilərdi, qərarlar isə Mərkəzi İdarəetmə orqanları tərəfindən verilə bilər.

Əldə edilmiş razılaşmalara baxmayaraq, Avropaya miqrasiya axınlarının qarşısının alınmasında problemlər qalır. Regiona leqal əhali axınlarının qarşısının alınması məqsədilə daha ciddi tədbirlər görülür, qaçqınların qəbul edilməsi sahəsində kvotalar azaldılır. Eyni zamanda qəbul edilən xarici vətəndaşların sayının artması yerli əhali arasında ciddi narazılıqlara səbəb olur, onlar arasında millətçilik və şovinizm əlamətləri yüksəlir. Eyni zamanda immiqrantların arasında cinayətkarlıq halları çoxalır.

2015-ci ilin yayından başlayaraq Suriyada hərbi vəziyyətin gərginləşməsi qaçqınların sayının kəskin artmasına səbəb olmuşdur. Bu dövrdə onların sayı 165,3 min nəfərə çatmışdır. Onlarla bərabər digər ölkələrdən də gələnlərin sayı kifayət qədər çox olmuşdur. Avropa Statistika Bürosunun məlumatına görə, 2015-ci ildə regiona 1,25 mln. nəfər qaçqın gəlmişdir. Bu göstərici 2014-cü ildə olan rəqəmlərə nisbətən (562,68 min nəfər) 2,0 dəfə çoxdur. Onlar qaçqın statusu almış insanların sayını göstərir ki, bu qrup əhalinin 35%-i Almaniyada yerləşmişdir (Şəkil 1).




**Şəkil 1. 2015-ci ildə yerləşdiyi ölkələr üzrə qaçqınların ümumi sayı (Avrostatın məlumatına görə)**

Avropaya gələn qaçqınların çox hissəsi (29,0%) Suriya vətəndaşları olmuşdur, onların yarısı ilk dəfə olaraq sığınacaq verilməsini Almaniyadan istəmişdir. Regiona üz tutan qaçqınların 14,0%-i Əfqanıstan sakinləri, 10%-i İraq sakinləri olmuşdur (Şəkil 2.).




**Şəkil 2. 2015-ci ildə vətəndaş olduğu ölkələr üzrə qaçqınların ümumi sayı (Avrostatın məlumatına görə)**

Gələnlərin sayının kifayət qədər çox olmasını nəzərə alaraq Aİ qəbul edilən qaçqınların sayının nizamlanması və məhdudlaşdırılması üçün ciddi tədbirlər həyata keçirmək məcburiyyətində qalırdı. Buna baxmayaraq, Avropaya gələnlərin sayı kifayət qədər çox olmuşdur. Bunu nəzərə alaraq Avropa Parlamenti regiona gələn qaçqınların ölkələr arasında paylanması qərarını qəbul etmişdir. Buna baxmayaraq, ayrı-ayrı ölkələr immiqrantların qəbul edilməsinə müxtəlif tədbirlər görməklə maneələr yaradırdılar.

İlk növbədə ayrı-ayrı ölkələr immiqrasiya axınlarının qarşısını almaq üçün sərhədlərdə divarlar inşa edir, tikanlı məftillər çəkir, polis və hərbçilərdən ibarət nəzarət məntəqələri yaradır, qeyri-leqal olaraq ölkəyə daxil olmaq istəyən qaçqınların qarşısını alırdı. Belə tədbirlər Belçika, Danimarka, Almaniya, Macarıstan, Makedoniya, Avstriya, Sloveniya, İsveç və Norveçin sərhədləri boyu yaradılmışdır. Qaçqınların əsas hərəkət istiqaməti Türkiyədən olduğuna görə onun sərhəddə yerləşən Yunanıstanda və Bolqarıstanda ciddi sərhəd nəzarət məntəqələri qurulmuşdur.

Regiona daxil olmaq üçün qaçqınların böyük əksəriyyəti dəniz yolundan istifadə edir. Ona görə NATO-nun qüvvələri və imkanlarından istifadə etməklə Yunanıstan, İtaliya və Türkiyənin sahil sularının mühafizəsi sahəsində tədbirlər görülür. Buna baxmayaraq, Şimali Afrikadan, ilk növbədə Liviyadan İtaliyaya əhali axını yüksək intensivliklə davam edir. Su yolları ilə keçid onlarla, bəzən yüzlərlə insanın ölümünə səbəb olur.

Türkiyənin sərhədlərinin möhkəmləndirilməsi, qaçqınların Avropaya doğru axınlarının qarşısının alınması, onların ölkədə yerləşməsi və sosial problemlərinin həllində maliyyə-texniki yardım göstərilməsi məsələsi həll edilməli idi. Suriya və İraqda olan münaqişələr nəticəsində bu ölkədə 3,0 mln. nəfərdən çox qaçqın yerləşmişdir. Rəsmi məlumatlara görə, Türkiyə onların saxlanması üçün 2011-2015-ci illərdə 10,0 mlrd. dolardan çox vəsait sərf etmişdir. Onların qarşılanması üçün Türkiyə Avropadan ildə 3,0 mlrd. dollar vəsait tələb edirdi. Bu, qaçqın axınlarının qarşısının alınması üçün əsas yollardan biri kimi qəbul edilir.

Avropa Komissiyası Şimali Afrika, Yaxın və Orta Şərqdən gələn qaçqın axınlarının qarşısını almaq üçün Şengen zonasının xarici sərhədlərinin Yunanıstanda qorunması, bu prosesin birgə qüvvələr ilə həyata keçirilməsi vacib vəzifə kimi həll edilməli və 2016-cı ilin əvvəlinə qədər başa çatmalı idi. Belə vəziyyətdə daxili regionlarda sərhəd yoxlamalarına ehtiyac qalmırdı.

2018-2019-cu illərdə Avropaya miqrasiya axınlarının miqyası xeyli azalsa da, bu təhlükə daimi olaraq qalır. Ona görə Avroməkan daxilində miqrasiyaların nizamlanması üçün tədbirlər görülür, sərhədlər, o cümlədən su mühafizə zonaları nəzarətdə saxlanılır. Bununla yanaşı, Türkiyə ilə olan razılaşmalar davam etdirilir. Avropa İttifaqında miqrasiya proseslərinin idarə edilməsində müxtəlif institutlar və orqanlar iştirak edir. Aşağı səviyyələrdə

müxtəlif məsələlər üzrə işçi qruplar fəaliyyət göstərir. Onlara miqrasiya və deportasiyalar, sığınacaqların verilməsi, sərhədlər, polis əməkdaşlığı və s. qruplar aiddir. Yuxarı pillədə immiqrasiya, sərhədlər və sığınacaqlar üzrə Strateji Komitə (SCİFA) fəaliyyət göstərir. Daha yuxarı səviyyədə, üçüncü pillədə üzv ölkələrin nümayəndələrinin daimi komitəsi (KOREPER) yaradılmışdır. Ən yüksək səviyyədə Aİ-nın qanunverici orqanı olan Daxili İşlər və Ədliyyə Nazirləri Şurası dayanır. Bu Şura Maastrixt müqaviləsi çərçivəsində yaradılmışdır [4, s.232].

**Nəticə**

Avropa ölkələrinə miqrasiya axınlarının azaldılması və nizamlanmasında digər çətinliklər də vardır. Onlara ilk növbədə aşağıdakıları aid etmək olar:

- 2014-cü ildə 10 yeni ölkə Mərkəzi və Şərqi Avropa ölkəsinin Aİ-yə daxil olması sərhədlərin genişlənməsinə, onlara nəzarət mexanizminin zəifləməsinə səbəb olmuşdur. Siyasi, iqtisadi və sosial münasibətlərin gərgin olduğu regionlara yaxınlıq, əhalinin miqrasiya intensivliyinin artması bu prosesə xeyli təkan vermiş oldu.
- Digər Avropa ölkələrindən, o cümlədən keçmiş SSRİ məkanından, Şimali Afrika, Yaxın və Orta Şərq, Cənub-Şərqi Asiya ölkələrindən daha çox insanın bu prosesə qoşulması problemin ciddi xarakter almasına gətirib çıxarmışdır.
- Aİ daxilində miqrasiyalar intensiv xarakter alır. Nisbətən aşağı yaşayış şəraitinə malik olan yeni üzv dövlətlərdən Qərbi Avropaya axın sürətlə artmışdır. Onların yerləşdirilməsi, iş yerləri, mənzil, sosial xidmətlərlə təminatı ciddi problemlərə səbəb olur.
- Aİ-nin emiqrasiya ölkələr ilə iqtisadi-siyasi sahələrdə, maddi, mədəni, təhsil, iş yerləri ilə təminat məsələlərində əməkdaşlıq etməsi, qeyri-leqal miqrasiyalar problemlərinin həll edilməsində və transmilli cinayətkarlıqla mübarizədə mühüm rol oynayar .

**ƏDƏBİYYAT**


1. *Əfəndiyev V.Ə., Nağıyev S.Q.* Əhali coğrafiyası. Bakı: Bakı Universitetinin nəşriyyatı, 2006, 338 s.
2. Dünyanın iqtisadi və sosial coğrafiyası / H.B.Soltanova red. ilə. Bakı, 2019, 510 s.
3. *Ионцев В.* Международная миграция населения: теория и история изучения. М.: МАКС-Пресс, 1999, 370 с.
4. *Рязанцев С.В., Ткаченко М.Ф.* Мировой рынок труда и международная миграция. М.: ЗАО Издательство Экономика, 2010, 303 с.

5. Методология и методы изучения миграционных процессов / Междисциплинарное учебное пособие / Под ред. Ж.Зайончковской, И.Молодиковой, В.Мукомеля. Центр Миграционных Исследований. М., 2007, 370 с.
6. *Одиссер С.* Объединение Европы. Прошлое и настоящее. Дом ученых, Гамбург, 2013, 310 с.
7. Directive on the conditions, C. 80, 03.04.2002. 347
8. Communication from the Commission to the Council, Brussels, CESE 684/2002, 348

Redaksiyaya daxil olub 05.10.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №4, s. 84-90
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №4, pp. 84-90

*UOT 94(479.24)*

***R.G.Məmmədov***
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*rustammammadov@hotmail.com*

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ VƏ XXI ƏSRİN İKİNCİ ONİLLİYİNİN YENİ QLOBAL REALLIQLARI

***Açar sözlər:*** *Dağlıq Qarabağ münaqişəsi, yol-nəqliyyat infrastrukturu, Cənubi Qafqaz geosiyasəti, regional layihələr*

Azərbaycan müasir dövrdə yeni nəqliyyat dəhlizlərinin və ticarət yollarının yaradılması prosesində fəal iştirak edən çox əlverişli geosiyasi mövqeyə malik ölkələrdən biridir. Erməni işğalına qarşı 44 günlük müharibə otuz ilə yaxın işğala son qoyub, Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən parlaq qələbə Böyük İpək Yolunun genişləndirilməsi üçün yeni imkanlara yol açdı. Tədqiqat prosesində əldə edilən elmi nəticələrə əsasən demək olar ki, irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi innovativ yanaşmaların tətbiqinə və dövlət institutlarının optimallaşdırılmasına müsbət təsir göstərib. Həmçinin struktur islahatlarının əhatə dairəsini genişləndirməklə Azərbaycanın sivilizasiyalararası dialoqda mühüm rolu qlobal miqyasda məlum olmuşdur.

***Р.Г.Мамедов***

## РЕШЕНИЕ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА И НОВЫЕ ГЛОБАЛЬНЫЕ РЕАЛИИ ВТОРОГО ДЕСЯТИЛЕТИЯ XXI ВЕКА

***Ключевые слова:*** *Нагорно-карабахский конфликт, дорожно-транспортная инфраструктура, геополитика Южного Кавказа, региональные проекты*

Азербайджан является одной из стран с очень выгодным геополитическим положением, которая активно участвует в процессе создания новых транспортных коридоров и торговых путей. 44-дневная война против армянской оккупации положила конец тридцатилетней оккупации и обеспечила восстановление территориальной целостности Азербайджана. Яркая победа, достигнутая под руководством Главнокомандующего Ильхама Алиева, открыла новые возможности для расширения Великого Шелкового пути. На основании научных результатов, полученных в процессе исследования, можно сказать, что реализация масштабных международных проектов оказала положительное влияние на применение инновационных подходов и оптимизацию государственных институтов. Кроме того, благодаря расширению масштабов структурных реформ значительная роль Азербайджана в диалоге между цивилизациями стала очевидна и явилось реальностью.

**R.G.Mammadov**

# SOLUTION OF THE NAGORNO-KARABAKH CONFLICT AND NEW GLOBAL REALITIES OF THE SECOND DECADE OF THE XXI CENTURY

***Keywords:*** *Nagorno-Karabakh conflict, road transport infrastructure, geopolitical realities of the South Caucasus, regional projects*

Azerbaijan is one of the countries with a very favorable geopolitical position, which is actively involved in the process of creating new transport corridors and trade routes in modern times. The 44-day war against Armenian occupation has put an end to the almost thirty years of occupation and ensured the restoration of the territorial integrity of Azerbaijan. The bright victory achieved under leadership of the Commander-in-Chief Ilham Aliyev opened the way to new opportunities to expand the Great Silk Road. Based on the scientific results obtained in the research process, it can be said that the implementation of large-scale international projects has had a positive impact on the application of innovative approaches and optimization of state institutions. Also, by expanding the scope of structural reforms, the significant role of Azerbaijan in the dialogue between civilizations has become globaly well known.

Müasir dövrdə yeni nəqliyyat dəhlizlərinin və ticarət marşrutlarının yaradılması prosesində fəal iştirak edən, son dərəcə əlverişli geosiyasi mövqeyə malik olan ölkələrdən biri Azərbaycandır. Nəzərə almaq lazımdır ki, hazırda Avrasiyada irimiqyaslı iki nəqliyyat-ticarət dəhlizinin inkişaf etdirilməsi sahəsində əhəmiyyətli layihələr həyata keçirilir. Onlardan biri Çin və Avropanı birləşdirən Şərq-Qərb dəhlizi, digəri isə Avropanın şimalından Hind okeanına qədər uzanan Şimal-Cənub dəhlizidir və diqqəti cəlb edən məqam ondan ibarətdir ki, bu marşrutların hər ikisinin müəyyən hissəsi Azərbaycan ərazisindən keçir, bu da bir tərəfdən ölkənin iqtisadi inkişafına müsbət təsir göstərir, digər tərəfdən onun həm regional, həm də beynəlxalq geosiyasi mövqelərinin möhkəmlənməsinə xidmət edir.

COVİD-19 pandemiyası son bir ildə qlobal iqtisadiyyata zərbə vurmuş və 2020-ci il bütün ölkələr üçün çətin iqtisadi il olmuşdur. Pandemiya həmçinin Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərmişdir. Lakin Azərbaycan bu vəziyyətdən digər ölkələrə nisbətən daha az itki ilə çıxmağa çalışır. Ölkə başçısı İlham Əliyevin təşəbbüsü nəticəsində pandemiya dövründə Azərbaycan yükdaşımalarının hərəkəti maneəsiz təmin edilmişdir.

Bu dövrdə iqtisadiyyatımız təxminən 4% azalmışdır. Bunun əvəzində isə qeyri-neft sənayesi 11% artmışdır. Bu da real iqtisadiyyatın, qeyri-neft iqtisadiyyatının inkişafı deməkdir [1].

Bu cür proseslərin fonunda ölkə başçısının daxili və xarici siyasəti uyğunlaşdırmaq, təhlükəsizliyi təmin etmək və ərazi bütövlüyünü bərpa etmək üçün atdığı addımlar çox təsirli olmuşdur. Daxili siyasətdə dövlət başçısı *yalnız*

*güclü bir dövlətin deyil, güclü bir cəmiyyətin də çox vacib olduğunu* dəfələrlə bildirmişdir. Bu məqsədə çatmaq üçün İlham Əliyev multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldıran yeganə liderdir. Multikulturalizm həm də Ermənistanın anti-Azərbaycan təbliğatını sarsıtmışdır [2].

Azərbaycan Ermənistan istisna olmaqla bütün qonşuları ilə işgüzar əlaqələr quraraq özünü bölgədə lider ölkə kimi göstərmişdir. Nəticədə bölgəyə əhəmiyyətli dərəcədə təsir göstərən Rusiya, Türkiyə və İran Azərbaycan məsələsində ortaq mövqeyə gəlmişdilər. Həmçinin Azərbaycanın ictimai-siyasi gündəminin ən vacib Dağlıq Qarabağ məsələsi 2020-ci ildə öz həllini tapdı. Dondurulmuş bir çox digər münaqişələrdə olduğu kimi, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağla bağlı davam edən sülh danışıqlarında yavaşlama və durğunluq müşahidə edilirdi.

1994-cü ildə Fransa, Rusiya və ABŞ-ın həmsədrlik etdiyi Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Minsk Qrupunun himayəsi altında atəşkəs rejimi haqqında saziş imzlanmışdır. O vaxtdan etibarən yalnız atəşkəs çağırışları və iki ölkə arasında müəyyən dövrlərdə sərhədlərarası qarşıdurmaların pislənilməsi xaricində Minsk qrupu bu problemin həllində xüsusi əhəmiyyət kəsb edən iş görməmişdir.

Ermənistanın Baş naziri Nikol Paşinyanın rəhbərliyi tərəfindən törədilən təxribatlar Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqəli danışıqları pozur və bölgədəki gərginliyi xeyli artırırdı. Beynəlxalq ictimaiyyətin gözləntilərini rədd edən Ermənistan rəhbərliyi sələflərinin qeyri-konstruktiv siyasətini təkrarlamağa üstünlük verirdi. 2019-cu ildən etibarən Ermənistan dövləti davamlı şəkildə atəşkəsi pozurdu. Bunun nəticəsində Ermənistanın silahlı qüvvələri tərəfindən törədilən cinayətlər nəticəsində Azərbaycan Ordusu çoxlu sayda şəhid verirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında Ermənistanın baş nazirinin “Qarabağ Ermənistandır və nöqtə” bəyanatının yalan olduğunu vurğulayaraq dedi: *“Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”* [3].

2020-ci ilin 27 sentyabr tarixində Ermənistanın təxribatlarına cavab olaraq ölkəmiz ərazi bütövlüyünü təmin etmək üçün başlatdığı Vətən müharibəsini Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün sonra qələbə ilə başa vurdu. Ordumuzun əks-hücumu nəticəsində 300-ə yaxın kənd, 5 şəhər və 4 yaşayış məntəqəsi, çoxsaylı strateji yüksəkliklər işğalçılardan azad edildi. Ermənistana aid çoxlu sayda texnika məhv edildi, ya da qənimət kimi götürüldü. Bir neçə gün sonra isə Qarabağın döyünən ürəyi olan Şuşa, 70-dən çox kənd və 8 strateji yüksəklik işğalçılardan təmizləndi.

Azərbaycan Ermənistanın təcavüzkar siyasətini, ərazi bütövlüyünü pozmasını dünyada uğurla təbliğ etdi. Bununla da ölkəmiz beynəlxalq səviyyədə siyasi və iqtisadi üstünlüyünü müəyyənləşdirdi. Prezident İlham Əliyev siyasi iradə göstərərək sülh danışıqları zamanı Azərbaycana edilən təkliflərdən daha çoxunu əldə etdi. İllərdir uzanan Qarabağ münaqişəsini həll edərək Ermənistanı reallığı qəbul etməyə sövq etdi.

10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti V.V.Putin və Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyanın Vətən müharibəsinin bitməsini bildirən birgə bəyanat imzalamışdılar. Daha sonra isə Ağdam, Kəlbəcər və Laçın rayonları düşmən işğalından azad edilmişdir.

Noyabrın 20-də xalqa müraciətində Prezident İlham Əliyev qeyd etdi ki, *əgər silahlı qüvvələrimiz Ermənistan ordusunu döyüş meydanında məğlub etməsəydi, işğalçı öz xoşu ilə torpaqlarımızdan çıxmayacaqdı: "Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə o bölgələrdə – işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu qələbəni şərtləndirdi"* [4].

Zəfərlə başa çatan Vətən müharibəsi nəinki vətəndaşlarımızın, eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların ölkəmizin böyük siyasətinin əsas tərkib hissəsi olan dövlətçiliyi qorumaq, ərazi bütövlüyünü təmin etmək, milli birliyi möhkəmləndirmək işinə dönməz sadiqliyinin sınağı oldu. 44 günlük müharibə xalqımızın bütün mənsublarını istər ölkədə, istərsə də onun hüdudlarından kənarda bir yumruq kimi səfərbər edib birləşdirdi.

2021-ci ilin yanvar ayında Moskvada ilk dəfə Azərbaycan, Rusiya və Ermənistan baş nazir müavinlərinin iştirakı ilə üçtərəfli görüş keçirildi. Üçtərəfli görüşün məqsədi müharibədən sonrakı dövrlərin nəticələri və fəaliyyətlərin hansı yöndə olması ilə bağlı bir növ hesabat xarakteri daşıyırdı. Belə demək olarsa, növbəti addım üç liderin 10 noyabrda imzalamış olduğu 9 maddəlik sənəddə yer alan prinsiplərin təsdiqlənməsi və icra olunması, eləcə də bu prinsiplərə əsaslanaraq bölgədə sabitliyin və təhlükəsizliyin bərqərar olması yolunda idi.

2021-ci ilin 2 fevral tarixinə kimi kommunikasiya və yolların açılması, yenilənməsi ilə əlaqəli aktual sahələr üzrə ekspert qrupları yaradılması ilə bağlı qərar verildi.

Azərbaycan bu müddət ərzində həm də etibarlı tərəfdaş və tranzit ölkəyə çevrilib. Nəqliyyat sektorunun sürətli inkişafını stimullaşdıran Azərbaycan Avrasiyada nəqliyyat qovşağı kimi mövqelərini getdikcə gücləndirir. Bu gün Xəzərdə ən böyük donanma (200-dən çox gəmi) ölkəmizə məxsusdur. Son 16 ildə ölkədə 6 beynəlxalq hava limanı tikilib. Hazırda Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir (5).

Bu günün prioritet sahələrindən biri də bəyanatda göstərilən yol-nəqliyyat infrastrukturunun bərpasıdır. Bu da təsadüfi deyildir, çünki əsas amillərdən biri olaraq Cənubi Qafqaz bölgəsində yüksək səviyyədə nəqliyyat, iqtisadi və siyasi əlaqələrin möhkəmlənməsi dayanır. Bəyanatda bildirilir ki, növbəti mərhələ üçün konkret icra strukturunun yaradılması, fəaliyyətin və vəzifələrinin dəqiq müəyyənləşdirilməsi bölgənin nəqliyyat-kommunikasiya infrastrukturu yaxın zamanlarda qarşıdakı mərhələdə bərpa olunmalıdır.

Bəyanatın imzalanmasından dərhal sonra Ermənistanda başlanan aksiyalar ölkənin Baş Naziri Nikol Paşinyan və onun rəhbəri olduğu hökumətin istefası yönündə idi və ölkə tamamilə regional əməkdaşlıqlardan məhrum edilmişdir. Bu da insanların sosial-iqtisadi vəziyyətini ağırlaşdırmışdır.

Bu gün Qarabağın regional və beynəlxalq perspektivlərini artıran, xarici ölkələrlə əməkdaşlığa müsbət təsir göstərən amillər əsasən bölgənin təbii və mineral ehtiyatları, Qərblə Şərq, Şimalla Cənub arasında tranzit-nəqliyyat və kommunikasiya imkanları ilə əlaqədardır. Ölkəmiz Qarabağın milli təbii ehtiyatları və iqtisadi potensialına təkrar yiyələnnməklə Cənubi Qafqazda çox güclü bir ölkəyə çevrilmişdir.

Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin qovşağında yerləşməsi Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz, Orta Asiya və Yaxın Şərqdə məqsədyönlü geoiqtisadi fəaliyyəti üçün əlverişli şərait yaratmışdır.

2018-ci ilin sonunda NATO-nun Zirvə görüşündə qəbul edilən Yekun Bəyannamədə Azərbaycanın ərazi bütövlüyü dəstəkləndi. Qoşulmama Hərəkatının 120-dən çox ölkəsi Bakıda keçirilən sammitdə Ermənistanı "işğalçı" adlandırması Azərbaycanın apardığı uğurlu siyasətin nəticəsi idi.

Maraqlıdır ki, yuxarıda göstərilən üçtərəfli platformaların çoxunda Azərbaycan ən azı coğrafi baxımdan əsas element kimi bağlayıcı rolunu oynayır.

Vətən müharibəsində qardaş Türkiyə birmənalı şəkildə Azərbaycanın yanında olduğunu, mənəvi dəstəyini nümayiş etdirdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan öz çıxışında *vurğulamışdır: "Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir oyuncaq kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün*

*fəaliyyətdən təəssüf ki, çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır"* [6].

Bütün bunlardan aydın geosiyasi nəticələr çıxarmaq mümkündür. Azərbaycan Ordusunun Qarabağda apardığı döyüş əməliyyatları, bütövlükdə postsovet məkanında separatizmə qarşı səmərəli mübarizənin fəlsəfəsini yaratdı.

Türkiyə-Azərbaycan birliyinin Cənubi Qafqazda geosiyasi sabitliyi təmin edən gücə çevrildiyi qənaətinə gəlmək olar. İki qardaş ölkə Avrasiya bölgəsində təsirli bir qüvvə olduqlarını sübut edirlər.

Müharibədən sonra Prezident İlham Əliyev *bölgənin bütün ölkələrini əhatə edəcək "Altılıq Platforması" formatında əməkdaşlıq imkanlarını, həmçinin Qafqazın üç ölkəsinin və bölgənin üç əsas qonşusunun – Rusiya, Türkiyə və İranın iştirakı ilə iqtisadi layihələr həyata keçirməyin mümkün olduğunu vurğulamışdır.*

Azad edilmiş ərazilərdə olan torpaq, meşə və su ehtiyatları kənd təsərrüfatı, sənaye və turizmin inkişafına əlverişli şərait yaradır. Ən önəmlisi isə azad edilmiş ərazilərdə yeni texnika və texnologiyalar tətbiq etməklə iqtisadiyyatı daha məhsuldar etmək olacaqdır.

Bu gün Azərbaycan üçün azad edilmiş ərazilərdə infrastrukturun bərpasını sürətləndirmək məqsədilə 2021 dövlət büdcəsindən 2,2 milyard manat (1,3 milyard dollar) ayrılmışdır. Füzuli, Laçın və Zəngilanda yeni beynəlxalq hava limanlarının, Azərbaycanla Naxçıvan Muxtar Respublikasını birləşdirən yeni yolun, Horadiz ilə Zəngilan arasında Ermənistanla sərhəddə yerləşən dəmir yolunun tikintisi strateji layihələrdən biridir. Qeyd edək ki, Füzulidə beynəlxalq hava limanının tikintisinə artıq start verilmisdir [7].

Zəngəzur dəhlizinin açılması tarixi zərurətdir. Bu dəhliz Azərbaycanın, Türkiyənin, Mərkəzi Asiya dövlətlərinin, Pakistanın, Əfqanıstanın Turan birliyinə meyilli dövlətlərin çiçəklənməsinə səbəb olacaqdır. Naxçıvanla nəqliyyat-kommunikasiya sisteminin yaradılması məsafə və məhsulların çatdırılma sürəti baxımından da böyük əhəmiyyətə malikdir. Gələcəkdə Naxçıvan ərazisindən keçəcək quru yolu xətləri Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin uzunluğundan 343 km az olmaqla daşınmaların xərc və müddətini azaldacaqdır. Həmçinin Naxçıvan vasitəsilə Türkiyəyə avtomobillə gediş məsafəsi qısaldığı üçün turistlərin ikitərəfli yerdəyişməsinin geniş vüsət alacağı gözlənilir. Naxçıvan vasitəsilə ölkəyə girişin genişləndirilməsi Muxtar Respublikada turizmin inkişafına müsbət təsir göstərəcəkdir [8].

Regional layihələrin həyata keçirilməsinə açıq şəkildə ehtiyac duyulur. Bu baxımdan Qarabağın bərpasının təkcə Azərbaycan üçün deyil, ümumilikdə bölgənin inkişafı üçün də son dərəcə vacib olduğu qəbul edilməlidir. Buna görə

də bir sıra vacib məqamları vurğulamaq lazımdır. Vurğulanan məqamların fonunda II Qarabağ müharibəsinin geosiyasi və tarixi əhəmiyyətini başa düşmək olar. Azərbaycan yalnız döyüş meydanında qalib gəlmədi. Ümumilikdə regional geosiyasi, hərbi, iqtisadi, mədəni və ideoloji mənzərəni dəyişdirdi.

**ƏDƏBİYYAT**


1. *Həsənli Y.H.., Musayeva C.Q.* // Covid-19 pandemiyasının sosial təsirləri və sosial rifahın dəstəklənməsi istiqamətləri. MDU. Dayanıqlı inkişaf, 2021, C. 1, № 1, s.35-41
2. Azerbaijani Multiculturalism. Textbook for Higher Education. Baku, 2018, 487 s.
3. Prezident İlham Əliyevin RAİ-1 televiziya kanalına müsahibəsi. "İki sahil" qəz., №191(7691), Bakı, 2020, 28 oktyabr / http://ikisahil.com/upload/pdf/449.pdf?v=1603834272
4. https://www.yeniazerbaycan.com/Siyaset_e49365_az.html
5. *Baxşəliyev R*. Siyasi müstəqillik, davamlı sabitlik, inamlı yüksəliş: Prezident İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin şanlı səhifəsi yazılır // Azərbaycan, 2020, 13 mart, № 56, s.1-2
6. https://www.facebook.com/enanewsaz/posts/1563998177114638/
7. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi / https://president.az/az/articles/view/54776
8. *Həsənov Ə*. "Zəngəzur dəhlizi" regionlaşmanı qloballaşmaya aparan yoldur / https://nuhcixan.az/news/cemiyyet/46746-zengezur-dehlizi-regionlasmani-qlo-ballasmaya-aparan-yoldur.


Redaksiyaya daxil olub 25.10.2021

*UOT 94(479.24)*

***E.F.Rəhimova***
*Milli Azərbaycan Tarixi Muzeyi*
*esmirarahimova@mail.ru*

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞUŞA ŞƏHƏRİNDƏ MAARİF İŞİNİN TƏŞKİLİ TARİXİNDƏN

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, Şuşa, təhsil, elm*

XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər meydana gəldi və inkişaf yoluna qədəm qoydu. Çarizmin Şimalı Azərbaycanda maarif sahəsində gördüyü tədbirlər müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Çar Rusiyası Şimalı Azərbaycanda müxtəlif idarələrdə işləmək üçün 1829-cu ildə qəza məktəbinin yaradılması haqqında qərara əsasən, 1830-cu ildə Şuşada dövlətə məxsus qəza məktəbi yaradıldı. Burada təhsil almış şagirdlər də onlara dərs deyən müəllimləri kimi sonradan məşhur şəxslər kimi tanınınmışdır.

Azərbaycanda maarifçi bir nəslin yetişməsində XIX əsrdə Şuşada yaranan Şuşa Realnı Məktəbinin xüsusi rolu vardır. Bununla yanaşı, bu dövrdə Şuşa təhsilində yaddaqalan mühüm hadisələrdən biri də qız məktəbinin yaradılması olmuşdur.

Artıq doğma Şuşamıza təhsilimiz qayıdır. Artıq bizləri qarşıda azad olunmuş torpaqlarımızda böyük quruculuq işləri, gözəl bir həyat gözləyir. Ali Baş Komandan, dövlət başçısı İlham Əliyevin səyi nəticəsində tezliklə müasir təhsil tariximizdə yenidən Şuşa səhifəsi yenidən açılacaqdır.

***Э.Ф.Рагимова***

# ИЗ ИСТОРИИ ОРГАНИЗАЦИИ ПРОСВЕТИТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ШУШЕ В XIX-НАЧ. XX ВВ.

***Ключевые слова:*** *Азербайджан, Карабах, Шуша, образование, наука*

В XIX веке в Азербайджане появились и начали развиваться школы нового типа. Мероприятия в сфере просвещения, проводимые царизмом в Северном Азербайджане, служили осуществлению колонизаторской политики. Согласно постановлению царского правительства от 1829-го года о создании в Северном Азербайджане уездных школ с целью подготовки кадров для работы в учреждениях, в 1830 году в Шуше была открыта государственная уездная школа. Ученики, учившиеся здесь как и преподававшие им учителя, в последствии стали известными личностями.

Созданное в XIX веке в Шуше реальное училище сыграло особую роль в формировании в Азербайджане целого поколения просветителей. Вместе с тем, одним из важнейших событиий, занявших место в образовательном процессе Шуши стало создание женской школы.

Наше образование возвращается в родную Шушу. После этого нас ждут большие созидательные дела и прекрасная жизнь на освобожденных землях. Усилиями Верховного Главнокомандующего, главы государства Ильхама Алиева в истории нашего образования вскоре вновь откроется шушинская страница.

***E.F.Rahimova***

**FROM THE HISTORY OF THE ORGANIZATION OF EDUCATIONAL WORK IN SHUSHA IN THE EARLY 19-20TH CENTURIES**

***Keywords:*** *Azerbaijan, Karabakh, Shusha, education, science*

In the 19th century, new types of schools appeared in Azerbaijan and began to develop. The measures taken by Tsarism in the field of education in Northern Azerbaijan served to implement the colonial policy. According to the decision of Tsarist Russia to establish an emergency school in 1829 to work in various departments in Northern Azerbaijan, in 1830 a state emergency school was established in Shusha. The students who studied here were also known as famous people as their teachers.

The Shusha Real School, which was established in Shusha in the 19th century, has a special role in the upbringing of an enlightened generation in Azerbaijan. At the same time, one of the most important events in Shusha education during this period was the establishment of a girls' school.

Our education is returning to our native Shusha. Great creative work and a beautiful life await us in our liberated lands. As a result of the efforts of the Supreme Commander-in-Chief, President Ilham Aliyev, the Shusha page will soon be reopened in the history of our modern education.

Şuşa xalqımız üçün tarixi, mədəni, mənəvi və rəmzi əhəmiyyətə malikdir. Qarabağ xanlığının tarixi paytaxtı, mədəniyyət məbədi olan bu qədim şəhər özü boyda tarixi abidədir. Şuşa orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi, milli memarlıq incisi, Azərbaycan musiqisinin, xüsusilə muğamımızın beşiyi, "Şərqin konservatoriyası" adlandırılır. Ümummilli lider Heydər Əliyev 1996-cı il mayın 6-da Prezident sarayında Şuşa və Laçın rayonlarının ictimaiyyəti ilə görüşdə Şuşanın, ümumiyyətlə, Qarabağın Azərbaycan üçün müstəsna əhəmiyyəti olduğunu bildirərək demişdir: "...*Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün*

*əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir”* (1, s.239).

Şuşa şəhərində maarif işi yarandığı ilk gündən başlayaraq Qarabağ xanlığının ərazisində məktəblər məscidlərin bir guşəsində, xüsusi dükanlarda, yaxud şəxsi evlərdə yerləşir və adətən, onların yaradıcılarının, müəllimlərin adları ilə adlandırılırdı. Belə məktəblərdən biri Şuşada Molla Pənah Vaqif məktəbi idi. Molla Pənah Vaqif məktəbi və onun XVIII əsr Azərbaycan poeziyasının zirvəsi sayılan yaradıcılığının şöhrəti təkcə Cənubi Qafqazda deyil, bütün Şərq aləmində tanınırdı.

Məktəbdə adətən ancaq bir müəllim olurdu və o, məktəbin həm də rəisi – *məktəbdar* idi. Məktəbdarlar məktəb binasına çəkdikləri xərc müqabilində, habelə tədris haqqı kimi şagirdlərin valideynlərindən hər həftə ("həftəlik") pul, peşkəş, bayramlıq və s. alırdılar. Valideynlərin maddi yardımı, adətən, məktəbləri dolandırmaq üçün kifayət etmədiyindən müəllimlər məktublar, dualar yazmaq, kəbin kəsmək və s. ilə də məşğul olurdular (4, s.78).

Bir qayda olaraq, uşaqlar 6 yaşından məktəbə gedirdilər. Dərs otaqları həsir və ya kilimlə döşənir, şagirdlər əyləşmək üçün özləri ilə evdən döşəkçə gətirirdilər. Uşaqlar məktəbdə başıaçıq və ayaqqabısız otururdular. Dərs müddəti, adətən, gündə 6-8 saat davam edirdi. Dərs vəsaiti çox məhdud idi. Şagirdlər əlifbanı öyrəndikdən sonra Quranın “Cüzəmmə” adlı kiçik bir hissəsini, sonra isə Quranı oxuyub başa çatdırır, habelə Sədinin “Gülüstan”ını və s. kitabları oxuyurdular (4, s.79).

XIX əsrin birinci yarısından Şuşada maarif işi inkişaf etməkdə idi. Əvvəlki dövrlərdə olduğu kimi, təhsil mədrəsə və məktəblərdə aparılırdı. Məktəblərdə dərsləri əsasən mollalar keçirdilər. Şagirdlər əvvəlcə ərəb əlifbasını, sonra fars dilini öyrənirdilər.

Bir məsələni qeyd etmək istərdim ki, orta əsrlərdən başlayaraq Azərbaycanda təhsil mollaxana, məktəb və mədrəsələrdə aparılıb. Şuşadakı İbrahim xan məscidinin nəzdində əsası 1801-ci ildə qoyulan məktəb XIX əsrin II yarısındada fəaliyyətini davam etdirmişdir. Mədrəsələrdə ərəb dili və Quran öyrədilib. Azərbaycanın görkəmli mütəfəkkiri Mirzə Şəfi Vazeh də bu məktəblərdə dərs keçib (4, s.102-103).

XIX əsrin ikinci yarısında Şuşa şəhərində yaradılmış, el arasında “Gövhəriyyə məktəbi” adlandırılan mədrəsə Gövhər ağa məscidinin nəzdində fəaliyyət göstərmişdir. 1864-cü ildə Gövhər ağa vəqf gəliri hesabına 175 min manat qızıl pul xərcləyərək Böyük Cümə məscidini əsaslı surətdə bərpa etdirdikdən sonra hücrələrdən birini mədrəsə üçün ayırmışdır. Burada oxuyan yoxsul uşaqların hamısı onun hesabına təhsil almışdır. 1917-ci ildə məktəbin nəzdində müsəlman tələbə komitəsininin təşəbbüsü ilə pulsuz kitabxana zalı açılmışdır (6, s.34).

XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər meydana gəldi və inkişaf yoluna qədəm qoydu. Məktəblərin təsiri və maarifin inkişafına cəhd baxımından Qarabağ nəinki Azərbaycanda, eləcə də Cənubi Qafqazda demək olar ki, ən ilkin yeri tuturdu.

XIX əsrin birinci yarısından başlayaraq çarizmin Şimalı Azərbaycanda maarif sahəsində gördüyü tədbirlər müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Yenicə yaradılmış dünyəvi məktəb çarizmə sədaqətlə qulluq edən məmurlar hazırlamalı idi. Ona görə də XIX əsrin birinci yarısında təhsil sisteminin quruluşunda hələ də aydınlıq yox idi və Şuşada maarif sahəsində bir çox məsələlər hələ də öz həllini tapmamışdı. Bu baxımdan çarizm ölkədə təhsilin inkişafına az vəsait buraxırdı. Lakin yuxarıda qeyd etdiyimiz kimi, Çar Rusiyası Şimalı Azərbaycanda müxtəlif idarələrdə işləmək üçün yerli əhalidən özlərinə sədaqətli məmurlar hazırlamaq məqsədilə 1829-cu ildə qəza məktəbinin yaradılması haqqında qərar qəbul etdi. Həmin qərara əsasən 1830-cu ildə Şuşada dövlətə məxsus qəza məktəbi yaradıldı. Tipindən asılı olaraq dövlət məktəblərində şəriət, rus dili, hesab, tarix, coğrafiya və başqa fənlər tədris olunurdu (7, s.67).

Bu məktəblər dövlət idarələri üçün qulluqçular, ilk növbədə isə Azərbaycan və rus dilləri üzrə tərcüməçilər hazırlamaq məqsədilə açılmışdır. İlk ildə Şuşa qəza məktəbinin birinci sinfinə 19 şagird qəbul olunub. Lakin ildən-ilə şagirdlərin sayının artaraq 1833-cü ildə 27, 1834-cü ildə 44 nəfərə çatması ikinci sinifin də açılmasına gətirib çıxartmışdı (4, s.82).

Burada təhsil almış şagirdlər də onlara dərs deyən müəllimləri kimi sonradan məşhur şəxslər kimi tanınıblar. Məktəbin yetirmələri olan Əbdüləli bəy Muxtarov, Həsən bəy Bağırbəyov, İsmayıl bəy Şəfibəyov, Muxtar bəy Muradov, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Qara bəy Əliverdilər, Cabbar bəy Vəlibəyov, Rüstəm bəy Axundov, Xan Şuşinski fəaliyyətləri ilə dövrlərinin ən parlaq şəxsiyyətləri kimi yadda qalıblar.

XIX əsrin 70-ci illərində Azərbaycanda qəza məktəblərindən bir neçəsinin şəhər məktəbinə çevrilməsi haqqında qərar qəbul edildi. Bu baxımdan ilk ümumtəhsil ocağı sayılan, xeyli şagirdi, kitabxanası, tədris-maddi bazası olan Şuşa qəza məktəbi 1874-cü ildə Zaqafqaziyada şəhər məktəblərinin də qaranquşu oldu. Şuşa şəhər məktəbinə çevrildi. Yeni məktəb daha yüksək tipli idi. Ona görə də pedaqoji heyətin əksəriyyəti Tiflis Aleksandrinski Müəllimlər İnstitutunun məzunlarından ibarət idi. Onlar xalq içərisində hörmət və nüfuz sahibi kimi tanınırdılar. Şuşa şəhər məktəbinin ana dili müəllimləri Mirzə Həsən Əmirov və Aslan bəy Əmirov məhz belələrindən idilər. Şuşa şəhər məktəbini bitirənlərdən bir çoxları (Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov və başqaları) sonralar Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olublar (8).



***Şuşa şəhərinin görkəmli maarifçisi və müəllimi Səfərəli Vəlibəyov 1898-ci il. SMF inv. 271/6***

Şuşa sakinləri məktəblərdə ana dilinin öyrənilməsinə xüsusi diqqət yetirirdi. Bu baxımdan Şuşa məktəbinin müəllimləri Mirzə Həsən bəy Əmirov və Mirzə Aslan bəy Əmirov ana dilinin uğurlu tədrisi sahəsində çox məşhur idilər. Təsis edildiyi ilk illərdə Şuşa şəhər məktəbində 375 nəfər şagird təhsil alırdı. Bu, Rusiyada dövrünün ən çox şagird kontingenti olan məktəbi idi. Şuşa şəhər məktəbində 1875-ci il mayın 6-da kasıb zadəgan övladlarının təhsil almaları üçün konvikt (ümumi qapalı məktəb yataqxanası) təşkil edildi. Onlar dövlət hesabına bu pansionda yaşayıb təhsil alırdılar.

1880-ci ildə Şuşa şəhər məktəbinin nəzdində xüsusi musiqi sinifləri açıldı. Bu siniflərin Şuşada professional musiqi hazırlığı olan musiqiçilər nəslinin yetişməsində rolu və əhəmiyyəti danılmazdır.

Azərbaycanda maarifçi bir nəslin yetişməsində XIX əsrdə Şuşada yaranan Şuşa Realnı Məktəbinin xüsusi rolu vardır. Məlum olduğu kimi, XIX əsrdə Azərbaycanda yeni tipli məktəblər yaranmağa başlamışdı. Belə məktəblərin inkişafı və maariflənmə səyləri baxımından Qarabağ bölgəsi nəinki Azərbaycanda, o cümlədən Cənubi Qafqazda da öncüllük edirdi. Böyük ruh yüksəkliyi ilə başlanan bu ənənə XIX əsrin sonlarında daha da güclənməyə doğru gedirdi. 1881-ci ildə Azərbaycanın Şuşa şəhərində yaranan 6 sinifli yeni tipli məktəb də belə təhsil ocaqları sırasına daxil idi (4, s.145).

XIX əsrin 90-cı illərində Şuşa təhsilində yaddaqalan mühüm hadisələrdən biri də qız məktəbinin yaradılması olmuşdur. Qadın təhsilinə olan tələbat Azərbaycanın digər şəhərləri ilə yanaşı, Şuşada daha çox idi. Şuşalılar qızlarını ana dilində təhsil ilə bərabər, rus dilində də təhsil almasına cəhd edirdilər. 1875-ci il oktyabrın 26-da Şuşada xeyriyyə cəmiyyəti tərəfindən qız məktəbinin əsası qoyuldu. Tədris planına rus dili və hesab, ana dilində oxu və yazı, hüsnxətt, rəsm, rəsmxətt, ümumi coğrafiya, tarix, Şuşa qəzasının, Qafqazın, Rusiya imperiyasının xəritəsini çəkməklə ölkəşünaslıq daxil idi. Bunlardan başqa xorla milli mahnılar oxudulur, təbiyyat və fizikadan ümumi məlumat verilirdi. Tədris

pullu idi. Kasıb olanlar təhsil haqqından azad idi. Əlavə təhsil haqqı verənlərə həmçinin fransız və alman dilləri, müsiqi öyrədilirdi. Rus dili K.D.Uşinskinin "Vətən dili" dərsliyi üzrə keçirilirdi (5, s.146).

Şuşa qız məktəbi 1894-cü ildə Marinski qız məktəbinə çevrildi. Bu, Şuşada yaranmış ilk qadın orta məktəbi idi. Məktəbdə təhsil rus dilində aparılırdı. Bəhs edilən dövrdə Azərbaycanda cəmi 7 qız məktəbi fəaliyyət göstərirdi. Bu dövrdə Şuşada 42 müəllim müxtəlif fənlərdən dərs deyirdi. 1895-1896-ci dərs ilində burada 147 nəfər təhsil alırdı (5, s.146).

Azərbaycanda maarifçiliyin böyük inkişaf yoluna qədəm qoyduğu bu dövrdə dini təhsil sistemindən dünyəvi təhsil sisteminə keçid də gücləndi. Bu dövrdə Azərbaycanda cəmi bir real məktəb (Bakıda) və bir klassik progimnaziya (Gəncədə) fəaliyyət göstərirdi. Belə bir mənzərə nə əhalinin orta təhsilə olan ehtiyacını, nə də sənaye və ticarətin artmaqda olan tələbini ödəməyə yetirdi. Zəruri tələb və ehtiyac Şuşada özünü xüsusi olaraq göstərirdi. Burada orta məktəbə olan tələb getdikcə artırdı. Şəhər əhalisi Şuşada progimnaziyanın təsis olunması tələbinin nəticəsiz qalmasını görüb 1880-ci il iyunun 30-da Peterburqa – Qafqaz komitəsinə müraciət etmişdi. Müraciətdə yazılırdı: "Şuşa şəhər sakinlərinin təhsilə olan cidd-cəhdinə, (Şəhər məktəbində 400-dən artıq şagirdin oxuması bu cəhdi bir daha təsdiq edir) və şəhər ictimaiyyətinin arzusuna əsaslanan Gəncə qubernatoru Şuşa şəhərində 6 sinifli realnı məktəb açmağı xahiş edir. Şəhər ictimaiyyəti həmin məktəbi müvafiq bina ilə təmin etməyi və ildə 7500 manat pul ilə kömək etməyi öhdəsinə götürür" (5, s.143). Göründüyü kimi, Azərbaycanın digər qəzalarından fərqli olaraq Şuşanın yerli müsəlman əhalısi təhsilin inkişafına ciddi cəhd göstərirdi.

Göstərilən səylər 1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifli real məktəbin əsasının qoyulmasına gətirib çıxardı. Şuşa Realnı Məktəbi ilk dəfə hazırlıq və üç əsas sinifdən ibarət təşkil edilən bu məktəbə ilk dəfə 159 şagird qəbul edildi. 1886-cı ildə məktəbə 7.500 manat vəsait xərclənmişdi (5, s.143).

Şuşa real məktəbi həqiqətən də dövrünün nümunəvi maarif ocağı sayılırdı. Buna görə də Qafqaz maarif nazirinin nümayəndəsi 1890-cı ildə şahzadə Ziaəddövlə Ənişirəvan mirzə Qacarı və antropoloq Şantrı buraya gətirmişdir. Onlar burada tədrislə maraqlandıqda aydın olmuşdur ki, məktəbdə üzrlü və üzrsüz dərs buraxanların sayı 7,64%-dir. Bu göstərici xalqın elmə – maarifə həvəsinin əvvəlki illərə nisbətən artdığını göstərirdi. Xalq xurafat əngəllərinə əhəmiyyət vermədən başqa xalqların dillərini də öyrənir, həmin dildə danışmağa və oxumağa cəhd göstərirdi. 1890-cı ildə Tiflis məktəblərində alman dili məcburi dil kimi öyrədilirdisə, Şuşa məktəbində bu, könüllülük prinsipi ilə aparılırdı. Yeni açılan bu məktəblərdə ədəbiyyatın tədrisinə xüsusi diqqət yetirilirdi. Şuşa Realnı Məktəbinin müfəttişini əvəz edən Şimanovskinin Qafqaz maarif nazirinin sərəncamlar bülletinində çap etdirdiyi "Bizim orta məktəblərdə ədəbiyyat şagirdlərin əxlaq tərbiyəsində, söhbətlərin aparılmasında

əsas silahdır" məqaləsi bir daha bunu təsdiq edir. Ümumiyyətlə, o zaman belə məktəblərdə ədəbiyyata xüsusi diqqət yetirilirdi .

Realnı məktəbində o dövrün tanınmış maarifçi şəxslərindən Mirzə Salah bəy Zöhrabbəyov, Yusif bəy Malikhaqnəzərov, Haşım bəy Vəzirov dərs deyirdi. Mirzə Salah bəy Zöhrabbəyov Fransada və Rusiyada təhsil almış görkəmli ziyalılardan idi. İbtidai təhsilini Şuşada molla yanında alan Mirzə Salah bəy sonra Fransaya yollanmış, burada 12 il təhsil aldıqdan sonra Rusiyaya gələrək Sankt-Peterburq şəhərində təhsilini davam etdirmişdir. O, inqilabdan əvvəl Şuşaya qayıtmış, öz vəsaiti ilə burada məktəb tikdirmiş və həmin məktəbdə rus dili dərsi deməyə başlamışdır. Bu tədris fənni üçün Mirzə Salah bəy Zöhrabbəyov "Azərbaycanlılar üçün rus dilinin tədrisi" dərslik vəsaitini yazmışdır. Bir müddət Şuşa Realnı Məktəbində müəllim işləmişdir. O, Firidun bəy Köçərli ilə birlikdə "Təlimati-lisani-türki" dərsliyini tərtib etmişdir.

XX yüzilliyin əvvəllərində Şuşada məktəblərin sayı xeyli artmışdır. Bəhs etdiyimiz dövrdə Şuşanın 8 ibtidai məktəbində 131 şagird təhsil alırdı. 1912-ci il "Əsasnamə"sinə görə şəhər məktəbləri ali ibtidai məktəblərə çevrildi. Ali ibtidai məktəblərə ibtidai məktəbləri bitirənlər daxil olurdu. Belə məktəblər Şuşada 2 hissədə fəaliyyət göstərirdi. Birinci hissəyə qızlar məktəbi daxil idi ki, bunun bünövrəsi 1894-cü ildən qoyulmuşdu. Şuşada "Marinskoe uçiliş" adı altında fəaliyyət göstərən bu təhsil ocağı Şuşanın ilk qadın orta məktəbi idi. Məktəbdə təhsil rus dilində aparılırdı. İkinci hissə isə oğlanlar məktəbi idi. Bu məktəblərdə şəriət, rus dili, latın dili, alman dili, riyaziyyat, coğrafiya, tarix, təbiətşünaslıq, rəsmxətt və başqa fənlər tədris olunurdu. 1913-cü ildə Şuşanın orta məktəbində təhsil alan şagirdlərin sayı 483-ə, müəllimlərin sayı 42-yə çatdı. 1915-ci ildə Şuşada orta təhsil verən realnı məktəblərində 470 nəfər şagird oxuyurdu (7, s.56).

1910-cu ildə Məmməd Qarayev tərəfindən Malıbəyli kəndində qız məktəbi açılmışdır (5, s.165). Bu dövr üçün çox böyük hadisə idi. Məmməd Qarayev bu möhtəşəm hadisə ilə bağlı "İşıq" jurnalında yazırdı: "Mən bu gün ikiqat artıq sevinirəm, indi mənə daha qorxmaq lazım deyildir... Mən meydanda tək deyiləm. Qarabağın ikinci qaranquşunun onun qəlbi Şuşa şəhərində açılmasını ürəkdən təbrik edir və deyirəm: "Qədəmlərin mübarək! Xoş gəlmisən!". 1912-ci ildə Malıbəyli qız məktəbinin şagirdləri çox orijinal bir xalça toxuyub hörmət rəmzi olaraq sevimli müəllimləri Məmməd Qarayevə hədiyyə vermişdilər. Xalçanın üstündə bu sözlər yazılmışdır: "Malıbəyli ünas məktəbinin şagirdlərindən sevimli müəllimimiz Məmməd Qarayevə yadigar" (4, s.96).

Bəhs etdiyimiz dövrdə qeyrətli, el qədri bilən, xalqına, millətinə, torpağına bağlı olan imkanlı və istedadlı şuşalılar əhalisinin savadlanması üçün öz hesablarına məktəblər açmışdılar. Buna misal olaraq xarrat Qulunun açdığı musiqi məktəbini, Mir Möhsün Nəvvabın qiraətxanasını göstərə bilərik. Bundan

əlavə Şuşada Hacı Hüsünün və Mir Möhsün Nəvvabın rəhbərliyi altında musiqişünaslar məclisi, Kərbəlayi Səfıxanın xəttatlar, Hacı Hüsünün xanəndələr, Məşədi Əkbər Muxtarovun nüsxəbəndlər, Kərbəlayi Səfıxanın və Nəvvabın nəqqaşlar və memarlar məclisləri fəaliyyət göstərirdi. Həmin ədəbi məclislər öz ətrafında 120 şair və sənətkarı toplamış, Şuşanın mədəni inkişafında böyük işlər görmüşdülər. Qüdrətli sənətkarlar, bəstəkarlar, şairlər nəslinin yetişməsində Şuşa məktəbləri böyük rol oynayırdı. 1000-dən çox şagirdi, 75 müəllimi öz ətrafında birləşdirən Şuşanın təhsil ocaqları Azərbaycanı bütün dünyada tanıdan musiqiçilər, xəttatlar, şairlər yetişdirmişdir (7, s.68).

Beləliklə, təhsilimizin inkişafına əvəzsiz töhfələr vermiş, əzəmətini, tarixi görkəmini, qədimliyini qoruyan Şuşa Realnı Məktəbi çox təəssüf ki, 1992-ci ilə qədər ayaqda durmağı bacardı. Belə ki,1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları orada bir çox tarixi, dini yerlərimizi məhv etdi, o cümlədən Şuşa Realnı Məktəbi yandıraraq xarabazara çevirdilər. Budur, artıq İlahi Ədalət zəfər çaldı. 30 ilə yaxın işğal olunmuş torpaqlarımızın həsrətinə son qoyuldu. 44 günlük Vətən müharibəsində qazandığımız qələbə erməni işğalçılarının böyük xülyalarını puç etdi. Onların qurduqları və neçə illərdir ki, həyata keçirməyə çalışdıqları planlar tarixin zibilliyinə atıldı. Və təhsil ocaqlarımızı məhv edərək xarabazarlığa çevirən işğalçı ermənilər isə bu dəfə “sinif”də qalmadılar, bütövlükdə “məktəb”dən qovuldular. Özü də ölkə başçısı Cənab İlham Əliyevin dediyi kimi, düşməni “iti qovan kimi qovduq”.

Doğma Şuşamıza təhsilimiz qayıdır. Artıq bizləri qarşıda azad olunmuş torpaqlarımızda böyük quruculuq işləri, gözəl bir həyat gözləyir. Şuşaya səfəri zamanı dövlət başçısı İlham Əliyevin erməni vandalizminin qurbanı olmuş Şuşa Realnı Məktəbinin dağıdılmış binası ilə tanış olarkən demişdir: “Şuşa Realnı Məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı. Məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli bu məktəbin məzunu olub. 1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları Realnı Məktəbini yandıraraq xarabazara çeviriblər”. Cənab Prezidentin dediyi bu fikirlər tezliklə müasir təhsil tariximizdə yenidən Şuşa səhifəsinin açılacağını deməyə əsas verir.

## ƏDƏBİYYAT

1. *Heydər Əliyev.* Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: 46 cilddə, VI kitab: mart, 1996 iyun / Bur. məsul R. Mehdiyev. Bakı: Azərnəşr, 1998, 512 s.
2. İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, Şuşa şəhərində səfərdə olub, 15 yanvar 2021 / https://president.az/articles/50184

3. *Əhmədov H.* Azərbaycan məktəb və pedaqoji fikir tarixi. I hissə. Bakı: 2001, 320 s.
4. Əhmədov H. Seçilmiş əsərləri: 12 cilddə, VII c., Bakı: Təhsil, 2006, 320 s.
5. *Məmmədov N.* Azərbaycanın Şuşa qəzası (1900-1917-ci illər). Bakı, 2005, 170 s.
6. *Məmmədov N.* Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı, 2017, 960 s.
7. Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu (SMF), inv. 125, 271, 535/8, 535/15, 627, 629

Redaksiyaya daxil olub 10.11.2021

# Pedaqoji-psixoloji elmlər

*UOT 376*

***S.A.Abasova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*s-asadzade@mail.ru*

## SEREBRAL İFLİCLİ UŞAQLARDA SENSOR-PERSEPTİV SFERANIN DİAQNOSTİKASI

***Açar sözlər:*** *sensor-perseptiv sfera, uşaq serebral iflici, diaqnostika, perseptiv fəaliyyət, görmə qavrayışı, əqli inkişaf, psixi inkişafsızlıq, Segen lövhəsi*

Serebral iflicdən əziyyət çəkən uşaqların çoxunda vizual və audial qavramanın inkişafsızlığı ilə, perseptiv fəaliyyətin yetərsizliyi ilə təzahür edən sensor pozulmalar qeydə alınır.

Müasir psixologiyada perseptiv fəaliyyət dedikdə, əşyanın obrazının yaradılmasına istiqamətlənmiş qavrayış başa düşülür. Perseptiv obrazın əsas xüsusiyyəti olan obyektivliyi, qavranılan obyektin keyfiyyətlərinin subyektin aldığı sensor informasiya ilə uyğunluğu ilə formalaşır. Uyğunluğun müəyyən edilməsində yalnız obyektə baxmaqla deyil, həm də obyektlə qarşılıqlı əlaqədə (toxunmaqla) olmaq tələb olunur. Perseptiv fəaliyyət sensor-hərəki inteqrasiya vasitəsilə həyata keçirilir. Perseptiv fəaliyyətə nümunə kimi uşağın yeni əşyanı nəzərdən keçirməyini misal göstərmək olar. Perseptiv funksiyalar pozulduqda serebral iflicli uşaqlarda qavranılan əşyanın hissələrinin tam obraza inteqrasiyasının olmaması müşahidə olunur. Məsələn, uşaq əşyanın hər hansı bir hissəsini ayırd edə bilir, lakin onu digər hissələr ilə uyğunlaşdıra bilməyərək daş kimi qavramaqda çətinlik çəkir. Perseptiv fəaliyyətin pozulması şəkil çəkmə və konstruksiya proseslərində daha bariz təzahür edir.

***С.А.Абасова***

## ДИАГНОСТИКА СЕНСОРНО-ПЕРЦЕПТИВНОЙ СФЕРЫ У ДЕТЕЙ С ЦЕРЕБРАЛЬНЫМ ПАРАЛИЧОМ

***Ключевые слова:*** *сенсорно-перцептивная сфера, детский церебральный паралич, диагностика, перцептивная деятельность, зрительное восприятие, психическое развитие, умственная отсталость, доска Сегена*

Большинство детей с церебральным параличом имеют сенсорные нарушения с нарушениями зрения и слуха, а также отсутствием перцептивной функции.

В современной психологии перцептивная деятельность – это восприятие, направленное на создание образа объекта. Объективность, являющаяся основным признаком перцептивного образа, формируется соответствием качеств

воспринимаемого объекта сенсорной информации, полученной субъектом. Для определения соответствия необходимо не только смотреть на объект, но и взаимодействовать (прикасаться) к объекту. Перцептивная деятельность осуществляется посредством сенсомоторной интеграции. Примером перцептивной деятельности является рассмотрение ребенком нового предмета. У детей с детским церебральным параличом при нарушении перцептивных функций наблюдается отсутствие полной интеграции образов воспринимаемых частей предмета. Например, ребенок может различить любую часть предмета, но с трудом воспринимает его как камень, не умея приспособить его к другим частям. Нарушение перцептивной деятельности более выражено в процессе рисования и построения.

***S.A.Abasova***

## DIAGNOSTICS OF THE SENSOR-PERCEPTIVE SPHERE IN CHILDREN WITH CEREBRAL PARALYSIS

**Keywords:** *sensory-perceptual sphere, cerebral palsy, diagnostics, perceptual activity, visual perception, mental development, mental retardation, Seguin's plate*

Most children with cerebral palsy have sensory impairments with impaired vision and hearing, as well as a lack of perceptual function.

In modern psychology, perceptual activity is a perception aimed at creating an image of an object. Objectivity, which is the main feature of the perceptual image, is formed by the correspondence of the qualities of the perceived object to the sensory information received by the subject. To determine the correspondence, it is necessary not only to look at the object, but also to interact (touch) the object. Perceptual activity is carried out through sensorimotor integration. An example of perceptual activity is the child's consideration of a new object. In children with cerebral palsy with impaired perceptual functions, there is a lack of complete integration of images of the perceived parts of the object. For example, a child can distinguish any part of an object, but hardly perceives it as a stone, not being able to adapt it to other parts. Violation of perceptual activity is more pronounced in the process of drawing and construction.

Serebral iflicli uşaqlarda görmə funksiyalarının inkişafının bütün mərhələləri zərər çəkə bilər. Serebral iflicli uşaqların çox qismində əşyaların vizual qavranılması zamanı fəallıq olmur. Uşaq gizlədilmiş və ya yerə düşmüş əşyanı gözləri ilə axtarmır. Əşyanın gözlə izlənilməsi üçün mütləq o uşağın görmə sahəsində olmalıdır. Belə izləmə funksiyası normal inkişaf zamanı 4 aylıq uşaqlar üçün xarakterikdir. Serebral iflicli uşaqlarda görmə-motor koordinasıyasının inkişafsızlığı müşahidə olunur, uşaq gözü qarşısında olan oyuncağa tərəf dartınmır, ona əl uzatmır, yəni görmə uşağın əlini fəal olaraq müəyyən məqsədə doğru istiqamətləndirmir. Digər tərəfdən oyuncağı tutaraq

uşaq onu nəzərdən keçirməyə cəhd göstərmir, yəni vahid görmə mərkəzi və vahid fəaliyyət mərkəzi qeyd olunmur.

Serebral iflicli uşağın görmə qavramasının tədqiqi zamanı ona parlaq oyuncaq göstərilərək görmə sahəsinə yerləşdirilir və uşağın oyuncağın üzərində olan diqqəti, diqqətin davamlılığı, bütün istiqamətlərdə oyuncağı izləmək imkanları qeydə alınır. Mütəxəssis uşağın oyuncağa doğru dartındığını qeydə alır. Əgər qeyd olunmuş funksiyaların inkişafı nəzərə çarpmırsa, pozulmaların səbəbləri müəyyən olunmalıdır: marağın olmaması, reaksiyaların, qorxunun üstünlüyü, göz-hərəki innervasiyanın kobud pozulması, ağır motor patologiya.

Qeyd olunmuş bir qədər sadə görmə funksiyaları ilə bərabər, tanış oyuncaqların, təsvirlərin (1-2 yaş) tanınması, rəngləri fərqləndirmə imkanları (2-3 yaş) tədqiq olunur.

Məsələn, rənglərin fərqləndirilməsinin öyrənilməsi öyrədici eksperiment kimi keçirilir. Rənglərinə görə kürələrin seçilməsi üzrə məşğələlər təşkil olunur. Bu zaman eyni ölçülü, iki rəngli 6-8 kürə ümumi qutuya yığılmalıdır. Stolun üzərinə kürələrlə eyni rəngdə olan iki boşqab qoyulur. Pedaqoq uşağın gözü qarşısında qırmızı kürəni götürərək qırmızı boşqaba qoyur, sonra göy kürəni uşağa verərək uyğun rəngli boşqaba qoymasnı xahiş edir. Əgər uşağın ağır hərəki pozulması varsa, demək, gözü ilə müvafiq boşqaba işarə etməlidir. Təqribən tapşırıq mürəkkəbləşir: uşağa təklif olunan rənglərin sayı artırılır. Nəticələr qiymətləndirilərkən uşağa göstərilən köməyin həcmi də nəzərə alınmalıdır. [1, s.36].

3-4 yaşından başlayaraq uşaqlarda həcmli əşyanın qavranılması və onun düz təsviri ilə uyğunlaşdırılması tədqiq olunur. Bunun üçün parlaq oyuncaqlar və parlaq təsvirlərdən (qaşıq, ayaqqabı, top, it, alma) istifadə olunur. Uşaq oyuncaqları nəzərdən keçirir və təsviri göstərərkən ya əli ilə göstərir, ya da müvafiq oyuncağı verir. Tapşırığı mürəkkəbləşdirərkən uşağa həndəsi fiqurların müqayisəsini təklif etmək olar.

Serebral iflicli uşaqlarda görmə qavrayışının pozulmaları ilə yanaşı, eşitmə qavrayışının da inkişafsızlığı müşahidə oluna bilər.

Serebral iflicli uşaqların eşitmə qavrayışı onlara yönləndirilmiş nitqi ya başa düşmədikdə, ya da məhdud başa düşdükdə müayinə olunur. Bu uşaqlarda səsin məkanda lokallaşma imkanları yoxlanılır. Bunun üçün uşağa gizlədilmiş hər hansı bir səsli əşyanı jestlə və ya vizual olaraq göstərməsi təklif olunur. Əgər uşaqda eşitmə pozulmasına şübhə yaranarsa, surdoloqun müayinəsi vacibdir.

Serebral iflicli bəzi uşaqlarda audial qıcıqlandırıcılara qarşı yüksək həssaslıq qeyd olunur. Bu uşaqlar hər bir qəfil səsdən diksinə bilərlər. Bir çox uşaqlarda belə hal şərtsiz Moro refleksinin təzahürüdür ki, bu refleks normal inkişaf zamanı 6 aylıq dövrədək fizioloji olur, lakin serebral iflicli uşaqlarda bir qədər uzun müddət qalır.

Görmə və eşitmə qavramasının tədqiqi zamanı uşaqda vizual və audial qıcıqlandırıcılara reaksiyada dissosiasiyanın olub-olmaması müəyyən olunmalıdır. Əgər dissosiasiya müşahidə olunursa, demək sensor funksiya pozulub, əgər uşaq hər iki qıcıqlandırıcıya zəif reaksiya verirsə, bu idrak fəaliyyətinin pozulması ilə əlaqədar ola bilər ki, psixi inkişaf ləngiməsi və ya əqli geriliyi olan uşaqlarda müşahidə olunur.

Məktəbəqədər yaşda serebral iflicli uşaqların perseptiv və əqli inkişaf səviyyəsinin müəyyən edilməsi üçün yerli və xarici tədqiqatçılar tərəfindən geniş istifadə edilən diaqnostik metodikalar tətbiq edilir.

Serebral iflicli uşaqların əqli inkişafında sensor pozulmaların tormozlayıcı rolunu nəzərə alaraq psixoloji müayinə zamanı əsas diqqəti sensor-perseptiv fəaliyyətin inkişaf səviyyəsinə yönəltmək lazımdır. Müayinənin ilk mərhələlərində görmə qavramasının inkişaf xüsusiyyətlərinin öyrənilməsi tövsiyə olunur: əşyaların forması, rəngi, ölçüsü və məkan münasibətləri; əşyaların toxunularaq qavranılması: forması, fakturası və çəkisi; konstruktiv və qrafik bacarıq və vərdişlərin inkişaf səviyyəsi. Müayinə prosesində analiz, sintez və ümumiləşdirmə, eləcə də kəmiyyət anlayışlarının inkişaf səviyyəsinin yoxlanılması da mütləqdir.

Serebral iflicli məktəbəqədər yaşlı uşaqların sensor və intellektual inkişafının xüsusiyyətlərini tədqiq edərkən yalnız tapşırıqların yerinə yetirilməsinin nəticələri deyil, əsasən yerinə yetirmə üsulları vacibdir. Metodikalar serebral iflicli məktəbəqədər yaşlı uşağın əşyavi praktik fəaliyyətinin inkişaf səviyyəsinin xüsusiyyətlərinə uyğun qurulmalıdır.

Müayinənin keçirilməsi üçün bəzi material və avadanlıqlar olmalıdır: uşaq stolu və stulu, əgər uşaq müstəqil otura bilmirsə, xüsusi kreslo.

Həmçinin müayinə üçün müəyyən vəsaitlər olmalıdır: Segen lövhəsi, dörd rəngli bloklar və onlara uyğun lövhə, uşaqlar üçün iki rəngli variantda Koss kubları, "rəng və forma", "rəng və say" lotosu, toxunma üçün həcmli və düz fiqurlar dəsti, əşya təsvirləri, ümumiləşdirmə üçün istisna metodu ilə kartlar dəsti, rəngli karandaşlar, şəkil çəkmək üçün albomlar [2, s.122].

Müayinə prosesində uşaq özünə qarşı mehriban münasibət hiss etməlidir. Uşağa dərhal bütün oyuncaqları təklif etmək lazım deyil. Məşğələlərə maraq yaratmaq üçün uşağa diqqətini çəkən oyuncağı təklif etmək olar, məsələn, piramida, matryoşka və ya rəngli şarlarla lövhə və s. Uşağın müstəqil oyunu zamanı mütəxəssis bəzi məqamları qeyd etməlidir:

- Uşaq oyuncaqlara maraq göstərirmi?
- Uşaq oyuncaqlarla nə qədər müddət məşğul olur?
- Uşaq oyuncağı düzgün istifadə edirmi?

Uşağı müşahidə etdikdən sonra ona aşağıdakı tapşırıqları vermək olar:

— *Segen lövhəsində formaların qavranılmasının tədqiqi*

Müayinənin əvvəlində mütəxəssis uşağa yığılmış Segen lövhəsini göstərir, sonra fiqurları stolun üzərinə düzərək onları yenidən lövhəyə yığmağını təklif edir. Tapşırıqların yerinə yetirilməsi mürəkkəbliyindən və yerinə yetirmə üsullarından asılı olaraq beş ballı sistemlə qiymətləndirilir.

3 yaşından etibarən sağlam uşaqlar Segen lövhəsində fiqurları düzgün düzür, məktəbəqədər yaşın sonuna isə onları düzgün adlandıra da bilirlər. Nisbətən qorunmuş intellektli serebral iflicli uşaqlar 4-5 yaşından etibarən bu cür tapşırığın öhdəsindən gələ bilsələr də, onların verbal olaraq adlandırılmasında çətinlik çəkirlər. Psixi inkişafsızlıqla müşayiət olunan serebral iflicli uşaqlarda əsasən xaotik tipli, plansız iş müşahidə olunur ki, bu da tapşırığın yerinə yetirilməsinin məhsuldarlığını kəskin olaraq aşağı salır.

— *Əşyaların rənginə görə tədqiqi*

Mütəxəssis uşağa rəngli kürələri və ya kubları qırmızı, göy, sarı, yaşıl olmaqla 4 hissəyə bölünmüş lövhədə yerləşdirməyi təklif edir. 3 yaşında olan sağlam uşaqlar rənglərin uyğunlaşdırılması üzrə tapşırıqların öhdəsindən uğurla gəlir, 4 yaşında isə artıq əsas dörd rəngin adını da tanıyır. 4 yaşın sonuna isə rəng tonlarını da adlandırmaqları qeydə alınır. Serebral iflicli sağlam intellektli uşaqlar, bir qayda olaraq, rənglərin uyğunlaşdırılmasında çətinlik çəkməsələr də, onların adlarını çaşdırırlar. Psixi inkişafsızlığı olan serebral iflicli uşaqlarda rənglərin uyğunlaşdırlması məsələlərində çətinliklər nəzərə çarpır.

— *Əşyaların ölçüsünün qavranılması*

Əşyaların ölçüsünün qavranılma xüsusiyyətlərinin öyrənilməsi üçün mütəxəssis uşağa iki və ya üç iç-içə oyuncağı, müxtəlif sayda halqalardan ibarət piramidaları, müxtəlif ölçülü silindrləri yığmağı təklif edə bilər. Belə tapşırıqların yerinə yetirilməsi 4 yaşdan etibarən olan sağlam uşaqlarda çətinlik yaratmayacaqdır. Serebral iflicli, lakin intellekti qorunmuş olan uşaqlarda da ölçülərinə görə kontrast olan əşyaların fərqləndirilməsi çətinlik yaratmır. Amma əşyaların ölçüsünün məkan ilə uyğunlaşdırılmasına gəldikdə, uşaqların çox qismində xaotik, plansız iş nəzərə çarpır, onlar ancaq kontrast ölçüləri düzgün uyğunlaşdıra bilirlər. Lakin əlavə təlimat olduqda: "Ən böyük silindri götür və ən böyük oyuğa yerləşdir", uşaqlar tapşırığın öhdəsindən asanlıqla gələrək mənimsədiklərini digər tapşırıqların da üzərinə keçirə bilirlər.

Psixi inkişafsızlığı olan serebral iflicli uşaqlar bütün tapşırıqların yerinə yetirilməsində çətinlik və əşyalarla xaotik manipulyasiya edirlər.

— *Əşyaların toxunma ilə qavranılması xüsusiyyətlərinin tədqiqi*

Serebral iflicli məktəbəqədər yaşlılarda toxunma ilə qavramanın xüsusiyyətlərinin tədqiqi "sehrli kisə" oyunundan başlamaqla tövsiyə edilir. Lakin mütəxəssis uşağın ancaq fiquru düzgün adlandırmağına deyil, həmçinin fiqura toxunaraq öyrənmə yollarına da diqqət verməlidir. Bunun üçün öyrənmə prosesində xüsusi ekrandan istifadə etmək olar.

Toxunma üçün fiqur dəsti aşağıdakı əşyalardan ibarət olur: 1) həcmli taxta əşyalar: yumurta, babin, göbələk, halqa və s.; 2) eyni fakturalı həndəsi fiqurlar dəsti: kub, kvadrat, kürə, üçbucaq, silindr və s. 3) müxtəlif fakturalı əşyalar dəsti: metal kürə, yundan toxunma kürəcik, şüşə qab, taxta qab və s. Müayinə prosesində mütəxəssis uşaqdan əşyanın düzgün adlandırılmasını tələb edir, uşaq çətinlik çəkdikdə isə ona həmin əşyanı digər məişət əşyaları ilə müqayisə etməyi tövsiyə edir. Bundan başqa əşyaya toxunarkən uşağın əl hərəkətlərinə nəzarət etmək vacibdir.

Toxunma üsullarının təhlili mütəxəssisə perseptiv fəaliyyətin inkişaf səviyyəsini müəyyən etməyə kömək edir. Perseptiv fəaliyyət sensor – hərəki inteqrasiyanın köməyilə həyata keçirilir və onun inkişafsızlığı zamanı serebral iflicli uşaqlarda qavranılan əşyanın hissələrindən bütöv obrazın yaradılması çətinlik yaradır.

— *Konstruktiv fəaliyyətin tədqiqi*

Konstruktiv fəaliyyətin tədqiqi zamanı uşağa bir neçə tapşırıq verilir:

a) nümunə-şəklin köməyilə eyni ölçülü rəngli kublardan evciklərin, qalaların konstruksiyası; b) şəkil üzərinə tərəfləri fərqli rənglərdə olan səthləri yığmaq; c) Koos metodikası ilə (metodikanın ilk beş variantı istifadə olunur: ikirəngli kublar) konstruksiya tapşırıqları.

Bu tapşırıqların yerinə yetirilməsi serebral iflicli uşaqlarda xüsusi çətinliklər yaradır. Sağlam uşaqlar məktəbəqədər yaşın sonuna doğru Koos metodikasının ilk dörd tapşırığını müvəffəqiyyətlə yerinə yetirirlər. İlkin intellekti qorunmuş olan serebral iflicli uşaqlar a) və b) seriyalarının tapşırıqlarını uğurla yerinə yetirə bilirlər, amma Koos metodikası onlar üçün əlçatmazdır. Uşaqlar detalların məkanda istiqamətini çaşdırır, tapşırığın ilkin istiqamətlənməsində çətinliklər qeyd olunur. Əqli geriliyi olan serebral iflicli uşaqlarda a) və b) seriyalarının tapşırıqlarında xüsusi çətinliklər yaranır.

— *Rəsm çəkmək xüsusiyyətlərinin tədqiqi*

Uşaqların rəsm çəkmək bacarıqlarını tədqiq edərkən onlarda qrafik bacarıqların və fiqurun təsvirinin keyfiyyət xüsusiyyətlərini əks etdirməsi səviyyəsinin qiymətləndirilməsi tövsiyə olunur. Sağlam məktəbəqədər yaşlılar tapşırıqların öhdəsindən uğurla gəlsələr də, təsvirlərdə fiqurların ölçüsü onlarda bir qədər çətinliklər yaradır. Serebral iflicli uşaqların rəsmləri sağlam yaşıdlarının rəsmindən həm təsvirin keyfiyyətinə, həm də texnikasına görə kəskin fərqlənir. Hətta məktəbəqədər yaşın sonuna qədər serebral iflicli qorunmuş intellektli uşaqların təsvirləri hələ də fiqurun və onun hissələrinin simvolik təsviri səviyyəsində qala bilər.

— *Fikri proseslərin tədqiqi*

Uşaqlarda ümumiləşdirmə səviyyəsinin tədqiqi üçün əlavə əşyanın fərqləndirilməsi metodikasından istifadə edilir. Müayinə zamanı hər birində 4 əşyanın təsviri olan kartlardan istifadə etmək lazımdır. Uşaqdan hansı üç

əşyanın bir-birinə uyğun olduğunu göstərmək xahiş olunur. Psixoloq uşağın tapşırığı anlaması, əşyanın hansı əlamətinə əsaslanması: rəng, forma, ölçü və s., eləcə də bir qrupda birləşdirdiyi əşyaları sözlə necə ifadə etdiyini qeyd etməlidir.

— *Əşya təsvirli şəkillərin qruplaşdırılması*

Əşyaların qruplaşdırılması metodu nəinki ümumiləşdirmə və mücərrədləşdirmə, həm də diqqətin, hafizənin xüsusiyyətlərini, həmçinin şəxsi uğur və uğursuzluqlarına reaksiyalarını üzə çıxarmağa imkan verir.

Məşğələlərə başlamazdan öncə psixoloq uşağın qarşısına 6-7 əşya şəkli olan kartlar qoyaraq ona bir-birinə uyğun gələnləri birləşdirməyi təklif edir. Kartların üçündə heyvan təsvirləri, ikisində geyim, birində isə qab-qacaq təsvir olunur. Əgər uşaq tapşırığı rahat və sürətlə yerinə yetirə bilirsə, həmin qruplara uyğun gələn daha 10-15 kart əlavə etmək olar.

Psixoloq uşağın tapşırığı anlamasını, yerinə yetirmə səviyyəsini və təlim imkanlarını qeyd edir. Bu tapşırığı 5 yaşından etibarən uşaqlara verilməsi tövsiyə olunur.

Məşğələlərin əvvəlində uşaqlar təsvirləri səhv qruplaşdıra bilərlər. Amma 2-3 əlavə təlimatdan sonra qruplaşdırmanı əsas əlamətə görə etməlidirlər.

— *Hesab bacarıqlarının tədqiqi*

Serebral iflicli uşaqlarda hesab funksiyasının pozulması əsas yer tutur. Say anlayışı mürəkkəb psixoloji struktur olaraq obyektlərin çoxluğunun məkani qavranılması, nitq inkişafı ilə əlaqədardır və ali formada təhlil tələb edir.

Kəmiyyət təsəvvürlərini mərhələ-mərhələ tədqiq etmək lazımdır. Əvvəlcə uşağın "çox-az", "tək-çox", "böyük-kiçik", eyni sayda anlayışlarını fərqləndirmək bacarıqları yoxlanılır. Uşağın əşyaların forma və ölçüsündən başqa sayına da diqqət yetirmək imkanlarını öyrənmək vacibdir.

Bunun üçün müxtəlif ölçülü və müxtəlif formalı əşyalardan olan hesablama materialı hazırlamaq mütləqdir. Məsələn, uşaqlara birinin üzərində rəngli halqalar, digərinin üzərində rəngli kürələr olan iki mili uşaqlara təklif etmək olar. Hər iki mildə detalların eyni sayda olmasına baxmayaraq, kürələrlə olan piramida halqalarla olan piramidadan daha hündür olacaq. Soruşmaq olar: "Halqalar çoxdu, ya kürələr?"

Məktəb yaşlı uşaqların müayinəsi zamanı Raven və Veksler metodikaları kimi psixometrik metodlardan istifadə tövsiyə olunur. Bu metodikaları əsasən nitqin həm leksik, həm də fonematik tərəflərinin qorunmuş, lakin aşağı ətrafların zədələnməsi olan uşaqlar üçün istifadəsi məqsədyönlüdür.

Serebral iflicli uşaqların psixodiaqnostikası mütləq uşağı ixtisaslaşmış müalicəvi və ya təhsil müəssisəsinə təyin edilməsi zamanı təlimi, eləcə də məktəb proqramı seçərkən pasiyentin xəstəliyinin ümumi təsviri və onun üçün fərdi psixokorreksiya proqramı işləyərkən reabilitasiya potensialını müəyyən

etmək üçün vacibdir. Psixokorreksiya proqramına konkret didaktik və psixoterapevtik məsələlər daxil edilir [3, s.249].

Uşaqların xüsusi (korreksion) məktəbəqədər müəssisələrə və xüsusi məktəblərə seçilməsi zamanı psixoloq Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətdə olan normativ-hüquqi sənədlərinə əsaslanmalıdır. Bu sənədlərdə həmin müəssisələrə qəbul üçün göstəriş və əks göstərişlər müəyyən edilib.

Dayaq-hərəkət aparatı pozulmaları olan məktəbəqədər yaşlı uşaqlar üçün müəssisələrə fərqi qulluğa ehtiyacı olmayan, özünə xidmət edə bilən, hərəkət imkanları olan aşağıda qeyd olunan xəstəliklərlə uşaqlar qəbul oluna bilər:

- serebral iflicli, bərpa və rezidual dövrlərdə polimielitin nəticələri ilə;
- dayaq-hərəkət aparatının müxtəlif anadangəlmə və sonradan qazanılma deformasiyaları ilə;
- artroqrippoz, xondrodistrofiya, miopatiya ilə;
- skolioz ilə.

Qeyd olunmuş tip məktəbəqədər uşaq müəssisəsinə qəbul edilmir:

- kənardan kömək olmadan hərəkət etməyən, ağır həraki pozulmlardan irəli gələrək özünə xidmət edə bilməyən;
- orta və ağır dərəcədə əqli gerilikdən əziyyət çəkən;
- ağır eşitmə və görmə pozulmaları olan;
- ümumi tip məktəbəqədər uşaq müəssisələrinə qəbul üçün əks göstəriş olan xəstəliklərlə.

Dayaq-hərəkət aparatı pozulmaları olan uşaqlar üçün xüsusi (korreksion) internat-məktəblərə məktəb yaşlı normal intellektli, müstəqil hərəkət edə bilən, fərdi qulluq tələb etməyən, aşağıda qeyd olunmuş xəstəlikləri olan uşaqlar qəbul edilir :

- serebral iflicli;
- bərpa və rezidual dövrdə polimielitin nəticələri ilə;
- dayaq-hərəkət aparatının müxtəlif anadangəlmə və sonradan qazanılma pozulmaları ilə;
- artroqrippoz, xondrodistrofiya, miopatiya ilə.

Dayaq-hərəkət aparatı pozulmaları və əqli geriliyi olan uşaqlar təhsil şöbəsinin qərarı ilə məktəbin nəzdində müvafiq kontingentdən təşkil olunmuş xüsusi siniflərə yönləndirilir.

Dayaq-hərəkət aparatı pozulmaları olan uşaqlar üçün internat-məktəblərə qəbul edilmir:

- fərdi qulluq tələb edən, özünə xidmət edə bilməyən və müstəqil olaraq hərəkət edə bilməyən uşaqlar;
- epileptik tutmalardan əziyyət çəkənlər;

- mərkəzi sinir sisteminin zədələnməsi nəticəsində sidik və nəcis qaçırmalarından əziyyət çəkənlər.

Beləliklə, serebral iflicdən əziyyət çəkən uşaqların psixoloji müayinəsi onların reabilitasiyalarının nəticəsinə bilavasitə təsir göstərərək psixodiaqnostik məlumatların təhlilinə müvafiq tələblər qoyur. Məhz düzgün təşkil olunmuş psixodiaqnostika proseduru uşaq üçün fərdi, elmi əsaslandırılmış, yetərincə effektiv psixoloji reabilitasiya proqramı hazırlamağa imkan verir ki, həmin proqramsız uşağın cəmiyyətə tam inteqrasiyası mümkün olmur [2, s.361].

Yuxarıda qeyd olunanları ümumiləşdirərək serebral iflicli uşaqların psixodiaqnostikasına bir sıra tələbləri irəli sürmək olar:

1. Psixodiaqnostika maksimal olaraq erkən dövrdə, yəni tibbi diaqnoz qoyulduqdan dərhal sonra keçirilməlidir.

2. Psixodiaqnostika psixokorreksiya proqramının əsaslandırılmasını, uşağın psixi inkişaf prosesində müşayiətini, nəticələrə nəzarəti, ehtiyac olduğu hallarda psixolojiköməyi təmin etməlidir.

3. Psixodiaqnostikaya nəinki uşaqlar, imkan daxilində onların valideynləri, ailələri də cəlb olunmalıdır.

4. Psixodiaqnostika proqramı imkan daxilində psixi inkişafın bütün pozulmalarını müəyyən etməlidir. İstifadə olunan metod və metodikalar isə etibarlılığı, yaşa müvafiqliyi və uşağın xəstəliyinin ağırlıq dərəcəsinə görə fərqlənməlidir.

5. Psixodiaqnostikanın nəticələri konfidensial xarakter daşıyır və onun keçirilməsinə ancaq xüsusi psixoloji hazırlıqlı şəxslər cəlb oluna bilərlər.

## ƏDƏBİYYAT


1. Детский церебральный паралич. Что хотят знать родители? / Под ред. Анджела Мариа Сетаро, Эрмеллина Федрицци, Казахстан, 2016, 84 с.
2. Детский церебральный паралич: лечение в школьном возрасте / Под ред. И.В.Добрякова, Т.Г.Щедриной. Санкт-Петербург: СПбМАПО, 2008, 439 с.
3. *Семенова К.А.* Детские церебральные параличи. М: Медицина, 1968, 260 с.


Redaksiyaya daxil olub 14.11.2021

*UOT 37*

***S.H.Axundova***
*Xəzər Universiteti*
*sevda.appp@gmail.com*

# KOLLECLƏRDƏ İNNOVATİV TƏLİMİN PEDAQOJİ VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *innovativ təhsil, innovativ təlim və idarəetmə sisteminin strukturu, təlim texnologiyaları, səmərəli təlimin indikatorları, innovativ idarəetmədə faktorlar, innovativ idarəetmənin pedaqoji-psixoloji problemləri*

Məqalədə innovasiyalı təlim, onun mahiyyəti, məzmunu, sistemi və strukturu, innovativ təlimdə istifadə olunan müasir texnoloji qurğuların yeri və qərb alimlərinin onlara olan münasibətlərinin şərhi verilmiş, kolleclərin digər təhsil müəssisələri ilə qarşılıqlı müqayisəsi və fərqli cəhətləri, innovasiyalı idarəetməyə təsir göstərən faktorlar və müasir dövrdə Azərbaycanda fəaliyyət göstərən pedaqoji yönlü kolleclərdə innovativ təlimin və idarəetmənin pedaqoji-psixoloji problemləri təhlil olunmuşdur.

Bundan başqa müəllif məqalədə təhsilin səmərəliliyi və ona aid olan indikatorları göstərmiş, kollec həyatının strateji olaraq innovativ idarəetməsini təşviq edən təşkilati mühitin yaradılması üçün zəruri olan şərtləri qeyd etmiş, elmi-nəzəri və praktiki təhlillər aparmaqla araşdırmalar etmişdir. Məqalədə mövzuya dair aparılmış kütləvi anket sorğularının ümumiləşdirilmiş cavabları, onların təhlili, pedaqoji yönlü kolleclərdə innovativ təlimin həyata keçirilməsinə mane olan qlobal və institusional səbəblər və tövsiyələr də əks olunmuşdur.

***С.Г.Ахундова***

# ПЕДАГОГИЧЕСКИЕ И ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ИННОВАЦИОННОГО ОБРАЗОВАНИЯ В КОЛЛЕДЖАХ

***Ключевые слова:*** *инновационное образование, структура инновационной системы обучения и управления, технологии обучения, индикаторы эффективности обучения, факторы инновационного управления, педагогико-психологические проблемы инновационного управления*

В статье рассматриваются вопросы, связанные с инновационным обучением, с его сущностью, содержанием, системой и структурой, иллюстрируется место современных технических средств, используемых в инновационном обучении, и отношение к ним некоторых западных ученых, а также сравниваются отличия педагогических колледжей от других подобных учебных заведений, анализируются факторы, связанные с педагогическими и психологическими особенностями обучения и их влияние на инновационное управление образованием в современных азербайджанских колледжах педагогического профиля.

Кроме того, автор также показывает эффективность обучения и ее показатели; выделяет необходимые предпосылки для создания организационного климата, способствующего стратегическому управлению жизнью колледжа, проводит анализ научно-практических исследований. В статье также представлены обобщенные ответы на опросы общественного мнения по теме, их анализ, глобальные и институциональные причины, препятствующие внедрению инновационного обучения в педагогических вузах, и предложены некоторые рекомендации.

***S.H.Akhundova***

## PEDAGOGICAL AND PSYCHOLOGICAL FEATURES OF INNOVATIVE EDUCATION IN COLLEGES

***Keywords:*** *innovative education, structure of innovative system of teaching and management, teaching technologies, indicators efficiency in education, factors of innovative management, pedagogical and psychological problems of innovative management*

The article describes the issues connected with innovative teaching, with its essence, content, system and structure, illustrates the place of modern technological devices used in innovative teaching and the attitudes of some western scientists to them, and also compares the differences of pedagogical colleges with other similar educational institutions, analyses the factors realated to the pedagogical and psycological features of teaching and their influence on innovative educational management in modern Azerbaijani colleges with pedagogical affiliation.

Besides this, the author also shows the efficiency in teaching and its indicators; distinguishes the necessary pre-requsite conditions for establishing the organizational climate to facilitate the strategic management of a college life, carries out some scientific and practical research analyses. The article also provides generalized responses to public opinion polls on the topic, their analysis, on the global and institutional reasons hindering the implementation of innovative teaching in pedagogical colleges and proposes some recommendations.

Hazırda kollec həyatının bütün istiqamətlərdə fəaliyyəti 90-cı illərlə müqayisədə ciddi surətdə dəyişilmişdir. Burada yalnız kollec həyatında idarəçiliklə bağlı olan faktorlar deyil, bütövlükdə təhsil sistemində cərəyan edən qlobal yeniliklər də əks olunmuşdur. Əlbəttə, kollec rəhbərləri yaradıcılıq və yenilik üçün əlverişli pedaqoji-psixoloji iqlimin yaradılması üçün daim məsuliyyət daşıyırlar, lakin innovativ idarəçilik üçün daha yeni və strateji şərtlər də mövcuddur. Kolleclərin innovativ idarəçiliyinə dair Avropa və Amerika ölkələrində müxtəlif prirekvizit şərtlər və statistikalar mövcuddur. Bununla belə, qeyd olunmalıdır ki, həm Azərbaycanda, həm də xaricdə kolleclərin hamısı ya innovasiyalı idarə olunmur, ya innovativ struktura malik

deyildir və ya innovativ idarəetmənin təlimlə inteqrasiyasına dair müfəssəl siyasət apara bilmir. Lakin həqiqət naminə demək olar ki, yeni dövrün kolleclər qarşısında qoyduğu tələblərdən ən ümdə olanlarından biri – fəaliyyət göstərdikləri icmaların ehtiyaclarına xidmət etməsi məsələsi müvəffəqiyyətlə həll olunur. Məsələn, 2007-ci ilin statistikasına görə, "Kanadada təqribən 900 icmada mövcud olan 150 kollecin içərisindən normal olaraq innovasiya siyasəti aparan və innovativ struktura malik olanlar 40-50%, yeni yaranmış innovasiyalı kolleclər 20-25%, innovasiyaları artıq bərqərar edənlər 25-30% və onlardan həyata inteqrasiya olunanların xüsusi çəkisi isə 5%-dən də az olmuşdır" [16, pp.2-4]

Kollec həyatının strateji olaraq innovativ idarəetməsini təşviq edən təşkilati mühitin yaradılması üçün üç şərtin olması vacibdir:

1. Kollec həyatında və onun innovativ idarəçiliyində iştirak edən insanların səriştəliliyinin (professional standartlar itsisna olmaqla) və fikirlərinin müxtəlifliyi;
2. Xarici mükafatlardan daha çox daxili motivasiyaya söykənən hərəkətverici qüvvənin mövcud olması;
3. İnnovativ missiyasını həyata keçirmək üçün bu istiqamətdə işləyən şəxslərin muxtariyyəti.

Göründüyü kimi, innovativ idarəetmə xeyli mürəkkəb mexanizmə söykənən bir prosesdir və burada qoyulan bütün şərtlər bir-biri ilə sıx bağlıdır. Məsələn, kənardan heç bir əlavə vəsait və resurs cəlb etmədən daxili resursların səfərbər edilməsi hesabına dayanıqlı inkişafı təmin etmək xeyli innovativ yanaşma tələb edir. Təbii ki, bu cür innovativ yanaşmanın kənar müdaxilə olmadan həyata keçirilməsi zəruri müstəqil düşüncə və muxtariyyətlə və resurslarla bağlıdır.

Sürətli və uzaqgörən bir dəyişikliyin həyata keçirildiyi bir mühitdə pedaqoji yönlü müəssisələr öz təşkilatlarında yaradıcılıq və innovasiyalar üçün elmi əsaslara söykənən pedaqoji-psixoloji iqlimin yaradılmasında da strateji olmalıdırlar. İnnovativ idarəetmənin genişmiqyaslı diffuziya prosesinə keçməsi və predmetləşməsi üçün onun pedaqoji-psixoloji əsaslarının nəzərə alınması mühüm əhəmiyyət kəsb edir, əks təqdirdə, bu innovativ idarəetmə mədəniyyəti orqanik xarakterdən uzaqlaşar və təşkilati-pedaqoji sistemdə özünə möhkəm yer tuta bilməz.

İnnovativ dərslərin və idarəetmənin pedaqoji-psixoloji əsaslarına dair həm Azərbaycandan olan alimlər [1; 2; 3, 4; 5; 6; 7; 8], həm Rusiyadan [ 9; 10; 11; 12] həm də uzaq xaricdən – Qərbdən olan tədqiqatçılar [13; 14; 15] xeyli sayda elmi araşdırmalar aparmışlar. Bu əsərlərində alimlər innovasiyalı idarəetmə və onun pedaqoji-psixoloji mahiyyətini, məzmun və struktur elementlərini təhlil etmiş, innovativ təlimin optimallaşdırılması üçün zəruri bazanın yaradılması haqqında analitik araşdırmalar aparmışlar.

Problemin araşdırılmasında təbii hesab olunan məsələlərdən biri də innovativ idarəetmə sisteminin struktur elementlərinin nəzərə alınmasıdır. Kollec mühitinin innovativ idarəetmə ilə qarşılıqlı əlaqəsi onun elmi əsaslarla idarə edilməsi üçün əsas zəmin hesab edilir. Bu əlaqədə üçölçülü bir sistem ehtiva olunmuşdur: 1) kollec heyətinin fərdi və təkrarolunmaz özəllikləri və müxtəlifliyinin mövcud olması; 2) onların səlahiyyət və fikirlərinin fərqliliyi və 3) fərqli motivasiyaya (arzu və meylə) malik olmaqla innovativ mühitin inkişaf etdirilməsində vacib element kimi labüdlük.

Bu üçölçülü sistem – heyət müxtəlifliyi, fikir və səlahiyyət fərqləri və eləcə də motiv müxtəlifliyi ilə pedaqoji innovasiyanın tərkib elementləri hesab olunan tədris texnikası, pedaqoji nəzəriyyə, metodiki yanaşma, öyrənmə prosesində təlim aləti, institusional quruluşda yenilik ilə qarşılıqlı əlaqə və vəhdətdədir. Yəni fərqli heyətlə mövcud resurslara fərqli yanaşmaların özləri də mahiyyət kəsb edir. Heç də təsadüfi deyildir ki, 2019-cu ildə ADPK-nın rəyi soruşulan 100 tələbəsindən 65 nəfəri “müəllimlərin fərqli pedaqoji yanaşmalarını” belə innovasiya hesab etmişlər və onlardan yalnız 26 nəfəri bu məsələyə mənfi yanaşmış və 9 nəfər isə cavablarında çətinlik çəkdiklərini qeyd etmişlər. Görünür, *fərqlilik* (fərqli motivasiya, yanaşma, arzu, düşüncə, fikir və s.) innovativ idarəetmədə mühüm pedaqoji-psixoloji fakt olaraq qalır. Əksinə, tələbələr dərsliklərində olan dəyişiklikləri insan faktoru ilə müqayisədə kollec həyatında innovasiyalar üçün birinci dərəcəli şərt hesab etməmişlər və rəyi soruşulan 100 tələbədən 44 nəfəri onlar arasında əlaqənin olduğunu qeyd etsə də, 46 nəfəri bu fikri qəbul etməmişdir. Deməli, nə qədər qəribə görünsə də, hətta texnologiyalar da daxil olmaqla, innovasiya və ya innovativ idarəetmə daha çox insan faktorları, işçi heyəti ilə bağlıdır.

Müəllim həmişə innovasiyalı idarəetmədə mərkəzi fiqurlardan biri olmuşdur. Müəllimlər peşə fəaliyyətlərini inkişaf etdirməyə səy göstərməsələr, təhsildə zəruri dəyişikliklər baş verə bilməz. Təhsilə dair yeni ideyaların və onları reallaşdırmaq üçün yeni yolların axtarılıb tapılması üçün tələb olunan vaxt və səy keçmişdə olduğu kimi, bu günümüzdə də müəllimlərin fəaliyyətlərini dəyişdirmək, onların yenilikləri mənimsəmək və yeni təcrübənin həmtəsisçisi olmaq kimi istək və bacarıqlarından asılıdır. Bu baxımdan innovativ idarəetmənin tədris təcrübəsinə tətbiqi və müəllimlərin innovativ fəaliyyətə lazımi səviyyədə hazırlığının təmin edilməsinin pedaqoji və psixoloji problemləri xüsusi aktuallıq kəsb edir. Bəs müəllimin praktik fəaliyyətinin innovativ idarə olunmasına, yəni “yeniliklərin tətbiq olunmasına hansı səbəblər mane olur?”. Burada mövcud olan səbəblər müxtəlif olsa da, onları elmi-nəzəri cəhətdən təhlil etməyə çalışaq.

*Birincisi,* müvafiq maliyyənin olmaması və ya ümumiyyətlə, ayrıca olaraq nəzərdə tutulmaması ənənəvi olaraq idarəetmə mexanizmlərində komanda stili ilə idarəetmədən geniş istifadəyə yol açır. Hesab edirik ki, daimi

ayrılan subvensiyalar o qədər də önəm kəsb etməyən işlərə sərf olunduğundan kolleclərin strateji cəhətdən innovativ idarəçiliyi bir növ diqqətdən kənarda qalır və idarəetmədə alt qatda xeyli psixoloji problemlər yaradır.

*İkincisi,* təhsil orqanları formal hesabatları əldə etdikdən sonra (hesabat və sanksiyalar sistemi) innovasiyalı idarəetmənin mövcud olması və ya olmaması ilə, buna maneə olan amillər və onların təhlili ilə, bu sahənin yaxşılaşdırılması üçün strateji təhlillər və yol xəritəsinin hazırlanması işi ilə o qədər dərindən məşğul olmurlar. Hesabatların bu hissəsinin daim nəzərə alınması həm pedaqoji, həm də psixoloji cəhətdən yaxşı olardı.

*Üçüncüsü,* bəzən məlumatsızlıq da bu işlərə maneə olur. İşüstü təlimlər, kurs və ya məşğələlər innovasiyalara deyil, daha çox ümumi metodoloji problemlərə həsr olunur.

*Dördüncüsü,* kolleclərdə təhsil alan tələbələrin valideynləri tərəfindən (qiymətləndirmə və şəxsi müstəvidə olan suallar istisna olmaqla) hər hansı bir sosial sifariş demək olar ki, yox dərəcəsindədir. Bu vəziyyət istər-istəməz "istədiyinizi öyrədin" mexanizminə yol açır. Bakı şəhəri istisna olmaqla, digər kolleclərdə valideynlər lazımi tədris ədəbiyyatı ilə tanış edilmir və ya bu iş ümumiyyətlə heç gündəmdə də olmur. Qeyd etdiyimiz kimi, icma-kollec maraqları bir-birindən ayrı düşdükdə yalnız yuxarılardan komanda gözləmək innovativ idarəetməni təmin edə bilməz.

*Beşincisi,* innovasiyalı idarəetmədə mühüm məsələlərdən biri pedaqoji konservatizmdir. Bu problem tədris prosesinin bütün subyektləri arasında açıq bir mühitin yaranması ilə həll edilə bilər. Fikrimizcə, vahid bir təhsil müəssisəsi daxilində əhəmiyyətli dəyişikliklər etmək üçün kənarda baş verən dəyişikliklər barədə məlumatlı olmaq xeyli yardımçı olardı. Yəni bu cür konservatizm "informasiyasızlaşdırma" mühiti yaradır, fərdi sosial amillərin hərəkətə gətirilməsinə mane olur və böyük həcmdə pedaqoji-psixoloji problemlərə səbəb olur.

*Altıncısı,* müəllimlərin əksəriyyətinin tədris prosesinə innovativ texnologiyaların tətbiqi ehtiyacını hiss etdikləri halda bunun üçün lazımi hazırlıq səviyyəsinin olmamasıdır. Bununla bağlı səbəblərin axtarışı, müasir metodiki vasitələrin bütün arsenalına sahib mütəxəssislər yetişdirmək pedaqoji yönümlü kolleclərin innovativ idarə olunmasının tərkib hissəsidir. Həm də innovasiyanın tətbiqi sadəcə imitasiya xarakteri daşımamalıdır və bu yalnız, məsələn, hər hansı bir "qrup divar qəzeti"nin vaxtında hazırlanması və yalnız "kompüterdən istifadə" kimi də qələmə verilməməlidir. Odur ki, anket sorğusu keçirilən kollec tələbələrinin məhz 76%-i "işdə səmərəliliyi artıran innovativ yenilikləri məqbul hesab etdiyi" halda, onların yalnız 9%-i imitasiya xarakterli "yalnız yeni kimi görünən" innovasiyaları müsbət dəyərləndirmiş və 15% tələbə isə "cavab verməkdə çətinlik çəkmişdir" (diaqram 1).




**Diaqram 1. Hansı növ innovativ yeniliklər məqbul hesab edilir?**

Təhsildə səmərəliliyin iki indikatoru mövcuddur – vaxt və dəyər. Sadə dillə desək, əgər əvvəlkindən daha az vaxt və maddi resurslardan istifadə etməklə daha yüksək və keyfiyyətli öyrənmə əldə edə biliriksə, deməli, bu öyrənmə prosesi səmərəli hesab edilir. Məhsuldarlıq isə əldə olunmuş nəticələrin sərf olunmuş pedaqoji səylərə olan nisbəti ilə ölçülür, yəni daha az səy göstərməklə daha böyük məhsuldarlıq və təlim keyfiyyəti əldə olunursa, bu nəticə məhsuldar hesab edilir. Odur ki, təhsildə innovasiyaların ölçülməsində 1) səmərəli öyrənmə və 2) yüksək keyfiyyətli təhsilin mövcudluğu başlıca indikatorlar hesab edilir.

Göründüyü kimi, yalnız pedaqoji heyət deyil, hətta tələbə heyəti də idarəetmədə səmərəli innovasiyaları rəğbətlə qarşılayırlar. Məsələn, amerikalı təhsil, media və mədəniyyət işçisi Neil Postman (1931-2003) təhsildə innovativ texnologiyalarla idarəetmənin rolu barədə danışarkən, doğru olaraq qeyd edir ki, "...insanlar böyük kompüter inqilabında zərər çəkmişlər hesab edilir. Aralarında iştirak edən qaliblər isə digərləri – kompüter şirkətləri, çoxmillətli korporasiyalar və milli dövlətlər olur və əlbəttə ki, onlar da bu prosesi daim təşviq edirlər” [17, p.3].

O, digər bir yerdə qeyd edir ki, “ABŞ-da müəllimlər uşaqlara daha dəyərli olan şeylərin özünü tədris etməkdənsə, onlara kompüter sistemləri öyrədirlər. ...elə buna görə də onlar uduzanlardırlar” [18, p.11]. O, bu müddəalarla sübut edir ki, təlim texnologiyaları ilə idarəetmənin pedaqoji və psixoloji çəkisi, şeylərin özlərinin təbiətinin öyrənilməsi və müəllimlərin özlərinin resursları ilə müqayisədə həmişə şişirdilir, idraki proseslər isə kölgədə qalır. Bu sahə ilə məşğul olan alimlərin böyük bir qismi kompüter texnologiyalarının, xüsusilə şəbəkələşmənin, tələbələrin yaddaş sisteminə, düşünmək və xatırlamaq qabiliyyətlərinə psixoloji təhlükə yaratdığını göstərirlər. Onlar eyni zamanda bildirirlər ki, təhsildə bu vasitələrin üstünlük təşkil etdiyi innovativ idarəetmədə

çoxlu sosial, mədəni və psixoloji əksliklər yaradan innovativ texnologiya və onun çoxşaxəli virtual şəbəkəsi tələbələrin və müəllimlərin səylərinin pedaqoji cəhətdən zəifləməsinə gətirib çıxaran və nəticədə, "müəllimləri aradan çıxaran" texnologiya bizim hər birimizə illüziyalı və "saxta həqiqi ümidlər" yaradır. Bu, öz növbəsində, innovativ idarəetmənin nəticələrini onlayn Öyrənmənin İdarəetmə Sistemi (OÖİS) platformasından asılı edir, pedaqoji idarəçilik, tələbələrin öyrənməsində sənayeləşdirmə və virtual formalaşdırma vasitəsilə tələbələr arasındakı qarşılıqlı təsiri və kommunikasiyanı məhdudlaşdırır.

Əlbəttə, koqnitiv proseslərin bu cür "pərdələnməsi", kimi postulatlar hazırkı vaxtda bir qədər qeyri-adi səslənir, çünki istər adi insanlar, istərsə də innovasiyalı insanlar, idarəçilər, eləcə də innovativ texnolgiyalarala idarə edənlər bu idarəçiliyin təkrarolunmaz və yalnız həmin şəraitə uyğun optimal modelini yaratmaqla bunları həyata keçirirlər. Burada müsbət meyillərlə bərabər, əks pedaqoji-psixoloji təsirlərin mövcud olması da təbii görünür. Şübhə yoxdur ki, nəticələrə təsir edən bu proporsiyaların çəkisi də mühüm hesab edilməlidir.

Maraqlı cəhətlərdən biri də ondan ibarətdir ki, Azərbaycan şəraitində kolleclərin innovasiyalı idarə edilməsi zamanı böyük əksəriyyət müsbət nəticələrə kökləndiyi üçün əksər hallarda şəxsi və sosial təşəbbüslə inkişafın təmin edilməsi imkanlarını təhlil etmirlər, necə deyərlər, ənənəvi olaraq "yalnız nəticələr yaxşı olsun" ifadəsi ilə bu "hərəkatda" strateji görünməyə çalışırlar. Lakin ola bilsin ki, müstəqil innovativ təşəbbüsləri və muxtariyyəti "hesaba almamaq", əldə olunan nəticələrin gələcək fəaliyyətlər üçün dayanıqlı olmaması kimi nəticələrə yol aça bilər. Odur ki, təhsilə yeni bir texnologiya tətbiq etməyi planlaşdırdıqda, onun potensial pedaqoji və psixoloji təsirlərinin nəzərə alınması vacib hesab olunmalıdır və hər bir pedaqoji heyətin idarəçiliyi üçün strateji çıxış nöqtəsi hesab edilməlidir.

Artıq hamıya bəllidir ki, yalnız texnologiya ilə məhsuldar və zənginləşdirilmiş öyrənmə və idarəetmə, xüsusilə də şəxsi və sosial inkişafın təmin edilməsi mümkün deyildir, çünki innovativ idarəetmənin və texnologiyanın gücləndirilmiş mühitində insan elementinə daim ehtiyac vardır.

Texnologiyaya əsaslanan idarəetmə və təhsil imkanları, şübhəsiz ki, gələcəkdə daha da böyüyəcəkdir; lakin əsas məsələ odur ki, bu vaxt biz bu idarəetmə mexanizmini pedaqoji-psixoloji və sosial cəhətdən mənalı və təsirli hala gətirməliyik. Eyni zamanda biz onun uzunmüddətli mənfi nəticələrini minimuma endirməli, texnologiya əsaslı təhsilin və idarəetmənin hərtərəfli tədqiqatlara söykənən və əhatəli bir nəzəriyyəyə də ehtiyacı olduğunu təsdiqləməliyik.

İnnovativ idarəetmə asanlıq və rahatlıqla yanaşı, iş yükünü və öyrənmənin çətinliyini, eləcə də sinif və təlimatçı ilə üz-üzə qarşılıqlı təsirlərin azalmasına şərait yaradır. Bu, sanki "latent şəkildə özünütəmin hissi" yaradır.

İdarəetmədə və tədrisdə innovativ idarəetmənin həm sosial yenilikçi metod və üsullara əsaslanan formasında, həm də texnoloji avadanlıqlarala həyata keçirilən formalarında onlayn və ya virtual idarəetmə üzbəüz idarəetmədən və sinifdə öyrənmədən daha asandır. Bunun bir sıra pedaqoji və psixoloji əsasları vardır.

*Birincisi,* texnoloji resurslara əsaslanan innovativ metodlarla idarəetmə zamanı “rahatlığı” təmin edən bir sıra koqnitiv markerlər daha qabarıq şəkildə özünü büruzə verdiyindən “narahatlığın yaratdığı sindromlar” azalmış olur, sərbəstlik və ifadəlilik daha çox üstünlük təşkil edir; odur ki, “inzibati qorxu elementləri” daha çox bloklanmış olduğundan pedaqoji fəallıq və psixoloji komfort gələcək müsbət dəyişikliklərə bütövlükdə daha əlverişli şərait yaradır.

*İkincisi,* texnoloji və virtual üsullarla idarəetmədə birbaşa təmaslar azaldığından müzakirə olunan mövzuya dair hissi-emosional və empatik rezistensiyalar “daxili narahatlıq” sindromunu kəskin surətdə azaldır. Lakin bu vaxt nəzərə alınmalıdır ki, belə rahatlıq son nəticədə arxayınçılıq və ya daha az ciddi məktəb təcrübəsi ilə kifayətlənmək problemi yaratmasın. Beləliklə, kolleclərin innovativ idarəçiliyi pedaqoji cəhətdən bir tərəfdən “konstruktiv öyrənmə şəraiti” və “psixoloji komfort” yaratdığı halda, digər tərəfdən isə “psixoloji baryerlərin silinməsini stumullaşdırır.” Buna baxmayaraq, innovativ təhsilin tədris və təlimin təkmilləşdirilməsinə kömək etməsi, texnologiyaya əsaslanan innovativ texnoloji avadanlıqlarla kolleclərin idarə edilməsi xeyli miqdarda suallar da yaradır. Bu suallardan biri də məhz belədir: “Onlayn və ya virtual idarəçilik böyük investisiyaların populyarlığı ilə daha optimal idarəetməyə şərait yaradırmı?” Dünya təhsil məkanında 2016-cı ilədək onlayn idarəetmə və təhsil proqramlarında çoxmilyonlu qeydiyyatlar aparılmışdır. Zənnimizcə, bu suala hələlik heç kim tutarlı bir elmi cavab verməmişdir. Bununla belə, təkzibolunmazdır ki, yenilikçi texnologiya ilə idarəetmə bir sıra hallarda performansın artırılmasına gətirib çıxara bilər.

Digər tərəfdən qeyd olunmalıdır ki, bu, kollec həyatının innovativ idarə edilməsində “məhsuldarlığın artması ilə ifadə olunan təhsildə” birbaşa fayda vermir. Yəni “texnologiya ilə idarəetmənin pedaqoji və psixoloji əsaslarında “rahatlıq və ya əyləncə” kimi ikinci dərəcəli faydalar ağır investisiyalara dəyərmi?” – sualına neqativ cavab elə özlüyündə ehtiva edilmişdir. Belə olan halda, “Təhsilin keyfiyyətini artırmaq üçün nə lazımdır?” Buradakı sual, həmişə olduğu kimi, yenə də düşündürücüdür: “Biz texnologiyanı, yoxsa özümüzü idarə etməliyik?” “Burada nəzəri psixoloji və substantiv amillər pedaqoji praktikaya necə yardım edir? ”Zənnimizcə, pedaqoji yönümlü kolleclərin innovativ idarə edilməsində də texnologiyanın qüvvələri sağlam pedaqogika ilə təmin edilməlidir. Bununla bərabər, kolleclərin innovativ idarə edilməsi yenilikçi diqqətimizi azaltmadan onu akademik cəhdə çevirməlidir, çünki innovativ yanaşma istər-istəməz öyrənməni təkmilləşdirir, kollecdaxili

problemləri həll edərkən təkcə texnoloji maneələri aradan qaldırmağa yox, həm də tədris və təlimin bütün aspektlərinə daha geniş nəzər yetirmək imkanları yaradır. Bu aspektlərdən biri də, innovativ idarəetmənin və onların tətbiq metodlarının tətbiqetmə zonasından asılılığı məsələsidir. Bu sahədə soruşulan 100 nəfər kollec əməkdaşı ilə apardığımız sosioloji anket sorğusu təsdiq etmişdir ki, sorğuda iştirak edənlərin təqribən dörddə üç hissəsi konkret bir kollec və respublika səviyyəsində həyata keçirilən innovasiyalı metod və proseslərə daha çox üstünlük vermişlər və necə deyərlər, maraqlı görünsə də, dünyada və regionda baş verən innovativ proseslərin bu məsələdə daha sonrakı yerdə olduğuna dair inamlarını qeyd etmişlər (diaqram 2).




**Diaqram 2. İnnovativ metod, xidmət və ya proses hansı miqyasda səmərəli dəyişikliklər etməyə qabildir?**

İnnovativ idarəetmənin pedaqoji-psixoloji əsaslarını təhlil edərkən, son zamanlarda təhsil yenilikləri və təhsil sisteminin gündəlik reallığında müşahidə etdiyimiz təhsil innovasiyası arasında uyğunsuzluqlarla rastlaşırıq. Bunları şərtləndirən bir sıra mühüm nəzəri cəhətləri nəzərdən keçirdikdə aşağıdakı məntiqi rabitələrin mövcud olması təkzibolunmaz görünür:

Əvvəla, təhsilə bütövlükdə cəmiyyət üzvlərinin maarifləndirilməsi və onların bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün vacib kompleks bir sistem kimi baxdıqda, bütün təhsil səviyyələrinin bir-biri ilə əlaqəli və bir-birinə bağlı olduğunun şahidi oluruq. Bununla yanaşı, təhsil sistemi özü bir çox sosial supersistemin bir komponenti hesab edilir və çox mürəkkəb və çətin yollarla əlaqələndirilir. Bir ictimai qurum olaraq təhsil onun aid olduğu cəmiyyətin bütün dəyərlərini, qanunlarını, prinsiplərini və ənənələrini əks etdirir. Ona görə də təhsil həyati vacib, tam, sosial bir məsələ kimi təhsil sistemində və cəmiyyətdə bu münasibətləri və əlaqələri nəzərə almaqla nəzərdən keçirilməli və yalnız bundan sonra burada mövcud olan problemlərin həllinə yönəldilməlidir.

İkincisi, kollec təhsili, xüsusilə pedaqoji yönümlü təhsil müxtəlif səbəblərə görə yenilikləri qəbul etmək üçün tarixən ləng inkişaf edən sırada

olmuşdur. Çünki biz onu kompleks elmi birləşmə və əmək intensivliyi nöqteyi-nəzərindən digər təhsil müəssisələri ilə müqayisədə daha məhsuldar hesab edə bilmərik. Digər bir məqam da ondan ibarətdır ki, texniki profilli kolleclərdə müstəqil tədris fənləri kimi humanitar elmlərə tələbat, ilk növbədə tələbələr arasında bu sahədə olan bilik və ona olan maraq çox zəifdir. Sanki ənənəvi bir ailədə sosial quruluşun dağıdılması səbəbindən bir çox ailələrdə mədəniyyət və mədəni normalar ənənəsi davamlı olaraq ötürülmə mexanizmindən məhrum olmuşdur. Hesab edirik ki, bu vəziyyət uzun müddət belə davam edərsə, bütövlükdə cəmiyyətin deqradasiyasına səbəb ola bilər. Odur ki, pedaqoji yönümlü kolleclərdən fərqli olaraq texniki kolleclərdə təhsil proqram və kurikulumları bunları nəzərə almalıdır. Məhz bu səbəbdən "səriştəlilik modulları üzrə bilik və bacarıqlarla bərabər, həmçinin tələbənin fərdi keyfiyyətlərinin formalaşması da nəzərə alınmalıdır", [19, p.111] yəni kollec tələbələrinin "humanitar yükü" düzgün balanslaşdırılmalıdır.

Digər tərəfdən heç kimə sirr deyildir ki, kolleclər universitetlərə nisbətən daha az mühafizəkardır. Odur ki, orta və kollec təhsili də ali təhsil kimi öz hüquqlarına görə iki ayrı və daha qapalı sistem kimi fəaliyyət göstərir. Göründüyü kimi, sənaye təhsil sistemləri və dəyərləri, yenilik və rəqəmsal alətlər ilə heç də innovasiyaların inkişaf tempi baxımından nəzərdə tutulmamışdır. İnnovasiya, texnologiya və qiymətləndirmə sınaq və təcrübə üçün vaxt və məkan tələb edir. Buna baxmayaraq, təhsil sisteminin tərkib hissəsi olan innovasiya yaradıcılığı risk etmək və təcrübə etməklə bağlıdır.

Qeyd olunmalıdır ki, hazırda innovasiyanı kolleclərə yaymaq xeyli çətinliklərlə üzləşir, çünki bu "müəyyən edilmiş qaydaları pozur" və innovasiyaları həyata keçirənlərin özlərini psixoloji cəhətdən "rahatlıq zonasından çıxarır". Digər tərəfdən innovativ yeniliklərin tətbiqi üçün vaxtın lazım gəlməsi də xeyli psixoloji çətinliklər yaradır. Bir çox hallarda təhsil müəssisələrində innovasiyalar gündəlik məsələləri dayandırmadan dövlət standartlarına riayət etməyi daha vacib hesab edir və bu da təbii hesab edilməlidir. Müəllimlər və kollec rəhbərləri "təhlükəli bir dəyişikliklə" bağlı ehtiyatlıdırlar və hər hansı bir əsaslı yeniliyin səbəb olduğu qeyri-müəyyənliyə çox az tolerantlıq göstərirlər. Təbii ki, dünyada yenilik və "təcrübə üçün qorxmayan" məktəblər və hətta rayonlar mövcuddur, lakin yenə də son anda qazanıla bilən müvəffəqiyyət yenilikçi peşəkar mədəniyyət yarada bilən pedaqoqların fərdi liderlərindən və təhsil müəssisələrindən asılıdır. İnnovasiyalar ümidverici olsalar da, onların cəmiyyətdə kütləvi dəstək almasına ehtiyac vardır.

Üçüncüsü, genişmiqyaslı innovasiyalı kollec təhsilinin qurulmasını ləngidən pedaqoji-psixoloji faktorlardan biri də cəmiyyətin rifahı və biznes maraqları arasında yaranmış kəskin sosial-psixoloji qarşıdurmadır. Məsələn, standart test şirkətləri tərəfindən böyük qazanc əldə edildiyi halda, kollec

həyatında innovativ yeniliklərin tendensiyası səmərəli və dərin səriştələr yaradan təhsili boğur, tədrisin təbiətini dəyişir, tədris planını daha da dar çərçivələrə sıxışdırır və nəticədə tələbələrin öyrənməsini məhdudlaşdıran qeyri-qənaətbəxş təcrübi öyrənmə nəticələri yaradır.

Dördüncüsü, pedaqoji yönümlü kolleclərin idarə edilməsində innovasiya haqqında danışmaq, yeniliklər yaratmaq hələ kifayət deyildir; onların bu və oxşar tip müəssisələr arasında yayılması və istifadə edilməsi daha çətin bir vəzifə hesab edildiyindən bu reallaşmada rastlaşa biləcəyəmiz çətinliklərin qarşısının alınmasına dair yol xəritəsinin hazırlanması önəmli sayılır. Çünki burada tətbiq olunan hər hansı bir yenilik, innovativ idarəetmə yalnız geniş miqyasda istifadə edilərkən əhəmiyyətli bir fərq yaratmaq qabiliyyətinə malikdir. Bu vaxt innovativ idarəetmənin böyük təsirə malik olması üçün əlverişli şəraitin yaradılması ilə bərabər, bu innovasiyanı geniş miqyasda həyata keçirən və onun müsbət nəticələrini yaymağı bacara bilən pedaqoji resurslara da ehtiyac vardır. Təbii olaraq icraçılar öz  növbəsində yaradıcı və motivasiyalı olmalı və öz işlərini məharətlə yerinə yetirməlidirlər; eyni zamanda bu innovativ icraat zamanı onların təhlükəsizliyi təmin edilməli və onlar nə etdiklərinə dair nəzarət azadlığına malik olmalıdırlar. Psixoloji cəhətdən etibar əldə etmək, “innovativ idarəetmənin qəbuledici sistemi"ini formalaşdırır və bu işin müvəffəq olması üçün mühüm zəmin yaratmış olur.

Beşincisi, bu tip kolleclərin innovativ idarəetmə yeniliklərinin “tələbə və müəllim heyətinin tələblərinə cavab verə biləcək "bir baza” rolunu oynamasıdır. Heyətin məmnuniyyətini artırmaq və innovasiyalı idarəetmənin "həqiqi", "prinsipial" və ya "qeyri-adi" iş və ya öyrənmə təcrübələri yarada bilməsi, onların həqiqətən və keyfiyyətli təlim nailiyyətləri barədə daha yaxşı düşünməsinə təşviq olunması ilə sıx bağlıdır. Təbii olaraq tədris və təlimə bu şəkildə adaptiv və ya fərqli yanaşmanın genişləndirilməsi idarəetmədə təhsilin fərdiləşdirilməsinə də yollar açır. Ancaq bu fikir müəyyən suallar da doğurur: “Mövcud müəllim və tələbə heyətinin tələbləri və məmnuniyyəti keyfiyyətli təhsilin göstəriciləri hesab edilirmi?”. Zənnimizcə, hər hansı bir pedaqoji innovativ idarəetmə modelini tətbiq edərkən öncədən onların bu kimi elmi və nəzəri, pedaqoji-psixoloji problemlərinin təhlil edilməsi gələcək inkişaf tendensiyalarında həlledici amillərə çevrilir.

Nəhayət, özəl qurumların dövlət qurumlarına nisbətən daha innovativ olmasının fərqindən yarana biləcək məsələlər ilə bağlıdır. Bazar güclü bir amil hesab edildiyindən dəyişikliklər, xüsusilə innovativ idarəetmədə, onlar həmişə ehtiyatla həyata keçirilməlidir. Pedaqoji yönümlü kolleclərdə innovativ idarəetmə zamanı texnoloji inteqrasiyalarda baş qaldıra biləcək maneələr həm xarici manelər (texnoloji), həm də resursların səfərbər olunması və innovativ manevrlərlə bağlı olan daxili maneələrə (pedaqoji) bölünür. Lakin görünən budur ki, pedaqoji innovativ idarəetmə hər iki səviyyədə innovasiyanı təşviq

edən, yaradıcı, tənqidi düşüncə qabiliyyətinə malik olan bir "mikro sosial mühit", yaradıcı bir təhsil sistemi tələb edir.

Bu sistemin pedaqoji-psixoloji keyfiyyətlərindən biri də onun elə bir stimullaşdırıcı tədqiqat mühiti xüsusiyyətinə malik olmasıdır ki, son nəticədə bu mühit innovativ idarəetmə zonasına daxil olan və təhsillə bağlı mədəni münasibətlərin yüksəlməsini təşviq edən kütləvi ictimai dəstəyə yiyələnmiş olsun. Bu vəziyyət özü-özlüyündə hansı yeniliklərə ehtiyacımız olub-olmadığını müəyyən etməyə qabildir.

## ƏDƏBİYYAT


1. *Əliyev P.B.* Ümumtəhsil məktəblərin idarə edilməsinin modernləşdirilməsi. Bakı: Şahib-MB MMC, 2017, 292 s.
2. *Əlizadə Ə.Ə.* Pedaqoji psixologiya (I kitab). Bakı: ADPU, 2010, 319 s.
3. *Əlizadə H. Ə.* Sosial pedaqogika: Dərslik. Bakı: Bakı DövlətUniversiteti, 2013, 365 s.
4. *Ахмедов Г., Наумова Н.* Психо-педагогические методы суггестии в практике-орентированном подходе // Azərbaycan məktəbi, 2016, № 6, s.53-59
5. *Əmrahlı L.Ş.* Təlim fəaliyyəti və psixi inkişaf. Bakı: Heroqlif, 180 s.
6. *Mahmudoğlu A.K.* Təlimin səmərəsinin yüksəldilməsində müasir pedaqoji texnologiyalardan istifadənin imkanları və yolları: ped. üzrə fəls. dok. ... diss. avtoref. Bakı, 2012, 29 s.
7. *Məmmədova R.* Sosial psixoloji aspektdə qrup fenomeninin tədqiqinə metodoloji yanaşma // Azərbaycan məktəbi, 2019, №1, s.151-60
8. *Nəzərov A.M.* Müasir təlim texnologiyaları (Mühazirə xülasələri): Dərs vəsaiti. Bakı: ADPU nəşriyyatı, 2012, 103 s.
9. *Дерзкова Н.П., К.М. Ушаков*. Эффективность предполагает адекватность. О стилях профессионального поведения руководителя // Директор школы, Федеральный образовательный портал, Экономика, Социология, Менеджмент, Москва, 1995, № 5, с.20-27
10. *Конаржевский Ю.А.* Менеджмент и внутришкольное управление. Москва: Педагогический поиск, 2000, 224 с.
11. *Левитов Н.Д.* О психологических состояниях человека. Москва: Просвещение, 1964, 342с.
12. *Охитина Л.Т.* Психологические основы урока. Москва: Просвещение, 1977, 96 с.
13. *Филипченкова И.Ф.* Методология и технологии вовлечения в инновационную деятельность преподователей вуза: автореф. дисс. ... докт. пед.наук. Калининград, 2017, 45 с.
14. *Crossan M.M., Mary & M.Apaydin.* A multi-dimensional framework of organizational innovation: A systematic review of the literature // Richard Ivey

School of Business, the American University in Cairo. Journal of Management Studies, 2010, September, 47 (6), pp.1154-1191

15. *Deci L.E.* A meta-analytic review of experiments examining the effects of extrinsic rewards on intrinsic motivation / L. E.Deci, R.M. Ryan & R.Koestner // American Psychological Association, Psychological Bulletin, 1999, v.125, Issue 6 (Nov), pp.627–668.
16. *Douglas H.E.* Insights into innovation / H.E.Douglas and C.D.Krakauer // Washington DC, Science, v. 304, Issue 5674, 21, 2004, May, pp.1117-1119
17. College and community innovation pilot program mid-term review. Final report. Natural Sciences and Engineering Research Council, Canada / Alberta: Kanada, 2007, May, 28 p. / URL:https://www.ualberta.ca/chemistry/media-library/workshop-documents/nsercreporte.pdf
18. *Postman N*. Five Things We Need to Know About Technological Change. Neil Postman Talk delivered in Denver Colorado, March 28, 1998, p.5 http://web.cs.ucdavis.edu/~rogaway/classes/188/materials/postman.pdf
19. *Postman N.* Technopoly: The Surrender of Culture to Technology / N. Postman. New York: Vintage Books, 1993, April, 222 p.
20. *Oldham R. G.* Employee creativity: Personal and contextual factors at work / R.G. Oldham and A.Cummings // The USA New York, The Academy of Management Journal, Illinois: 1996, June, v. 39, No. 3, pp.607-634

Redaksiyaya daxil olub 17.11.2021

*UOT 372.0:002*

***S.P.İbrahimova, P.H.İbadova***
*Odlar Yurdu Universiteti*
*sevaibrahimova10@gmail.com*
*parvana077@gmail.com*

# İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏLİM-TƏDRİS PROSESİNƏ İNTEQRASİYASININ TƏDQİQİ ÜÇÜN ÇƏRÇİVƏ: FƏALİYYƏT NƏZƏRİYYƏSİ

***Açar sözlər:*** *informasiya və kommunikasiya texnologiyaları, Fəaliyyət nəzəriyyəsi, inteqrasiya*

İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) təlim-tədris prosesinə inteqrasiyası müəllimlər, tələbələr, İKT koordinatoru, məktəb rəhbərliyi, təhsil proqramları və məktəb mədəniyyəti kimi bir çox dinamikləri özündə birləşdirən mürəkkəb və çoxölçülü prosesdir. Bu səbəbdən, İKT tətbiqlərini onların yerləşdiyi kontekstlə birlikdə nəzərdən keçirmək və araşdırmaq vacib görünür. Fəaliyyət nəzəriyyəsinin bir tərəfdən İKT-nin öyrənmə mühitinə inteqrasiyası, digər tərəfdən isə İKT-nin istifadə olunduğu kontekstdə fəaliyyətlərin, məzmunun və şəxsiyyətlərarası proseslərin vahid perspektivdən tədqiqində mühüm imkanlar təqdim etdiyini iddia etmək olar. Bu baxımdan araşdırmada Fəaliyyət nəzəriyyəsinin əsas strukturu və prinsipləri izah edilməklə, İKT-nin təlim-tədris prosesinə inteqrasiyasını çoxölçülü şəkildə araşdırmaq üçün Fəaliyyət nəzəriyyəsindən necə faydalana biləcəyini ortaya qoymağa çalışılmışdır.

***С.П.Ибрагимова, П.Г.Ибадова***

# ОСНОВА ИЗУЧЕНИЯ ИНТЕГРАЦИИ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В УЧЕБНО-ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ: ТЕОРИЯ ДЕЯТЕЛЬНОСТИ

***Ключевые слова:*** *информационно-коммуникационные технологии, теория деятельности, интеграция*

Интеграция информационных и коммуникационных технологий (ИКТ) в процесс преподавания и обучения представляет собой сложный и многогранный процесс, который включает в себя множество движущих сил, таких как учителя, учащиеся, координаторы по ИКТ, школьное руководство, образовательные программы и школьная культура. По этой причине представляется важным рассматривать и исследовать приложения ИКТ в том контексте, в котором они находятся. Можно утверждать, что теория действия предоставляет важные возможности для интеграции ИКТ в среду обучения, с одной стороны, и изучения деятельности, содержания и межличностных процессов с целостной точки зрения в контексте, в котором используются ИКТ. В связи с этим данное

исследование направлено на то, чтобы объяснить, как можно использовать теорию действия для многомерной интеграции ИКТ в процесс преподавания и обучения, объясняя базовую структуру и принципы теории действия.

***S.P.Ibrahimova, P.H.Ibadova***

## THE BASIS FOR STUDYING THE INTEGRATION OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN THE EDUCATIONAL PROCESS: THEORY OF ACTIVITY

***Keywords:*** *information and communication technologies, activity theory, integration*

The integration of information and communication technologies (ICT) into teaching and learning processes is a complex process involving a lot of dynamics such as teachers, students, ICT coordinator, school management, curriculum and school culture. Therefore, handling and investigating ICT applications within its context seems important. It can be claimed that activity theory serves opportunities on one hand about how ICT can be integrated into learning environments and on the other hand to explore events, activities, contents and the interpersonal processes in the ICT using contexts from a holistic view. For this aim, in the study, by explaining the structure and the main principles of the activity theory, an opinion about how one can use activity theory for investigating ICT integration into teaching-learning process from a holistic perspective has been attempted.

## GİRİŞ

Təhsil və texnologiya arasındakı əlaqə daim dəyişir. Bu dəyişiklik bir tərəfdən öz daxilində, digər tərəfdən də onların bir-biri ilə qarşılıqlı əlaqəsində özünü göstərir. Məsələn, “təhsil” və “İnformasiya-kommunikasiya texnologiyaları (İKT)” arasında əlaqə ilkin olaraq İKT-nin ayrıca fənn sahəsi kimi tədrisi formasında olsa da, tədricən İKT-nin təlim-tədris prosesinə inteqrasiyasına keçir [1].

İKT-nin təlim və tədris prosesinə inteqrasiyası tədris məqsədlərinə nail olmaq və şagirdin öyrənməsini gücləndirmək üçün bütün kurikulumda İKT alətlərindən istifadə kimi müəyyən edilir. Bu tərifə əsasən, inteqrasiya prosesində bir çox dəyişənlərin rol oynaması diqqət çəkir.

İKT alətləri və çıxış, bu vasitələrdən istifadə edə bilən işçi qüvvəsi, təhsil siyasəti, məktəb mədəniyyəti və kurikulum kimi dəyişənlər prosesə təsir göstərə biləcək bəzi dəyişənlərə misal olaraq verilə bilər [2]. Bütün bu dəyişənlər arasındakı əlaqələri və qarşılıqlı təsirləri nəzərə alsaq, inteqrasiya prosesinin çox mürəkkəb bir proses olduğunu söyləmək olar. Bu səbəbdən davamlı araşdırmalar, planlar və qiymətləndirmələrlə prosesin effektivliyinin artırılması vacib görünür. Digər tərəfdən mövzu ilə bağlı aparılan əksər tədqiqatlarda müəllimlərin sinifdə texnologiyadan istifadə edərkən

qarşılaşdıqları problemlərə, texniki və proqram təminatına çıxışına, İKT-dən istifadənin nəticələrinə və müəllim hazırlığına önəm verildiyi görülür [3]. Lakin diqqətəlayiq haldır ki, bu tədqiqatlarda İKT-nin təlim-tədris prosesinə inteqrasiyası sosial-mədəni kontekstlə birlikdə araşdırılmır və bu kontekstdəki elementlərin qarşılıqlı əlaqəsi nəzərə alınmır. Bununla belə, İKT və İKT tətbiqlərinin baş verdiyi kontekst arasında əlaqənin yaxından araşdırılmasının vacibliyi vurğulanır [4].

Bu məqamda qeyd etmək olar ki, Fəaliyyət nəzəriyyəsi İKT alətlərinin real fəaliyyət kontekstində necə istifadə olunduğunu araşdırmaqda və İKT ilə dəstəklənən fəaliyyətlərin strukturunu, inkişafını və kontekstini təsvir etməkdə geniş konseptual çərçivə təklif edir. Qeyd etmək lazımdır ki, bu konseptual çərçivə İKT-nin öyrənmə mühitinə inteqrasiyasından asılı olaraq eyni kontekstdə olan müxtəlif insanların perspektivlərini nəzərə alaraq zəngin verilənlər bazası əldə etmək üçün mühüm imkanlar verəcək. Odur ki, İKT-nin təlim-tədris prosesinə inteqrasiyasını çoxölçülü rakursdan araşdırmaq üçün Fəaliyyət nəzəriyyəsinin mövcud vəziyyətin tədqiqində, şərtlərin müəyyən edilməsində, ziddiyyətlərin aşkar edilməsində və onların həlli yollarının təklif olunmasında faydalı vasitə olduğunu söyləmək olar.

Üstəlik, Fəaliyyət nəzəriyyəsinin müxtəlif elmi sahələrdə nəzəri olaraq getdikcə daha çox istifadə olunduğu görünür. Fəaliyyət nəzəriyyəsinin tətbiq olunduğu bəzi sahələrə misal olaraq inkişaf psixologiyası, psixiatriya, təhsil və insan-kompüter qarşılıqlı əlaqəsi kimi sahələr verilə bilər [5].

Bütün bunların işığında Fəaliyyət nəzəriyyəsinin əsas strukturu və prinsipləri izah edilməklə, İKT-nin öyrənmə və tədris prosesinə inteqrasiyasını çoxölçülü şəkildə araşdırmaq üçün Fəaliyyət nəzəriyyəsindən necə faydalana biləcəyini ortaya qoymağa çalışılmışdır.

## FƏALİYYƏT NƏZƏRİYYƏSİNİN ƏSASLARI

Fəaliyyət nəzəriyyəsinin fəlsəfi əsasını Hegel və Kant ideyaları, Marks və Engelsin dialektik materializm baxışları təşkil etdiyi və nəzəriyyənin Vıqotskinin şüur və düşüncə tədqiqatlarının təkamülü ilə meydana çıxdığı bildirilir [6].

Fəaliyyət nəzəriyyəsinin əsas məşğuliyyəti fərd, digər insanlar və insan tərəfindən yaradılmış obyektlər arasındakı qarşılıqlı əlaqəni anlamağa çalışmaqdır [7]. Engeströma (1999) görə, Fəaliyyət nəzəriyyəsi qərb sosial elmlərini yenidən təşkil edən və birləşdirən başlanğıc hüceyrədir və dialektik tarixi materializmdən təsirlənən psixoloji və sosial nəzəriyyə kimi başa düşülməlidir. Bu yanaşma ilə paralel olaraq Skribner (1997) Fəaliyyət nəzəriyyəsini qnoseologiya və psixologiya kimi müxtəlif mövzu sahələrində yeni nəzəri çərçivələrin inkişafı üçün analitik kateqoriyalar təklif edən meta-nəzəriyyə kimi müəyyən etmişdir [8]. Eynilə, Nardinin (1996) Fəaliyyət

nəzəriyyəsini şərhedici nəzəriyyədən çox, ümumi konseptual sistemin formalaşdırılmasında köməkçi prinsiplər toplusu və güclü təsviri alət kimi qəbul etməsi diqqəti çəkir. Nəticə etibarilə Fəaliyyət nəzəriyyəsi nəzəriyyə deyil, təsviri xüsusiyyəti və prinsipləri ilə müxtəlif fənn sahələrində nəzəri çərçivələrin yaradılmasında köməkçi meta-nəzəriyyə kimi qəbul edilir.

## FƏALİYYƏT NƏZƏRİYYƏSİ ÜZRƏ MƏHDUDİYYƏTLƏR

Fəaliyyət nəzəriyyəsi mürəkkəb hadisələrin, proseslərin və ya qarşılıqlı təsirlərin öyrənilməsində zəngin perspektiv təqdim etsə də, nəzəriyyə ilə bağlı bəzi məhdudiyyətlər var. Bunlar:

1. Fəaliyyət sistemindəki subyektin təkcə fərd deyil, həm də qrup və ya qurum ola biləcəyi bildirilsə də (Engeström, 1999), bu vəziyyət hələ də müzakirə olunur.
2. Hərəkətlərin necə təsnif ediləcəyi qeyri-müəyyəndir, fəaliyyətlərin təsnifatında müxtəlif fənlər müxtəlif əsaslara malikdir və təsnifatın əsas məqamı tarixi-sosioloji yanaşma tələb edir.
3. Digər nəzəriyyələrlə əlaqələrdə zəiflik.
4. Bu, fənlərarası tədqiqatların qeyri-adekvatlığı kimi qeyd olunur.

Yuxarıdakı məhdudiyyətlərə əlavə olaraq Kapteli (1996) bildirdi ki, alətlərin vasitəçiliyi nəzəriyyə üçün mühüm üstünlük hesab edilsə də, bəzi məhdudiyyətlər də gətirir. Nümunə olaraq o, virtual reallıqlarda alətlə reallıq arasında sərhədin aydın olmadığını göstərib. Çünki o, bildirmişdir ki, informasiya texnologiyaları istifadəçiyə reallıq obyektlərinin təsvirini təqdim etməklə yanaşı, həm də insanın bu mühitdə qarşılıqlı əlaqədə olduğu reallıq parçası təklif edir. Nəticədə virtual reallığın təqdim etdiyi bu problemin Fəaliyyət nəzəriyyəsinin əsas prinsiplərinin mədəni-tarixi ənənələrdən və ya digər yanaşmalardan əldə edilən yeni ideyalarla zənginləşdirilməsi ilə həll oluna biləcəyini vurğuladı. Bütün bu məhdudiyyətlərə baxmayaraq, nəzəriyyənin güclü tərəfləri sayəsində davamlı tətbiq sahələri tapdığını və mürəkkəb sistemlərin təhlilində mühüm imkanlar təqdim etdiyini iddia etmək olar.

## FƏALİYYƏT NƏZƏRİYYƏSİ VƏ TƏDQİQAT METODLARI

Fəaliyyət nəzəriyyəsində fəaliyyət sistemlərinin müəyyən edilməsi və bu sistemlərin dinamikasının müşahidələr yolu ilə və müxtəlif perspektivlərdən izlənilməsinin zəruriliyi ifadə edilmişdir. Müvafiq olaraq vurğulanmışdır ki, Fəaliyyət nəzəriyyəsini nəzəri çərçivə kimi qəbul edən tədqiqatlar uzununa, insan tərəfindən yaradılmış obyekt mərkəzli (məsələn, İKT alətlərinə yönəlmiş) və situasiya xarakterli olmalıdır [9].

Fəaliyyət nəzəriyyəsinə əsaslanan tədqiqatlarda istifadə edilə bilən məlumat toplama metodunun müşahidə, müsahibə, sənəd təhlili kimi bir çox

metodu ehtiva etdiyi və bu üsullarla əldə edilən məlumatların daha sonra Fəaliyyət nəzəriyyəsi kontekstində şərh edildiyi bildirilmişdir [10].

Effektivlik nəzəriyyəsi nöqteyi-nəzərindən video təhlili, baxışların yenidən qurulması, ziddiyyətlərin təhlili adlanan konkret hallar üzrə məlumat təhlili üsulları aşağıdakı kimi ifadə edilir:

- **Video analizləri.** Bildirilib ki, alətlərin istifadə olunduğu kontekstin təhlili istifadə şərtlərini müəyyən etməyə kömək edir.
- **Baxışların yenidən qurulması.** Bildirilib ki, bu üsul fəaliyyət prosesində iştirak edən müxtəlif insanların fikirlərinin alınması və ümumi fikirlərin üzə çıxarılması formasındadır. Həmçinin bildirilmişdir ki, metod vasitəsilə ümumi baxışların və fəaliyyət sahələrində daxili fərqlərin ümumi mənzərəsini çəkmək olar.
- **Ziddiyyətlərin təhlili.** Bildirilib ki, fəaliyyətdə olan müxtəlif şəxslərin alətləri, obyekti və subyekti necə görməsi ilə bağlı ziddiyyətləri üzə çıxarmaqla, fəaliyyət prosesində texnogen obyektin niyə işləmədiyi barədə təsəvvür əldə etmək olar.

## FƏALİYYƏT NƏZƏRİYYƏSİ VƏ TƏLİM-TƏDRİS PROSESİNDƏ İKT-DƏN İSTİFADƏ ÜZRƏ BƏZİ TƏDQİQATLAR

Lim və Hung (2003) tərəfindən aparılan tədqiqatlarda Sinqapur məktəblərində İKT-nin tədrisə inteqrasiyasını sosial-mədəni və pedaqoji baxımdan araşdırarkən Fəaliyyət nəzəriyyəsinin çərçivə kimi necə istifadə edildiyi izah edilir. Təhlil vahidi kimi sinif fəaliyyəti sistemi götürülmüş və Sinqapur məktəblərində şagirdlərin yüksək səviyyəli düşünmə bacarıqları əldə etmələri üçün İKT-nin tədrisə necə inteqrasiyası ilə bağlı suala cavab axtarılmışdır. Dövlət ibtidai məktəbində aparılan nümunə araşdırmasında məlumatlar İKT ilə dəstəklənən sinif otaqlarında müxtəlif fənlər üzrə aparılan müşahidələr və 3 müəllim, 3 şagird, direktor və İKT koordinatoru ilə yarımstrukturlaşdırılmış müsahibələr vasitəsilə toplanmışdır. Araşdırmalar nəticəsində fəaliyyət sistemində daxili və xarici ziddiyyətlər aşkar edilib [11]. Bu ziddiyyətlər arasında İKT vasitələrinin sinif mühitinə daxil edilməsi, lakin bu dəyişikliyin müəllim və şagirdlərin rollarında əks olunmaması daxili ziddiyyət nümunəsidir. Xarici ziddiyyətə misal olaraq sinif otağının məqsədi yüksək səviyyəli düşünmə, məktəbin məqsədi isə şagirdlərin rayon miqyasında keçirilən imtahanlarda uğur qazanmasıdır. Tədqiqatın nəticələrindən müəyyən edilmişdir ki, İKT-nin tədrisə səmərəli inteqrasiyasını təmin etmək üçün fəaliyyət sistemləri daxilində və arasında olan ziddiyyətləri müəyyən etmək və onların həlli yollarını təklif etmək lazımdır [12].

Lim və Hung (2003) tədqiqatına oxşar olaraq Romeo və Walker (2002) təhsildə informasiya və kommunikasiya texnologiyalarının (İKT) dövlət

məktəblərinin birində necə istifadə edildiyini araşdırmaq üçün öz tədqiqatlarında məktəb direktoru, İKT koordinatoru və 2 sinif müəllimi ilə müsahibə aparmışlar. Məlumatların təhlili zamanı səmərəlilik sisteminin əsas elementlərindən istifadə edilib, iştirakçıların İKT-dən istifadə ilə bağlı təsəvvürləri arasında ümumilik və ziddiyyətlər müəyyən edilib [13]. Aparılan araşdırmalar nəticəsində İKT ilə bağlı direktor və İKT koordinatorunun məktəbdə infrastruktura önəm verdiyi, müəllimlərin isə kompüterlərin öyrənmə-tədris vasitəsi kimi istifadəsinə önəm verdikləri üzə çıxıb. Əlavə olaraq bildirilib ki, məktəbdə İKT-nin tətbiqi ilə bağlı ümumi baxış yoxdur və bunda ən mühüm amil İKT-nin həyata keçirilməsində qərarların qəbulu prosesində direktorun həlledici rola malik olmasıdır, baxmayaraq ki, kifayət qədər bilik və bacarıqlara malik deyil. Bu tədqiqatda gözdən qaçırıla bilən və ya elmi olaraq adlandırılması çətin ola biləcək faktorlar Fəaliyyət nəzəriyyəsi vasitəsilə üzə çıxarılmışdır [14].

Başqa bir araşdırmada Lynch (2003) təhsilə texnologiyanın inteqrasiyası üzrə peşəkar inkişaf proqramı olan TICKIT-in (Teacher Instıtute for Curriculum Knowledge about Integration of Technology – Texnologiyanın İnteqrasiyası üzrə Kurikulum Bilikləri üzrə Müəllim İnstitutu) bir məktəb bölgəsindəki tədqiqat iştirakçılarının tədbirlərinin təşkilindəki rolunu Fəaliyyət Nəzəriyyəsi kontekstində araşdırdı. Tədqiqatın iştirakçıları TICKIT proqramında iştirak edən 4 müəllim, iştirak etməyən 4 müəllim, İKT koordinatorları və məktəb direktorları idi [15]. TICKIT-in müəllimlər arasında qarşılıqlı əlaqəyə təsiri araşdırılmış və sənədlərin təhlili, yarımstrukturlaşdırılmış müsahibələr və sinifdə müşahidələr vasitəsilə məlumatlar toplanmışdır. Məktəb bölgəsindəki fəaliyyət sistemlərinin tarixi inkişafı araşdırıldıqda, müəllimlərin texnologiya inteqrasiyası məqsədlərinin həyata keçirilməsində gündəlik tədris öhdəlikləri səbəbindən vaxt problemlərinin olduğu bildirilir. Digər tərəfdən texnologiyanın sinif mühitinə inteqrasiyasına həvəs göstərən müəllimlərin TICKIT proqramı vasitəsilə yeni strategiyalar qazandıqları, müxtəlif insanlarla məlumat paylaşmaq imkanı qazandıqları və bu ünsiyyətin həm yeni qaydaları, həm də iş bölgüsünə gətirdiyi bildirilib. Həmçinin vurğulanıb ki, müəllimlərin fəaliyyətinin formalaşmasında icmanın mühüm təsiri var. Tədqiqatın nəticələrindən, Fəaliyyət nəzəriyyəsinin müəllimlərin fərdi məqsədləri, məktəb məqsədləri və peşəkar inkişaf proqramının məqsədləri arasındakı çətin əlaqələri anlamaq üçün çox faydalı nəzəri çərçivə təmin etdiyi iddia edilmişdir.

Burada Fəaliyyət nəzəriyyəsi və təlim-tədris prosesində İKT-dən istifadə ilə bağlı qeyd olunan tədqiqatlar şagirdlərin yüksək səviyyəli düşünmə bacarıqları əldə etmələri və iştirakçını aşkara çıxarmaq üçün İKT-nin tədrisə necə inteqrasiyası ilə bağlı suala cavab axtarılır. Görünür ki, texnologiyanın təhsilə inteqrasiyası ilə bağlı peşəkar inkişaf proqramının məqsədi insanların fəaliyyətin təşkilində rolunu araşdırmaq və İKT-nin təhsilə inteqrasiyasında

mürəkkəb və dinamik qarşılıqlı əlaqələri araşdırmaq məqsədi daşıyır [16]. Bu tədqiqatlarda qeyd etmək olar ki, effektiv inteqrasiya prosesinin qarşısında duran maneələr, iştirakçıların təhsildə İKT-dən istifadə ilə bağlı təsəvvürləri, İKT-nin inteqrasiya olunduğu mühitlərdəki dəyişiklik və inkişaflar arasında ümumilik və ziddiyyətlər önə çəkilir. Nəticə etibarilə Fəaliyyət nəzəriyyəsinin inteqrasiya prosesində dinamik qarşılıqlı əlaqələrin aşkara çıxarılmasında mühüm imkanlar təqdim edə biləcəyini, məlumatların vizual təqdim edilməsində və yeni perspektivlərin verilməsində hadisə sistemlərinin təsviri vasitə kimi istifadə oluna biləcəyini söyləmək olar.

## NƏTİCƏ

İKT-nin təlim-tədris prosesinə inteqrasiyası müəllimlər, tələbələr, İT koordinatoru, məktəb rəhbərləri, məktəb mədəniyyəti kimi bir çox dinamikləri özündə birləşdirən mürəkkəb və çoxölçülü prosesdir. İnteqrasiya prosesini araşdırarkən İKT-nin sosial və mədəni kontekstini nəzərə almaq vacib görünür. Bu nöqtədə Effektivlik nəzəriyyəsinin məhdudiyyətlərinə baxmayaraq, bütün elementlərin bir-biri ilə əlaqəli olduğu fəaliyyət sistemləri vasitəsilə həyata keçirilir. Bunun analitik perspektivi inkişaf etdirməyə, mürəkkəb münasibətləri və qarşılıqlı təsirləri aşkar etməyə kömək edəcəyi düşünülür.

Məqalədə İKT-nin təlim-tədris prosesinə inteqrasiyasında mövcud vəziyyətin araşdırılmasında, şərtlərin müəyyən edilməsində və ziddiyyətlərin üzə çıxarılmasında sosial-mədəni və tarixi bir perspektiv olan Fəaliyyət nəzəriyyəsi və bu nəzəriyyədən necə istifadə oluna biləcəyi müzakirə olunur. İnteqrasiya prosesinin çoxölçülü tədqiqində müəyyən edilmişdir ki, Fəaliyyət nəzəriyyəsinin əsaslandığı əsas prinsiplər və fəaliyyət sistemindəki elementlər mühüm bələdçi ola bilər. Bundan əlavə inteqrasiya prosesi ehtiyacdan yaranır, bu ehtiyac şagirdin öyrənmə və tədrisinin səmərəliliyinin artırılması şəklində formalaşır və ehtiyacın ödənilməsi üçün fəaliyyətə başlaması *obyektyönümlülük* prinsipinə uyğundur. Bununla bərabər, inteqrasiya fəaliyyəti ilə müəllimlərin tədris yanaşmalarında, onların inanclarında və şagirdlərin zehni fəaliyyətlərində baş verən dəyişikliklər, texnologiyanın insanlarda təkcə görünən deyil, həm də qeyri-maddi dəyişiklikləri üzə çıxarması, psixi və davranış dəyişikliklərinin qarşılıqlı əlaqəsi bir-biri ilə *daxililəşdirmə və xariciləşdirmə* prinsipinə uyğundur. Tədris məqsədlərinə nail olmaq üçün təlim-tədris prosesində bir vasitə kimi İKT-dən istifadə *vasitəçilik* prinsipi ilə dəstəklənsə də, inteqrasiyanın hadisə deyil, bir proses olması və bu prosesin uzunmüddətli araşdırmalar tələb etməsi *inkişaf* prinsipi ilə uyğun gəlir. Çünki bu proses dinamik bir sistem yaradır. Bu səbəbdən prosesin keçmiş və indiki vəziyyətini araşdırmaq, eyni zamanda müəyyən bir prosesin sonunda baş verən dəyişiklikləri müşahidə edərək gələcək tendensiyaları üzə çıxarmaq və prosesə münasibət bildirmək vacibdir.

Bundan əlavə hadisə sistemindəki bütün elementlərin inteqrasiya prosesinin mürəkkəbliyinə qarşı təsirli bir çərçivə təmin edərək bütün mümkün dinamikləri birlikdə araşdırmaq və bir-biri ilə əlaqələri kontekstində şərhlər vermək imkanı təklif etdiyi görünür. Məsələn, inteqrasiya prosesi kontekstində şərtləri, fərdlərin İKT-dən istifadə məqsədlərini araşdırmaq və ya İKT-dən istifadənin nəticələrini üzə çıxarmaq kifayət etməyəcəkdir.

Prosesdə vasitəçi alətlər, maddi alətlər, üsullar, insanlar, prosesdə iştirak edən bütün fərdlər və qruplar (çünki inteqrasiya prosesi təkcə müəllim və ya tələbələri deyil, həm də bu prosesi paylaşan idarəçilər və İKT koordinatorlarını əhatə edən icmanın yoxlanılmasını tələb edir), onların prosesdəki rolları, prosesin getdiyi kontekstdə qaydaları, insanların gözləntilərini, məqsəd və hərəkətlərini, proses nəticəsində əldə olunan nəticələri uğurla açmaq mümkün olacaq. Yalnız bu şəkildə inteqrasiya prosesi ilə bağlı sadə şərh və təkliflərdən kənara çıxaraq daha möhkəm perspektivlərin əldə oluna biləcəyi düşünülür.

Digər tərəfdən Fəaliyyət nəzəriyyəsinin nəzəriyyə deyil, təsviri xüsusiyyəti və təqdim etdiyi prinsipləri ilə meta-nəzəriyyə kimi qəbul edildiyini nəzərə alaraq, müxtəlif tədqiqatlarda Fəaliyyət nəzəriyyəsindən istifadə etməklə onun məhdudiyyətlərini aradan qaldırmaq və ya heç olmasa azaltmaq üçün tədqiqatlar aparılmalıdır. Belə görünür ki, Fəaliyyət nəzəriyyəsi İKT-nin təlim-tədris prosesinə inteqrasiyası ilə bağlı özü üçün müxtəlif tədqiqat sahələrini tapmağa davam edəcəkdir. Nəzəriyyə zəngin məlumat dəstinin bütöv və dərin təhlilini təmin etdiyi üçün tədqiqat prosesində bir çox dinamikanı nəzərdən keçirmək imkanı verir.

## ƏDƏBİYYAT


1. *Aşkar P. ve Usluel-Koçak Y.* Bilgisayarların benimsenme hızına ilişkin boylamsal bir çalışma: Üç okulun karşılaştırılması. Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, 2003, No 24, s.15-25
2. *Aşkar P. ve Usluel-Koçak Y.* Diffusion of computers in schools. Encyclopedia of Distance Learning, 2005, Vol:2 (edts. Howard, C. & others). Idea-Group Reference, USA (published in April 2005)
3. *Cartwright V., Hammond M.* The integration and embedding of ICT into the school curriculum: more questions than answers. Paper presented at the ITTE 2003 Annual Conference of the Association of Information Technology for Teacher Education, Trinity and All Saints College, Leeds, 2003
4. Center for Culturel Historical Activity Theory [CHAT] (2003). Culturel Historical Activity Theory. Retreived September 10, 2003 from http://www.edu.helsinki.fi/activity/
5. *Davydov V.V.* The content and unsolved problems of activity theory. In Engeström, Y., Miettinen, R., Punamaki, R. L. (Ed.). Perspectives on activity theory. USA: Cambridge University Press, 1999, pp.39-52

6. *Demiraslan Y.* Bilgi ve İletişim Teknolojilerinin Öğrenme-Öğretme Sürecine Entegrasyonunun Etkinlik Kuramı'na Göre İncelenmesi, Hacettepe Üniversitesi, Ankara, yayınlanmamış yüksek lisans tezi, 2005
7. Engeström Y. Activity theory and transformation. In Engeström, Y.Miettinen, R., Punamaki, R. L. (Ed.). Perspectives on activity theory. USA: Cambridge University Press, 1999, pp.19-38
8. *Engeström Y. and Miettinen R.* Activity theory: a well-kept secret. In Engeström, Y., Miettinen, R., Punamaki, R. L. (Ed). Perspectives on activity theory. USA: Cambridge University Press, 1999, pp.1-16
9. *Herzig R.G.M.* Technology and its impact in the classroom. Computers & Education, 2004, 42(2), pp.111-131
10. *Jonassen, D.H. & Rohrer Murphy L.* Activity theory as a framework for designing constructivist learning environments, 1999, Retreived February 18, 2003 from http://www.coe.missouri.edu/%7Ejonassen/courses/CLE/documents/activity.pdf.
11. Kaptelinin V. Computer-mediated activity: Functional organs in social and developmental contexts. In Nardi, B. A. (Ed.) Context and consciousness: Activity Theory and human-computer ınteraction. Cambridge: The MIT Press, 1996
12. *Kennewell S.* Using Affordances and Constraints to Evaluate the Use of Information and Communications Technology in Teaching and Learning. Journal of Information Technology for Teacher Education, 2001, No 10(1&2), pp.101-116
13. *Lim C.P., Hung D.* An activity theory approach to research of ICT integration in Singapore schools. Computers & Education, 2003, 41(1), pp.49-63
14. *Lynch L.C.Y.* Using Activity Theory as an analytical lens for examining technology professional development in schools. Retreived May 24, 2003 from http://www.cedu.niu.edu/~lynch/using_activity_theory.pdf .
15. *Miller L., Olson J.* Research agendas and computer technology visions: the need for closely watched classrooms. Education and Information Technologies, 1999, No 4, pp.81-98
16. *Minnis M. and Steiner V.P.J.* Are we ready for a single, ıntegrated theory?. Essay Review of Perspectives on Activity Theory, 2000, Retreived December 12, 2003 from http://lchc.ucsd.edu/MCA/Paper/00_01/AT_Vera.htm.


Redaksiyaya daxil olub 09.10.2021

# YAZI QAYDALARI

- “Pedaqoji Universitetin Xəbərləri” dövri elmi jurnalının “Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər” seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- "Humanitarian, social and pedagogical-psychological sciences" series of the periodic scientific journal "Transactions of Pedagogical University" accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal's electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | Hüseyn Hacıyev |
| *Texniki redaktor:* | Mustafa Şəfiyev |
| *Korrektor:* | Sevinc Mamoyeva |

Çapa imzalanmışdır: 28.12.2021
Kağız formatı $70 \times 100^{1/16}$, 8,4 ç.v.
Sifariş 81. Sayı 100.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68